# Azərbaycan Hüquq Jurnalı

**№3-2025**
**ISSN 1810-9055 (çap üçün / print)**
**ISSN 3079-8973 (elektron / online)**
**DOI: 10.61638/AZLAWJL**

## REDAKSİYA HEYƏTİ:

| | |
|---|---|
| **Baş redaktor:** | *H.e.d., prof.* Əmir Əliyev, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası<br>al.amir.ibr@gmail.com; amir.aliyev@bsu.edu.az |
| **Baş redaktorun müavini:** | *H.ü.f.d.* Pərvanə Bayramova, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası<br>parvana_bairamova@hotmail.com |
| **Redaksiya Heyətinin sədri:** | *H.e.d.* Turqay Hüseynov, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası<br>turguy1973@gmail.com |

**Redaksiya Heyətinin üzvləri:**

| | |
|---|---|
| *H.e.d., prof., Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü* Məsumə Məlikova, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | ahmedova.hulya@bk.ru |
| *H.e.d., prof.* Rüstəm Məmmədov, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | rustam-56@mail.ru |
| *H.e.d.* Nizami Səfərov, Azərbaycan Respublikasının Milli Məclisi, Bakı, Azərbaycan Respublikası | safarnizi@gmail.com |
| *H.e.d., prof.* Kamil Səlimov, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | bsu.kamil.salimov@mail.ru |
| *H.e.d., prof.* Şəhla Səmədova, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | shahlats@mail.ru |
| *H.e.d., prof.* Mayis Əliyev, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | aliyev.mayis@mail.ru |
| *H.e.d., prof.* Firuzə Abbasova, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | firuza.abbasova@gmail.com |
| *H.ü.f.d., prof.* Ziyafət Əsgərov, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | ziyafat.asgerov@meclis.gov.az |
| *H.ü.f.d., dos.* Zaur Əliyev, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | alievzh@gmail.com |
| *H.ü.f.d., dos.* Şükür Yusifov, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | shukuryusifov@gmail.com |
| *H.ü.f.d., dos.* Əlizadə Məmmədov, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | elizade.memmedov@mail.ru |
| *H.ü.f.d., dos.* Əsmər Əliyeva, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası | asmer_1985@yahoo.com |
| *H.e.d., prof.* Fethi Gedikli, İstanbul Universiteti, İstanbul, Türkiyə Cümhuriyyəti | fgedikli@istanbul.edu.tr |
| *H.e.d., prof.* Cavid Abdullazadə, Ankara Universiteti, Ankara, Türkiyə Cümhuriyyəti | cavidabdullahzade@hotmail.com |

| | |
|---|---|
| *H.e.d., prof.* Adel Abdullin, Kazan Federal Universiteti, Kazan, Rusiya Federasiyası | adelabdoulline@yandex.ru |
| *H.e.d., prof.* Viktoriya Romanova, Musin Enerji Hüququ və Müasir Hüquq Elmi Mərkəzi, Moskva, Rusiya Federasiyası | musinlc@musinlc.ru |
| *H.ü.f.d., dos.* Elvin Teymurov, Moskva Dövlət Hüquq Universitetinin Ali Hüquq Məktəbi, Moskva, Rusiya Federasiyası | esteymurov@gmail.com |
| *H.ü.f.d., prof.* Yuri Boşitskiy, Ukrayna Milli Elmlər Akademiyasının Hüquq Universiteti, Kiyev, Ukrayna Respublikası | rector@kul.kiev.ua |
| *H.e.d., prof.* Oleksandr Merejko, Ukrayna Ali Radası, Kiyev, Ukrayna Respublikası | amerezhko@yahoo.com |
| *H.e.d., prof.* Azər Əliyev, Martin Luther Halle-Wittenberg Universiteti, Halle, Almaniya Federativ Respublikası | azar.aliyev@jura.uni-halle.de |
| *H.e.d., prof.* Tomas Davilius, Vilnüs Universitetinin Hüquq fakültəsi, Vilnüs, Litva Respublikası | tomas.davulis@tf.vu.lt |
| *H.ü.f.d.* Tamar Zarandia, Tbilisi Dövlət Universiteti, Tbilisi, Gürcüstan Respublikası | tamar.zarandia@tsu.ge |
| *H.e.d., prof.* Daulet Baydeldinov, Əl-Fərabi adına Qazax Milli Universiteti, Almatı, Qazaxıstan Respublikası | baideldinovd@gmail.com |
| *H.ü.f.d.* Thomas Glassman, Sinsinnati Universiteti, Ohayo, ABŞ | thos.glassman@gmail.com |

**Məsul katib:**
*H.ü.f.d.* Şahin Məmmədrzalı, Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan Respublikası
memmedrzali@gmail.com

Bu jurnal 2002-2012-ci illər ərzində gənc alim Elçin Qarabalovun redaktorluğu altında dərc edilmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəticələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir. 2018-ci ildən jurnalın fəaliyyəti Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin təşəbbüsü ilə davam etdirilir. Məqsəd Azərbaycan hüquq elminin inkişafına töhfə vermək və onun beynəlxalq müstəvidə tanınmasına nail olmaqdır.

**©Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, 2025**

**EDITORIAL BOARD:**

| | |
|---|---|
| **Editor-in-Chief:** | *Doctor of Laws (DoL), prof.* Amir Aliyev, Baku State University, Baku, the Republic of Azerbaijan<br>al.amir.ibr@gmail.com; amir.aliyev@bsu.edu.az |
| **Deputy editor-in-Chief:** | *PhD* Parvana Bayramova, Baku State University, Baku, the Republic of Azerbaijan<br>parvana_bairamova@hotmail.com |
| **Chairman of the Editorial Board:** | *DoL* Turgay Huseynov, Baku State University, Baku, the Republic of Azerbaijan<br>turguy1973@gmail.com |

**The Editorial Staff:**

| | |
|---|---|
| *DoL, prof., corresponding member of Azerbaijan National Academy of Sciences* Masuma Malikova, Baku State University, Baku, the Republic of Azerbaijan | ahmedova.hulya@bk.ru |
| *DoL, prof.* Rustam Mammadov, Baku State University, Baku, the Republic of Azerbaijan | rustam-56@mail.ru |
| *DoL* Nizami Safarov, the Milli Majlis of the Republic of Azerbaijan, Baku, the Republic of Azerbaijan | safarnizi@gmail.com |
| *DoL, prof.* Kamil Salimov, Baku State University, Baku, the Republic of Azerbaijan | bsu.kamil.salimov@mail.ru |
| *DoL, prof.* Shahla Samedova, Baku State University, Baku, the Republic of Azerbaijan | shahlats@mail.ru |
| *DoL, prof.* Mais Aliyev, Baku State University, Baku, the Republic of Azerbaijan | aliyev.mayis@mail.ru |
| *DoL, prof.* Firuza Abbasova, Baku State University, Baku, the Republic of Azerbaijan | firuza.abbasova@gmail.com |
| *PhD, prof.* Ziyafat Asgarov, Baku State University, Baku, the Republic of Azerbaijan | ziyafat.asgerov@meclis.gov.az |
| *PhD, Assoc. prof.* Zaur Aliyev, Baku State University, Baku, the Republic of Azerbaijan | alievzh@gmail.com |
| *PhD, Assoc. prof.* Shukur Yusifov, Baku State University, Baku, the Republic of Azerbaijan | shukuryusifov@gmail.com |
| *PhD, Assoc. prof.* Alizade Mammadov, Baku State University, Baku, the Republic of Azerbaijan | elizade.memmedov@mail.ru |
| *PhD, Assoc. prof.* Asmar Aliyeva, Baku State University, Baku, the Republic of Azerbaijan | asmer_1985@yahoo.com |
| *DoL, prof.* Fethi Gedikli, Istanbul University, Istanbul, the Republic of Turkiye | fgedikli@istanbul.edu.tr |

| | |
|---|---|
| *DoL, prof.* Javid Abdullazadeh, Ankara University, Ankara, the Republic of Turkiye | cavidabdullahzade@hotmail.com |
| *DoL, prof.* Adel Abdullin, Kazan Federal University, Kazan, Russian Federation | adelabdoulline@yandex.ru |
| *DoL, prof.* Victoria Romanova, Musin Energy Law and Modern Legal Science Center, Moscow, Russian Federation | musinlc@musinlc.ru |
| *PhD, Assoc. prof.* Elvin Teymurov, Law Faculty of Moscow State Law University, Moscow, Russian Federation | esteymurov@gmail.com |
| *PhD, prof.* Yurii Boshytskyi, Law University of National Academy of Sciences, Kyiv, the Republic of Ukraine | rector@kul.kiev.ua |
| *DoL, prof.* Oleksandr Merezhko, Verkhovna Rada of Ukraine, Kyiv, the Republic of Ukraine | amerezhko@yahoo.com |
| *DoL, prof.* Azer Aliyev, Martin Luther University Halle-Wittenberg, Halle, the Federal Republic of Germany | azar.aliyev@jura.uni-halle.de |
| *DoL, prof.* Thomas Davilius, Law Faculty of Vilnius University, Vilnius, the Republic of Lithuania | tomas.davulis@tf.vu.lt |
| *PhD* Tamar Zarandia, Tbilisi State University, Tbilisi, the Republic of Georgia | tamar.zarandia@tsu.ge |
| *DoL, prof.* Daulet Baydeldinov, Kazakh Al-Farabi National University, Almaty, the Republic of Kazakhstan | baideldinovd@gmail.com |
| *PhD* Thomas Glassman, Cincinnati University, Ohio, the USA | thos.glassman@gmail.com |

**Executive Secretary:**

*PhD* Shahin Mammadrzali, Baku State University, Baku, the Republic of Azerbaijan
memmedrzali@gmail.com

This journal was published between 2002 and 2012 under the editorship of young scholar Elchin Qarabalov and was included in the list of periodic scientific publications recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan for the publication of scientific results. Since 2018, the journal’s activities have been continued at the initiative of the Faculty of Law of Baku State University. The goal is to contribute to the development of legal science in Azerbaijan and to achieve its recognition on an international level.

**©Baku State University, Faculty of Law, 2025**

# MÜNDƏRİCAT

**CİNAYƏT-PROSESSUAL HÜQUQ**

*Mətanət Əsgərova*

Cinayət işləri üzrə məhkəmə proseslərinin uzadılması: səbəbləri, nəticələri və qarşısının alınmasının hüquqi mexanizmləri ................................................ 8

**BEYNƏLXALQ CİNAYƏT HÜQUQU**

*Mehdi Abdullayev*

Kiberhücumların silahlı münaqişə kimi qiymətləndirilməsi: beynəlxalq hüquq normaları əsasında araşdırma ................................................................ 28

**VERGİ HÜQUQU**

*Əsmər Əliyeva, Fərda Cabbarlı, Aygün Hacıyeva*

Azərbaycan Respublikasında vergi işləri üzrə mübahisələrin həllinin yeni üsulu kimi vergi ombudsmanı institutu: qarşısına qoyulmuş məqsədlər, səmərəliliyinin və zəruruliyinin təhlili ............................................................ 38

**BEYNƏLXALQ HÜQUQ VƏ İNSAN HÜQUQLARI**

*Əsmər Pənahova*

Beynəlxalq hüquq sistemlərində vətəndaşlıq hüququnun inkişaf tendensiyaları ............................................................................................ 55

*Gülgün Quliyeva*

Konstitusiya vətəndaşlığı və milli kimlik: müasir baxışlar ....................... 68

*Gürşad Abbasov*

Xarici məhkəmə qərarlarının tanınması və icrası: qanunvericilik və beynəlxalq məhkəmə təcrübəsi ...................................................................... 90

*Xanımana Qafarova, Minurə Cabbarova*

Kibercinayətlərin hüquqi-nəzəri xüsusiyyəti və Azərbaycanın beynəlxalq kibertəhlükəsizlik səviyyələrinə inteqrasiyası *(ingilis dilində)* ........................ 104

*Aygül Cahangirova*

İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin məzmunu və normativ-hüquqi əsasları ........................................................................... 120

**EKOLOGİYA HÜQUQU**

*Emin Əlimusayev*

İqlim dəyişiklikləri ilə mübarizə fonunda ətraf mühi-tin mühafizəsi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin təhlili ....................................... 140

**KORPORATİV HÜQUQ**

*Gülzadə Mirzəmməmmədova*

Korporativ hüquqşünaslar nə edir: onların biznes əqdlərinin formalaşmasında rolu ....................................................................................................... 165

# CONTENT

**CRIMINAL PROCEDURE LAW**

*Matanat Asgarova*

The extention of court proceeding on criminal cases: causes, consequences, and legal mechanisms for prevention ........................................................................ 8

**INTERNATIONAL CRIMINAL LAW**

*Mehdi Abdullayev*

Assessment of cyberattacks as armed conflict: a study based on international law ........................................................................................ 28

**TAX LAW**

*Asmar Aliyeva, Farda Jabbarli, Aygun Hajıyeva*

The institute of tax ombudsman as a new method of dispute resolution in tax matters in the Republic of Azerbaijan: analysis of its objectives, efficiency, and necessity ............................................................................................. 38

**INTERNATIONAL LAW AND HUMAN RIGHTS**

*Asmar Panahova*

Development trends of the institution of citizenship in international law systems ............................................................................................................ 55

*Gulgun Guliyeva*

Constıtutıonal citizenship and national identity: modern perspectives .................. 68

*Gurshad Abbasov*

Recognition and enforcement of foreign judgments: legislation and international judicial practice ........................................................................ 90

*Khanimana Gafarova, Minura Jabbarova*

The legal-theoretical character of cybercrime and the integration of Azerbaijan to international cybersecurity levels .............................................. 104

*Aygul Jahangirova*

The content and normative-legal foundations of the principle of respect for human rights and fundamental freedoms ......................................................... 120

**ENVIRONMENTAL LAW**

*Emin Alimusayev*

Analysis of the legislation of the Republic of Azerbaijan in the field of environmental protection in the context of combating climate change ............. 140

**CORPORATE LAW**

*Gulzada Mirzamammadova*

What do corporate lawyers do: their role in structuring business transactions...165

***Mətanət Əsgərova.*** Cinayət işləri üzrə məhkəmə proseslərinin uzadılması: səbəbləri, nəticələri və qarşısının alınmasının hüquqi mexanizmləri // Azərbaycan Hüquq Jurnalı. 2025 (№3), s. 8-27. DOI: 10.61638/WFDB4280

# CİNAYƏT-PROSESSUAL HÜQUQ

## CİNAYƏT İŞLƏRİ ÜZRƏ MƏHKƏMƏ PROSESLƏRİNİN UZADILMASI: SƏBƏBLƏRİ, NƏTİCƏLƏRİ VƏ QARŞISININ ALINMASININ HÜQUQİ MEXANİZMLƏRİ

MƏTANƏT ƏSGƏROVA*

**Annotasiya**

*Məqalə məhkəmə baxışının uzadılması problemlərinin təhlil edilməsinə həsr edilmişdir. Məhkəmə proseslərinin uzadılması insan hüquqlarının etibarlı təmin edilməsinə, həmçinin ədalət mühakiməsinin "ağlasığan müddət" ərzində həyata keçirilməsinə və dövlətin hüquq sisteminin səmərəliliyinə təsir edir. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı bəzi prosessual hüquqların həyata keçirilməsinin vaxtla məhdudlaşdırılması, bir sıra hallarda formalizmə gətirə bilər. Məhkəmə proseslərinin əsassız və subyektiv aspektlərdə uzadılmasının qarşısının alınması üçün ekspertizanın aparılması ilə bağlı müddətlərin tətbiqi sahəsində müəyyən qanunvericilik islahatları aparılmalı, elektron ekspertiza sistemi yaradılmalı, ekspertizaların elmi-texniki təminatı daha da möhkəmləndirilməli, rəqəmsallaşdırma tətbiq edilməli, hakimlərin, həmçinin prosesin digər iştirakçılarının prosesin uzadılması ilə bağlı subyektiv yanaşması hallarının aradan qaldırılması ilə bağlı mexanizmlər işlənib hazırlanmalı, məhkəmlərdə işlərin bölüşdürülməsinin elektron sisteminin mürəkkəb işlərlə bağlı funksionallığı artırılmalı, işlərə prioritet baxılmasının qanunvericiliyə və təcrübəyə daxil edilməsi, mürəkkəb işlərlə bağlı kriteriyaların Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinə uyğun olaraq hazırlanması, məhkəmə arxivlərinin elektronlaşdırılması kimi tədbirlər həyata keçirilməlidir.*

**Açar sözlər:** *ağlasığan müddət, prosesin uzadılması, işin mürəkkəbliyi, işlərə prioritet baxılması, elektron ekspertiza.*

### *I. Giriş*

Məhkəmə prosesinin uzadılması müasir ədalət mühakiməsinin ən kəskin problemlərindən biridir. İşlərə uzun müddət ərzində baxılması həm milli qanunvericilikdə, həm də beynəlxalq aktlarda, məsələn, *İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının* 6-cı maddəsinin 1-ci bəndində təsbit olunmuş ədalətlilik əsasında məhkəmə araşdırmasının həyata keçirilməsinə daxil olan *ağlasığan müddət* prinsipini pozur. İşlərə vaxtında baxılmaması ədalət mühakiməsinin səmərəliliyini azaldır, proses iştirakçılarının hüquqlarını pozur və məhkəmə sisteminin nüfuzuna mənfi təsir göstərir.

* Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının professoru / Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının kafedra müdiri / email: matanatasgarova@yahoo.com

Azərbaycan, Avropa Şurasının bir çox digər dövlətləri kimi, məhkəmə araşdırmalarının uzun olması problemi ilə qarşılaşır. Problemin həlli prosesin uzadılması hallarının araşdırılmasını, prosesin uzadılmasına təsir edən amillərin aşkar edilməsini, onların aradan qaldırılması üçün qanunvericilik və digər tövsiyələrin hazırlanmasını tələb edir.

## *II. Avropa İnsan Hüquqları Məhkəməsinin presedentlərində məhkəmə proseslərinin uzadılması probleminin qiymətləndirilməsinin meyarları*

Məhkəmə prosesinin uzadılmasının səbəblərini üç qrupa bölmək olar: obyektik amillər, subyektiv amillər, sistem xarakterli problemlər.

Obyektiv amillərə məhkəmələrin həddindən artıq yüklənməsi; işin mürəkkəbliyi (iştirakçıların çoxluğu, sübutların böyük həcmi); ekspertizaların keçirilməsi və mütəxəssis rəylərinin alınması zərurəti; sübutetmə predmetinin mürəkkəbliyi, məhkəmə sisteminin işinin təşkilindəki çatışmazlıqları aid etmək olar. Bəzi hallarda rəqəmsal olmayan ənənəvi sənəd dövriyyəsini buraya aid etmək olar. Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) təşkilati və resurs çatışmazlığını *universal bəraət* hesab etmir. Burada məhkəmənin yüklənməsi, hakimlərin və personalın çatışmazlığı nəzərdə tutulur. Probstmeier Almaniyaya qarşı işdə Məhkəmə qeyd edir ki, xroniki həddindən artıq yüklənmə...prosesin həddən artıq uzun olmasına haqq qazandıra bilməz [25, § 64]. Vocaturo İtaliyaya qarşı işdə həddindən artıq iş yükü ilə bağlı Məhkəmə qeyd edir ki, Konvensiyanın 6-cı maddəsi §1-ə əsasən hər kəsin öz mülki hüquq və vəzifələrinin müəyyən edilməsində ağlabatan müddətdə yekun qərar hüququ vardır. Razılığa gələn Dövlətlər öz hüquq sistemlərini elə təşkil etməlidirlər ki, onların məhkəmələri bu tələbi yerinə yetirə bilsinlər [38, § 17].

İşin mürəkkəbliyinin meyarlarına ittihamların sayını, prosesdə iştirak edən şahidlərin və təqsirləndirilən şəxslərin sayını, işin beynəlxalq aspektlərini və s. aid etmək olar. Neumeister Avstriyaya qarşı işdə təqsirləndirilən şəxslər xaricə qaçmışdılar, iş 22 şəxsə və 22 epizod üzrə açılmışdı, malların alınmasına dair sənədlərin saxtalaşdırıldığı, ixracın dəyərinin fırıldaqçılıq niyyəti ilə şişirdildiyi, xaricdəki alıcı firmaların ya mövcud olmaması, ya da ümumiyyətlə bu işdən xəbərsiz olduqlarını və ixracatçıların satışdan əldə olunan vəsaitləri İsveçrə və ya Lixtenşteyndə yerləşdirdikləri sübut edilməli idi. Hüquqi yardım sorğularının göndərilməsi ilə Niderland, Almaniya Federativ Respublikası, İtaliya və İsveçrədə aparılmış araşdırmaların nəticələrinin alınması arasında 6 aydan 16 aya qədər gecikmələr baş vermişdi [22, § 20].

İşin mürəkkəbliyinə C.P. və digərləri Fransaya qarşı işi misal göstərmək olar. Müstəntiqin ilkin vəzifəsi dələduzluqla bağlı bir-biri ilə əlaqəli şirkətlər şəbəkəsini açmaq və onların hər biri arasında institusional, inzibati və maliyyə səviyyələrində əlaqələrin dəqiq xarakterini müəyyən etmək idi. Ərizəçilərə qarşı sübutların toplanması üçün iki beynəlxalq sorğu məktubu, həmçinin əhəmiyyətli mühasibat və maliyyə ekspertizası tələb olunurdu [7, § 30].

İşin mürəkkəbliyi ilə bağlı faktiki mürəkkəbliyə işdə hüquqi yeniliyin olması və sualların çətinliyi, işin prosessual quruluşu, ekspert tədqiqatları və sübutların elmiliyi, beynəlxalq elementin olmasını aid etmək olar. Hüquqi yeniliyin olması və sualların çətinliyi yeni və ya tipik olmayan hüquqi məsələləri, hüququn və ya yurisdiksiyaların münaqişələrini, tərkiblərin, tövsiflərin çoxluğunu nəzərdə tutur. Prosessual mürəkkəbliyə icraatların birləşdirilməsi və ya ayrılması, paralel proseslərin olması, prosessual iştirakçıların sayının çox olması, çoxsaylı aralıq proseslərin olması (vəsatətlər, etirazlar, şikayətlər) aiddir. Beynəlxalq element hüquqi yardım haqqında sorğular, ekstradisiya, transsərhəd prosedurları, tərcümələr, sənədlərin xaricdə təqdim edilməsi ilə bağlıdır. Bu elementlər işə obyektiv mürəkkəblik əlavə edir, ancaq hətta belə faktorlar olsa belə, dövlət izah oluna bilməyən pauzalardan qaçmalıdır. *Bu gecikmələr öz-özlüyündə məhkəmə prosesinin uzunluğunun əsassız olduğu qənaətini əsaslandırmaq üçün kifayətdir* [6, § 22].

Ekspert tədqiqatları və sübutların "elmiliyi" ekspertizaların sayı, çətinliyi, fənlərarası biliklərin tələb olunması və ekspertlərin əlaqələndirilməsi ilə bağlı ola bilər. Ekspert məhkəmə baxışında hakimin nəzarəti altında hərəkət edir, hakim prosesin operativ aparılmasına görə məsuliyyət daşıyır, dövlət isə sistemi elə təşkil etməlidir ki, ağlasığan müddət təmin edilsin, ekspertlərə görə uzanma prosesin uzadılmasına haqq qazandırmır [6, § 30-31].

Cappello Italiyaya qarşı işdə hökmün qəbul edilməsi ilə onun mətninin reyestrə daxil edilməsi arasında təxminən üç ay keçmişdi və Məhkəmə göstərdi ki, 6-cı maddənin 1-ci bəndi Razılığa gələn Dövlətlər üzərinə öz hüquq sistemlərini elə təşkil etmək vəzifəsini qoyur ki, onların məhkəmələri onun hər bir tələbinə cavab verə bilsinlər [2, § 17].

Buchholz Almaniyaya qarşı işdə Məhkəmə qeyd edir ki, Konvensiya Tərəf-Dövlətlərə öz hüquq sistemlərini elə təşkil etmək vəzifəsi qoyur ki, məhkəmələr 6-cı maddə § 1-in tələblərinə, o cümlədən işə "ağlasığan müddət"də baxılması tələbinə riayət edə bilsinlər. Bununla belə, bu cür istisna xarakterli vəziyyəti aradan qaldırmaq üçün müvafiq dərəcədə operativ düzəldici tədbirlər görüldüyü halda, işlərin müvəqqəti yığılması Tərəf-Dövlətlərin məsuliyyətinə səbəb olmur [1, § 51].

Zimmermann və Steiner İsveçrəyə qarşı işdə də dövlətin öz hüquq sistemini qeyd olunan formada təşkil etmək vəzifəsi göstərildi və həmçinin qeyd edildi ki, istisna xarakterli vəziyyəti aradan qaldırmaq üçün tələb olunan operativ tədbirlər görüldüyü halda, işlərin müvəqqəti yığılması Tərəf-Dövlətlərin məsuliyyətinə səbəb olmur. Müvəqqəti tədbir qismində nəzərdən keçirilə biləcək üsullara, şübhəsiz ki, işlərə yalnız daxilolma tarixinə görə deyil, həm də onların təcili olması və əhəmiyyət dərəcəsindən və xüsusilə maraqlı şəxslər üçün problemin mahiyyətindən asılı olaraq müəyyən ardıcıllıqla məhkəmə baxışının seçilməsi daxildir. Lakin belə vəziyyət uzandıqda və struktur təşkilati məsələyə çevrildikdə, bu üsullar artıq kifayət etmir və dövlət daha təsirli tədbirlərin qəbulunu bundan sonra təxirə sala bilməz [39, § 29].

AİHM-nin mövqeyinə əsasən xroniki yüklənmə məhkəmə icraatının həddindən artıq uzun çəkməsini əsaslandıra bilməz [12, § 294].

Bəzi hallarda cinayət işinin materiallarının işə birbaşa aiddiyyatı olmayan əlavə materiallarla hədsiz yüklənməsinə rast gəlinir. Belə materiallar cinayət işinin həcmini artırır, sonradan hətta ittiham aktına daxil edilmir. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi (CPM) bu məlumatların cinayət işinin materiallarına daxil edilməsini nəzərdə tutmur. Adətən müstəntiqlər belə hesab edirlər ki, CPM-in 81.2-ci maddəsinə əsasən, sədrlik edən hakim təqdim olunmuş ancaq baxılan işə heç bir aidiyyəti olmayanları materialları kənarlaşdıracaqdır. Əslində bu materialların araşdırılmasına da müəyyən vaxt ayrılır. Məsələn, törədilmiş cinayətlə bağlı olmayan, təqsirləndirilən şəxsin şəxsi həyatına aid olan məlumatların, onun şəxsiyyətini xarakterizə edən məlumatlardan kənar olaraq toplanması, işin materiallarının lüzumsuz materiallarla hədsiz yüklənməsinə gətirir. CPM-in 199.2-ci maddəsi ilə prosessual hərəkətlərin aparılması zamanı şəxsi həyatla bağlı məlumatların, həmçinin özünün seçimi ilə yayılmasını istəmədiyi istənilən şəxsi xarakterli məlumatların ehtiyac olmadan yayılması, toplanılması və istifadə edilməsinə yol verilməməsini tənzim edir, lakin müstəntiqlər ibtidai araşdırma zamanı, onların aidiyyəti olmayan materiallar kimi kənarlaşdırılacağına ümid edərək, bu materialları toplayırlar. Əslində belə yanaşma həmin şəxslərin şəxsi həyatı ilə bağlı hüquqlarını kobud pozur, həmin məlumatlarla tanış olmaq hüququ olan şəxslərin də məlumatlandırılmasına xidmət edir.

Subyektiv amillər içərisində tərəflərin prosessual hüquqlarından sui-istifadə etməsini (çoxsaylı vəsatətlər, məhkəməyə qəsdən gec gəlmələr, əsassız etirazlar); vəkillərin və nümayəndələrin vicdansız davranışını; məhkəmənin prosesi idarə etməkdə kifayət aktivliyinin olmamasını qeyd etmək olar. Eckle Almaniyaya qarşı işə AİHM qeyd etdi ki, cənab və xanım Eckle işləri ləngitmək ehtimalı olan hərəkətlərə, o cümlədən hakimlərin sistemli qaydada rədd edilməsi (hakimə etiraz) vasitəsinə, daha çox müraciət etmişdilər ki, bu hərəkətlərin bəziləri hətta qəsdən maneə törətmə siyasətini nümayiş etdirən kimi şərh oluna bilər [8, § 82].

I.A. Fransaya qarşı işdə qeyd olunur ki, cənab I.A. işin dövlət ittihamçısına çatdırılması barədə məlumat verilməsini gözlədi, həmçinin bir sıra əlavə istintaq tədbirlərinin aparılmasını xahiş etdi ki, bu da onun istintaqı qəsdən ləngitmək cəhdini aydın göstərir [14, § 121].

Vayiç Türkiyəyə qarşı işdə AİHM hesab etdi ki, ərizəçi öz ölkəsində ədalət mühakiməsi qarşısına çıxarılmaqdan yayınmağa çalışdığı, yəni qaçaq olduğu dövrə istinad edə bilməz. İttiham olunan şəxsin qaçması, icraatın müddətinə dair Konvensiyanın təminatlarının hüdudlarına, özlüyündə, müəyyən təsir göstərir. Hüququn aliliyi prinsipinə riayət edən bir dövlətdən qaçan ittiham olunan şəxs barədə, əksini sübut etməyə yetərli əsaslar təqdim edilmədikcə, həmin qaçışdan sonrakı dövrdə icraatın əsassız uzun çəkməsindən şikayət etmək hüququnun olmadığı güman edilə bilər [37, § 44].

Ringeisen Avstriyaya qarşı işdə Məhkəmə göstərir ki, dələduzluq işi üzrə icraatın müddəti həm işin mürəkkəbliyindən, həm də Ringeisen tərəfindən təkcə azadlığa buraxılma barədə deyil, səlahiyyətli hakimlərin çoxunun rədd edilməsi (hakimə etiraz edilməsi) və icraatın müxtəlif məhkəmə dairələrinə verilməsi üçün təqdim edilən saysız-hesabsız vəsatət və şikayətlərdən irəli gəlmişdir [27, § 110].

König Almaniyaya qarşı işdə cinayət işlərində icraatın müddətinin məntiqliyini araşdırarkən Məhkəmə, digər məsələlərlə yanaşı, işin mürəkkəbliyini, ərizəçinin davranışını və məsələnin inzibati və məhkəmə orqanları tərəfindən necə həll edildiyini nəzərə almışdır [17, § 99].

Sociedade de Construções Martins & Vieira, Lda., və digərləri Portuqaliyaya qarşı işdə göstərilir ki, Konvensiyanın 6-cı maddəsi cinayət törətməkdə ittiham olunan şəxsdən məhkəmə orqanları ilə fəal əməkdaşlıq etməyi tələb etmir, müdafiə olunanların öz maraqlarını qorumaq üçün milli hüquqla nəzərdə tutulmuş imkan və vasitələrdən tam istifadə etmələrinə görə onları qınamaq olmaz. Ərizəçinin davranışı, özü-özlüyündə legitim olsa da, cavabdeh dövlətə aid edilə bilməyən obyektiv faktdır və 6-cı maddənin § 1-də nəzərdə tutulan ağlasığan müddətin müəyyən edilməsində nəzərə alınmalıdır [31, § 48].

AİHM bəzi işlərdə (məsələn, Unión Alimentaria Sanders S.A. İspaniyaya qarşı işdə) qeyd edir ki, dövlət lazımi operativliklə müvafiq düzəldici tədbirlər görərsə, məhkəmə işinin müvəqqəti geridə qalması Razılığa gələn Dövlətin beynəlxalq məsuliyyətinə səbəb olmur. Həmçinin qeyd olunur ki, ərizəçi-kompaniya həmin dövrdə İspaniya qanunvericiliyinə uyğun olaraq, mümkün olan yeganə adi prosedurdan istifadə etmişdir və bunu müsbət qiymətləndirmişdir [35, § 40].

Sistem xarakterli problemlər içərisində əsasən prosessual qanunvericiliyin natamamlığını, hakimlərin və ixtisaslı kadrların çatışmazlığını, texniki çətinlikləri göstərmək olar (rəqəmsallaşdırmanın olmaması, sənəd dövriyyəsinin ləngiməsi). AİHM bir sıra işlərdə müddətin hədsiz uzun olması ilə bağlı səmərəli daxili müdafiə vasitələrinin təmin edilməsi vəzifəsini birmənalı müəyyən etmişdir. Məhkəmə qeyd edir ki, 13-cü maddə 6-cı maddənin 1-ci bəndinin mənasında *ağlabatan müddətə* riayət edilməsinə və ya adekvat kompensasiyanın əldə edilməsinə nail olmaq üçün milli səviyyədə müdafiə vasitəsinin mövcudluğuna zəmanət verir. [18, § 152].

Scordino İtaliyaya qarşı işdə səmərəlilik standartları izah edilmiş, müxtəlif tip, tezləşdirici və ya kompensasiya xarakterli, vasitələrə yol verilməsi, kompensasiyanın adekvat olması və vaxtında ödənilməsi göstərilmişdir. 13-cü maddənin mənasında hüquqi müdafiə vasitəsi ya işə baxılmasını tezləşdirən, ya da gecikməyə görə kompensasiya tələb edilməsi ilə bağlı olmalıdır. Ancaq vasitə bu mənada səmərəli olmalıdır ki, o, ya pozuntunun davam etməsinin qarşısını almalıdır, yaxud baş verən pozuntuya görə adekvat ödəmə təqdim etməlidir [30, § 186]. Cocchiarella İtaliyaya qarşı işdə Məhkəmə hüquqi müdafiənin kompensasiya vasitəsinin kifayət etməsinin meyarlarını dəqiqləşdirdi və hədsiz uzun müddətə görə kompensasiya ödəmələrinin səviyyəsinin istiqamətlərini

müəyyən etdi. Məhkəmənin analoji işlərdə müəyyən etdiyindən əhəmiyyətsiz fərqlənərsə, kompensasiya adekvat kimi baxılır [4, § 82].

Sürmeli Almaniyaya qarşı işdə Məhkəmə tək konstitusiya şikayətinin kifayət etmədiyini və həddindən artıq uzanan prosesi sona çatdırmağa həqiqətən qadir olan sürətləndirici (profilaktik) vasitənin mövcudluğunun xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı: Hüquqi müdafiə vasitəsi 13-cü maddə baxımından səmərəli olmalıdır, yəni ya pozuntunun davam etməsinin qarşısını almalı, ya da adekvat kompensasiya təmin etməlidir. Məhkəmə icraatının həddindən artıq uzun çəkməsi kontekstində işə baxılmasını sürətləndirməyə qadir olan vasitə xüsusi əhəmiyyət kəsb edir, çünki yalnız kompensasiya həmişə kifayət etmir [33, § 101].

McFarlane İrlandiyaya qarşı işdə Məhkəmə qeyd etdi ki, cinayət işlərində yalnız təkcə sonradan ödəmə (ex post facto compensation) çox zaman kifayət deyildir və icraatın tezləşdirilməsinə və ya davam edən pozuntunun qarşısını başqa şəkildə almağa qadir olan hüquqi müdafiə vasitəsi tələb olunur [20, § 121].

Vassilios Athanasiou və digərləri Yunanıstana qarşı pilot işində AİHM Yunanıstanda inzibati məhkəmə icraatının həddindən artıq uzun çəkməsi ilə bağlı sistemli problemin mövcudluğunu tanımış və milli səviyyədə səmərəli hüquqi müdafiə vasitəsinin tətbiq olunmasının zəruriliyini qeyd etmişdir [36, § 155-156, 157].

Rutkowski və digərləri Polşaya qarşı işdə AİHM Polşada mövcud olan hədsiz uzun proseslərdən müdafiə vasitəsini səmərəli hesab etmədi, ödəmələri hədsiz aşağı miqdarda hesab etdi, gecikmələrin qiymətləndirilməsini fraqmentar hesab etdi, Polşadan kifayət qədər və adekvat ödəmələr üçün yeni tədbirlər görülməsini tələb etdi [29, § 182-183].

Finger Bolqarıstana qarşı işdə (pilot qərar) AİHM Bolqarıstanda icraatın hədsiz uzunluğundan təsirli hüquqi müdafiə vasitəsinin olmamasını və onun yaradılmasının zəruriliyi barədə qərar qəbul etdi [10, § 70-71,79-80, 81].

Məhkəmə prosesinin uzadılmasının nəticələri tərəflər, dövlət və cəmiyyət üçün problemlər yaradır. Prosesin uzadılması ilə bir şəxsin şübhəli şəxs statusunu əldə etməli olduğu anla bağlı tələblər pozulur ki, bu da ədalətli mühakimə hüququnun pozulmasına, müdafiə hüququnun və bərabər imkanların təmin olunmamasına səbəb olur [11, s. 228]. Tərəflər üçün zərərli nəticələrə işə vaxtında baxılması hüququnun pozulması, məhkəmə xərclərinin artması, zərərçəkmişlərin vəziyyətinin pisləşməsi, effektiv müdafiənin mümkünsüzlüyü, dövlət üçün nəticələrə məhkəmə sisteminə etimadın azalması, AİHM-ə müraciətlərin artması, beynəlxalq öhdəliklərin pozulması riskinin yaranması, cəmiyyət üçün nəticələrə hüququn aliliyi və hüquqi müəyyənlik prinsiplərinin pozulması və s. aiddir.

### *III. CEPEJ-in məhkəmə müddətlərinin idarə edilməsi ilə bağlı standartları*

CEPEJ-in (Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası) Məhkəmədə müddətlərin idarə edilməsi üçün yenilənmiş Saturn Təlimatlarında (Saturn Təlimatları) qeyd olunur ki, məhkəmə icraatlarının vaxtının idarə edilməsi, istifadəçilərin davranışı ilə müəyyən edilmədiyi təqdirdə, oxşar işlərin

vaxtı ilə bağlı əhəmiyyətli fərqlərə yol verilmədən, qərəzsiz və obyektiv şəkildə həll edilməlidir (7-ci bənd), istifadəçilərin məhkəmə prosesi vasitəsilə əldə etmək istədikləri məqsədlərin təmin edilməsinə uyğun olaraq, icraatın başlanmasından yekun nəticəyə qədər icraatın ümumi uzunluğunun məqsədəuyğunluğuna xüsusi diqqət yetirilməlidir [26, I hissə 8-ci bənd].

Saturn Təlimatları işlərin uzadılmasına müxtəlif ekspertizaların təyin edilməsinin təsiri məsələlərinə də toxunur. Saturn Təlimatlarında qeyd olunur ki, məhkəmə tərəfindən təyin edilmiş ekspertlər cinayət işlərində diqqətlilik göstərərək, xüsusən də mühakimə olunan şəxslərin vəziyyətini nəzərə alaraq, prosedurun qısaldılmasına və ya sürətləndirilməsinə öz töhfəsini verə bilər, çünki ekspert rəyi üçün hər hansı sorğu məhkəmə prosesinin müddətini artırır [26, IV hissə 2-ci bənd]. Əgər qanun ekspert tapşırıqlarının yerinə yetirilməsi üçün son tarixləri müəyyən edirsə, ekspert onlara hörmət etməlidir. Onlar da hakimin qərarında göstərilən tarixə qədər öz rəylərini təqdim etməlidirlər. Mütəxəssis tapşırığı yerinə yetirərkən xüsusi çətinliklərlə qarşılaşarsa, dərhal hakimi xəbərdar etməlidir ki, ilkin müddət başa çatanadək müddətin uzadılmasına dair qərar daha əvvəl verilə bilsin [26, IV hissə 17-18-ci bəndlər].

CEPEJ məhkəmə baxışının müddəti dedikdə məhkəmə baxışının başlanılmasından son məhkəmə qərarı qəbul olunanadək olan müddəti nəzərdə tutur.

CEPEJ 2023-cü ildə məhkəmə icraatının müddətinin qiymətləndirilməsinin indikatorlarını müəyyən etmişdir. Bu indikatorlara məhkəmə işlərinin ümumi müddətinin qiymətləndirilməsi, müddət çərçivələrinin qurulması/prosesin müddət standartlarının müəyyən edilməsi, işin kateqoriyalarının təsnifatı və işlərin mürəkkəbliyinin müəyyən edilməsi, məhkəmə proseslərinin monitorinqi, gecikmələrin diaqnostikası və onların nəticələrinin yumşaldılması, məhkəmə proseslərinin vaxtının idarə edilməsində informasiya və kommunikasiya texnologiyalarının (İKT) tətbiqi kimi indikatorlar aiddir [34]. İndikatorları Azərbaycan Respublikasının məhkəmə təcrübəsi ilə müqayisə etsək qeyd edilməlidir ki, Elektron məhkəmə informasiya sistemi, məhkəmələrdə işlərin elektron bölünməsi tətbiq edilir, həmçinin elektron müraciət imkanları genişlənmişdir, elektron sənəd mübadiləsinə keçilmişdir, məhkəmə icraatının rəqəmsallaşdırılması ilə bağlı işlər görülmüşdür və məhkəmə idarəçiliyi və təşkilati tədbirlər daha da dərinləşdirilir. Lakin işlərin mürəkkəblik əlamətləri üzrə bölünməsi və müvafiq olaraq müddətlərin müəyyən edilməsi problemli olaraq qalmaqda davam edir.

### *IV. Azərbaycan Respublikasının qanunvericiliyində işlərin uzadılması ilə mübarizə məsələləri*

Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsinin II bəndinə əsasən, hər kəsin onun işinə qərəzsiz yanaşılması, məhkəmə prosesində və və inzibati icraatda *ağlabatan müddətdə* baxılması hüququ vardır. Bu konstitusion müddəa milli CPM-də inkişaf etdirilərək qeyd olunur ki, cinayət prosesinə daxil

olan bütün şəxslərin konstitusion insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunması cinayət prosesi orqanları tərəfindən təmin etməlidirlər (12.1-ci maddə). Belə riayət etmə işə ağlabatan müddətdə baxılmasını da əhatə edir. CPM-nin 48-ci maddəsi cinayət təqibi zamanı icraatın tezliyinin təminatlarına həsr olunmuşdur, sübutların vaxtında əldə olunmasını və tədqiq edilməsini, şəxslərin ittihamın elan olunmasını, işlərinə baxılmasını, pozulmuş hüquqlarının bərpa edilməsini uzun müddətdə gözləməməsini, ittihamın əsaslılığı ilə bağlı məhkəmə qarşısına çıxarılmasını, işin müəyyən edilmiş müddətlərdə məhkəməyə göndərilməsini və ya təqibə xitam verilməsini, məhkəməyədək icraatda müəyyən edilmiş müddətdən artıq həbsdə qalan şəxsin mənəvi ziyana görə kompensasiya (pul) almaq hüququnun təmin edilməsini nəzərdə tutur. Prokuror (prosessual rəhbərliyi həyata keçirən) istintaqın tam, hərtərəfli və obyektiv aparılmasının, cinayət təqibi icraatın tezliyininin təmin edilməsi məqsədi ilə, həmçinin istintaq edilən cinayət işi qanunun tələbləri pozulmaqla aparıldıqda müstəntiqin və ya təhqiqatçının icraatından götürərək digərinə, həmçinin istintaqı aidiyyət nəzərə alınmaqla bir qurumdan digərinə verə bilər (CPM-in 84.5.3-cü maddəsi).

CPM-in 87-ci maddəsində zərərçəkmiş şəxsin hüquqları, həmçinin etirazlar etmək, vəsatətlər vermək hüquqları göstərilir, qeyd edilir ki, o, Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə edir (CPM-in 87.6.23-ci maddəsi). Zərərçəkmişin icraatın tezləşdirilməsi barədə vəsatətlə müraciət etməsi onun hüququdur.

Tələb etmə və xahiş etmə arasındakı fərq ondan ibarətdir ki, tələb məcburi yerinə yetirilməlidir, xahiş etmə isə elə müraciətdir ki, o həm təmin oluna bilər, həm də təmin olunmaya bilər. Məsələn, təqsirləndirilən şəxs əvvəlcə ifadə verməkdən imtina edir, daha sonra o, ittihamın mahiyyəti üzrə ifadə vermə imkanı verilməsi barədə xahiş edə bilər. Birinci dindirmədən imtina etdikdən sonra təqsirləndirilən şəxs yalnız onun özünün xahişi ilə dindirilə bilər.

Xahiş təqsirləndirilən şəxsin müstəntiq və ya məhkəmə tərəfindən təmin edilə bilən müraciətidir, lakin qanun çərçivəsində onun hüququdur, təmin edilməsi məcburi deyil.

Tələb etmə təqsirləndirilən şəxsin qanunla nəzərdə tutulan hüquqlarının həyata keçirilməsidir.

Cinayət prosesində xahiş vəsatət mənasında işlədilir, yəni müstəntiqə, prokurora, hakimə işin hallarının müəyyən edilməsinə və ya qanuni hüquqların təmin edilməsinə yönəldilmiş prosessual hərəkətlərin keçirilməsi və ya qərarların qəbul edilməsi barədə yazılı və ya şifahi müraciətdir. Şübhəli və təqsirləndirilən şəxsin və zərərçəkmiş şəxsin, onların müdafiəçilərinin və nümayəndələrinin, xüsusi ittihamçının, prosesin digər iştirakçılarının vəsatət vermək hüququ vardır. Vəsatətlər qeyd etdiyimiz kimi yazılı və şifahi ola bilər. Yazılı vəsatət cinayət işinin materiallarına əlavə olunur, şifahi vəsatət məhkəmə iclasının və ya istintaq hərəkətinin bilavasitə gedişində verilir və protokola daxil edilir. Vəsatətə baxılmalıdır, ya onun təmin edilməsi, ya da təmin etməkdən imtina barəsində

qərar qəbul edilməlidir. Qərar müstəntiqin (və ya təhqiqatçının) qərarı və ya hakimin qərardadı ilə rəsmiləşdirilir.

Vəsatəti istintaq və prosessual hərəkətlərin icrası zamanı verilən etirazlardan, iradlardan, fikir bildirməkdən fərqləndirmək lazımdır. Belə ki, onlar müvafiq hərəkətlərin protokollarına daxil edilir. Bu etirazlar CPM-in 7.0.48-ci maddəsinə əsasən müəyyən edilmiş hallarda və qaydada cinayət prosesinin iştirakçıları tərəfindən tərtib edilən digər sənəddir və ona baxılaraq, təmin edilib-edilməməsi barədə qərar qəbul olunmalıdır. İradlar və fikir bildirmələr cinayət prosesini aparan orqanı təşkilatı xarakterli məsələlərlə bağlı cinayət-prosessual qanunvericiliyin pozulması və ya fəaliyyətdəki nöqsanlar barədə xəbərdar etmək vasitəsidir, təşkilati (taktiki) xarakter daşıyır. Məhkəmə baxışı zamanı tərəflərin fikirləri də eyni xarakterdədir. CPM-in 121-ci maddəsi vəsatətlərə və xahişlərə baxılmasının məcburiliyini nəzərdə tutur. Ancaq iradlara və fikirlərə baxılması nəzərdə tutulmur. Məsələn, CPM-in 299.5-ci maddəsinə əsasən, məhkəmənin hazırlıq iclasında şifahi və ya yazılı etirazlar və vəsatətlərin həll edilməsi zamanı cinayət prosesinin tərəflərin prosesin istənilən iştirakçısının vəsatətinə baxılması zamanı fikirlərini bildirmək hüququ vardır. Ancaq məhkəmənin fikirlərə baxmasını deyil, bütövlükdə vəsatətə baxmasını, rədd etdikdə isə onun məhkəmə baxışı zamanı təkrar verilməsini nəzərdə tutur.

Milli CPM prosesin peşəkar və digər iştirakçılarının müxtəlif məsələlər üzrə təkliflər vermək hüququnu tənzimləyir, lakin onlara baxılaraq qərar qəbul edilməsini nəzərdə tutmur. İstənilən halda əhəmiyyətsiz olsa belə, təkliflərin verilməsi də diqqəti əsas məsələlərdən yayındırır, həmin təkliflə tanış olmağa müəyyən vaxt ayrılır.

CPM-in 84.5.3-cü maddəsinə prokuror cinayət təqibinin tezliyini, həmçinin istintaqın tam, hərtərəfli və obyektiv aparılmasını təmin etmək üçün, habelə cinayət işi qanunun tələbləri pozulmaqla aparıldıqda müstəntiqin və ya təhqiqatçının icraatından götürərək digərinin icraatına vermək, habelə istintaq aidiyyəti nəzərə alınmaqla bir istintaq qurumundan götürərək digərinə vermək hüququ istintaqın uzadılması ilə bağlı problemlərin aradan qaldırılmasına xidmət edir.

Məhkəmə baxışının uzadılmasının qarşısının alınması üçün CPM bəzi imkanlar nəzərdə tutur. Məsələn, CPM-in 22-ci maddəsi məhkəmə baxışı hüququnun təmin olunmasını, CPM-nin 121-ci maddəsi vəsatətlərə və xahişlərə baxılmasının məcburiliyini nəzərdə tutur. Bu müraciətlərə prosesin iştirakçılarının prosesin tezləşdirilməsi barədə xahişini də aid etmək olar. Məhkəmə baxışı zamanı belə bir xahiş verildikdə məhkəmə bu xahişin qəbul edilib edilməməsi barədə qərar çıxarmalıdır. CPM-nin 122.2.4-cü maddəsində bu məsələ ilə bağlı məhkəmənin qərarlarından yuxarı məhkəməyə şikayət verilməsi nəzərdə tutulur, qərarından şikayət edilən məhkəmə vasitəsilə verilir. Öz qərarlarından şikayəti qəbul etmiş məhkəmə, CPM-də digər müddətlər göstərilməmişdirsə, aldığı andan təxirə salmadan (24 saat müddətində) baxılması

üçün aidiyyəti üzrə göndərməlidir. Şikayətə yuxarı məhkəmə tərəfindən təxirə salınmadan, bütün hallarda üç gündən gec olmayaraq (aldığı gündən) baxmalıdır.

Bir sıra hallarda müdafiəçilər də müəyyən subyektiv səbəblərdən prosesin uzadılmasında maraqlı olurlar. CPM-də vəkilin iştirakı ilə bağlı uzadılma və ya digər pozuntu hallarında hakim CPM-in 312.4-cü maddəsinə əsasən müdafiəçi təqsirləndirilən şəxs tərəfindən dəvət olunduqda, müdafiəçinin iştirakını üzrlü səbəblərə görə,10 gündən çox olmamaqla, uzun müddət təmin etmək mümkün olmadıqda, məhkəmə işə baxılmasını təxirə salaraq, ona digər müdafiəçinin seçilməsini təklif edə, təqsirləndirilən şəxs imtina edərək razılaşmadıqda, Vəkillər Kollegiyasının müvafiq ərazi qurumundan yeni müdafiəçi təyin edə bilər. Yeni dəvət edilmiş müdafiəçinin bütün icraat materialları ilə tanış olması və öyrənilməsi üçün lazım olan kifayət vaxtla təmin olunur. Yeni müdafiəçi işə cəlb olunazdan əvvəl məhkəmə baxışı zamanı aparılmış istənilən hərəkət onun iştirakı ilə təkrar edilməsi üçün vəsatət verə bilər.

CPM-nin 312.5 və 312.6-cı maddələrinə əsasən müdafiəçi əvvəlcədən məhkəməyə bildirmədən və üzrlü səbəbləri olmadan gəlmədikdə və həmin məhkəmə iclasında onun əvəz edilməsi imkansız olduqda, işə baxılması təxirə salınır və iclasın vaxtı dəyişdirilir. Müdafiəçi təkrara məhkəmə iclasına gəlmirsə və onun əvəz edilməsi mümkün deyilsə, işə baxılması yenidən təxirə salınaraq, başqa vaxta təyin edilir. Məhkəmə belə hallarda, həmin vəkilin intizam məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyəti qarşısında məsələ qaldıra bilər.

Məhkəmə ekspertizası fəaliyyəti haqqında Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinə əsasən məhkəmə ekspertizasının aparılması müddətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual, Mülki Prosessual və İnzibati Xətalar məcəllələrinə müvafiq olaraq müəyyən edilir. Qanunun 10-cu maddəsi məhkəmə ekspertizasının yerinə yetiirlməsi müddətinin müəyyən edilməsini və bu müddətə riayət edilməsinə nəzarəti məhkəmə ekspertizası idarəsinin rəhbərinin vəzifələrinə aid edir. Qanunverici CPM-in 218-ci maddəsində nəzərdə tutulan ibtidai araşdırmanın müddətlərini, məhkəmənin hazırlıq iclasının təyin edilməsi müddətlərini və digər müddətləri nəzərdə tutur.

Seçmə tədqiqatlarımızın nəticəsi göstərir ki, bir sıra işlərdə ekspertizaların aparılması ilə bağlı gecikmələrə yol verilir. Ekspertizanın operativ keçirilməsi barədə xahişlə məhkəmə ekspertizası idarəsi rəhbərinə müraciət etmək olar. Ekspertizanın aparılması müddətləri üzərində nəzarət ekspert müəssisəsinə sorğu göndərilməsi yolu ilə, yaxud ekspert müəssisələrinin əməkdaşları ilə telefon danışıqları yolu ilə həyata keçirilir [23, s. 180]. Ancaq bunu vəziyyətdən çıxış yolu hesab etmək olmaz. Məhkəmə ekspertizaları üçün konkret müddətlərin müəyyən edilməsi də obyektiv olaraq kifayət qədər çətindir. Müxtəlif növ ekspertizalar aparılarkən, onların obyektivliyini təmin etmək üçün müxtəlif vaxt tələb edən müxtəlif üsullardan istifadə olunur. Onlardan bəziləri tez nəticə verə bilər, digərləri əldə edilən nəticələrin obyektivliyini təmin etmək,

təsadüfiliklərdən və səhvlərdən qaçmaq üçün xeyli xərclər, o cümlədən müvəqqəti xərclər tələb edir. Buna görə də, müvafiq ekspertizanın aparılmasında istifadə oluna bilən ixtisaslaşdırılmış bilik və üsullardan asılı olaraq məhkəmə ekspertizası müddətinin ağlabatanlığına yanaşmaq lazımdır. Podolny N. A hesab edir ki, bu səbəbdən qanunvericinin ekspertizanın aparılması və ekspert rəyinin təqdim edilməsi üçün müddətləri müəyyən etməkdən imtinası tamamilə əsaslıdır [24, s. 217]. Müəllifin fikrini tam müdafiə edirik.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə ekspertizası mərkəzində ekspertizaların aparılmasının təşkili haqqında Təlimatın 4.1.6-cı maddəsinə əsasən ekspertizanın icrası müddəti CPM-ə əsasən ekspertizanı sifariş edən şəxslə bağlanan müqavilədə göstərilir. Daha sonra göstərilir ki, ekspertizanın aparılması müddətləri prosessual qanunvericiliyin tələblərinə əməl olunmaqla işin həcmindən (tədqiqat obyektlərinin sayı, mürəkkəbliyi və s.) asılı olaraq Məhkəmə ekspertizası mərkəzinin (struktur qurumun) rəhbəri tərəfindən müəyyən edilir (4.3-cü maddə). Hesab edirik ki, ekspertizaların aparılmasının təşkili haqqında Təlimatın 4.1.6 və 4.3-cü maddələri arasındakı uyğunsuzluq vardır və bu uyğunsuzluq, doğrudan da praktikada problemlər yaradır. Bir tərəfdən CPM-in 271.1-ci maddəsi müəyyən edir ki, müstəntiqin ekspertiza təyin edilməsi qərarı ekspertə verildiyi və ya müdafiə tərəfi ilə ekspert arasında müqavilə bağlanılması müddətindən bir aydan gec olmamamaq şərti ilə ekspert lazımi tədqiqatlar aparır, yazılı rəyini tərtib edir, imzalayır, dərhal müdafiə tərəfinə v əya ekspertiza təyin etmiş şubyektə göndərir. Digər tərəfdən qanunvericilik ekspertizanı sifariş edən orqanla müqavilədə müddətin müəyyən edilməsini tələb edir, həmçinin müddətin yalnız ekspertiza müəssisəsinin rəhbəri tərəfindən, obyektlərin mürəkkəbliyi və həcmi nəzərə alınmaqla müəyyən olunmasını qeyd edir. Bu səbəbdən tərəflər arasında formal *müqavilə müddəti* ilə faktiki *icra müddəti* üst-üstə düşməyə bilər. Bu normativ uyğunsuzluğun aradan qaldırılması üçün bir neçə yanaşma tətbiq etmək olar. Birinci yanaşma qanunvericilikdə dəyişiklik edilməsidir. CPM-nə və ekspertizaların aparılmasının təşkili haqqında Təlimata dəqiqləşdirmə əlavə olunmalıdır ki, *müqavilədə ilkin (şərti) müddət göstərilir*, lakin işin həcmi nəzərə alındıqdan sonra Məhkəmə ekspertizası mərkəzinin rəhbəri tərəfindən təsdiq edilən yekun müddət əsas götürülür. Belə mexanizm həm sifarişçi orqanın prosessual hüquqlarını qoruyur, həm də ekspertiza qurumunun real imkanlarını nəzərə alır. Digər praktiki yanaşma da mümkündür. Hakim qərarda *ekspertiza mümkün qədər qısa müddətdə aparılmalıdır, dəqiq müddət isə işin həcminə görə Məhkəmə ekspertizası mərkəzinin rəhbəri tərəfindən müəyyən olunur* formasında göstəriş verə bilər. Bu halda prosessual sənəddə *ümumi çərçivə* göstərilmiş olur, konkret icra müddəti isə rəhbərin təsdiqi ilə müəyyən edilir. Başqa bir yanaşma əməkdaşlıq mexanizminin tətbiqidir. Belə ki, hakim (və ya istintaq orqanı) ekspertiza müəssisəsi ilə iş materiallarını göndərməzdən əvvəl texniki baxımdan mümkün müddəti sorğu ilə öyrənə bilər. Məhkəmə ekspertizası mərkəzindən daxil olan rəy

əsasında qərarda artıq daha real müddət əks etdirilə bilər. Ən real çıxış yolu – qanunvericilik və ekspertizaların aparılmasının təşkili haqqında Təlimata dəyişiklik etməklə *ilkin müddət* və *dəqiq müddət* anlayışlarını fərqləndirmək, eyni zamanda məhkəmələrin praktikasında ekspertiza müəssisəsi ilə əvvəlcədən razılaşdırma mexanizmini tətbiq etməkdir. Məhkəmə ekspertiza institutunun gücləndirilməsi, ekspertiza qurumların texniki və kadr imkanlarının artırılması, peşəkar ekspert kadrların hazırlanması və sertifikatlaşdırılması, ekspertiza laboratoriyalarının müasir texnologiyalarla təchiz edilməsi, ekspertiza sifarişlərinin elektron sistem vasitəsilə verilməsi və izlənməsi, ekspertizaların mərhələli monitorinqi üçün elektron platformaların tətbiqi, ekspertiza nəticələrinin elektron qaydada təqdim edilməsi də müddətlərin qısaldılmasına kömək edə bilər.

CPM-də işin mürəkkəbliyi (CPM-nin 159.1 və 218.6-cı maddələri), işin xüsusi mürəkkəbliyi (CPM-nin 148.7 və 218.7-ci maddələri), işin müstəsna dərəcədə mürəkkəbliyi (CPM-in 159.2 və 218.8-ci maddələri), təqsirləndirilən şəxslərin sayının çox olması, cinayət işinin həcmli olması və ya baxışın təşkil edilməsinin kifayət qədər mürəkkəb olması (CPM-in 298.2.1, 298.6, 391.1 və 392.4-cü maddələri), icraatın mürəkkəbliyi (CPM-in 312.4-cü maddəsi) anlayışlarından istifadə olunur. Qeyd olunan anlayışların dəqiq izahı verilməsə də, mürəkkəbliyin meyarlarına *cinayət işinin həcminin böyüklüyü, təqsirləndirilən şəxslərin sayının çoxluğu və ya baxışın təşkilinin xüsusilə mürəkkəb olması* aiddir.

Ədalət mühakiməsinin həyata keçirilməsinin müddətlərinin qısaldılmasının başqa bir vasitəsi elektron arxiv sisteminin yaradılması, kağız sənədlərin rəqəmsallaşdırılması, məhkəmə sənədlərinə sürətli və təhlükəsiz çıxışın təmin olunmasıdır.

Əslində, formal yanaşılsa, proses müddətlərinin qısaldılması, o cümlədən məhkəmə prosesinin müxtəlif mərhələlərinin və ya bütövlükdə prosesin həyata keçirilməsi üçün müddətlərin müəyyən edilməsi səmərəli olardı. Lakin belə yanaşmasının tətbiqinin zərərli tərəflərindən biri prosesin müddətlər çərçivəsinə salınmasının işin mahiyyət üzrə araşdırılmasına mənfi təsir etməsi, formal yanaşmaya üstünlük verilməsi ola bilər. İkinci, vaxt limiti iş üçün əhəmiyyəti olan sübutların səmərəli araşdırılması üçün problem yarada bilər.

CPM-in 48.2.3-cü maddəsi daxil olmuş məhkəməyədək sadələşdirilmiş icraat materialına, cinayət işinə, xüsusi ittiham qaydasında verilmiş şikayətə, həmçinin məhkəmənin hökmündən və digər qərarlarından verilən protestlərə və şikayətlərə qanunvericilikdə müəyyən edilmiş müddətlərdə baxılmasını nəzərdə tutur *(CPM-in 298.2, 301.4, 391.1, 419.3, 426.2 və 427.1-ci maddələri).* Qanunvercinin bu yanaşmasını uğurlu hesab etmək lazımdır, çünki baxışa başlamanın müddətləri müəyyən edilsə də, baxış müddətlərinin müəyyən edilməsi praktiki olaraq mümkün deyildir. Çünki, müəyyən edilmiş müddətlər etirazların, şikayətlərin, vəsatətlərin verilməsi ilə uzadılmış olur.

Məhkəmə proseslərinin uzadılmasının qarşısının alınmasının digər bir mexanizmi gecikmələrə görə məsuliyyət mexanizminin yaradılması, məsələn, hakim və ya tərəflərin prosesi bilərəkdən uzatmasına görə sanksiyaların tətbiq edilməsidir. Müdafiəçi və dövlət ittihamçısının məhkəmə prosesinin qəsdən uzadılması ilə bağlı məsuliyyətləri nəzərdə tutulur. Burada onların üzrlü səbəblər olmadan və məhkəməyə əvvəlcədən bildirmədən gəlməmələri və məhkəmə iclasında əvəz edilməsinin mümkün olmaması nəzərdə tutulur (CPM-in 312 və 314-cü maddələri). Hər iki halda məhkəmə onların əvəz edilməsi məsələsini həll edir və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının Rəyasət Heyəti və ölkənin Baş prokuroru qarşısında dövlət ittihamçısının və vəkilin intizam məsuliyyəti ilə bağlı məsələ qaldırır.

CPM-in 315.5-ci maddəsi xüsusi ittihamçının xüsusi ittiham qaydasında verdiyi şikayətə məhkəmədə baxılması zamanı üzrlü səbəblər olmadan təkrar iclasa gəlməməsi, onun şikayəti üzrə icraata xitam verilməsinə gətirir.

Hakimin prosesin uzadılmasında maraqlı olduğu hallar da mövcuddur. Bəzi etirazların, vəsatətlərin mərhələli verilməsi, proseslərin təxirə salınması ilə bağlı hallarla hakimin məqsədli və ya məqsədsiz razılaşmasını, həmçinin hakimin məzuniyyətə getməsini misal göstərmək olar.

CPM-in 308-ci maddəsi məhkəmə tərkibinə daxil olan hakimlərdən birinin baxışında iştirakı davam etdirmək imkanı olmadıqda, onun başqa hakimlə əvəz edilməsini nəzərdə tutur. Belə imkanın olmaması hallarına hakimin xəstəliyi, məzuniyyətə çıxması və s. halları aid etmək olar. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanunu hakimlərin məzuniyyət müddətini tənzim edir, CPM-də işin təxirə salınmasının əsasları içərisində hakimin məzuniyyətə çıxması nəzərdə tutulmur, ancaq təcrübədə bu hallar geniş yayılmışdır. Əslində məhkəmə baxışının təxirə salınması üçün digər formal əsaslar tapılır və həmin vəziyyət hakim məzuniyyətdən qayıdanadək davam edir.

Bir sıra hallarda işin tərəflər üçün həssaslığı nəzərə alınaraq baxılması özünü həm mənəvi, həm də qanunvericilik baxımından doğruldur. AİHM-də şikayətlərə daxilolma tarixlərinə uyğun olaraq müəyyən olunmuş qaydada baxılır. Bununla belə, Palata və ya onun Sədri müəyyən edilmiş meyarlardan kənara çıxaraq konkret şikayətə üstünlük verilməsi barədə qərar qəbul edə bilər. AİHM-in Reqlamentinin 41-ci qaydası müəyyən edir ki, Məhkəmə şikayətlərə baxılma qaydasını müəyyən edərkən, müəyyən etdiyi meyarlar əsasında şikayətdə qaldırılan məsələlərin vacibliyini və aktuallığını nəzərə alır. Bəzi hallarda işlərə prioritet və ya təxirəsalınmaz qaydada baxıla bilər. Kalashnikov Rusiyaya qarşı işdə Məhkəmə qeyd edir ki, məhkəmə prosesi boyu ərizəçi həbsdə saxlanılıb - bu, işə baxan məhkəmələrdən ədalət mühakiməsinin operativ şəkildə həyata keçirilməsi üçün xüsusi diqqət tələb edən faktdır [16, § 132].

AİHM-in *işə baxılması prioriteti* siyasətinə görə işlərə aşağıdakı bir sıra hallarda növbədənkənar baxıla bilər. Məhkəmə təxirəsalınmaz və həyati risk olan hallarda, yəni insan həyatına və ya sağlamlığına təhlükə yaradan hallarda

(məsələn, dərhal deportasiya və ya ekstradisiya təhlükəsi, işgəncə riski) işə növbədənkənar baxa bilər. Bu hallarda həm müvəqqəti tədbirlər (AİHM-nin Reqlamentinin 39-ci Qaydası) tətbiq edilə bilər, həm də işə sürətlə baxılır. Məsələn, Mamatkulov və Askarov Türkiyəyə qarşı  işdə Özbəkistan vətəndaşlarının Türkiyədən Özbəkistana ekstradisiyası planlaşdırılırdı. Onlar işgəncə riski olduğunu iddia etdilər. Məhkəmə Türkiyədən ekstradisiyanı dayandırmağı tələb etdi. Türkiyə buna əməl etməsə də, Məhkəmə işə təcili baxdı və işgəncə riski real olduğuna görə Konvensiyanın 3-cü maddəsinin pozulduğunu tanıdı [21, § 6]. Soering Birləşmiş Krallığa qarşı işdə alman vətəndaşının ABŞ-a ekstradisiyası nəzərdə tutulurdu, orada ölüm cəzası təhlükəsi vardı. Məhkəmə uzunmüddətli edam gözləmə şəraitində qeyri-insani rəftar səbəbindən 3-cü maddənin pozulacağı qənaətinə gəldi, işə növbədənkənar prioritetlə baxıldı [32, § 92].

Hirsi Jamaa və digərləri İtaliyaya qarşı  işdə Afrikalı miqrantlar Aralıq dənizində saxlanılıb Liviya istiqamətində geri göndərilmişdi. Onları orada işgəncə və qeyri-insani rəftar gözləyirdi. Məhkəmə işi təxirəsalınmaz qaydada araşdırıldı və İtaliyanın 3-cü maddəni pozduğunu tanıdı [13, § 35].

Növbədənkənar işlərə baxılmasına uşaqlarla və ya xüsusi həssas qruplarla bağlı işləri (məsələn, uşağın valideynlərdən alınması, zorakılıq qurbanı olması və ya digər ciddi hüquq pozuntuları olması), ədalət mühakiməsinə çıxış imkanlarının tamamilə bağlandığı hallar (məsələn, şəxs barəsində uzunmüddətli həbs qərarı verilib, lakin daxili instansiyalarda iş illərlə baxılmadan saxlanılır), böyük ictimai rezonans doğuran və ya pilot qərar potensialı olan işlər, işdə sistemli problemlər görünürsə (məsələn, məhkəmə çəkişmələrinin həddindən artıq uzunluğu, məhbusların saxlanma şəraiti və s.) aiddir. AİHM həmin işlərə baxılmasını sürətləndirə bilər. AİHM-də işlərə növbədənkənar baxılma ümumi qaydada deyil, yalnız istisna hallarda mümkündür.

CPM təqsirləndirilən şəxsin müdafiəçisinin, dövlət ittihamçısının, zərərçəkmişin prosesə təkrar gəlməməsi hallarına reaksiya verilməsini nəzərdə tutur, digər gecikdirmə halları nəzarətdən kənarda qalır.

## *V. Nəticə*

Cinayət işləri üzrə məhkəmə araşdırmalarının əsassız uzadılması ədalətli məhkəmə hüququnun həyata keçirilməsində ən ciddi maneələrdən biri kimi çıxış edir. Məhkəmə icraatında vaxt amilinin qorunması təkcə tərəflərin hüquqlarının təminatı üçün deyil, həm də ədalət mühakiməsinə cəmiyyətin etimadının möhkəmlənməsi baxımından həyati əhəmiyyət kəsb edir.

AİHM-nin təcrübəsi göstərir ki, işin mürəkkəbliyi, tərəflərin davranışı və dövlət orqanlarının fəaliyyət səmərəliliyi *ağlabatan müddət* anlayışının qiymətləndirilməsində əsas meyarlardır. Azərbaycan Respublikasının qanunvericiliyi prosessual müddətlərin qorunması zərurətini təsbit etsə də, praktiki müstəvidə məhkəmələrin həddindən artıq yüklənməsi, ekspertiza müddətlərinin dəqiq tənzim edilməsinin mümkün olmaması, proses

iştirakçılarının prosessual hüquqlarından sui-istifadəsi kimi amillər araşdırmaların uzanmasına səbəb olur. Bu baxımdan, məhkəmə proseslərinin səmərəli idarə olunması üçün məhkəmə ekspertizalarının icrası ilə bağlı vahid vaxt standartlarının müəyyənləşdirilməsi məqsədəmüvafiq olmasa da, elektron ekspertiza sistemlərinin və rəqəmsal texnologiyaların daha geniş tətbiqi, əlavə resursların ayrılması, yəni məhkəmə ekspertizalarının vaxtında tamamlanması üçün laboratoriya, texniki avadanlıq və mütəxəssis sayının artırılması vəziyyəti nəzarət altına almağa kömək etmiş olar. Qanunvericiliyə və *Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə ekspertizası mərkəzində ekspertizaların aparılmasının təşkili haqqında Təlimata* dəyişiklik etməklə ekspertizaların icrası üçün *ilkin müddət* və *dəqiq müddət* anlayışlarını fərqləndirmək, eyni zamanda məhkəmələrin praktikasında ekspertiza müəssisəsi ilə əvvəlcədən razılaşdırma mexanizmini tətbiq etməkdə ekspertiza müddətlərinin tənzim edilməsinə kömək etmiş olar. Məhkəmə ekspertizası institutunun gücləndirilməsi, ekspertiza qurumlarının texniki və kadr imkanlarının artırılması, peşəkar ekspert kadrların hazırlanması və sertifikatlaşdırılması, ekspertiza laboratoriyalarının müasir texnologiyalarla təchiz edilməsi, ekspertiza sifarişlərinin elektron sistem vasitəsilə verilməsi və izlənməsi, ekspertizaların mərhələli monitorinqi üçün elektron platformaların tətbiqi, ekspertiza nəticələrinin elektron qaydada təqdim edilməsi, *Elektron ekspertiza haqqında Qanunun* qəbul edilməsi də müddətlərin qısaldılmasına kömək edə bilər.

Hazırda hakimlər üçün işlərin elektron *kalendarlarda izlənməsi* sistemi tətbiq edilir. Məhkəmə proseslərinin gedişatının real vaxt rejimində izlənməsi üçün elektron platformaların yaradılması, bunun vasitəsilə işlərin mərhələlərinin və müddətlərinin avtomatik monitorinq olunması hakimlərin prosesin uzadılması ilə bağlı davranışına da təsir edə bilər.

Prosessual sui-istifadənin qarşısını alan sanksiyalar artıq qanunvericilikdə tətbiq olunur, lakin hakimin prosesin uzadılmasında maraqlı olduğu halları əhatə etmir. Bu məqsədlə səmərəli təsir vasitəsitələrin yaradılması məqsədəmüvafiqdir. Azərbaycan məhkəmə sistemində işlərin elektron bölünməsi sisteminin tətbiqi real nəticələr verir, lakin işlərin elektron bölünməsinin mürəkkəb işlərlə bağlı funksionallığının artırılması, məhkəmə arxivlərinin elektronlaşdırılması, həmçinin işlərə prioritet baxılmasının tətbiqi həm insan hüquqlarının daha etibarlı təmin edilməsi, həm də ədalətli məhkəmə standartlarının təmin edilməsinə kömək edər.

Azərbaycan qanunverciliyi işlərin mürəkkəbliyi anlayışının meyarlarını nəzərdə tutmur. Hesab edirik ki, Ali Məhkəmənin Plenum qərarı səviyyəsində izahın verilməsi işlərin bu meyarlar üzrə bölüşdürülməsinə kömək edər.

## ƏDƏBİYYAT (REFERENCES):

1. Buchholz v. Germany (Application no. 7759/77). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57451%22]}(last access: 01.06.2025).
2. Cappello v. Italy (Application no. 12783/87). URL:https://hudoc.echr.coe.int/app/conversion/docx/?library=ECHR&id=001-57730&filename=CASE%20OF%20CAPPELLO%20v.%20ITALY.docx&logEvent=False (last access: 29.05.2025).
3. Criminal Procedure Code of the Republic of Azerbaijan (No. 907-IQ dated July 14, 2000). URL: https://e-qanun.az/framework/46950 (last access: 02.06.2025).
4. Cocchiarella v. Italy (Application no. 36813/97). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-72925%22]} (last access: 31.05.2025).
5. Constitution of the Republic of Azerbaijan (1995). URL: https://president.az/en/pages/view/azerbaijan/constitution (last access: 01.06.2025).
6. Comingersoll S.A. v. Portugal (Application no. 35382/97). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-58562%22]} (last access: 01.06.2025).
7. C.P. and Others v. France (Application n° 36009/97). URL: https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-63473%22]} (last access: 02.06.2025).
8. Eckle v. Germany (Application no. 8130/78). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57476%22]} (last access: 01.06.2025).
9. European Convention for the Protection of Human Rights and Fundamental Freedoms. URL: https://www.echr.coe.int/european-convention-on-human-rights (last access: 30.05.2025).
10. Finger v. Bulgaria (Application no. 37346/05). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-104698%22]} (last access: 31.05.2025).
11. Glıga, Ioan.The Extention of the Criminal Prosecution. Bulletin of the Transilvania University of Braşov Series VII: Social Sciences,Law, – Vol. 17(66) Special Issue – 2024, – p.221-228.
12. Guide on Article 6 of the European Convention on Human Rights: Right to a fair trial (civil limb). URL: https://rm.coe.int/1680700aaf (last access: 30.05.2025).
13. Hirsi Jamaa and Others v. Italy (Application no. 27765/09). Judgment, 23 February 2012.

URL: https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-109231%22]} (last access: 31.05.2025).
14. I.A. v. France (application no. 28213/95).
URL: https://hudoc.echr.coe.int/ukr#{%22itemid%22:[%22001-58237%22]} (last access: 31.05.2025).
15. Instruction on the Organization of Conducting Examinations at the Forensic Centre of the Ministry of Justice of the Republic of Azerbaijan Approved by Decision No. 12-N of the Collegium of the Ministry of Justice of the Republic of Azerbaijan dated October 31, 2014.
URL: https://e-qanun.az/framework/28873 (last access: 31.05.2025).
16. Kalashnikov v. Russia (Application no. 47095/99).
URL: KALASHNIKOV v. RUSSIA (last access: 01.06.2025).
17. König v. Germany (Application no. 6232/73).
URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57512%22]} (last access: 31.05.2025).
18. Kudła v. Poland (Application no. 30210/96).
URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-58920%22]} (last access: 29.05.2025).
19. Law of the Republic of Azerbaijan “On Forensic Expertise Activity” (18 November 1999, № 758-IQ.
URL: https://e-qanun.az/framework/91 (last access: 31.05.2025).
20. McFarlane v. Ireland (Application no. 31333/06).
URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-100413%22]} (last access: 31.05.2025).
21. Mamatkulov and Askarov v. Turkey (Applications nos. 46827/99 and 46951/99). Judgment 4 February 2005.
URL: https://hudoc.echr.coe.int/eng?i=001-185688 (last access: 31.05.2025).
22. Neumeister v. Austria (Application no 1936/63).
URL: https://hudoc.echr.coe.int/tur#{%22itemid%22:[%22001-57544%22]} (last access: 31.05.2025).
23. Peryakina, M. P., Averinskaya, S. A., Shchurov, E. A. “On the Time Limits for Conducting Forensic Examinations in Criminal Cases.” Vestnik Economicheskoy Bezopasnosti [Bulletin of Economic Security], 2017, No. 4, pp. 176–182.
24. Podolny, N. A. (2021). A Reasonable Timeframe for Obtaining an Expert Opinion at the Stage of Initiating a Criminal Case. Pravovoe gosudarstvo: teoriya i praktika [Legal State: Theory and Practice], No. 4 (66), pp. 210–219.
25. Probstmeier v. Germany (application (no. 20950/92).
URL:

https://hudoc.echr.coe.int/app/conversion/docx/pdf?library=ECHR&id=001-58050&filename=CASE%20OF%20PROBSTMEIER%20v.%20GERMANY.pdf&logEvent=False (last access: 28.05.2025).
26. Revised SATURN guidelines for judicial time management (4th revision). CEPEJ(2021)13.
27. Ringeisen v. Austria (Application no 2614/65). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57565%22]} (last access: 31.05.2025).
28. Rules of Court. 15 September 2025. Registry of the Court. URL: https://www.echr.coe.int/documents/d/echr/rules_court_eng (last access: 01.06.2025).
29. Rutkowski and Others v. Poland (Applications nos. 72287/10, 13927/11 and 46187/11). URL: https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-155815%22]} (last access: 31.05.2025).
30. Scordino v. Italy (Application no. 36813/97). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-72925%22]} (last access: 31.05.2025).
31. Sociedade de Construções Martins & Vieira, Lda., and Others v. Portugal. URL: (Applications nos. 56637/10, 59856/10, 72525/10, 7646/11 and 12592/11) (last access: 01.06.2025).
32. Soering v. The United Kingdom (Application no. 14038/88). Judgment 07 July 1989. URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57619%22]} (last access: 02.06.2025).
33. Sürmeli v. Germany (Application no. 75529/01). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-75689%22]} (last access: 01.06.2025)
34. Time management checklist. Checklist of indicators for the analysis of the duration of proceedings in the courts. Document adopted at the 40th plenary meeting of the CEPEJ (Strasbourg, 15 and 16 June 2023). URL: https://www.coe.int/en/web/cepej/-/the-cepej-adopted-the-time-management-checklist-to-analyse-the-length-of-judicial-proceedings (last access: 31.05.2025).
35. Unión Alimentaria Sanders S.A. v. Spain (Application no. 11681/85). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57618%22]} (last access: 31.05.2025).
36. Vassilios Athanasiou and Others v. Greece (заявление 50973/08). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-201260%22]} (last access: 01.06.2025).

37. Vayiç v. Turkey (Application no. 18078/02). URL: https://hudoc.echr.coe.int/ukr#{%22itemid%22:[%22001-75900%22]} (last access: 30.05.2025).
38. Vocaturo v. Italy (application (no. 11891/85). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57717%22]} (last access: 31.05.2025).
39. Zimmermann and Steiner v. Switzerland (Application no. 8737/79). URL: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57609%22]} (last access: 02.06.2025).

## The extention of court proceeding on criminal cases: causes, consequences, and legal mechanisms for prevention

MATANAT ASGAROVA*

**Abstract**

*The article is dedicated to the analysis of the problems related to the extension of court proceedings. The extension of judicial processes affects the reliable protection of human rights, the implementation of justice within a "reasonable time," and the efficiency of the state's legal system. The time limitation imposed on the exercise of certain procedural rights during the administration of justice may, in some cases, lead to formalism. In order to prevent unjustified and subjective extension of court proceedings, certain legislative reforms must be implemented in the field of time limits related to the conduct of examinations, an electronic examination system must be established, the scientific and technical support of examinations must be further strengthened, digitalization must be applied, mechanisms must be developed to eliminate the subjective approach of judges and other participants in the process regarding the extension of proceedings, the functionality of the electronic case distribution system in courts concerning complex cases must be enhanced, priority review of cases must be introduced into legislation and practice, criteria for complex cases must be developed in accordance with the practice of the European Court of Human Rights, and measures such as the digitalization of court archives must be implemented.*

**Keywords:** *reasonable time, extension of proceedings, complexity of the case, priority review of cases, electronic examination.*

* Doctor of Laws / Professor of the Deapartment of Law of the National Aviation Academy / Head of Department of the Academy of Justice of the Ministry of Justice of Republic of Azerbaijan / email: matanatasgarova@yahoo.com

## Продление судебных процкссов по уголовным делам: причины, последствия и правовые механизмы предотвращения

МАТАНАТ АСКЕРОВА**

### Резюме

*Статья посвящена анализу проблем, связанных с затягиванием судебного разбирательства. Продление судебных процессов оказывает влияние на надёжное обеспечение прав человека, осуществление правосудия в «разумный срок», а также на эффективность правовой системы государства. Ограничение по времени реализации отдельных процессуальных прав в ходе осуществления правосудия в ряде случаев может привести к формализму. Для предотвращения необоснованного и субъективного затягивания судебных процессов необходимо проведение определённых законодательных реформ в сфере установления сроков проведения экспертизы, создание системы электронной экспертизы, дальнейшее укрепление научно-технического обеспечения экспертной деятельности, внедрение цифровых технологий, разработка механизмов устранения субъективного подхода судей и других участников процесса к продлению разбирательства, повышение функциональности электронной системы распределения дел в судах по отношению к сложным делам, внедрение в законодательство и практику приоритетного рассмотрения дел, разработка критериев для сложных дел в соответствии с практикой Европейского суда по правам человека, а также реализация мер по цифровизации судебных архивов.*

**Ключевые слова:** *разумный срок, затягивание процесса, сложность дела, приоритетное рассмотрение дел, электронная экспертиза.*

**Redaksiyaya daxil olma tarixi: 09.06.2025**
**Çapa qəbul: 25.12.2025**

** Доктор юридических наук / Профессор кафедры Право Национальной Академии Авиации / Заведующий кафедрой Академии юстиции Министерства юстиции Азербайджанской Республики / email: matanatasgarova@yahoo.com

***Mehdi Abdullayev.*** Kiberhücumların silahlı münaqişə kimi qiymətləndirilməsi: beynəlxalq hüquq normaları əsasında araşdırma // Azərbaycan Hüquq Jurnalı. 2025 (№3), s. 28-37.
DOI: 10.61638/KQRM1533

# BEYNƏLXALQ CİNAYƏT HÜQUQU

## KİBERHÜCUMLARIN SİLAHLI MÜNAQİŞƏ KİMİ QİYMƏTLƏNDİRİLMƏSİ: BEYNƏLXALQ HÜQUQ NORMALARI ƏSASINDA ARAŞDIRMA

MEHDİ ABDULLAYEV*

**Annotasiya**

*Məqalədə kiberhücumların silahlı münaqişə kimi qiymətləndirilməsi beynəlxalq hüquq normaları əsasında (BMT Nizamnaməsi, Müharibə qurbanlarının müdafiəsi haqqında Cenevrə Konvensiyaları və Əlavə Protokollar, Tallin Təlimatları və s.) təhlil edilir. Məlum olduğu kimi, beynəlxalq hüquqi tənzimləmənin əsas məqsədini BMT Nizamnaməsində nəzərdə tutulduğu kimi, beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək təşkil edir. Müasir cəmiyyətin rəqəmsallaşması, kibermәkanın sərhədlərinin bəlli olmaması bu məqsədin yerinə yetirilməsində tamamilə yeni məsələləri gündəmə gətirir. Belə ki, kibermәkanda törədilən hər hansı bir kiberhücumla nəinki bir dövlətə, hətta eyni anda bir neçə dövlətə müxtəlif iqtisadi, siyasi və digər ziyan vurmaq mümkündür. Bu gün hər hansı bir dövlətin kritik informasiya infrastrukturuna yönəlmiş kiberhücumla həmin dövlətin fəaliyyətini "iflic" etmək çox asan və rahat idarə olunan qanunsuz fəaliyyətə çevrilmişdir. Hazırda isə bu təhlükələr daha da artmaqdadır. Təqdim olunan məqalənin başlıca məqsədi kiberhücumlar zamanı beynəlxalq hüququn üzləşdiyi çətinliklərə həll yolu təklif etməkdir. Bu məqsədlə kiberhücumların və kiberhücumçuların anlayışı və əsas xüsusiyyətləri araşdırılmış, beynəlxalq sənədlər əsasında kiberhücumun silahlı münaqişə kimi qiymətləndirilməsi mümkünlüyü tədqiq olunmuşdur. Eyni zamanda, bir sıra mühüm beynəlxalq sənədlərin müddəalarına və beynəlxalq təşkilatların rəylərinə ("bərk" və "yumşaq" hüquq normaları) müqayisəli formada müraciət edilmişdir. Araşdırmanın sonunda kiberhücumların özünün də düşmənçilik xarakteri daşıyan davranış olması nəticəsinə gəlinərək, onların silahlı münaqişələr qədər təhlükəli olması və dövlətlərin bu cür hücumlardan özünümüdafiə hüququna malik olması irəli sürülmüşdür.*

**Açar sözlər:** *kibermәkan, kiberhücum, silahlı münaqişə, silahlı hücum, özünümüdafiə hüququ, kiberəməliyyat, kibercasusluq, kiberaktivizm, BMT Nizamnaməsi, Tallin Təlimatı.*

### *I. Giriş*

Nəhəng texnoloji təhlükəsizlik şirkətlərindən olan Kasperskinin məlumatına görə, qlobal kibertəhdidlər sürətlə inkişaf etməyə davam edir və hər il məlumat sızmalarının sayı artır. RiskBased Security-in hesabatında deyilir ki,

* Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akaddemiyası hüquq elmləri doktoru / email: mehdi.k.abdullayev@gmail.com

təkcə 2019-cu ilin ilk doqquz ayında məlumat sızmaları nəticəsində şokedici 7,9 milyard qeyd aşkar edilmişdir. Bu rəqəm 2018-ci ilin eyni dövründə aşkarlanan qeydlərin sayından iki dəfədən çoxdur (112%) [5].

Kibertəhdidin miqyasının artmağa davam etməsi ilə kibertəhlükəsizlik hallərinə qlobal xərclər təbii olaraq artır. Gartner kibertəhlükəsizlik xərclərinin 2023-cü ildə 188,3 milyard dollara çatacağını və 2026-cı ilə qədər qlobal miqyasda 260 milyard dolları keçəcəyini proqnozlaşdırır. Dünyanın hər yerində dövlətlər artan kibertəhdidlərə təşkilatlara səmərəli kibertəhlükəsizlik təcrübələrini tətbiq etməyə kömək etmək üçün tədbirlər görməkdə davam edirlər. Məsələn, ABŞ-da Milli Standartlar və Texnologiya İnstitutu (NIST) kibertəhlükəsizlik çərçivəsi yaratmışdır. Zərərli kodun yayılmasının qarşısını almaq və erkən aşkarlanmasına kömək etmək üçün çərçivə bütün elektron resursların davamlı, real vaxt rejimində monitorinqini tövsiyə edir [10]. Sistem monitorinqinin əhəmiyyəti Böyük Britaniya hökumətinin Milli Kiber Təhlükəsizlik Mərkəzi tərəfindən təqdim edilən "Kibertəhlükəsizliyə 10 addım" təlimatında öz əksini tapır [1]. Avstraliyada Avstraliya Kiber Təhlükəsizlik Mərkəzi (ACSC) təşkilatların ən son kibertəhlükəsizlik təhdidlərinə necə qarşı çıxa biləcəyi barədə müntəzəm olaraq təlimatlar dərc edir [9]. Respublikamızda bununla bağlı Azərbaycan Respublikasının Milli Kibertəhlükəsizlik Mərkəzi [6] uğurla öz fəaliyyətini davam etdirir. Lakin kibertəhdidlərin daim artması və kiberhücumlar zamanı tətbiq olunan üsul və metodların yenilənməsi kibertəhlükəsizlik strategiyalarının operativliyini və davamlılığını tələb edir. Kibertəhlükəsizlik sahəsində tədbirlərin sayı artsa da, kiberhücumlar dövrümüzün ən böyük probleminə çevrilmişdir. Artıq bu hücumların təhlükəsi o həddə çatmışdır ki, onların silahlı hücum kimi qiymətləndirilməsi ilə bağlı tənzimləmələr aparılmaqdadır.

## *II. Kiberhücumların anlayışı*

İnformasiya Texnologiyaları Sistemləri (İT Sistemləri) bu gün nadir hallarda təcrid olunmuş şəkildə istifadə olunur; onlar adətən qlobal şəbəkəyə qoşulur. İT sistemləri arasında ünsiyyət ümumiyyətlə yerli və qlobal şəbəkələr, məsələn, İnternet və ya mobil radio şəbəkələri vasitəsilə baş verir. Məlumat şəbəkəsinə daim qoşulmayan demək olar ki, bütün kompüterlər zaman-zaman yeni məlumatlarla təmin olunur, məsələn, məlumat daşıyıcısından istifadə edərək yeni məlumat ehtiyatları və ya yeni proqram versiyaları idxal edildikdə. Daha əvvəl qeyd etdiyimiz kimi, qlobal miqyasda əlaqə quran bütün bu İT sistemləri kiberməkan adlanır. Getdikcə daha çox İT rabitə əlaqələrinin dəyişdiyi İnternet kiberməkanın əhəmiyyətli bir hissəsidir. Bununla belə, bir çox digər şəbəkə strukturları da dünya miqyasında geniş istifadə olunur. Buna baxmayaraq, qlobal şəbəkələrin imkanlarından da cinayətkarlar tərəfindən zərərli fəaliyyətlər üçün sui-istifadə olunur. Kiberhücum, kiberməkan əsas hücum vasitəsi kimi istifadə edildikdə və ya özü hücumun hədəfi olduqda baş verir. Çoxsaylı müxtəlif hücum hədəflərinə və potensial hücum metodlarına baxmayaraq, kiberhücumun

arxasındakı motivasiya çox vaxt pul, məlumat toplamaq, təxribatdan tutmuş siyasi maraqlara təsir etmək və ya onları müdafiə etmək qədər dəyişə bilər.

Kibertməkanda qəsdən hərəkət edən hücumçuları aşağıdakı qruplara bölmək olar:

*Kiberfəallar.* Bunlar kiberhücumlardan siyasi, sosial, iqtisadi və ya texniki idarəetmənin pozulmasına diqqət çəkmək və ya bu məsələyə tələbi gücləndirmək üçün istifadə edən hücumçulardır (haktivizm). Hücumun arxasındakı motivasiya təsirlidir. Kiberhücumun vurduğu zərər etiraf edilir və ya daha çox diqqəti cəlb etməyə məcbur edilir. Sosial məsələlərə diqqət yetirən hakerlər qrupu sözdə etik hakerlərdir (xeyirxah hakerlər). Bu aktivizm forması 1990-cı illərin əvvəllərindən bəri inkişaf etmiş, əvvəlcə e-poçt və mesaj lövhələrinin artması ilə məşhurluq qazanmış, daha sonra isə sosial media və video paylaşma saytları vasitəsilə genişlənmişdir. Əsas fəaliyyətlərə ianə toplama, tədbirlərin təşkili və bloqlar, podkastlar və e-poçt kampaniyaları vasitəsilə maarifləndirmənin yayılması daxildir. Kiberaktivizmdəki əhəmiyyətli mərhələlərə 2000-ci il ABŞ prezident seçkilərindən sonra VoterMarch-ın səfərbərlik səyləri və Facebook və Twitter kimi platformaların real vaxt rejimində etirazların təşkilində və təcrübələrin paylaşılmasında əsas rol oynadığı Ərəb Baharı zamanı sosial medianın geniş istifadəsi daxildir [4].

*Kibercinayətkarlar.* Kibercinayətkarların motivasiyası informasiya texnologiyalarından istifadə edərək qanunsuz olaraq pul qazanmaqdır. Spektr mütəşəkkil kibercinayətkarlıqdan az zərərli sadə cinayətkarlığa qədər dəyişir. Kibercinayətkarların bir növü də kiberterrorçulardır ki, onlar müxtəlif hədəflərə hücum etmək üçün kiberhücumlardan istifadə edə və bununla da ideologiyalarını yaya və təsirlərini artıra bilərlər.

*Kibertməkanda iqtisadi və siyasi casuslar.* İnternetin üstünlükləri casuslar üçün yeni imkanlar yaradır. Sənaye casusluğu və rəqabətli casusluq maliyyə maraqlarına xidmət edir. Rəqiblər və onların məhsulları haqqında daxili məlumatlar qlobal rəqabətdə maliyyə üstünlükləri təmin edir. İqtisadi casusluqdan fərqli olaraq, dövlət kəşfiyyat xidmətlərinin kiberhücumları əsasən sırf maliyyə maraqlarından daha çox məlumat toplamağa və təsir göstərməyə xidmət edir.

### *III. Kiberhücumların silahlı münaqişə kimi qiymətləndirilməsi*

Kiberhücumun silahlı münaqişə kimi qiymətləndirilməsi məsələsi son dövrlərin aktual problemlərindən biridir. Əsas qarşıya qoyulan sual bu cür hücumların silahlı münaqişə üçün müəyyən olunmuş meyarlara cavab verib-verməməsidir. Qeyd etməliyik ki, uzun müddət silahlı münaqişənin mövcudluğu müharibə elan edilməsi və ya müharibə vəziyyətinin tanınması kimi formal meyarların təsdiqlənməsi ilə şərtlənirdi. 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsi haqqında Birinci Cenevrə Konvensiyasının 2-ci maddəsinin təfsirinə əsasən, silahlı münaqişə silahlı qüvvələr üzvlərinin müdaxiləsinə səbəb olan iki dövlət arasında hər hansı bir mübahisə kimi müəyyən edilir [2]. Silahlı münaqişənin mövcudluğu beynəlxalq humanitar hüququn tətbiqini zəruri edir. Daha dəqiq desək, beynəlxalq humanitar hüquq münaqişədə müharibə edən tərəflər arasında hərbi

əməliyyatların aparılmasını tənzimləyir. Cenevrə Konvensiyalarına Əlavə Protokol I-nin 49-cu maddəsinə görə, təcavüz (hücum) düşmənə qarşı hücum və ya müdafiə məqsədləri üçün zorakılıq aktı kimi müəyyən edilir. Əlavə Protokol I-nin 48-ci maddəsindəki izahata görə, əməliyyat dedikdə, zorakılığın istifadə edildiyi hərbi əməliyyatlar başa düşülür. Protokolun hücumlarla bağlı müddəaları münaqişə tərəfinə məxsus olan, lakin qarşı tərəfin nəzarəti altında olan milli ərazi də daxil olmaqla, aparılan istənilən ərazidə baş verən bütün hücumlara şamil edilir. Sadəcə olaraq, bu maddədəki "hər hansı quru, hava və ya dəniz müharibəsi" ifadəsi kibermüharibəni ehtiva edə bilərmi? – Cenevrə Konvensiyaları və Protokollarından çıxış etsək, bu sənədlər qeyri-kinetik əməliyyatları istisna edir. Təcavüz anlayışına təbliğat əməliyyatları, embarqolar və ya digər iqtisadi və ya psixoloji müharibə vasitələri daxil deyil. Belə olduğu təqdirdə, kiberhücumlar beynəlxalq hüququn əhatə dairəsindən çıxarılmalıdırmı? – Əslində, bu sualın cavablandırılması üçün silahlı münaqişəyə dair meyarlar tam nəzərdən keçirilməlidir.

Ümumilikdə, beynəlxalq humanitar hüquq əhalini və mülki obyektləri qorumağı hədəflədiyindən, burada əməliyyatların mülki əhaliyə təsirindən asılı olaraq, kinetik olub-olmamasından asılı olaraq nəticəyə yönəlmiş yanaşma tətbiq edilməlidir. Buna görə də, bu təfsir yeni deyil, çünki kimyəvi və ya bioloji silahların istifadəsi zərərli nəticələrinə görə həmişə kinetik olmasa belə, hücum hesab edilmişdir. Eynilə, kiberhücum təbiətcə zorakı olmasa belə, ağır nəticələrinə görə hücum və ya düşmənçilik aktı kimi təsnif edilə bilər. Məsələn, böyük bir hava limanında hava nəqliyyatının idarəetmə sisteminə edilən kiberhücum beynəlxalq humanitar hüquqa tabe olardı. Əksinə, universitetə və ya ticarət mərkəzinin veb-saytına hücum beynəlxalq hüququn pozulması adlandırılmaq üçün kifayət etməzdi. Bəs sadəcə bir obyektin funksiyasını pozan və görünən fiziki zərər vermədən zərər verməyən kiberəməliyyatlar "düşmən davranışı" kimi qiymətləndirilə bilərmi? – Qeyd etməliyik ki, hələ 2019-cu ildə Beynəlxalq Qızıl Xaç Komitəsi bu kimi məsələlərlə bağlı öz münasibətini bildirmişdir. Belə ki, "Silahlı münaqişələr zamanı beynəlxalq humanitar hüquq və kiberəməliyyatlar" adlı mövqe sənədində [3] qeyd olunur ki, silahlı münaqişə zamanı kiber əməliyyatların istifadəsi digər müharibə vasitələri və ya metodlarının təklif etmədiyi alternativlər təklif edə bilər, lakin eyni zamanda risklər də daşıyır. Bir tərəfdən, kiberəməliyyatlar silahlı münaqişə tərəflərinə mülki şəxslərə zərər vermədən və ya mülki infrastruktura fiziki ziyan vurmadan hərbi məqsədlərinə çatmaq imkanı vermək potensialına malikdir. Digər tərəfdən, əsasən silahlı münaqişə kontekstindən kənarda aparılan son kiberəməliyyatlar göstərir ki, təcrübəli subyektlər mülki əhaliyə vacib xidmətlərin göstərilməsini pozmaq qabiliyyətini inkişaf etdirmişlər. Kiberəməliyyatlar vasitəsilə müharibə edən tərəflərin sistemə daxil olması və məlumatları toplaması, çıxarması, dəyişdirməsi, şifrələməsi və ya məhv etməsi mümkündür. Həmçinin, pozulmuş kompüter sistemi tərəfindən idarə olunan prosesləri məhv etmək, dəyişdirmək və ya başqa şəkildə manipulyasiya etmək mümkündür.

Ümumiyyətlə, hər hansı bir davranış müəyyən bir aqressiv hərəkət həddinə çatdıqda və ya hərəkətin bu cür nəticələrə səbəb olacağına dair obyektiv ehtimal olduqda, düşmənçilik əlamətinin mövcud olması qəbul edilir [3]. Tallin 2.0 Təlimatının hazırlanmasında iştirak edən bəzi (azlıq) ekspertlər hesab edirlər ki, komponentin dəyişdirilməsini deyil, məlumatların bərpasını tələb edən bir obyektin funksionallığının itirilməsinə səbəb olan kiberəməliyyat düşmənçilik hərəkəti təşkil edir. Bu mütəxəssislərə görə, funksionallığın itirilməsinin maddi və ya mənəvi mənşəyi əhəmiyyətsizdir, vacib olan zərəri təşkil edən sonuncudur [8].

"Düşmənçilik" anlayışına "hərbi əməliyyatlara və ya digər tərəfin hərbi potensialına istənilən səviyyədə birbaşa zərər vurmaqla silahlı münaqişədə bir tərəfi dəstəkləmək üçün xüsusi olaraq həyata keçirilən bütün zorakı və qeyri-zorakı fəaliyyətlər" daxildir. Başqa sözlə, düşmənçilik hərəkətlərinə düşmənin hərbi imkanlarına mane olan hərəkətlərlə yanaşı, zorakı nəticələrə səbəb olan hərəkətlər də daxildir. Məsələn, elektrik enerjisini və ya rabitəni kəsmək düşmənçiliyin bir hissəsidir. Digər tərəfdən, qarşı tərəfə dolayı yolla təsir edən hər hansı bir davranış müharibə səylərinin bir hissəsi olsa da, düşmənçilik təşkil etmir. Əsgərlərin təlimi, müharibə üçün maliyyə resurslarının səfərbər edilməsi və ya silah istehsalı da düşmənçilik təşkil etməyən hərəkətlər arasındadır. Ona görə də kiberəməliyyatlar hərbi hədəfi "neytrallaşdırmaq" təsiri göstərərsə, beynəlxalq humanitar hüququn tənzimləmə dairəsinə düşə bilər.

Tallin 2.0 Təlimatının 14-cü Qaydası kiberhücumun silahlı münaqişə ilə əlaqəliliyini aşağıdakı meyarlar əsasında müəyyənləşdirmişdir [7]:

- Qanunsuzluq. Dövlətlər beynəlxalq səviyyədə qanunsuz hərəkətlərinə görə məsuliyyət daşıyır [11]. Beynəlxalq səviyyədə qanunsuz hərəkət elə bir hərəkət və ya hərəkətsizlikdir ki, hər ikisi: (1) həmin dövlətə tətbiq edilən beynəlxalq hüquqi öhdəliyin pozulmasını təşkil edir; və (2) beynəlxalq hüquqa əsasən dövlətə aid edilir. Hər iki elementin olmaması dövlətin sözügedən hərəkətə görə məsuliyyətini istisna edir. Kiberməkanda beynəlxalq səviyyədə qanunsuz hərəkət ya sülh dövrünü tənzimləyən qaydaların, ya da silahlı münaqişədə tətbiq olunan qaydaların pozulmasından ibarət ola bilər. Məsələn, sülh dövründə sahil dövlətinə qarşı ərazi dənizində yerləşən gəmidən kiberəməliyyatlar aparan dövlət günahsız keçid rejimini pozur (Qayda 48). Əgər dövlət silahlı münaqişə zamanı mülki obyektlərə qarşı kiberhücumlar (Qayda 92 və 100) həyata keçirirsə, o, silahlı münaqişə qanununu (Qayda 99) pozur və beləliklə, beynəlxalq səviyyədə qanunsuz hərəkət törətmiş olur.

- Coğrafi məkandan asılı olmama. Ümumi məsələ olaraq, kiberəməliyyatın beynəlxalq səviyyədə qanunsuz xarakteri onun başladığı coğrafi yerdən asılı deyil. Məsul dövlət öz ərazisindən, zərər çəkmiş dövlətin ərazisindən, başqa bir dövlətin ərazisindən, açıq dənizlərdən, beynəlxalq hava məkanından və ya kosmosdan beynəlxalq hüquqi öhdəliyin pozulmasını təşkil edən kiberəməliyyatlar həyata keçirə bilər. Xəbərdarlıq edilməlidir ki, müəyyən beynəlxalq səviyyədə qanunsuz hərəkətlər, xüsusən də kosmos, hava məkanı və

dənizlə bağlı coğrafi cəhətdən asılıdır. Misal üçün, keçid rejiminin pozulması (Qayda 48) müvafiq gəminin əməliyyat zamanı sahil dövlətinin ərazi dənizində kiberəməliyyat aparmasını tələb edir. Beynəlxalq hüquqi öhdəliyin pozulmasına əlavə olaraq, kiberhücumlarla əlaqəli hərəkətlər bu Qaydanın əhatə dairəsinə düşmək üçün konkret dövlətə aid edilməlidir.

BMT Nizamnaməsinin 51-ci maddəsi heç bir konkret silaha istinad etmədiyi üçün bu maddə baxımdan, hücumun ənənəvi vasitələrlə və ya kiber vasitələrlə həyata keçirilməsində heç bir fərq yoxdur. Eyni zamanda, Tallin Təlimatının 13-cü Qaydasına görə, silahlı hücum səviyyəsinə yüksəlmiş kiber əməliyyatın hədəfi olan dövlət özünümüdafiə hüququndan istifadə edə bilər. Kiber əməliyyatın silahlı hücum təşkil edib-etməməsi onun miqyasından və təsirlərindən asılıdır [7, Qayda 13]. Bildiyimiz kimi, hər hansı əşyanın silah kimi qəbul olunması üçün əsas meyarlar istifadə məqsədi, təyinatı və yaratdığı təsirdir. Buna görə də insan həyatına və/və ya əmlakın məhv edilməsinə səbəb olan hər hansı bir cihazın istifadəsi silahlı hücum üçün kifayət qədər hesab edilməlidir. Praktikada əmlakın məhv edilməsinə və ya insan itkisinə səbəb olmadan əhəmiyyətli narahatlıq yaradan kiberhücum güc tətbiqi hesab edilə bilər, lakin silahlı hücum kimi təsnif edilmir. Yalnız bu təsirlərə nail olan kiberhücum silahlı hücum kimi təsnif edilə bilər və zərərçəkmiş dövlətin özünümüdafiə üçün güc tətbiqinə müraciət etmək hüququnu şərtləndirə bilər. Deməli, qəzaya səbəb olmaq məqsədi daşıyan hava nəqliyyatının idarəetmə sistemlərinə edilən kiberhücum silahlı hücum hesab ediləcək, çünki belə bir hücumun insan həyatının və əmlakının məhv edilməsi ilə nəticələnə biləcəyi proqnozlaşdırıla bilən nəticələr vardır.

Kiberhücumun nəticələri fiziki olmadığı halda, 51-ci maddənin mənasında silahlı hücum təşkil edib-etməməsi mübahisəlidir. Məsələn, maliyyə mərkəzlərini hədəf alan kiberhücum əmlaka və ya fərdlərə birbaşa fiziki zərər vurmayacaqdır. Hədəfə əsaslanan yanaşmanı dəstəkləyənlər üçün kiberhücum fiziki ziyana səbəb olub-olmamasından asılı olmayaraq, vacib infrastrukturu hədəf aldığı və onu sıradan çıxarmağa çalışdığı andan etibarən silahlı hücum kimi xarakterizə edilə bilər. Estoniyada baş verən kiberhücum praktikası bir daha təsdiq etdi ki, təcrübədə fiziki zərər müşahidə edilmədiyi halda kiberhücumun silahlı hücum kimi qiymətləndirilməsi mümkün olmur.

Silahlı hücum müşahidə edildikdən sonra güc tətbiq etmək istəyən dövlət iki şərti yerinə yetirməlidir: cavab tədbirləri zəruri və mütənasib olmalıdır; silahlı hücum ya davam edən, ya da qaçılmaz olmalıdır. Silahlı hücuma cavab olaraq kibermüdafiədə güc tətbiq edildikdə, qeyd olunan şərtlər müdaxilənin ənənəvi metodlarla həyata keçirilməsi ilə eyni şəkildə yerinə yetirilməlidir. Buna görə də güc tətbiqinə bərabər olan kiberəməliyyatlar yalnız zəruri və mütənasib olduqda qanuni sayılacaqdır. Ona görə də dövlət özünü firewall kimi passiv kibermüdafiə tədbirləri ilə müdafiə edə bilirsə və ya güc tətbiq etmək həddinin altında aktiv tədbirlər görə bilirsə, özünümüdafiədə güc tətbiqi əsaslandırılmır. Mütənasiblik prinsipi güc tətbiqinin əhatə dairəsini, müddətini və intensivliyini silahlı hücuma son qoymaq

üçün zəruri olanla məhdudlaşdırır. Bu, istifadə edilən gücün özünümüdafiə vəziyyətinə səbəb olan hərəkətlə eyni miqyasda və ya təbiətdə olması demək deyil.

Bəzən dövlətlərin özünümüdafiə hüquqlarını həyata keçirmək istədikdə kiber tədbirlər görməli olduqları düşünülə bilər, çünki bunlar potensial olaraq silahlı təcavüzə ənənəvi tədbirlərdən daha az zərərlə son qoya bilər. Məsələn, fərdi olaraq silahlı hücum təşkil etməyən çoxsaylı paylanmış xidmətdən imtina hücumlarından ibarət kiber kampaniya kollektiv olaraq silahlı hücum kimi xarakterizə edilə bilər. Zərər çəkmiş dövlət məsul dövlətə qarşı tək bir kiberhücum etməklə cavab verə bilər. Özünümüdafiə əməliyyatı, həmçinin silahlı hücumun təsirlərinin artıq yarandığını və ya yaranma prosesində olduğunu nəzərdə tutur. Ona görə də kiberhücum artıq silahlı hücuma bərabər təsirlər yaratdıqda və ya bu cür təsirlər hazırda tətbiq edildikdə güc tətbiqi qanunidir.

## *IV. Nəticə*

Beləliklə, Beynəlxalq Qızıl Xaç Komitəsi üçün beynəlxalq humanitar hüququn silahlı münaqişə zamanı kiberəməliyyatlara tətbiq edilməsi və buna görə də onları məhdudlaşdırması şübhəsizdir. Bu mövqe adıçəkilən sənəddə iki aspektdən əsaslandırılır. Birincisi, silahlı münaqişədə yeni və ya köhnə olsun, istənilən digər silah, vasitə və müharibə metodlarının istifadəsi beynəlxalq humanitar hüququn tənzimetmə dairəsinə düşdüyü üçün kiberməkanın hava, quru, dəniz və kosmosa bənzər yeni bir müharibə sahəsi kimi qəbul edilməsindən asılı olmayaraq, əhəmiyyətli zərər vuran kiberəməliyyatlar silahlı münaqişə ilə bərabər tənzimlənməlidir. İkincisi, Komitə kiberəməliyyatları üsul və vasitə kimi qiymətləndirildiyi üçün Beynəlxalq Ədalət Məhkəməsinin Nüvə silahları ilə təhdid və ya istifadənin qanuniliyi haqqında Məsləhət Rəyinə istinad edir: Silahlı münaqişədə tətbiq olunan beynəlxalq humanitar hüququn müəyyən edilmiş prinsipləri və qaydaları gələcəyin silahları da daxil olmaqla, bütün müharibə formalarına və bütün növ silahlara tətbiq olunur və bu, silahlı münaqişə zamanı kiberəməliyyatların istifadəsinə də aiddir.

## ƏDƏBİYYAT (REFERENCES):

1. 10 Steps to Cyber Security: URL:https://www.ncsc.gov.uk/files/NCSC%2010%20Steps%20To%20 Cyber%20Security%20NCSC.pdf (last access: 15.07.2025).
2. Convention (I) for the Amelioration of the Condition of the Wounded and Sick in Armed Forces in the Field. Geneva, 12 August 1949. URL: https://ihl-databases.icrc.org/en/ihl-treaties/gci-1949 (last access: 15.07.2025).
3. ICRC position paper. International Humanitarian Law and Cyber Operations during Armed Conflicts. URL: https://www.icrc.org/en/document/international-humanitarian-law-and-cyber-operations-during-armed-conflicts (last access: 15.07.2025).

4. Internet activism. URL: https://www.ebsco.com/research-starters/social-sciences-and-humanities/internet-activism (last access: 15.07.2025).
5. Kaspersky. What is Cybersecurity? Definition, Types, and Tips. URL: https://www.kaspersky.com/resource-center/definitions/what-is-cyber-security (last access: 15.07.2025).
6. National Cybersecurity Center of the Republic of Azerbaijan (in Azerbaijani / *Azərbaycan Respublikasının Milli Kibertəhlükəsizlik Mərkəzi*). URL: https://ncsc.gov.az/main-page (last access: 15.07.2025).
7. Tallinn Manual 2.0 On the international law applicable to cyber operations. Prepared by the International Groups of Experts at the Invitation of the NATO Cooperative Cyber Defence Centre of Excellence. URL:https://ilmc.univie.ac.at/fileadmin/user_upload/p_ilmc/Bilder/Bewerbung/Case_2/Michael_N._Schmitt_-_Tallinn_Manual_2.0_on_the_International_Law_Applicable_to_Cyber_Operations-Cambridge_University_Press__2017_.pdf (last access: 15.07.2025).
8. Tallinn Manual 2.0 on the International Law of Cyber Operations: What It Is and Isn’t. URL: https://www.justsecurity.org/37559/tallinn-manual-2-0-international-law-cyber-operations/ (last access: 15.07.2025).
9. The Australian Cyber Security Centre (ACSC). URL: https://www.cyber.gov.au/ (last access: 15.07.2025).
10. The NIST Cybersecurity Framework (CSF) 2.0. URL: https://www.nist.gov/cyberframework (last access: 15.07.2025).
11. UN GGE. Articles on State Responsibility. URL:https://legal.un.org/ilc/texts/instruments/english/commentaries/9_6_2001.pdf (last access: 15.07.2025).

## Assessment of cyberattacks as armed conflict: a study based on international law

MEHDI ABDULLAYEV*

### Abstract

*The article examines the qualification of cyberattacks as armed conflicts under international legal norms (the UN Charter, the Geneva Conventions and their Additional Protocols, the Tallinn Manuals, and others). As is known, the main goal of international legal regulation is to ensure international peace and security, as stipulated in the UN Charter. The digitalization of modern society and the lack of clarity of the boundaries of cyberspace raise completely new issues*

* Doctor of Legal Sciences, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / email: mehdi.k.abdullayev@gmail.com

*in the implementation of this goal. Thus, any cyberattack committed in cyberspace can cause various economic, political and other damages not only to one state, but even to several states at the same time. Today, "paralyzing" the activities of any state with a cyberattack aimed at the critical information infrastructure of that state has become a very easy and easily controlled illegal activity. At present, these threats are further increasing. The main goal of the presented article is to propose a solution to the difficulties faced by international law during cyberattacks. For this purpose, the concept and main characteristics of cyberattacks and cyberattackers were examined, and the possibility of assessing a cyberattack as an armed conflict based on international documents was studied. At the same time, a comparative analysis is undertaken of the provisions of a number of important international instruments and the positions of international organizations (hard law and soft law norms). At the end of the study, it was concluded that cyberattacks themselves are hostile behavior, and it was argued that they are as dangerous as armed conflicts and that states have the right to self-defense against such attacks.*

**Keywords:** *cyberspace, cyberattack, armed conflict, armed attack, the right of self-defence, cyberoperation, cyberespionage, cyberactivism, UN Charter, Tallinn Manual.*

## Квалификация кибератак как вооружённого конфликта: исследование на основе норм международного права

МЕХДИ АБДУЛЛАЕВ*

### Резюме

*В статье на основе норм международного права (Устав ООН, Женевские конвенции о защите жертв войны и Дополнительные протоколы к ним, Таллиннское руководство и др.) анализируется вопрос квалификации кибератак как вооружённого конфликта. Как известно, основной целью международно-правового регулирования, как это предусмотрено Уставом ООН, является обеспечение международного мира и безопасности. Цифровизация современного общества и отсутствие чётких границ киберпространства выдвигают принципиально новые проблемы в реализации этой цели. Так, посредством любой кибератаки, совершённой в киберпространстве, возможно причинение различного экономического, политического и иного ущерба не только одному государству, но и одновременно нескольким государствам. На сегодняшний*

* Доктор юридических наук, Академия государственного управления при Президенте Азербайджанской Республики / email: mehdi.k.abdullayev@gmail.com

*день кибератака, направленная на критическую информационную инфраструктуру какого-либо государства, с целью «парализации» его деятельности, превратилась в легко осуществляемую и удобно управляемую противоправную деятельность. В настоящее время данные угрозы продолжают возрастать. Основной целью представленной статьи является предложение путей решения проблем, с которыми сталкивается международное право в условиях кибератак. С этой целью исследованы понятие и основные характеристики кибератак и киберпреступников, а также на основе международных документов изучена возможность квалификации кибератаки как вооружённого конфликта. Одновременно в сравнительном порядке проанализированы положения ряда важных международных документов и мнения международных организаций (нормы «жёсткого» и «мягкого» права). В заключение исследования сделан вывод о том, что сами кибератаки представляют собой поведение, носящее враждебный характер, в связи с чем они столь же опасны, как и вооружённые конфликты, а государства обладают правом на самооборону от подобных атак.*

**Ключевые слова:** *киберпространство, кибератака, вооружённый конфликт, вооружённое нападение, право на самооборону, кибероперация, кибершпионаж, киберактивизм, Устав ООН, Таллиннское руководство.*

**Redaksiyaya daxil olma tarixi: 25.07.2025**
**Çapa qəbul: 25.12.2025**

***Əsmər Əliyeva, Fərda Cabbarlı, Aygün Hacıyeva.*** Azərbaycan Respublikasında vergi işləri üzrə mübahisələrin həllinin yeni üsulu kimi vergi ombudsmanı institutu: qarşısına qoyulmuş məqsədlər, səmərəliliyinin və zəruruliyinin təhlili // Azərbaycan Hüquq Jurnalı. 2025 (№3), s. 38-54. DOI: 10.61638/LSJS6218

# AZƏRBAYCAN RESPUBLİKASINDA VERGİ İŞLƏRİ ÜZRƏ MÜBAHİSƏLƏRİN HƏLLİNİN YENİ ÜSULU KİMİ VERGİ OMBUDSMANI İNSTİTUTU: QARŞISINA QOYULMUŞ MƏQSƏDLƏR, SƏMƏRƏLİLİYİNİN VƏ ZƏRURULİYİNİN TƏHLİLİ

ƏSMƏR ƏLİYEVA*, FƏRDA CABBARLI**, AYGÜN HACIYEVA***

**Annotasiya**

*Vergi mübahisələri digər mübahisələrdən öz spesifik xüsusiyyətlərinə görə fərqlənirlər. Onların həlli üsullarını da ənənəvi və ənənəvi olmayan üsullar kimi qruplaşdıra bilərik. Ənənəvi üsullara vergi mübahisələrinin inzibati və məhkəmə qaydasında həll yolları daxildirsə, qeyri-ənənəvi üsullara mübahisələrinin alternativ həll yolları və vergi ombudsmanları institutlarını aid edə bilərik. Mübahisələrin alternativ həlli üsullarının seçilməsi hüquqi və fiziki şəxslərin şikayətlərinin hər zaman inzibati orqana və məhkəməyə deyil, digər qurumlara da ünvanlana bilməsinə şərait yaradır, mübahisələrin daha çevik həllinə xidmət edir, məhkəmələrin həddən artıq iş yükü ilə yüklənməsinin qarşısını alır. Bu məqalədə vergi ombudsmanı institutunun vergi mübahisələrinin həll üsulu kimi yaranması və inkişafı, müxtəlif ölkələrdə vergi ombudsmanı təsisatı modelləri, ölkəmizdə onun tətbiqi və zəruri olub-olmaması barədə danışacayıq. Vergi ombudsmanlığı institutu nəinki Azərbaycanda, həmçinin bütün dünyada nisbətən yeni institut olmaqla bərabər, tətbiqində də kifayət qədər çox mübahisəli məqamlar mövcuddur. Bir qrup tədqiqatçılar vergi ombudsmanlığı institutunun vergi mübahisələrinin həllində kifayət qədər səmərəli olmadığı qənaətindədirlər, bunu vergi ombudsmanının qərarlarının tövsiyə xarakterli olması, məcburi icraya yönəlməməsi ilə əlaqələndirirlər. Digər qrup müəlliflər vergi ödəyicilərinin hüquqlarının müdafiəsi kontekstində vergi ombudsmanlığı institutunun perspektivli və səmərəli bir təsisat olacağı qənaətindədirlər. Vergi ombudsmanlarının müstəqil təsisat kimi, yoxsa vergi administrasiyalarının struktur quumu kimi daha səmərəli olması bu mövzuda digər mübahisəli məqamdır. Məqalədə bu və digər məsələlər barədə geniş araşdırılma aparılmışdır.*

**Açar sözlər:** *vergi mübahisələri, vergidən yayınma, inzibati məhkəmələr, vergi ombudsmanı, büdcə daxilolmaları.*

---

* Hüquq üzrə fəlsəfə doktoru / dosent / Bakı Dövlət universiteti / Mülki proses və kommersiya hüququ kafedrasının müdiri / email: asmer_1985@yahoo.com

** Baş müəllim / Bakı Dövlət universiteti / Mülki proses və kommersiya hüququ kafedrasının müəllimi / email: farda.cabbarli@gmail.com

*** Hüquq üzrə fəlsəfə doktoru / Bakı Dövlət universiteti / Mülki proses və kommersiya hüququ kafedrasının müəllimi / email: aygunhajiyeva18@gmail.com

## *I. Giriş*

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 24.1.2-ci maddəsində deyilir ki, vergi orqanının əsas vəzifələrindən biri də vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini gözləmək və müdafiə etməkdir [12]. Bu vəzifəni icra edə bilmək üçün vergi qanunvericiliyi vergi ödəyicilərinə müxtəlif qanuni üsullardan istifadə etmək imkanı verir. Ombudsmanlar vergi ödəyicilərinin vergi inzibatçılığı ilə bağlı şikayətlərini verə biləcəyi müxtəlif qurumlar sırasındadır. Dünya praktikasında vergi ödəyicilərinin hüquqlarını qorumaq üçün ya ümumi ombudsman təsisatları, ya da sırf vergi mübahisələrinə baxan ombudsmanlar mövcuddur. Ümumi və ya ayrı-ayrı ombudsman institutları tərəfindən həyata keçirilə bilən bu araşdırma səlahiyyətlərini “vergi ombudsmanı” kimi xarakterizə etmək olar. Bu kontekstdə vergi ombudsmanı anlayışı bu tədqiqatda ayrıca bir ombudsman təsisatının və ya ümumi vəzifəli ombudsmanın səlahiyyətləri çərçivəsində vergi əməliyyatları ilə bağlı şikayətlərin araşdırılması fəaliyyəti kimi müəyyən edilmişdir [11, s. 379-402]

Ombudsman institutu 20-ci əsrin sonlarında yaranmış və bu yanaşmaların təcəssüm etdirdiyi fundamental dəyərlərlə əlaqələndirilmişdir. Vergi ombudsmanı vergi əməliyyatlarının miqyası və xarakteri baxımından ombudsman fəaliyyətinin digər araşdırma sahələrindən fərqlənən bir institutu təşkil edir. Dünya təcrübəsində vergi auditi sahəsində ombudsman tipli şuralar, vergi şikayətlərini qəbul edən xüsusi vəzifəli ombudsmanlar və ümumi vəzifəli ombudsmanlar mövcuddur. Vergi ombudsmanları fəaliyyət göstərdikləri ölkələrdə təkcə vergi əməliyyatları ilə bağlı şikayətləri qəbul edən qurum deyil; onun fəaliyyəti həmçinin vergi inzibatçılığının səmərəliliyinə xidmət edir.

Tədqiqatçılar hesab edir ki, vergi ödəyicilərinin hüquqlarının müdafiəsi məsələlərin ön plana çıxması ilə vergi məsələlərində ombudsman institutlarının yaranması arasında əlaqə mövcuddur.

## *II. Ombudsman və vergi ombudsmanı.*

*a) Ombudsman təsisatı.* Ombudsmanlar dövlət idarəçiliyinə nəzarət sahəsində fəaliyyət göstərən, klassik nəzarət üsullarından fərqli xüsusiyyətlərə malik, vətəndaş- dövlət münasibətlərinin səmərəliliyinə fokuslanan qurumdur. Ombudsman nəzarətinin əsas xüsusiyyətlərini müstəqillik, qərəzsizlik və məsləhət xarakterli qərarların qəbulu kimi sadalamaq olar. Müxtəlif dövlətlərin qanunvericilik modellərində təfərrüatlar fərqli ola bilsə də, ombudsman ümumilikdə heç bir orqanla bağlı olmadan və qərəzsizlik prinsipi çərçivəsində dövlət qurumlarının fəaliyyəti ilə bağlı istər öz təşəbbüsü, istərsə də vətəndaşların şikayətləri əsasında icraat başlayan qurumdur. Ombudmsan, araşdırmalardan sonra şikayət əsaslı hesab edilərsə, səhvin düzəldilməsi üçün məsləhət xarakterli qərarlar verə bilmək səlahiyyətlərinə malikdir [7, s. 36-40].

"Ombudsman" sözü isveç mənşəlidir, "vasitəçi" mənasını verən "ombuds" və "şəxs" mənasını verən "kişi" sözlərindən ibarətdir. Bu söz dilimizə "müvəkkil" kimi tərcümə olunmuşdur. Ombudsman həm də "nümayəndə", "məsləhətçi", "parlament komissarı", "ictimai vəkil", "vətəndaşın sözçüsü", "ictimai arbitr", "vasitəçi" və "müdafiəçi" mənalarını verir.

Ombudsman institutu ilk dəfə bu ad altında 1713-cü ildə İsveçdə yaradılmış hesab edilir. Qurum İsveçdə iki əsrə yaxındır ki, mövcuddur. Tətbiq edildikdən sonra ilk olaraq Skandinaviya ölkələri tərəfindən qəbul edilmişdir. Daha sonra konstitusiya təsisatı kimi İsveç Konstitusiyasına daxil edilmişdir. İsveçdən sonra ombudsmanı tətbiq edən ilk ölkə 1919-cu ildə Finlandiya olub. Bu prosesi 1955-ci ildə Danimarka, 1963-cü ildə Norveç və Yeni Zelandiya izlədi. Bu gün ombudsman institutu Böyük Britaniya, Fransa, Portuqaliya və Cənubi Afrika da daxil olmaqla 100-dən çox ölkədə tətbiq edilir. Ombudsman təsisatına bənzər institutlar dünyada 1970-ci illərdə çoxaldı. Avstriyada 1977, İspaniyada 1976, Portuqaliyada 1975, İrlandiyada 1984, Hollandiyada 1982 illərində yaradıldı.

Ombudsman ümumən fərdləri dövlət orqanlarından müdafiə edən qurumdur. Başqa bir tərifə görə, ombudsman "bir və ya bir neçə müstəqil dövlət məmurudur. məqsədi inzibati orqan qarşısında heç bir öhdəliyi olmayan şəxslər tərəfindən verilən şikayətlərə baxmaq, administrasiya tərəfindən törədilən ədalətsizlikləri ifşa etmək, səlahiyyətlərindən sui-istifadənin qarşısını almaq, qanunvericiliyə riayət edilməsini təmin etmək, qeyri-icbari tövsiyələr verməkdir".

Ombudsman təsisatı yaradıldığı hər bir ölkədə sosial, mədəni, dini və s., inzibati strukturlarından asılı olaraq fərqli şəkildə uyğunlaşdırılır. Bu, nəzəriyyəçilər üçün ona ümumi tərif yaratmağı çətinləşdirir. Bəzi təriflər ombudsman təsisatlarının ümumi xüsusiyyətlərinə əsaslanaraq verilmişdir. Bununla bağlı 1974-cü ildə yaradılmış Beynəlxalq Vəkillər Kollegiyası tərəfindən qəbul edilmiş tərif belədir: "Ombudsman konstitusiya, qanun və ya parlamentin qərarı ilə təsis edilmiş, parlament qarşısında hesabat verən, dövlət idarələrində çalışan dövlət qulluqçuları və işçiləri haqqında şikayətləri qəbul edən, bu şikayətlər üzrə və ya öz təşəbbüsü ilə fəaliyyət göstərən, araşdırma aparmaq, səhvləri düzəltmək üçün hesabatlar hazırlamaq, tövsiyələr vermək səlahiyyətinə malik müstəqil qurumdur [13, s. 101-136].

Türk mənbələri ombudsmanlıq institutunun qərbdə yaranmasına baxmayaraq, ideyasının şərdqdən, xüsusilə də Osmanlıdan gəldiyi qənaətindədirlər. Belə ki, türk müəllifləri qeyd edir ki, İsveç Kralı (Kral XII Çarlz və ya Hakim Karl) 1709-cu ildə Paltova döyüşündə məğlub olduqdan sonra Osmanlı İmperatorluğuna sığındı. Osmanlı İmperiyasında yaşadığı illərdə (1709-1714) Çarlz Kadı-Küdat təşkilatının təsiri altına düşdü. O zaman Osmanlı İmperiyasında Kadı-ül Kudat vəzifəsi yüksək təhsil rütbəsi olan şəxslərə verilirdi. Bu şəxslər, digər kadılardan fərqli olaraq, vəzifədən azad edilmirdilər. Bundan başqa, bu kadılar dövlətin ən yüksək rütbəli kadıları sayılır və bütün digər

kadılardan üstün sayılırdılar. Kadı-ül Kudatın vəzifəsi camaatın bir-biri ilə və dövlətlə münasibətlərini tənzimləməkdə məmurların, o cümlədən sultanın İslam qanunlarının tətbiqini təmin etmək idi [3, s. 9-60].

Türk müəllifləri hesab edir ki, qurumun bu xüsusiyyətlərindən təsirlənən VII Çarlz 1713-cü ildə verdiyi fərmanla idarəçilər və hakimlər tərəfindən Kralın qanunlara riayət etməsinə nəzarət etmək üçün "Högste Ombudsmannen" adlı bir məmur təyin etdi. Lakin bu müfəttişin rolu administrasiyaya deyil, hökumətin başçısı Kralın özünə aid idi. Buna baxmayaraq, bu müfəttişin təyin edilməsi administrasiyaya və məhkəmə sisteminə nəzarət istiqamətində ilk addım idi. Bu inkişaflardan sonra ombudsman sistemi vasitəsilə administrasiyaya nəzarət təcrübəsi bütün Avropa ölkələrində sürətlə yayıldı [3, s. 25-30].

*b) Vergi ombudsmanları.* Vergi mübahisələri üzrə ayrıca vergi ombudsmanına ehtiyac olmasını əsaslandıran müəlliflər hesab edir ki, vergi qanunvericiliyi iqtisadi, maliyyə və siyasi aspektləri olan, bütün cəmiyyətə birbaşa və ya dolayısı ilə təsir edən və özünəməxsus ixtisas statusu tələb edən subyektdir. Xüsusilə müasir dövrdə dövlətlərin artan vəzifələri və mürəkkəbliyi ilə fərdlərin hüquq və öhdəliklərinin müdafiəsi ilə bağlı administrasiya gücsüzləşir. Bundan əlavə, vergi qanunlarına və digər qanunvericilik aktlarına dəyişikliklərin monitorinqi getdikcə çətinləşir. Nəticə etibarı ilə vergi ödəyicilərinin və idarənin, yəni bu qanunları həyata keçirənlərin bütün qanunvericiliyi mənimsəməsi və ona uyğun fəaliyyət göstərməsi getdikcə çətinləşir. müəlliflər hesab edir ki, vergi ödəyicilərinin bu qarışıqlıq şəraitində hüquqlarını müdafiəsini təmin etmək və dövlət xəzinəsinə itkilərin qarşısını almaq üçün Vergi Ombudsmanı lazımdır.

Məlumdur ki, demokratiya ilə yaxşı idarəçilik arasında sıx əlaqə var. Yaxşı idarəçiliyin həyata keçirilməsi üçün ilkin şərtlərdən biri demokratik idarəetmədir. Əgər Ombudsman təsisatı ümumilikdə vətəndaşları administrasiyanın hüquqazidd əməllərindən, hərəkətlərindən və davranışlarından – yanlış idarəçilikdən qoruyursa, Vergi Ombudsmanı vergi ödəyicilərinin hüquqlarının müdafiəsində ön sıralardadır. Xüsusilə, vergi inzibatçılığından irəli gələn məsələlərin həlli zamanı o, vergi ödəyicilərinin nöqteyi-nəzərindən problem və şikayətləri həll etməyə çalışacaqdır.

İxtisaslaşmış Vergi Ombudsmanı institutunun yaradılmasına səbəb ümumi ombudsmanın həll etdiyi məsələlərin çoxluğu və müxtəlifliyidir. Odur ki, sürət, səmərəlilik, təcrübə, həssaslıq, vergi mübahisələrinin azaldılması və vergitutmanın özünəməxsus çətinlikləri və digər bu kimi səbəblər xüsusi və ayrıca vergi ombudsmanının yaradılmasını zəruri edir. Ombudsmanın təkcə vergitutma prosesinin hüquqi aspektlərini mənimsəməsi kifayət deyil. O, həmçinin vergitutmanın texniki aspektləri haqqında məlumatlı olmalıdırlar.

Vergi Ombudsmanı institutuna bənzər fərqli adlarla fərqli təsistları dönya praktikasında müşahidə etmiş oluruq. Məsələn, ABŞ-də 1979-cu ildə Vergi

ödəyicilərinin vəkili administrasiyası, 1993-cü ildə Böyük Britaniyada Arbitraj İdarəsi, 1995-ci ildə Avstraliyada Vergi Ombudsmanı, 1996-cı ildə İspaniyada Vergi Ödəyicilərinin Vəkilləri Şurası, 1996-cı ildə Kolumbiyada Taxpayer Advocate Council adı ilə, İtaliyada Taxpayer Advocate adı altında 1919-cu ildə yaradılmışdır. 2000-ci ildə vergi ödəyicisi vəkili, 2000-ci ildə Pakistanda Federal Vergi Ombudsmanı, 2006-cı ildə Banqladeşdə Vergi Ombudsmanı, 2006-cı ildə Meksikada Vergi Ödəyicisi vəkili, 2007-ci ildə Kanadada Vergi Ödəyicisi Ombudsmanı, 2007-ci ildə Cənubi Afrikada Vergi Ombudsmanı adı ilə vergi ödəyicisi vəkili təsisatları fəaliyyət göstərməyə başlamışlar [11, s. 45-50].

*Vergi ombudsmanlarının fəaliyyət formaları.* Vergi Ombudsmanı öz vəzifələrini bir sıra funksiyalar vasitəsilə yerinə yetirir. Vergi Ombudsmanının əsas funksiyalarının sırasında “vergi mübahisələrinin həlli” və “Gəlirlər inzibatçılığı ilə bağlı əməliyyatlara nəzarət” olmaqla yanaşı, “vergi ödəyicilərinin hüquqlarının qorunması”, “vergi ödəyicilərinə məsləhət xidmətlərinin göstərilməsi”, “vergi məsələləri ilə bağlı rəylərin bildirilməsi” və “vergi sisteminin təkmilləşdirilməsi” kimi digər mühüm funksiyalar da vardır.

1. Vergi mübahisələrinin həlli

Bəzi vergi ödəyiciləri qanuni hüquq və öhdəlikləri ilə bağlı qanuni qüvvəyə malik qərarlar almaq üçün məhkəmələrə müraciət etməyə üstünlük verirlər. Digər vergi ödəyiciləri isə məhkəməyə müraciət etmək əvəzinə, əlavə variantlar təklif edən ombudsmana müraciət etməyə üstünlük verirlər. Müəlliflər hesab edir ki, inzibati məhkəmələr yalnız administrasiyanın hərəkətlərinə və əməliyyatlarına nəzarət edir, administrasiyanın rəftar və davranışları bu zaman nəzarət çərçivəsindən kənarda qalır.

Məhkəmə nəzarətinin bu xüsusiyyətinə görə vergi ödəyiciləri narazı qalır, hətta bəzən idarəetmə və məhkəmə orqanlarına inamını itirir. Bununla belə, müəlliflər hesab edir ki, vergi ödəyiciləri ombudsmana müraciət etsələr, bir çox xərclər aradan qaldırılacaq və ümumilikdə nəticələr daha tez əldə edə bilir.

Bundan başqa, yenə həmin fikrin tərəfdarları hesab edir ki, ombudsmanın fəaliyyəti məhkəməyə nisbətən daha yumşaqdır və ombudsmanın tətbiq etdiyi “ədalət, qanun, ədalət və insan hüquqları” kimi meyarlar daha genişdir. İnzibati məhkəmə sistemindən fərqli olaraq, ombudsman qanuna əməl olunmasına nəzarət etməklə yanaşı, qanuna riayət olunmasını, yəni məqsədəuyğunluğu da həyata keçirir. Bu xüsusiyyətlərlə Vergi Ombudsmanı yaranan vergi mübahisələrinə daha sağlam və qənaətbəxş həllər təqdim edə bilir.

Vergi Ombudsmanının qəbul etdiyi qərarlar birbaşa administrasiya üçün məcburi xarakter daşımasa da, bu o demək deyil ki, ombudsmanın heç bir hüquqi əhəmiyyəti yoxdur. Ombudsmanın qərarları təbii ki, qəbul oluna və əsas götürülə bilər və ya vergi administrasiyasından lazımi tədbirlərin görülməsi tələb oluna bilər. Nəhayət, Vergi Ombudsmanı vergi mübahisələrinə müxtəlif həllər yaratmaq və ədalətliliyi təmin etmək üçün inandırma, tənqid və ictimai

məlumatlandırma kimi mənəvi sanksiyalardan istifadə edir. Bundan əlavə, Vergi Ombudsmanı həm vətəndaşlar, həm də administrasiya üçün məqbul olan qarşılıqlı həll yolu tapmaq üçün administrasiya ilə vergi ödəyicisi arasında vasitəçi kimi çıxış edir və potensial mübahisələrin həllində qərəzsiz qalır.

Vergi ombudsmanı vergi ödəyicilərinin etirazlarına baxmağa cavabdehdir. O, geniş çeşiddə mövcud olan məlumatlara, şahidlərə, ekspertlərə və müvafiq şəxslərə asan çıxışı təmin edir. O, hakimiyyət orqanlarını manipulyasiya etmək bacarığı kimi alətlərə malikdir. Bu növ yoxlama və nəzarət orqanı vergi ombudsmanına xüsusi səlahiyyət verir. Beləliklə, o, administrasiya qarşısında həssas vəziyyətdə olan vergi ödəyicilərini qoruyacaq, eyni zamanda administrasiyanın öz işini və əməliyyatlarını daha diqqətli və daha intizamla aparmasını təmin edəcək. Məsələn, əgər Vergi administrasiyası qanunsuz hərəkət edirsə, ombudsman ona xəbərdarlıq edə bilər, dəymiş ziyanın ödənilməsini tələb edə bilər. Vergi ödəyicisinin xeyrinə məhkəmə qərarı çıxarılanda bizdə administrasiyanın müqaviməti adi haldır. Bu halda əvvəllər oxşar işlərdə digər vergi ödəyicilərinin xeyrinə qəbul edilən qərarları nümunə göstərərək onun praktikasını dəyişdirməyi təklif edə bilər. Bu məsələlərdə Vergi Ombudsmanı institutunun təsirli olacağı müəlliflər tərəfindən qəbul edilir.

3. Vergi ödəyicilərinin hüquqlarının qorunması

Administrasiyaya, burada isə konkret olaraq, vergi administrasiyasına nəzarətdə parlament nəzarəti, daxili nəzarət və məhkəmə nəzarəti kimi ənənəvi vasitələr bəzən kifayət etmir.

Vergi Ombudsmanının əsas məqsədlərindən biri də vergi ödəyicilərinin hüquqlarını Vergi Administrasiyasına qarşı qorumaq və vergitutma sisteminin praktikasından şikayətlərə baxılmasıdır.

Vergi Ombudsmanı xüsusən də ənənəvi audit metodlarının olmadığı şəraitdə vergi inzibatçılığı əməliyyatlarının məqsədəuyğunluğuna nəzarət baxımından müsbət təsir göstərir, vergi Administrasiyasının həll etmək istəmədiyi və ya həll edə bilmədiyi problemlərə, vergi ödəyicilərinin hüquqlarının pozulduğu hallarda müdaxilə edir, bununla da onlara öz hüquqlarını həyata keçirməyə kömək edir. Vergi Ombudsmanının vergi ödəyicilərinin hüquqlarının müdafiəsinə cavabdeh olan orqan kimi qəbul edilməsi onun vergi məhkəmələrinin yükünün azaldılmasında effektiv roluna kömək edir.

Ümumiyyətlə, ombudsman ona müraciət edən vətəndaşlara onların problemləri ilə bağlı operativ və qənaətbəxş məlumatlar verir, demokratik dövlətlərin bu sahədə yol verdiyi nöqsanların aradan qaldırılmasına çalışır.

Yuxarıda qeyd edildiyi kimi, vergi qanunvericiliyinin mürəkkəbliyi, qanunların və ya digər ikinci dərəcəli qanunvericilik aktlarının tez-tez dəyişdirilməsi, vergi bəyannamələrinin və ya digər sənədlərin başa düşülməsinin çətinliyi, vergi inzibatçılığına inamın olmaması vergi ödəyicilərini texniki yardıma ehtiyac duyur.

Bu cür potensial şikayətləri həll etmək üçün Vergi Ombudsmanı vergi ödəyicilərinə məsləhət xidmətləri göstərməlidir. Məsələn, Vergi Ombudsmanı vergi və ya maliyyə məsələləri ilə bağlı məlumat verə bilər, vergitutma prosesinin bütün mərhələlərində (bütün mərhələlərdə) təlimat verə bilər və vergi ödəyicilərinə rəhbərlik və ya birbaşa istiqamət verə bilər.

5. Vergi məsələləri üzrə rəylərin verilməsi

Ombudsman təsisatının ən mühüm funksiyalarından biri vergi qanunvericiliyinin öz araşdırmaları, araşdırmaları və icrası ilə bağlı qanunverici orqanlara və vergi ödəyicilərinə illik hesabatlar və lazım gəldikdə xüsusi hesabatlar hazırlamaqdır. Bu hesabatların məqsədi vergi ödəyicilərinin maarifləndirilməsi və məlumatlandırılması, vergi administrasiyasının qanunsuzluqlarının qarşısının alınmasıdır. Bu hesabatlar gündəliyi müəyyən etməyə və tövsiyələr təqdim etməyə kömək edə bilər. Ombudsmanın bu hesabatları həmçinin parlamentə öz nəzarət və audit vəzifələrini yerinə yetirməyə kömək edir.

Vergi Ombudsmanı sistematik araşdırmalar aparır, xüsusən də vergi administrasiyası tərəfindən yol verilən haqsızlıqların səbəblərini müəyyən edir, həmçinin vergi administrasiyasının daxilində təkmilləşdirilməsi üçün tövsiyələr verə bilir. Bu, parlamentin və ictimaiyyətin diqqətini cəlb edəcək, nöqsan və səhvlərin aradan qaldırılması üçün səylər göstəriləcəkdir.

6. Vergi sisteminin təkmilləşdirilməsi

Ümumiyyətlə, ombudsman inzibati sistemdəki zəifikləri üzə çıxarır və ictimaiyyəti maraqlandıran müxtəlif məsələləri həll etməklə inzibati islahatlara dair təklifləri ehtiva edən bildirişlər verir. Bu, vergi ödəyicilərinə inzibati sistem daxilində innovativ təşəbbüslərdə birbaşa olmasa da, dolayı yolla iştirak etməyə imkan verəcək.

Ombudsmanın əsas xüsusiyyətlərindən biri o olmalıdır ki, o, ayrı-ayrı şəxslərin şəxsi maraqları ilə yanaşı, dövlətin və cəmiyyətin mənafeyini də qorusun.

Vergi Ombudsmanının təqdim etdiyi hesabatlar təkcə məlumatlılığın artırılmasına kömək etmir, həm də hesabatlarda yer alan təklif və tövsiyələr vasitəsilə vergi qanunvericiliyinin və vergitutma sisteminin inkişafına töhfə verir. Bundan əlavə, Vergi Ombudsmanı qanunun məzmunu ilə bağlı şərh etməklə vergi administrasiyasına kömək edə bilər.

Vergi idarələri ilə vergi ödəyiciləri arasında mübahisələrin məhkəmə yolu ilə deyil, inzibati icraat qaydasında həlli praktikası bütün dünyada getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu kontekstdə vergi idarələrinin öz əməllərini yenidən qiymətləndirməsi, tərəflər arasında danışıqların aparılması və mübahisənin müstəqil şəxsə həvalə edilməsi kimi təcrübələrdən istifadə edilir. Bu fərqli təcrübələrin ortaq xüsusiyyəti onların məhkəmə prosesindən kənar həllər təklif etməsidir. Vergi ödəyicilərinin hüquqlarının ölkələrin inzibati idarəetmə ənənələrinə uyğun olaraq müxtəlif qurumlar vasitəsilə qorunduğu müşahidə edilir [6, s. 126].

Dövlət-vətəndaş münasibətləri kontekstində fəaliyyət göstərən ombudsman institutu bu münasibətlərin intensiv və müxtəlif formalarda özünü göstərdiyi vergi əməliyyatlarına da aiddir. Qeyd edək ki, ombudsman təsisatının funksional məqsədləri ilə vergi əməliyyatlarının müxtəlif aspektləri arasında əlaqə mövcuddur. Ombudsman təsisatının funksional aspektləri vergi əməliyyatları kontekstində həm proseslərdə, həm də şikayətlərdə effektiv olmaq qabiliyyətinə malikdir. Bu kontekstdə ombudsman institutu vergi sahəsində dövlət xidmətlərinin effektivliyini və səmərəliliyini təmin etməyə yönələn institut kimi nəzərdən keçirilə bilər.

Ombudsman təsisatları müxtəlif ölkələrdə həm dövlət, həm də özəl idarəçilikdə tətbiq olunur. Ombudsmanın fəaliyyəti müxtəlif coğrafi miqyaslarda təşkil oluna bilər və funksional nöqteyi-nəzərdən dövlət idarəçiliyinə ümumi nəzarəti, eləcə də hansısa xüsusi xidmətə nəzarəti əhatə edə bilər. Bu kontekstdə dünya təcrübəsində ümumi vəzifəli ombudsmanlarla yanaşı, xüsusi xidmətlərə həsr olunmuş xüsusi vəzifəli ombudsmanlar da var. Belə ki, vergi ödəyicilərin şikayətlərinə baxılması ümumi vəzifəli ombudsmanın yurisdiksiyasına aid edilə bilər və ya sırf vergi şikayətlərinə baxmaq üçün xüsusi vəzifəli ombudsmanlar təyin oluna bilər.

Bəzi müəlliflər hesab edir ki, vergi ombudsmanları ümumi vəzifəli ombudsmanlar tərəfindən aparılan müxtəlif araşdırmalarla müqayisədə daha effektiv vergi nəzarətini asanlaşdırmaq üçün yaradılmışdır. Vergi mübahisələri bir qayda olaraq, maddi xarakterli mübahisələrdir. Bu kontekstdə vergi ombudsmanının araşdırmaları digər sahələrdə olanlardan fərqli elementləri əhatə edir.

Vergi ombudsmanının funksiyası vergi inzibatçılığına nəzarət etmək və bununla vergi inzibatçılığında daha yaxşı idarəetməni və keyfiyyəti təmin etmək, bununla da vergi qanunvericiliyinə riayət olunmasını artırmaqdır. Şikayətlərə məruz qala biləcək bütün inzibatçılıq prosesləri, o cümlədən yoxlama prosesi ilə bağlı Ombudsmana müraciət edilə bilər. Ombudsmanın əsas funksiyası insan hüquqlarının müdafiəsi və təşviqi olduğu üçün vergi ombudsmanı ilk növbədə vergi ödəyicilərinin hüquqlarının müdafiəsi çərçivəsində fəaliyyət göstərir

Ombudsman nəzarəti ilk növbədə vergi əməliyyatları ilə bağlı şikayətləri əhatə etsə də, vergi əməliyyatlarının səmərəli icrası ilə də bağlı ola bilər. Ona görə də vergi ombudsmanı anlayışı yalnız vergi əməliyyatları ilə bağlı müraciətlərlə məhdudlaşmamalıdır. Vergi əməliyyatlarında "vergi mədəniyyəti", "vergi əxlaqı", "vergiyə riayət etmə", "vergi ödəyicisinin hüquqları", "müştəri" kimi anlayışlar göstərir ki, müasir dövlət idarəçiliyi anlayışları ilə ombudsman arasındakı əlaqə vergi əməliyyatları sahəsində də oxşar şəkildə yarana bilər.

Vergi mədəniyyətini qısaca olaraq fərdlərin vergi ödəmək zərurətini dərk etməsi kimi təsvir etmək olar. Vergi qavramı cəmiyyətdən cəmiyyətə dəyişir, belə ki, müxtəlif cəmiyyətlərin fərqli amillərin təsiri altında özünəməxsus vergi mədəniyyətləri var. Vergi mədəniyyəti uzun müddət ərzində yaranır və müxtəlif

elementləri əhatə edir. Vergi mədəniyyəti həm daxili, həm də xarici amillərlə müəyyən edilir. Vətəndaşların təhsil səviyyəsi, gəlir səviyyəsi, vergi ödəyicilərinin bir-birinə münasibəti, vergi ödəyicilərinin üstünlüklərinə uyğun effektiv dövlət xidmətləri vergi mədəniyyətinin formalaşmasının daxili amillərini təşkil edir. Vergi amnistiyaları, vergi yoxlamaları, qeyri-formal iqtisadiyyat, siyasi təsirlər, vergi sisteminin mürəkkəbliyi kimi hallar isə vergi mədəniyyətinin xarici amillərini təşkil edir.

Bəzi müəlliflərin fikrincə, cəmiyyətdəki təhsil səviyyəsi ilə vergi mədəniyyəti arasında müsbət əlaqə var. Vergi mədəniyyətinin formalaşmasında vergi siyasəti də rol oynayır. Ümumi vergi prinsiplərinə riayət etməklə yanaşı, ədalətli və qərəzsiz vergitutma da vacibdir. Bu kontekstdə aydın və ardıcıl qaydaların həyata keçirilməsi çox vacibdir

Vergi mədəniyyəti ilə yanaşı digər mühüm anlayış vergi əxlaqıdır. Vergi orqanı ilə vergi ödəyicisi arasında qarşılıqlı münasibətlərdə ən mühüm amillərdən bəlkə də, birincisi, iştirak edən tərəflərin bir-birinin dürüstlüyünə inamının olmasıdır. Müəlliflər tərəfindən Dövlətin idarəetmə tərzi, siyasi və hüquqi sistemi, etimad, hökumətin sosial qəbulu, milli əhval-ruhiyyə və demokratiya vergi əxlaqının inkişafına təsir göstərən amillər kimi nəzərdən keçirilir [13, s. 105-110]. Hökumətə güvən və vətəndaş şüurunun artması vergilərin müsbət qavranılması ilə vergi əxlaqını artırdığı halda, bunun əksi vergi əxlaqına mənfi təsir göstərir [2].

Ombudsman institutu və vergitutma anlayışı ilə əlaqələndirilə bilən digər məsələ *vergi ödəyicilərinin hüquqlarıdır.* Vergi hüququnda klassik yanaşma hər zaman bundan ibarət olmuşdur ki, vergi qoymaq səlahiyyəti dövlətin suverenlik əlamətlərindən biridir. Lakin bu gün vergi hüququnda vergitutmanın dövlətin mütləq suverenliyi əlaməti kimi qiymətləndirilməsi əvəzinə, vergi ödəyicilərinin hüquqlarını prioritetləşdirən bir yanaşma genişlənməkdədir [1, s. 139]. Vergi ödəyicisi mərkəzli yanaşma 1990-cı illərdən qlobal səviyyədə qəbul edilmişdir. Proseslər və vergi toplama kimi meyarlar əvəzinə vergi ödəyicisi və işçilərin məmnunluğu kimi anlayışlar vergi qurumları üçün mühüm meyarlara çevrilməkdədir. Vergi ödəyicisi mərkəzli yanaşma vergi siyasətini formalaşdırarkən vergi ödəyicilərinin hüquqlarına üstünlük verilmasini şərtləndirir [6, s. 136]. Vergi ödəyicilərinin hüquqlarının daha səmərəli müdafiəsi vergilərin könüllü şəkildə ödənilməsinin təmin edilməsində də təsirli amil kimi çıxış edir.

Vergi siyasətinin şərtləri müəyyənləşdirilərkən vergi ödəyicilərinin hüquqlarının ön plana çəkilməsi İkinci Dünya Müharibəsindən sonra insan hüquqlarının inkişafına paralel olaraq 20-ci əsrin son rübündə müzakirə edilməyə başlanmış və 1990-cı illərdən başlayaraq İƏİT üzv dövlətlərində onların qorunması üçün sənədlər hazırlanıb nəşr edilməyə başlanılmışdır [4, s. 25-27]. Vergi ödəyicisinin hüquqlarını müəlliflər iki qrupa bölür: ümumi hüquqlar və xüsusi hüquqlar. Ümumi hüquqlar bütün vergi ödəyicilərinin ədalətli, bərabər

vergiqoymaya cəlb olunmaları hüququ, məlumat almaq hüququ, müraciət etmək hüququ, vergitutmada müəyyənlik hüququ, vergi ödəyicisi məlumatlarının məxfiliyi hüququ, nümayəndədən istifadə etmək hüququ və şəxsi həyatın toxunulmazlığı hüququ kimi hüquqlardır. Təcrübədə yaranan situasiyaları əhatə edən xüsusi hüquqlar isə "vergi yığımı zamanı hüquqlar, vergi mübahisələrinin həlli zamanı hüquqlar və vergi yoxlamaları zamanı hüquqlar" kimi sıralana bilər. Bu hüquqları tənzimləyən mənbələr iki qrupa bölünür: beynəlxalq müqavilələrdə, konstitusiyalarda və qanunlarda əks olunan fundamental qaydalar və vergi ödəyicilərinin hərəkətlərini tənzimləyən inzibati qaydalar. Əksər ölkələrdə vergi ödəyicilərinin hüquqları qəti şəkildə tənzimlənir. Əsas insan hüquqlarını və konstitusiyalarda təsbit olunmuş müxtəlif əsas hüquq və azadlıqları qoruyan beynəlxalq müqavilələr ümumiyyətlə vergi ödəyicilərinin hüquqlarının istinad mənbəyidir. Bundan əlavə, məlumat hüququ, şəxsi həyatın toxunulmazlığı, dövlət maliyyə auditi, inzibati məhkəmə çəkişmələri və ombudsman qanunları da bu mövzuda müxtəlif tənzimləmələr təmin edir [6, s. 123-133].

Dünyada Ombudsman təsisatlarının vergi ödəyicilərinin hüquqlarının müdafiəsinə təsirini ötən əsrin 90-cı illərdən sonra daha sıx müşahidə edirik. Vergi ödəyicilərinin hüquqlarını qorumaq üçün müxtəlif ölkələrdə vergi ödəyiciləri birlikləri fəaliyyət göstərir və oxşar vəzifələr bir çox ölkələrdə ombudsmanlar tərəfindən həyata keçirilir [6, s. 126]. Bundan əlavə, ombudsman adlandırılmasa da, vergi sahəsində şikayətləri qəbul edən müxtəlif müstəqil təşkilatlar da mövcuddur.

ABŞ-da vergi idarəçiliyindən kənar müstəqil şəkildə təşkil edilən "Vergi Ödəyicisinin Vəkil Xidməti" mövcuddur [6, s. 126]. Analoji qurum İspaniyada 1996-cı ildə yaradılmışdır. Orada "Vergi Ödəyicilərinin Hüquqlarını Müdafiə Şurası" (Vergi Ödəyicisinin Hüquqlarını Müdafiə Xidməti) vergi ödəyicilərinin hüquqlarının müdafiəsinə cavabdeh olan komissiyadır. Baş ombudsmana daxil olan şikayətlər geniş mövzuları əhatə etdiyi üçün vergi məsələləri üzrə belə bir şuranın təyin edilməsi qərara alınmışdır [9, s. 332]. Avstraliyada Federal Ombudsman eyni zamanda Vergi Ombudsmanı kimi fəaliyyət göstərir. Orada 2015-ci il mayın 1-dən vergi qurumları ilə bağlı şikayətlərin qəbulu vəzifəsi "Vergilər üzrə Baş Müfəttişliyə" həvalə edilmişdir. Avstraliya Vergilər İdarəsi və Vergi Məmurları Şurası tərəfindən vergi məsələləri ilə bağlı olanlardan başqa yanlış idarəetmə təcrübələri ilə bağlı şikayətlər Federal Ombudsmana göndərilməkdə davam edir.

Pakistanda Federal Vergi Ombudsmanı 2000-ci ildə yaradılmışdır [9, s. 336]. Bu Ombudsman ştat və federal səviyyədə fəaliyyət göstərən yeddi müxtəlif ombudsman təsisatlarından biridir [5, s. 149]. Banqladeşdə Vergi Ombudsmanı 2005-ci ildən fəaliyyət göstərir. Meksikada Vergi Ombudsmanı 2006-cı ildə yaradılıb. O, vergi ödəyicilərinin şikayətlərini qəbul edir, tövsiyələr verir, vergi ödəyicilərini vergi məhkəmələrində təmsil edir, Konqresə illik hesabatlar təqdim

edir və vergi mədəniyyətini təbliğ edir. Hindistanda Gəlir Vergisi Ombudsmanı var. O, yerli vergi idarəsindən asılı olmayaraq təşkil olunur və şikayətləri qəbul edir. Birbaşa Vergilər üzrə Mərkəzi Şuranın tərkibində olan inzibati orqandır. Hindistanda vergi ombudsmanının fəaliyyəti yalnız gəlir vergisi məsələləri ilə məhdudlaşır [9, s. 336].

Türkiyədə ayrıca vergi ombudsmanı olmasa da, ümumi ombudsman institutu vergi şikayətlərini də araşdırmaq səlahiyyətinə malikdir.

*Vergi ombudsmanı institutu və Azərbaycan təcrübəsi.* Ölkəmizdə vergi ombudmanı institutu 2019-cu ildən fəaliyyətə başlamışdır. Bu institut Dövlət Vergi Xidmətinin aparatının müstəqil qurumudur və 2024-cü ildə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin əmri ilə təsdiq edilmişdir və vergi ombudsmanı xidməti baş idarəsinin Əsasnaməsi əsasında fəaliyyət göstərir.

Sənədə əsasən, Azərbaycanda vergi ombudsmanının əsas məqsədi vergi orqanlarında vergi ödəyicilərinin hüquqlarının pozulmaması üçün preventiv tədbirlərin görülməsi və pozulmuş hüquqların bərpası, habelə şikayətə səbəb olan halların aradan qaldırılması sahəsində fəaliyyətdir [14; 15].

Göründüyü kimi, ölkəmizdə vergi ombudsmanı institutu məhz vergi administrasiyasının struktura vahidi kimi fəaliyyət göstərən ayrıca vergi ombudsmanları vasitəsilə fəaliyyət göstərir. Onun səmərəliliyi və yaradılarkən qarşısına qoyulmuş məqsədlərə çatımlılığının göstəricilərinin təhlilinə gəldikdə, bildirmək istəyirik ki, hesab edirik ki, bu sahədə hələ də təkmilləşdirilməyə ehtiyac vardır. Belə ki, vergi mübahisələrinin həlli üsulu kimi, vergi ödəyicilərinin hüquq müdafiəçisi kimi vergi ombudsmanlarının mövcudluğundan vergi ödəyicilərinin mütləq əksəriyyəti xəbərsizdir. Belə bir təsisatın olduğundan xəbərsiz olan vergi hüquq münasibətlərinin iştirakçıları şübhəsiz ki, pozulmuş və ya pozulduğunu iddia etdikləri hüquqlarının müdafiəsi üçün yenə də məhkəmələrə müraciət edəcək, bununla da vergi ombudsmanı institutu yaradılarkən qarşıya qoyulmuş əsas məqsədlərdən birinə, bəlkə də birincisinə çatmamış olacaqdır.

Ölkəmizdə vergi ombudsmanı institutunun tətbiqindəki digər problem, onun müstəqil deyil, məhz vergi administrasiyasının struktur bölməsi kimi fəaliyyət göstərməsindədir. hesab edirik ki, bu modeldə vergi ombudsmanı tabe olduğu qurumla bağlı gələn şikayətləri qiymətləndirməkdə tam neytrallığı təmin edə bilməyəcək, dolayısı ilə o yavaş yavaş mübahisələrin həlli prosesində daha çox mediator kimi fəaliyyət göstərəcək.

Ölkəmizdə tətbiq edilən vergi ombudsmanlığı institutu modeli CAR eyniadlı modelinə uyğundur. Adı çəkilən dövlətin vergi hüququ üzrə alimlərinin bu sahədəki tədqiqatlarını və mövcud qanunvericiliyi təhlil edərkən belə nəticəyə gəlmək olur ki, CAR-da da vergi ombudsmanı müstəqil qurum deyil, vergi administrasiyaının tərkibində fəaliyyət göstərən bir təsisatdır.

CAR-dan vergi ombudsmanının funksiyalarına aşağıdakılar aiddir:

Cənubi Afrika Respublikasının Gəlirlər Xidmətinin Vergi Aktının müddəalarının tətbiqi nəticəsində yaranan xidməti, prosedur və ya inzibati məsələ ilə bağlı vergi ödəyicisinin hər hansı şikayətini nəzərdən keçirmək və həll etmək;

• Administrasiyanın rəhbərinin tələbi və ya Vergi Ombudunun təşəbbüsü ilə rəhbərin təsdiqi ilə xidmət məsələsi və ya Qanunun müddəalarının və ya vergi Aktının prosedur və ya inzibati müddəalarının tətbiqi ilə bağlı hər hansı sistemli və yaranan məsələyə yenidən baxılmasını təşkil etmək [8].

Bu baxımdan, Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Vergitutma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsində haqlı olaraq mübahisələrin həlli mexanizmləri sahəsinə atılmalı addımlardan biri kimi Vergi ombudsmanı institutunun təbliğatının aparılması, daxil olmuş və baxılmış müraciətlər, görülmüş işlər barədə məlumatların yayımlanması göstərilir [16].

## *III. Nəticə*

Ombudsman təsisatının təmsil etdiyi əsas dəyərlərlə vergi inzibatçılığının müasir prinsipləri arasında harmoniya mövcuddur. Vətəndaşların vergi inzibatçılığı ilə bağlı şikayətləri həm vergitutma, həm də apellyasiya prosesləri ilə bağlı yarana bilər. Bu kontekstdə vergi ombudsmanı hər iki sahədə fəaliyyət göstərmək imkanları ilə vergitutma proseslərinin səmərəliliyini artırmaqla yanaşı, vergi auditində də eyni funksiyanı yerinə yetirir. Bütövlükdə vergi inzibatçılığı sahəsində şikayətlərin qəbulu ilə yanaşı, vergi ombudsmanının ən çox diqqət çəkən cəhəti vergi ödəyicilərinin hüquqlarının müdafiəsidir. Vergi inzibatçılığında vergi ödəyicisi mərkəzli yanaşmanın tətbiqi ilə dövlət idarəçiliyində müştəriyönümlü yanaşma ilə paralel olaraq vergi ödəyicilərinin şikayətlərinin istər ümumi növbətçi ombudsmanın fəaliyyəti çərçivəsində, istərsə də xüsusi rüsumlu vergi ombudsmanı çərçivəsində qəbulu ideyası güclənib. Ümumi dövlət idarəetmə proseslərindən fərqlənən vergitutma proseslərinin xüsusi tətbiqləri bu sahədə təcrübə tələb edə bilər.

Yuxarıda apardığımız tədqiqatları ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, vergi ombudmanlığı institutunun tətbiqinin müsbət və mənfi cəhətləri mövcuddur. Vergi mübahisələrinin tətbiqi zamanı əldə edilə biləcək üstünlükləri müəlliflər aşağıdakı kimi qruplaşdırırlar:

- vergi ödəyiciləri tərəfindən verilən şikayətlərə daha çevik baxılması
- vergi ödəyicilərinə tövsiyyələr vermək
- vergi administrasiyaları və vergi ödəyiciləri arasında münasibətlərin ədalətli və rasional qurulmasına yardım etmək
- vergi mübahisələrini azaltmaq
- verginin könüllü ödənilməsini təşviq etmək
- vergi orqanlarının vətəndaşlara xidmət keyfiyyətini artırmaq

- vergi sisteminin təkmilləşdirilməsi sahəsində təkliflər vermək
- vergi əxlaqının inkişafına kömək etmək [10, s. 180].

## ƏDƏBİYYAT (REFERENCES):

1. Arslan Oncu, G. Applicability of the European Convention on Human Rights to tax law and proceedings: an analysis in the light of the decisions of the European Court of Human Rights. Türkiye Justice Academy Journal. 20, 2015, p, 139-190 (in Turkish /*Arslan Öncü, G. (2015). Vergi hukuku ve yargılamasına Avrupa İnsan Hakları Sözleşmesinin uygulanabilirliği: Avrupa İnsan Hakları Mahkemesi kararları ışığında bir analiz. Türkiye Adalet Akademisi Dergisi. 20, 139-190).*
2. Asmar Aliyeva. New approaches in the fight against tax evasion. Concepts of tax morality and tax discipline - Azerbaijan Law Journal. 2024 (No. 3), p. 21-29 (in Azerbaijani / *Əsmər Əliyeva. Vergidən yayınma ilə mübarizədə yeni yanaşmalar. Vergi əxlaqı və vergi intizamlılığı anlayışları - Azərbaycan Hüquq Jurnalı. 2024 (№3), səh. 21-29*).
3. Coshkun, Burak / Gunaydin Hamza, (2015), "The Institutional Evolution of the Right to Complain in the Turkish-Islamic State Tradition in the Context of the Origin of the Ombudsman", Ombudsman Academic Journal, S.3, Y.2, p. 9-60 (in Turkish / *COŞKUN, Burak / GÜNAYDIN Hamza, (2015), "Ombudsmanlığın Kökeni Meselesi Bağlamında Türk-İslâm Devlet Geleneğinde Şikâyet Hakkının Kurumsal Tekâmülü", Ombudsman Akademik Dergisi, S.3, Y.2, s. 9-60*).
4. Chetin, G. and Gokbunar, R. (2010). Tax office workers' view of taxpayer's rights. Management and Economics. 17(1), p. 23-46 (in Turkish / *Çetin, G. ve Gökbunar, R. (2010). Mükellef haklarına vergi dairesi çalışanlarının bakışı. Yönetim ve Ekonomi. 17(1), 23-46*).
5. Dogan, K.C. (2015). Ombudsman of Pakistan: Structural-institutional and functional aspects. GUSBEED. 6(13), p. 145-157 (in Turkish / *Doğan, K.C. (2015). Pakistan Ombudsmanı: Yapısal-kurumsal ve işlevsel yönleri. GÜSBEED. 6(13), 145-157*).
6. Gerçek, A. (2006). Taxpayer's rights and examination of the situation in Turkey. Tax Issues. 209, p. 121-149 (in Turkish / *Gerçek, A. (2006). Vergilemede mükellef hakları ve Türkiye'deki durumun incelenmesi. Vergi Sorunları. 209, 121-149*).
7. Karci, Sh.M. Ombudsman: Scandinavian Models and Turkish Application. Ankara: Seçkin Yayıncılık. 2016./Karcı, Ş.M. (2016) (in Turkish / *Ombudsman: İskandinav Modelleri ve Türkiye Uygulaması. Ankara: Seçkin Yayıncılık*).
8. Moosa F. Will the Tax Ombud be an Effective Protector of Taxpayers' Rights? J Forensic Leg Investig Sci 3: 019. 2017. p.

URL: https://www.researchgate.net/deref/http%3A%2F%2Fdoi.org%2F10.24966%2FFLIS-733X%2F100019?_tp=eyJjb250ZXh0Ijp7ImZpcnN0UGFnZSI6InB1YmxpY2F0aW9uIiwicGFnZSI6InB1YmxpY2F0aW9uIn19 (last access: 10.07.2025).

9. Serrano, F. (2007). The taxpayer's rights and the role of the tax ombudsman: an analysis from a Spanish and comparative law perspective. Intertax. 35(5), p. 331-340.
10. Selçuk Buyrukoğlu, Mahmure Eşgünoğlu Bulmuş, Furkan Şükrü Bozkurt. An assessment on the applicability of tax ombudsmanship in turkey. Ombudsman academic/ number: 22 • date: january-june 2025 SS: p. 171-192 (in Turkish / *Selçuk Buyrukoğlu, Mahmure Eşgünoğlu Bulmuş, Furkan Şükrü Bozkurt türkiye'de vergi ombudsmanliğinin uygulanabilirliği üzerine bir değerlendirme. Ombudsman akademik/ sayi: 22 • tarih: OCAK-HAZİRAN 2025 SS: 171-192. ISSN: 2148-256X*).
URL: https://doi.org/10.32002/ombudsmanakademik.1625960 (last access: 09.07.2025).
11. Shukrü Mert KARCI. Concept of tax ombudsman and its function in turkish public administration. Ekev academy magazine / issue: 79 (spring 2019) p.379-402 (in Turkish / *Şükrü Mert Karci. Vergi ombudsmani kavrami ve türk kamu yönetiminde işlevselliği. Ekev akademi dergisi • Yıl: 23 Sayı: 79 (Yaz 2019)*).
12. Tax Code of Azerbaijan Republic (in Azerbaijani / Azərbaycan Respublikasının Vergi Məcəlləsi.
URL: https://e-qanun.az/framework/46948 (last access: 10.07.2025).
13. Tax ombudsman. Arsh. Gor. Cağrı BAYER. Journal of Selçuk University Justice Vocational School, Vol. 1, P. 1, 2018, p. 102-136 (in Turkish / *Vergi ombudsmanığı. Arş. Gör. Çağrı BAYER. Selçuk Üniversitesi Adalet Meslek Yüksekokulu Dergisi, C. 1, S. 1, 2018*).
14. Regulations on the Tax Ombudsman. Approved by the order of the Minister of Taxes of the Republic of Azerbaijan No. 1917040100401200 dated May 01, 2019 (in Azerbaijani / *Vergi ombudsmanı haqqında Əsasnamə. Azərbaycan Respublikası vergilər nazirinin 01 may 2019-cu il tarixli 1917040100401200 nömrəli əmri ilə təsdiq edilmişdir*).
URL:https://www.taxes.gov.az/files/2/esasnameler/Ombudsman.pdf (last access: 11.07.2025).
15. Regulations of the Tax Ombudsman Service Main Department of the State Tax Service Office under the Ministry of Economy of the Republic of Azerbaijan. Approved by the order of the Minister of

Economy of the Republic of Azerbaijan No. 3-21/3-1-F-54/2024 dated May 17, 2024 (in Azerbaijani / *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Aparatının Vergi ombudsmanı xidməti baş idarəsinin əsasnaməsi. Azərbaycan Respublikası iqtisadiyyat nazirinin 17 may 2024-cü il tarixli 3-21/3-1-F-54/2024 nömrəli əmri ilə təsdiq edilmişdir*).
URL: https://www.taxes.gov.az/az/page/vergi-ombudsmani-xidmeti-bas-idaresi (last access: 09.07.2025).

16. Roadmap for 2025 on the implementation of improvements and communication in the relevant field related to the "Taxation" indicator of the World Bank Group's "Business Ready" report (in Azerbaijani / *Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Vergitutma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2025-ci il üzrə Yol Xəritəsi).*
URL:https://www.taxes.gov.az/uploads/2025/strategiya/2025.pdf (last access: 10.07.2025).

## The institute of tax ombudsman as a new method of dispute resolution in tax matters in the Republic of Azerbaijan: analysis of its objectives, efficiency, and necessity

ASMAR ALIYEVA[*], FARDA JABBARLI[**], AYGUN HAJIYEVA[***]

### Abstract

*Tax disputes differ from other disputes in their specific characteristics. We can also group their resolution methods as traditional and non-traditional methods. While traditional methods include administrative and judicial resolution of tax disputes, non-traditional methods include alternative dispute resolution methods and tax ombudsman institutions. In this article, we will talk about the emergence and development of the tax ombudsman institution as a method of resolving tax disputes, models of the tax ombudsman institution in different countries, its application in our country and whether it is necessary. The tax ombudsman institution is a relatively new institution not only in Azerbaijan but also in the whole world, and there are quite a few controversial points in its*

[*] PhD in Law / Associate Professor / Baku State University / Head of the Department of Civil Procedure and Commercial Law / email: asmer_1985@yahoo.com

[**] Senior Lecturer / Baku State University / Lecturer at the Department of Civil Procedure and Commercial Law / email: farda.cabbarli@gmail.com

[***] PhD in Law / Baku State University / Lecturer at the Department of Civil Procedure and Commercial Law / email: aygunhajiyeva18@gmail.com

*application. A group of researchers is of the opinion that the tax ombudsman institution is not sufficiently effective in resolving tax disputes, which they attribute to the fact that the tax ombudsman's decisions are of a recommendatory nature and are not aimed at mandatory execution. Another group of authors is of the opinion that the tax ombudsman institution will be a promising and effective institution in the context of protecting taxpayers' rights. Whether tax ombudsmen are more effective as an independent institution or as a structural unit of tax administrations is another controversial point in this regard. The article has conducted an extensive study of these and other issues.*

**Keywords:** *tax disputes, tax evasion, administrative courts, tax ombudsman, budget revenues.*

## Институт налогового омбудсмена как новый метод разрешения налоговых споров в Азербайджанской Республике: анализ его целей, эффективности и необходимости

АСМАР АЛИЕВА*, ФАРДА ДЖАББАРЛЫ**, АЙГЮН ГАДЖИЕВА***

### Резюме

*Налоговые споры отличаются от других споров своими специфическими особенностями. Методы их разрешения можно разделить на традиционные и нетрадиционные. Если к традиционным методам относятся административное и судебное разрешение налоговых споров, то к нетрадиционным методам можно отнести альтернативные методы разрешения споров и институт налогового омбудсмена. В данной статье мы рассмотрим возникновение и развитие института налогового омбудсмена как метода разрешения налоговых споров, модели институтов налогового омбудсмена в разных странах, его применение в нашей стране и необходимость его применения. Институт налогового омбудсмена – относительно новый институт не только в Азербайджане, но и во всем мире, и его применение вызывает немало споров. Одна группа исследователей считает, что институт налогового омбудсмена недостаточно эффективен в разрешении*

* Доктор философии по праву / доцент / Бакинский государственный университет / заведующий кафедрой гражданского процесса и коммерческого права / email: asmer_1985@yahoo.com

** Старший преподаватель / Бакинский государственный университет / преподаватель кафедры гражданского процесса и коммерческого права / email: farda.cabbarli@gmail.com

*** Доктор философии по праву / Бакинский государственный университет / преподаватель кафедры гражданского процесса и коммерческого права / email: aygunhajiyeva18@gmail.com

*налоговых споров, объясняя это тем, что решения налогового омбудсмена носят рекомендательный характер и не направлены на обязательное исполнение. Другая группа авторов считает, что институт налогового омбудсмена станет перспективным и эффективным институтом в контексте защиты прав налогоплательщиков. В этой связи также вызывает споры вопрос о том, эффективнее ли налоговый омбудсмен как независимый институт или как структурное подразделение налоговых администраций. Этот и другие вопросы подробно рассматриваются в статье.*

**Ключевые слова:** *налоговые споры, уклонение от уплаты налогов, административные суды, налоговый омбудсмен, доходы бюджета.*

**Redaksiyaya daxil olma tarixi: 20.07.2025**
**Çapa qəbul: 25.12.2025**

***Əsmər Pənahova.*** Beynəlxalq hüquq sistemlərində vətəndaşlıq hüququnun inkişaf tendensiyaları // Azərbaycan Hüquq Jurnalı. 2025 (№3), s. 55-67. DOI: 10.61638/LPNR8728

# BEYNƏLXALQ HÜQUQ VƏ İNSAN HÜQUQLARI

## BEYNƏLXALQ HÜQUQ SİSTEMLƏRİNDƏ VƏTƏNDAŞLIQ HÜQUQUNUN İNKİŞAF TENDENSİYALARI

ƏSMƏR PƏNAHOVA*

**Annotasiya**

*Məqalədə beynəlxalq hüquq sistemində vətəndaşlıq anlayışının hüquqi, siyasi və etik aspektlərinin kompleks təhlilindən danışılır. Mövzunun aktuallığı cəmiyyətdə qloballaşma, miqrasiya proseslərinin genişlənməsi, insan hüquqları və dövlət suverenliyi arasında balansın qorunması zərurəti ilə sıx bağlıdır. Belə ki, burada vətəndaşlıq anlayışının keçdiyi tarixi inkişaf mərhələləri, onun beynəlxalq hüquqda əsaslı formalaşması, həmçinin Azərbaycan Respublikasında sözügedən sahədə həyata keçirilən tədbirlər geniş şəkildə araşdırılmışdır. Məqalənin əsas məqsədi vətəndaşlıq institutunun beynəlxalq hüquqi çərçivədə mahiyyətini və onun milli hüquq sistemlərinə təsirini müəyyən etmək, eləcə də bu kontekst üzrə Azərbaycan Respublikasında tətbiq olunan normativ-hüquqi bazanın beynəlxalq standartlara uyğunluğunu qiymətləndirməkdir. Bu məqsədlə, tədqiqat yazısında həm nəzəri, həm müqayisəli, həm də analitik metodlardan əhəmiyyətli dərəcədə istifadə edilmişdir. Məqalədə araşdırılan fəsillər üzrə əldə olunan nəticələr bunu göstərir ki, vətəndaşlıq anlayışı müasir dövrdə yalnız cəmiyyətdə formalaşmış hüquqi bir status deyil, həm də, bir növ, özündə sosial məsuliyyət və etik dəyər daşıyır. Beynəlxalq hüquq çərçivəsində bu anlayış insan hüquqlarının qorunması və sosial ədalətin təminatı ilə sıx əlaqəlidir. Azərbaycan Respublikasında vətəndaşlıq siyasəti milli maraqlarla beynəlxalq prinsiplər arasında tarazlığı qorumağa yönəlmiş, konstitusion və qanunvericilik bazası vasitəsilə mövcud beynəlxalq standartlara və rejimlərə uyğunlaşdırılmışdır. Nəticə etibarilə, qeyd edə bilərik ki, vətəndaşlıq müasir hüquqi dövlətin mərkəzi institutu kimi həm fərdin hüquqi statusunu, həm də dövlətin suverenliyini müəyyən edən strateji əhəmiyyəti olan anlayış kimi qiymətləndirilmişdir.*

**Açar sözlər:** *vətəndaşlıq, fərd, "civitas" anlayışı, suverenlik, Konvensiya, sabitlik, nəzəriyyə, demokratiya, beynəlxalq təcrübə, normativ-hüquqi baza.*

### *I. Giriş*

Tarixən uzun inkişaf dövrü və mərhələlərdən keçmiş vətəndaşlıq anlayışı müasir beynəlxalq hüququn, milli dövlətçilik ənənələrinin, o cümlədən insan hüquqları sisteminin təməl elementlərindən biri kimi xüsusi əhəmiyyət daşıyır. Bu anlayış dövlətlə mənsub olduğu fərd arasında hüquqi, siyasi, sosial və etik əlaqənin forması olmaqla yanaşı, həm də cəmiyyətin hər bir fərdinin kimliyini və

* Hüquq üzrə fəlsəfə doktoru / Bakı Dövlət Universiteti Hüquq fakültəsinin İnsan hüquları və informasiya hüququ UNESCO kafedrası / email: esmerpanahova@gmail.com

mənsubiyyətini müəyyən edən əsas göstəricidir. Tarix boyu vətəndaşlıq anlayışı müxtəlif dünyəvi hüquq sistemlərində fərqli konseptual məzmunlarda əks olmuş olsa belə, zaman keçdikcə bu anlayış ümumbəşəri hüquqi dəyərlərdən birinə çevrilmişdir. Hazırki dövrdə isə bu anlayış sadəcə dövlətin daxili hüquqi bir institutu deyil, həm də beynəlxalq hüququn mərkəzi və funksional prinsiplərindən biri kimi çıxış edir.

Qloballaşma, miqrasiya, beynəlxalq əməkdaşlıq və insan hüquqlarının universallaşması prosesləri vətəndaşlıq anlayışına yeni əhatəli məzmun gətirmişdir. Artıq fərdin hüquqi statusu yalnız mənsub olduğu dövlətin qanunvericiliyi ilə deyil, həm də beynəlxalq öhdəliklər və Konvensiyalar ilə müəyyən edilir. Bu səbəbdən, vətəndaşlıq anlayışının hüquqi olduğu qədər etik, siyasi və sosial ölçüləri də mühüm əhəmiyyət kəsb edir. Belə ki, hüquqi baxımdan vətəndaşlıq anlayışı cəmiyyətin hər bir fərdi ilə dövlət arasında qarşılıqlı hüquq və vəzifələr məcmusunu ifadə edir, etik aspektdən isə dövlətə sədaqət, vətənpərvərlik, məsuliyyət və mənəvi bağlılıq kimi müxtəlif dəyərləri özlüyündə birləşdirir.

Dövlətlərin və fərdlərin hüquqi statusunu müəyyən edərək qarşılıqlı münasibətlərində etimad amili formalaşdıran vətəndaşlıq nəzəriyyəsinin elmi əsasları özünün inkişaf mərhələləri müddətində formalaşmışdır. Qədim Roma hüququnda vətəndaşlıq "civitas" anlayışı ilə ifadə edilərək yalnız müəyyən sosial təbəqələrə aid edilirdisə orta əsrlərdə və yeni dövrdə bu anlayış siyasi mənsubiyyət, sosial bərabərlik anlayışları ilə birləşdi. Artıq vətəndaşlıq cəmiyyətin hər bir fərdinə şamil edilən ümumi bir status kimi formalaşdı. Ötən əsrdən etibarən isə, beynəlxalq hüquq vətəndaşlıq məsələlərini ayrıca tənzimləmə predmeti kimi qəbul etdi və bununla da, bu anlayış dövlətlərarası münasibətlərin və insan hüquqlarının mühüm amilinə çevrildi. Bu dövrdə qəbul edilən beynəlxalq sənədlər vətəndaşlıq hüququnun əsas prinsiplərini müəyyənləşdirdi. Dövlətlərin bu sahədə sərbəstliyi qorunsa da, insan hüquqlarının müdafiəsi ön plana çəkildi. Vətəndaşlıqdan məhrumetmənin məhdudlaşdırılması və vətəndaşsızlığın qarşısının alınması əsas hədəflərdən biri kimi formalaşdı. Artıq vətəndaşlıq institutu beynəlxalq hüququn dinamik inkişaf edən sahələrindən birinə çevrildi.

Beynəlxalq hüquqi kontekstdə vətəndaşlıq institutunun formalaşması müxtəlif nəzəri istiqamətdə təhlil olunur. İndigenat, monist və dualist nəzəriyyələr əhalinin hüquqi statusunun beynəlxalq hüquqa münasibətdə müxtəlif modellərini təklif edir. Eyni zamanda, BMT-nin "Stateless Persons" haqqında 1954-cü il Konvensiyası, Avropa Vətəndaşlıq Konvensiyası kimi sənədlər dövlətlərin vətəndaşlıq məsələlərində beynəlxalq öhdəliklərini müəyyən etmişdir. Bu sənədlər vətəndaşlıqdan məhrumetmə hallarının qarşısının alınmasına, vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsinə və etik məsuliyyətin təmininə yönəlmişdir.

Azərbaycan Respublikasında vətəndaşlıq institutu milli dövlətçiliyin formalaşması, suverenlik və daxili hüquqi sisteminin müstəqilliyi ilə sıx bağlıdır. Ötən əsrin sonlarından etibarən - 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra vətəndaşlıq anlayışı milli kimliyin əsas göstəricisi kimi qəbul edilmişdir. Belə

ki, Azərbaycan Respublikasının Konstitusiyanın 52-ci maddəsində vətəndaşlıq anlayışı dövlətlə fərd arasında siyasi və hüquqi bağlılıq, qarşılıqlı hüquq və vəzifələr kimi təsbit olunmuşdur. Eyni zamanda, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanun vətəndaşlığın əldə edilməsi, bərpası, itirilməsi və qorunması ilə bağlı mexanizmləri müəyyən edir. Bu hüquqi baza həm milli maraqları qoruyur, həm də beynəlxalq hüququn tələbləri ilə uyğunluq təşkil edir.

Azərbaycan Respublikasının vətəndaşlıq siyasəti müasir dövrdə həm hüquqi, həm siyasi, həm sosial, həm də etik yönümlü model kimi dəyərləndirilir. Dövlətin məqsədi yalnız vətəndaşların hüquqlarının qorunması deyil, eyni zamanda onların mənəvi və milli kimliyinin formalaşmasıdır. Bu çərçivədə ikili vətəndaşlıq, qaçqınların və vətəndaşlığı olmayan şəxslərin statusu, naturalizasiya və humanitar əsaslarla vətəndaşlıq verilməsi kimi məsələlər beynəlxalq təcrübəyə uyğun şəkildə tənzimlənir. Həmçinin Fransa və ABŞ kimi ölkələrin təcrübəsi göstərir ki, müstəsna xidmətlər göstərmiş şəxslərə vətəndaşlıq verilməsi halları dövlətlərin siyasi maraqları ilə birbaşa əlaqədardır. Azərbaycan Respublikasında da bu praktika ölkə prezidentinin fərmanları ilə həyata keçirilir.

Ümumilikdə isə, vətəndaşlıq siyasəti hər bir dövlətin siyasi sabitliyinin, sosial təhlükəsizliyinin və beynəlxalq nüfuzunun əsas təminatçılarından biridir. Azərbaycan Respublikasında bu siyasət demokratik prinsiplərə, insan hüquq və azadlıqlarının qorunmasına və beynəlxalq hüquq normalarına əsaslanır. Vətəndaşlıq yalnız hüquqi mənsubiyyət deyil, həm də milli birliyin rəmzi və sosial həmrəyliyin əsasıdır.

Bu baxımdan, belə deməyimizə əsas vardır ki, vətəndaşlıq institutu cəmiyyətlə dövlət arasında qarşılıqlı etimadın formalaşmasında mühüm rol oynayır. Azərbaycan vətəndaşlığı fərdlərə yalnız hüquqlar deyil, eyni zamanda cəmiyyət qarşısında müəyyən məsuliyyətlər də verir. Dövlət vətəndaşların hüquqlarını qorumaqla yanaşı, onların rifahının yüksəldilməsini də prioritet hesab edir. Qanunvericilikdə vətəndaşlıq məsələlərinin dəqiq və şəffaf tənzimlənməsi hüquqi sabitliyi möhkəmləndirir. Eyni zamanda, vətəndaşlıq siyasəti milli təhlükəsizlik və demoqrafik inkişafla sıx bağlı bir anlayışdır. Müasir dövrdə qloballaşma şəraitində vətəndaşlıq anlayışı daha geniş məna kəsb edir. Məhz bu səbəbdən, Azərbaycan Respublikası vətəndaşlıq siyasətini daim təkmilləşdirərək milli maraqlarla beynəlxalq öhdəliklər arasında tarazlığı qorumağa çalışır. Bu istiqamətdə aparılan islahatlar vətəndaşların dövlətə bağlılığını və hüquqi şüurunu gücləndirir. Vətəndaşlığın əldə edilməsi və itirilməsi halları mexanizmlərinin beynəlxalq standartlara uyğunlaşdırılması hüquqi sistemin çevikliyini artırır. Eyni zamanda, diasporla əlaqələrin möhkəmləndirilməsi və xaricdə yaşayan azərbaycanlıların hüquqlarının qorunması vətəndaşlıq siyasətinin mühüm tərkib hissəsidir. Dövlət bu sahədə şəffaflıq və ədalət prinsiplərinə xüsusi önəm verir. Vətəndaşlıq institutunun effektiv fəaliyyəti sosial həmrəyliyin və ictimai sabitliyin təmin olunmasına xidmət edir. Nəticə etibarilə, vətəndaşlıq siyasəti Azərbaycan dövlətçiliyinin dayanıqlı inkişafında strateji əhəmiyyət daşıyır.

## *II. Beynəlxalq çərçivədə vətəndaşlıq anlayışı: hüquqi və etik məsələlər*

Vətəndaşlıq anlayışına müxtəlif hüquq ədəbiyyatlarında fərqli yanaşmalar mövcuddur. Bu yanaşmalar, özlüyündə tarixin müəyyən dövrlərində inkişaf tendensiyasına uğrayaraq, təkmil anlayış halını almışdır. Ümumilikdə isə, qeyd olunmalıdır ki, vətəndaşlıq anlayışı, dövlətin öz ərazisi hüdudlarında yaşayan fərdlərlə hüquqi əlaqənin forması kimi beynəlxalq hüquq sistemlərinin əsas mərkəzi institutlarından biridir. Bu anlayış təkcə hüquqi yox, həm də siyasi və bir o qədər də etik mahiyyət daşıyır. Bu anlayış, özündə dövlətlə daim əlaqədə qarşılıqlı hüquq və vəzifələr daşıyır. Əlbəttə ki, qeyd olunmalı haldır ki, vətəndaşlıq anlayışı sadəcə hüquqi bir müstəvidə deyildir, həm də kimlik məsələsidir. Vətəndaşlıq – fiziki şəxslə dövlət arasında, onların qarşılıqlı hüquq və vəzifələrində ifadə olunan möhkəm hüquqi əlaqədir [5, s. 4]. Bəhs olunan status, özlüyündə istər cəmiyyət, istər dövlət qarşısında müəyyən öhdəliklər daşıyır və bu öhdəliklərin yerinə yetirilməsinə cavabdeh funksiyadadır. Vətəndaşlıq fərdin hüquq subyektliliyinin ikinci əsas şərtidir (birinci şərt - yaş həddi) [1, s. 14]. Bu əlaqə, cəmiyyətin hər bir fərdinin aid olduğu dövlətlə hüquqi əlaqəsinə təminat rolu oynayır.

Vətəndaşlıq nəzəriyyəsinin əsas müəlliflərindən olan ingilis sosioloq T.H. Marshall vətəndaşlıq anlayışını üç əsas komponent — mülki, siyasi və sosial hüquqların məcmusu kimi xarakterizə edirdi. Onun fikrincə, vətəndaşlıq müasir dövlətin legitimliyinin və sosial ədalətin təməlidir [6, s. 28–33]. Digər yanaşmalara görə isə, bu anlayış antik dövrdə sadəcə aidiyyət anlayışı kimi hesab olunurdusa da, hazırki dövrdə universal insan hüquqlarına əsaslanan hüquqi bir status mövqeyinə çevrilmişdir.

Qeyd olunan yanaşmalar və adıçəkilməyən müxtəlif fikirlər bu məsələnin çoxsaylı araşdırma yükü olan predmet olduğunu sübut edir. Buna baxmayaraq, əhalinin və müxtəlif əhali qruplarının hüquqi statusu ilə bağlı müxtəlif məsələlər artıq yalnız dövlətin yurisdiksiyası çərçivəsində həll olunmur, həm də beynəlxalq hüquq sahəsinə şamil edilir. Bu sahədə müxtəlif tədqiqat işlərinin nəticəsi olaraq, bəzi nəzəriyyələrə diqqət edək:

Əhalinin vəziyyətinə beynəlxalq hüququn təsiri barədə nəzəriyyələr:

-  İndigenat nəzəriyyə - dövətin vətəndaşları beynəlxalq hüquq subyekti olmasada, öz vətəndaşlıqlarına görə beynəlxalq hüquqla təmin olunan hüquqlardan istifadə edirlər.
-  Monist nəzəriyyə - beynəlxalq hüquqda əhalinin vəziyyətini birbaşa tənzimləyir.
-  Dualist nəzəriyyə - əhali beynəlxalq hüququn subyekti yox, obyektidir.
-  Müasir beynəlxalq hüquq - dövlətlər əhalinin ayrı-ayrı kateqoriyalarının hüquqi statuslarının müəyyən olunması və dəyişdirilməsini üzərlərinə götürdükləri öhdəliklərə uyğun olaraq həll edirlər [5, s. 3].

Azərbaycan Respublikasında hüquq düşüncəsində vətəndaşlıq etik məsuliyyət, vətənpərvərlik və dövlətə, millətə sədaqət kontekstində dəyərləndirilir. Məhz vətəndaşlıq barədə cəmiyyətdə bu qeyd olunan tərzdə yanaşma hüququn təkcə

qanunverici-normativ bazada yox, eyni zamanda, cəmiyyətdə hər bir fərdin daşıdığı mənəvi dəyərlə ölçüldüyünü göstərir. Əslində, vətəndaşlıq anlayışının ölkəmizdə bu formada qiymətləndirilməsi birbaşa dövlətin sabitliyinə və əhalinin milli birliyinə xidmət edir desək, sözsüz ki, yanılmarıq.

Bununla yanaşı, Avropa Vətəndaşlıq Konvensiyası və BMT-nin "Stateless Persons" haqqında 1954-cü il Konvensiyası vətəndaşlığın etik aspektlərini qorumaq məqsədilə dövlətlərə beynəlxalq öhdəliklər yükləyir.

Beləliklə, qeyd olunmalıdır ki, beynəlxalq hüquq çərçivəsində vətəndaşlıq anlayışı təkcə müəyyən bir hüquqi statusdan ibarət deyildir, o həm də sosial və etik məsuliyyəti özündə daşıyır. Bu baxımdan, vətəndaşlıq fərdin cəmiyyətə inteqrasiyasını və ictimai münasibətlərdə fəal iştirakını təşviq edir. Beynəlxalq normalar dövlətləri insan hüquqlarına hörmət etməyə və vətəndaşsızlığın qarşısını almağa çağırır. Vətəndaşlıq institutu fərdlə dövlət arasında hüquq və vəzifələrin balansını təmin edən əsas mexanizm kimi çıxış edir. Eyni zamanda, bu anlayış mədəni müxtəlifliyin qorunması və sosial ədalətin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etməklə, qlobal əməkdaşlıq və qarşılıqlı etimadın formalaşmasına xidmət edən əsas anlayışlardan biridir.

Bu səbəbdən, vətəndaşlıq siyasətinin formalaşdırılmasında humanizm və hüquqi bərabərlik prinsipləri əsas götürülməlidir. Dövlətlər beynəlxalq öhdəliklərini nəzərə alaraq vətəndaşların hüquq və azadlıqlarının etibarlı təminatını yaratmağa çalışmalıdırlar. Vətəndaşlıq institutunun effektiv fəaliyyəti cəmiyyət daxilində sosial həmrəyliyin və sabitliyin möhkəmlənməsinə zəmin yaradır. Eyni zamanda, bu institutun düzgün tənzimlənməsi qlobal çağırışlar fonunda insan hüquqlarının müdafiəsini gücləndirir, müasir dövlətçilik və demokratik dəyərlərin ayrılmaz tərkib hissəsi kimi çıxış edir.

## *III. Vətəndaşlıq anlayışının beynəlxalq hüquqda formalaşması və inkişaf mərhələləri*

Vətəndaşlıq anlayışının beynəlxalq hüquqda formalaşması mərhələli xarakter daşıyır və bu proses dövlətlərin formalaşması, beynəlxalq sistemin institusionallaşması ilə paralel şəkildə tarixdə inkişaf dövrü keçmişdir.

Tarixin ilkin mərhələlərində vətəndaşlıq anlayışı Qədim Roma hüququnda "civitas" anlayışı ilə ifadə olunurdu; bu status yalnız sözügedən dövrün müəyyən təbəqələrinə aid, başqa bir sözlə, fərdi xarakter hesab olunurdu. Vətəndaşlıq statusu üzrə Romanın azad əhalisi vətəndaşlara və əcnəbilərə bölünürdü [1, s. 74]. Roma tarixində bu bölgünün meydana çıxardığı nəticə özünü əcnəbilərin və azad əhalinin qeyd olunan hüquqdan məhrum edilərək fərd-dövlət əlaqəsinin zəifliyində özünü göstərirdi. Yeni dövrdə – xüsusilə tarixi Fransa İnqilabı dövründə vətəndaşlıq "millət" anlayışı ilə birləşərək siyasi bir məzmun qazanmışdır. Bu səbəbdən, həmin hadisələrin fonunda vətəndaşlıq, öz inkişafının zirvəsinə çataraq, əsaslı təkmil anlayışa çevrilmişdir.

Tarixə nəzər yetirsək, XX əsrdən etibarən vətəndaşlığın beynəlxalq hüququn müstəqil tənzimlənmə obyektinə çevrildiyini müşahidə edə bilərik.

Vətəndaşlıq məsələsi uzun müddət dövlətin daxilin suverenliyində formalaşan bir institut kimi anlaşılsa da, son yüzillikdə beynəlxalq hüquqla köklü transformasiyaya uğramışdır.

Tarixi inkişaf yoluna nəzər saldıqda, müəyyən edilir ki, bu proses bir neçə fundamental mərhələdən keçmişdir. Beynəlxalq hüququn klassik dövründə vətəndaşlıq məsələləri dövlətlərin daxili müstəsna səlahiyyəti hesab edilirdi. Bu dövrdə beynəlxalq hüquq dövlətlərə kimin vətəndaş olub-olmadığını müəyyən edən zaman qeyri-məhdud sərbəstlik verirdi. Fərd beynəlxalq arenada hüququn subyekti kimi deyil, daha çox dövlət hakimiyyətinin obyekti kimi çıxış edirdi. Dövlət istədiyi şəxsə vətəndaşlıq verə, istədiyini isə bu hüquqdan məhrum edə bilərdi [4, s. 659-664].

Zaman keçdikcə, dövlətlər arasında münasibətlərin intensivləşməsi və miqrasiya prosesləri müxtəlif dövlətlərin qanunvericilikləri arasında ziddiyyətlərə - kolliziyalara səbəb oldu. Nəticədə, vətəndaşsızlıq (apatridlik) və ya ikili vətəndaşlıq kimi məsələlər ortaya çıxdı. Bu problemləri həll etmək üçün qəbul edilən 1930-cu il Haaqa Konvensiyasında təsbit olunmuşdur ki, vətəndaşlıq haqqında qanun yalnız beynəlxalq konvensiyalara, beynəlxalq qaydalara və hüququn ümumtanınmış prinsiplərinə uyğunluğu zamanı başqa dövlətlər tərəfindən tanınır [3]. İkinci dünya müharibəsindən sonra insan hüquqlarının beynəlxalq hüququn mərkəzinə gətirilməsi vətəndaşlıq institutunda inqilabi dəyişiklik yaratdı. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 15-ci maddəsinin 1-ci hissəsi ilə vətəndaşlıq birbaşa olaraq insanın təməl hüququ kimi tanındı: “Hər bir insan vətəndaşlıq hüququna malikdir” [10].

Bu dövrün ən mühüm hadisələrindən biri də Beynəlxalq Ədalət Məhkəməsinin “Nottebohm işi” (Lixtenşteyn Qvatemalaya qarşı, 1955) üzrə qərarı idi. Məhkəmə müəyyən etdi ki, beynəlxalq arenada vətəndaşlığın tanınması üçün təkcə formal sənədləşmə kifayət deyil. Şəxs ilə dövlət arasında real və effektiv əlaqə (genuine link), bağ olmalıdır. Bu prinsip, vətəndaşlığın formal xarakterdən sosial-hüquqi bağa keçidini rəsmiləşdirdi [7].

Müasir mərhələdə beynəlxalq hüquq vətəndaşsızlıq hallarının minimuma endirilməsinə yönəlmişdir. Bu məqsədlə dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi və vahid hüquqi mexanizmlərin formalaşdırılması təşviq olunur. Beynəlxalq konvensiyalar və sazişlər vətəndaşsız şəxslərin əsas hüquq və azadlıqlarının qorunmasını təmin etməyə yönəlmişdir. Eyni zamanda, milli qanunvericiliklərin bu sənədlərə uyğunlaşdırılması hüquqi boşluqların aradan qaldırılmasına xidmət edir. Məhz bu tip yanaşma insan hüquqlarının ümumbəşəri xarakterini daha da möhkəmləndirir.

## *IV. Azərbaycan Respublikasında vətəndaşlıq siyasəti: normativ-hüquqi baza və beynəlxalq təcrübəyə uyğunluq*

Azərbaycan Respublikasında vətəndaşlıq institutunun formalaşması və inkişafı milli dövlətçilik ideyalarının möhkəmlənməsi ilə bilavasitə əlaqəlidir. 1991-ci ildən başlayaraq vətəndaşlıq anlayışı təkcə hüquqi status kimi deyil, həm

də milli kimliyin, suverenliyin və dövlətin beynəlxalq hüquq sisteminə inteqrasiyasının mühüm göstəricisi kimi dəyərləndirilmişdir. Bu baxımdan, Azərbaycan Respublikasının vətəndaşlıq siyasəti həm milli maraqlara, həm də universal hüquqi dəyərlərə əsaslanan balanslı bir model kimi çıxış edir.

Azərbaycan Respublikasında vətəndaşlıq münasibətləri Azərbaycan Respublikasının Konstitusiyası, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunu, eləcə də sahəvi beynəlxalq müqavilələr vasitəsilə tənzimlənir. Bu hüquqi baza vətəndaşlığın əldə edilməsi, itirilməsi və bərpa olunması prosedurlarını müəyyən edir, həmçinin vətəndaşların hüquq və vəzifələrini qoruyur. Eyni zamanda, o, milli qanunvericiliyin beynəlxalq hüquq prinsipləri ilə uyğunluğunu təmin edir, ikili vətəndaşlıq, qaçqın və müvəqqəti sığınacaq statusları kimi mürəkkəb məsələlərin həllinə imkan yaradır və dövlətin vətəndaşlıq siyasətinin çevik, şəffaf və ədalətli olmasını təmin edir.

Azərbaycan Respublikası kontekstində vətəndaşlıq anlayışı 1991-ci ildən etibarən yeni mərhələyə qədəm qoymuşdur. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda vətəndaşlıq milli dövlətçiliyin atributu kimi təsbit edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyanın 52-ci maddəsinə əsasən, "Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır." Həmçinin fikirin davamı olaraq, 53-cü maddədə vətəndaşlıq hüququnun təminatı ilə bağlı məsələlərə yer ayrılmışdır [8]. Ayrılmış bu müddəalar bir daha sübut edir ki, dövlətin ali hüquqi qüvvəyə malik əsas qanunu olan Azərbaycan Respublikasının Konstitusiyası öz vətəndaşının bərabər hüquqlar çərçivəsində qorunmasını birbaşa təmin edir.

Bu, beynəlxalq prinsiplərlə, o cümlədən hüquqi standartlara uyğunluq təşkil edir və digər müasir hüquq sistemlərinə inteqrasiyanı özündə ehtiva edir. Eyni zamanda, bu yanaşma milli qanunvericiliyin təkmilləşdirilməsinə, vətəndaş hüquq və azadlıqlarının qorunmasına və dövlət idarəçiliyində şəffaflığın təmin edilməsinə imkan yaradır. Nəticədə, Azərbaycan Respublikasının vətəndaşlıq institutu həm hüquqi, həm də sosial baxımdan dayanıqlı və tarazlı bir model kimi formalaşır.

Azərbaycan Respublikasının "Vətəndaşlıq haqqında" Qanunu vətəndaşlığın əldə edilməsinin aşağıdakı formalarını müəyyən edir:

- Azərbaycan Respublikasının ərazisində (bu Qanunun 12-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla) və ya Azərbaycan Respublikasının vətəndaşından doğulduqda;
- Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edildikdə;
- Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş əsaslar olduqda;
- bu qanunda nəzərdə tutulmuş başqa əsaslar olduqda [9].

Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikası vətəndaşlığından (onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla) məhrum edilə bilməz. Bu prinsip həm hüquqi formada təhlükəsizliyin, həm də insan hüquqlarının qorunması mövqeyindən olduqca önəmlidir. Belə qeyd etmək yerinə

düşər ki, bu norma dövlətin hüquqi dayaqlarını gücləndirməklə, bilavasitə dövlət-vətəndaş münasibəti ilə əlaqəli qarşılıqlı etimadı əhəmiyyətli dərəcədə artırır.

Həmçinin yerli qanunvericilikdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində doğulmuş uşaqlarının vətəndaşlığı məsələlərinə də yer ayrılmışdır: “Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni əcnəbi olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir. Azərbaycan Respublikasının ərazisində doğulmuş və valideynlərindən biri əcnəbi, digəri isə vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir. Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşıdır” [9].

Eyni zamanda, Prezident fərmanları ilə müəyyən edilmiş bəzi müstəsna hallarda humanitar, elmi və ya milli maraqlar baxımından xarici vətəndaşlara vətəndaşlıq statusunun verilməsi praktikası da mövcuddur. Lakin qeyd olunan proses müxtəlif dünya ölkələri praktikasında fərqli xarakterizə olunur. Xüsusən qərarların tətbiq dairəsinin əhatəsi və həyata keçirilməsindəki şəffaflıq, qanunilik prinsiplərinin təminatı fonunda ABŞ və Fransa təcrübəsinə nəzər yetirək.

Fransa təcrübəsi göstərir ki, müstəsna naturalizasiya məsələləri Fransa Mülki Məcəlləsinin 21-19-cu maddəsində öz əksini tapır. Həmin maddəyə əsasən, “Fransaya müstəsna xidmətlər göstərmiş və ya vətəndaşlığı Fransa üçün müstəsna maraq kəsb edən əcnəbilər” yaşamaq müddəti tələbi olmadan vətəndaşlığa qəbul edilə bilərlər [2]. Qeyd olunan normanın əhəmiyyəti xüsusən mədəniyyət, incəsənət xadimlərinin, o cümlədən müəyyən sahələr üzrə öz töhfəsini vermiş şəxslərin tanınmasında əks olunur.

ABŞ-də vətəndaşlıq verilməsi birbaşa Prezident səlahiyyəti ilə deyil, Immigration and Nationality Act çərçivəsində həyata keçirilir. Bu qanunun 8 U.S.C. § 1427(f) maddəsində göstərilir ki, “ABŞ-nin milli təhlükəsizliyinə və ya kəşfiyyat fəaliyyətlərinə qeyri-adi töhfə vermiş şəxslər” üçün naturalizasiya prosesində yaşayış və fiziki varlıq tələbləri istisna edilə bilər [11].

Beynəlxalq təcrübə baxımından, Azərbaycan Respublikasının vətəndaşlıq qanunvericiliyi Avropa Şurasının Avropa Vətəndaşlıq Konvensiyası ilə uyğunlaşdırılmışdır. Sözügedən beynəlxalq Konvensiyaya görə, vətəndaşlıq məsələlərinə insan hüquqları kontekstindən yanaşılır. Burada nəzərdə tutulan hallar sırasında bərabərlik prinsipi, vətəndaşlıqdan məhrumedilmənin əsasları ilə bağlı müxtəlif məsələlər vardır. Məhz bu səbəbdən, yerli qanunverici baza ilə beynəlxalq hüquq arasında daimi harmoniya mövcuddur.

Azərbaycan Respublikasının normativ-hüquqi bazası bu tendensiyaya tədricən uyğunlaşır; belə ki, ölkədaxili tədbirlər sırasında Dövlət Miqrasiya Xidmətinin fəaliyyətinin genişləndirilməsi, vətəndaşlıqla bağlı elektron müraciət sistemlərinin yaradılması bu istiqamətdə atılmış mühüm addımlardan hesab olunur. Xüsusən elektron müraciət sistemlərinin yaradılması operativ qərarvermə səviyyəsini artırmışdır. Hesab olunmalıdır ki, bu hallar ölkənin innovativ idarəetmə modelinə uyğunluğunun parlaq təzahürüdür. Eyni zamanda, bu

mexanizmlər şəffaflığın təmin olunmasına və vətəndaş məmnunluğunun yüksəldilməsinə xidmət edir. Rəqəmsal həllərin tətbiqi insan amilindən asılılığı azaldaraq korrupsiya risklərinin minimuma endirilməsinə şərait yaradır. Vətəndaşlıqla bağlı prosedurların sadələşdirilməsi dövlət-vətəndaş münasibətlərində qarşılıqlı etimadı gücləndirir. Bütün bunlar idarəetmədə müasir yanaşmaların və hüquqi islahatların ardıcıl şəkildə həyata keçirildiyini göstərir.

Ümumiyyətlə, vətəndaşlıq siyasəti Azərbaycan Respublikasının milli-siyasi təhlükəsizliyi, insan hüquqlarının təminatı və beynəlxalq çərçivədə inteqrasiya siyasətinin ayrılmaz tərkib hissəsidir. Bu, əsrlərin sınağından çıxmış bir həqiqətdir ki, vətəndaşlıq siyasəti nəinki daxili təhlükəsizliyin təməlidir, hətta insan hüquqlarının təminatı sahəsində əsas sütun rolunu oynayır. Düzgün formalaşmış vətəndaşlıq siyasəti cəmiyyətin sosial rifahına xidmət edir, dövlətin isə suverenliyini möhkəmlədir. Strateji əhəmiyyət daşıyan bir kimlik amili kimi vətəndaşlıq, ölkənin beynəlxalq arenada da nüfuzunu artırır. Bir sözlə, vətəndaşlıq siyasəti demokratik, sosial, etik dəyərləri olan strateji bir istiqamətdir.

Vətəndaşlıq institutunun davamlı şəkildə təkmilləşdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmalıdır. Qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması hüquqi sabitliyin və etimad mühitinin formalaşmasına xidmət edir. Eyni zamanda, vətəndaşların hüquqi şüurunun artırılması və ictimai iştirakçılığın təşviqi demokratik inkişafı sürətləndirir. Dövlətlə vətəndaş arasında sağlam münasibətlərin qurulması milli birliyin möhkəmlənməsinə şərait yaradır. Müasir çağırışlar fonunda balanslı və inklüziv vətəndaşlıq siyasəti ölkənin dayanıqlı inkişafını təmin edən mühüm amillərdən biridir. Beləliklə, vətəndaşlıq siyasəti Azərbaycan Respublikasının hüquqi, siyasi və sosial inkişaf strategiyasının əsas dayaqlarından biri kimi çıxış edir.

## *V. Nəticə*

Müasir inkişaf tendensiyasına uğramış dünyəvi hüquq sistemlərində vətəndaşlıq anlayışı təkcə hüquqi status kimi qəbul edilməmiş, həmçinin sosial, siyasi, demokratik, etik aspektləri özündə birləşdirir. Tarixi inkişaf prosesinə nəzər salsaq, görmək mümkündür ki, bu anlayış mərhələli xarakter daşıyır. Antik Roma hüququnda vətəndaşlıq yalnız müəyyən təbəqələrə aid status kimi formalaşırdı, orta əsrlərdə isə feodal münasibətlər fərdlərin dövlətlə hüquqi əlaqəsini zəiflətdi. Lakin yeni dövrdə, xüsusilə Fransa İnqilabı fonunda vətəndaşlıq millət anlayışı ilə birləşərək siyasi və hüquqi məzmun qazandı. XX əsrdə vətəndaşlıq beynəlxalq hüququn predmetinə çevrildi və BMT-nin Nizamnaməsi, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi kimi sənədlərlə beynəlxalq standartlar formalaşdırıldı. Müasir dövrdə isə qloballaşma, postmilli vətəndaşlıq, ikili vətəndaşlıq, o cümlədən miqrasiya kimi baxışlar bu anlayışın çevikliyini tələb edir.

Qeyd olunanları nəzərə alaraq, vətəndaşlıq məsələləri üzrə dünyəvi hüquq çərçivəsində tənzimlənməsi həm dövlətlərin suveren hüquqları, həm də insan hüquqlarının universallığı arasında tarazlığın qorunmasını əsaslı olaraq tələb edir, müəyyənləşdirir. Dövlətlər öz vətəndaşlıq siyasətlərini milli maraqlar əsasında

müəyyənləşdirsələr belə, beynəlxalq konvensiyalar və hüquqi öhdəliklər çərçivəsində davranmağa məcburdurlar. Bununla da, yaranmış bu vəziyyət vətəndaşlıq anlayışına həm hüquqi, həm də etik məsuliyyət yükü qazandırır. Vətəndaşlığın etik tərəfi yalnız dövlətin hər bir fərdi qarşısında məsuliyyətini deyil, həm də fərdin mənsub olduğu dövlətinə sadiqliyini ifadə edir.

Azərbaycan Respublikasında vətəndaşlıq anlayışı milli dövlətçilik prinsipləri, suverenlik və hüquqi ədalət konsepsiyası əsasında formalaşmışdır. Ali qanunverici sənəd – Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşlıq dövlət və cəmiyyətin hər bir üzvü arasında qarşılıqlı hüquq və vəzifələr münasibəti kimi təsbit edilmiş, qanunvericilikdə isə onun əldə edilməsi, bərpası və itirilməsi mexanizmləri aydın şəkildə müəyyən edilmişdir. Bu, ölkəmizin beynəlxalq hüququn əsas prinsiplərinə uyğun fəaliyyət göstərdiyini və vətəndaşlıq institutunu həm hüquqi, həm də mənəvi məsuliyyət daşıyan bir dəyər kimi qəbul etdiyini göstərir. Azərbaycan Respublikasının sözügedən vətəndaşlıq siyasəti, xüsusilə insan hüquqlarının qorunması, ikili vətəndaşlıq kimi məsələlərdə beynəlxalq təcrübəyə əsaslanaraq humanist xarakter daşıyır.

Müxtəlif ölkələrin praktikası üzrə beynəlxalq təcrübə ilə müqayisədə isə Azərbaycan Respublikasında vətəndaşlığın məhrumedilməzliyi prinsipi dövlətlə cəmiyyət arasında qarşılıqlı etimadın və bərabərhüquqluluğun təminatına xidmət edir. Eyni zamanda, dövlətin vətəndaşlıq siyasətində etik və sosial aspektlər olan vətənpərvərlik və ictimai məsuliyyət hüquqi normativlər qədər əhəmiyyətli dərəcədə hesab olunur. Bu istiqamətdə görülən tədbirlər həm daxili hüquqi sabitliyin möhkəmlənməsinə, həm də dövlətin beynəlxalq sferada nüfuzunun artmasına şərait yaradır. Vətəndaşlıq hüququnun bu cür humanist əsaslar üzərində qurulması fərdlərin dövlətə bağlılığını daha da gücləndirir. Qanunvericilikdə bərabərlik prinsipinin qorunması sosial ədalətin təmin olunmasında mühüm rol oynayır. Dövlət-vətəndaş münasibətlərində etimad mühitinin formalaşması demokratik institutların səmərəli fəaliyyətinə zəmin yaradır. Eyni zamanda, milli qanunvericiliyin beynəlxalq hüquq normaları ilə uzlaşdırılması hüquqi harmoniyanın təmin edilməsinə xidmət edir. Bütün bunlar Azərbaycan Respublikasında vətəndaşlıq siyasətinin ardıcıl və strateji xarakter daşıdığını nümayiş etdirir.

Vətəndaşlıq təkcə hüquqi bağlılıq deyil, həm də dövlətlə cəmiyyət arasında mövcud qarşılıqlı etimadın dayağıdır. Bu institutun beynəlxalq və milli səviyyədə təkmilləşdirilməsinin cəmiyyətin demokratik inkişafına xidmət etdiyini unutmamalıyıq. Nəticə olaraq, hazırki dövrdə vətəndaşlıq anlayışı dövlətin sabitliyinin və insan hüquqlarının qorunmasının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu anlayış fərdlərin dövlət həyatında fəal iştirakını təşviq etməklə, vətəndaş məsuliyyətini gücləndirir. Eyni zamanda, vətəndaşlıq hüquqi bərabərliyin və sosial ədalətin təmin olunmasında mühüm rol oynayır. Dövlətin vətəndaşlara göstərdiyi hüquqi və sosial təminatlar ictimai sabitliyin möhkəmlənməsinə şərait yaradır.

Müasir dünyada miqrasiya proseslərinin artması vətəndaşlıq institutunun daha çevik və inklüziv yanaşmalarla tənzimlənməsini zəruri edir. Bu baxımdan, beynəlxalq təcrübənin öyrənilməsi və milli qanunvericiliyə uyğun şəkildə tətbiqi xüsusi əhəmiyyət daşıyır. Beləliklə, vətəndaşlıq institutu həm hüquqi, həm də sosial baxımdan davamlı inkişafın əsas sütunlarından biri kimi çıxış edir.

## ƏDƏBİYYAT (REFERENCES):


1. Aliyev A.I., Human Rights. Textbook. Baku: Nurlar, 2019, 352 p (in Azerbaijani / *Əliyev Ə.İ., İnsan hüquqları. Dərslik. Bakı: Nurlar, 2019, 352 s.)*
2. Civil Code of France. URL: https://www.wipo.int/wipolex/en/legislation/details/23230 (last access: 04.05.2025).
3. Hague Convention (1930), Article 1. URL: https://www.refworld.org/legal/agreements/lon/1930/en/17955 (last access: 05.05.2025).
4. International Law, Malcolm N. Shaw. 1710 p. URL: https://hostnezt.com/cssfiles/internationallaw/International-Law-Shaw-Malcolm.pdf (last access: 04.05.2025).
5. Issues of Population in International Law. Police Academy of the Republic of Azerbaijan. 16 p. (in Azerbaijani / *Beynəlxalq hüquqda əhali məsələləri. Polis Akademiyası. 16 s.).* URL:https://www.pa.edu.az/library/3/21/165_movzu_7_.beynelxalq_huquqda_ehali_meseleleri.pdf (last access: 06.05.2025).
6. Marshall, T. H. (1950). Citizenship and Social Class. Cambridge: Cambridge University Press. 101 p.
7. Nottebohm (Liech. v. Guat.), 1955 I.C.J. 4 (Apr. 6). URL: https://www.icj-cij.org/case/18 (last access: 04.05.2025).
8. The Constitution of the Republic of Azerbaijan (in Azerbaijani / *Azərbaycan Respublikasının Konstitusiyası).* URL: https://e-qanun.az/framework/897 (last access: 03.05.2025).
9. The Law of the Republic of Azerbaijan on Citizenship of the Republic of Azerbaijan (in Azerbaijani / *Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikasının Qanunu).* URL: https://e-qanun.az/framework/3187 (last access: 04.05.2025).
10. The Universal Declaration of Human Rights, Article 15. URL: https://www.coe.int/az/web/compass/the-universal-declaration-of-human-rights-full-version- (last access: 05.05.2025).
11. U.S. Code § 1427 - Requirements of naturalization. URL: https://www.law.cornell.edu/uscode/text/8/1427 (last access: 04.05.2025).

# Development trends of the institution of citizenship in international law systems

ASMAR PANAHOVA*


## Abstract

*The article provides a comprehensive analysis of the legal, political, and ethical aspects of the concept of citizenship within the system of international law. The relevance of the topic is closely connected with globalization, the expansion of migration processes, and the necessity of maintaining a balance between human rights and state sovereignty. In this context, the study extensively examines the historical stages of the development of the institution of citizenship, its fundamental formation in international law, as well as the measures implemented in this field in the Republic of Azerbaijan. The main objective of the article is to determine the essence of the institution of citizenship within the international legal framework and its impact on national legal systems, as well as to assess the compliance of the normative-legal framework applied in the Republic of Azerbaijan with international standards. To achieve this goal, theoretical, comparative, and analytical research methods have been widely employed. The findings obtained from the analyzed sections demonstrate that, in the modern era, citizenship is not merely a legal status formed within society, but also embodies elements of social responsibility and ethical value. Within the framework of international law, this concept is closely linked to the protection of human rights and the promotion of social justice. Citizenship policy in the Republic of Azerbaijan is aimed at preserving a balance between national interests and international principles, and through its constitutional and legislative framework has been aligned with existing international standards and regimes. In conclusion, it can be stated that citizenship, as a central institution of the modern legal state, is regarded as a concept of strategic importance that determines both the legal status of the individual and the sovereignty of the state.*


**Keywords:** *citizenship, individual, the concept of "civitas", sovereignty, Convention, stability, theory, democracy, international experience, normative-legal framework.*

* Doctor of Laws / UNESCO Chair on Human Rights and Information Law, Baku State University / email: esmerpanahova@gmail.com

# Тенденции развития института гражданства в системах международного права

ЭСМЕР ПЕНАХОВА*

## Резюме

*В статье проводится комплексный анализ правовых, политических и этических аспектов понятия гражданства в системе международного права. Актуальность темы тесно связана с процессами глобализации, расширением миграционных потоков, а также необходимостью соблюдения баланса между правами человека и государственным суверенитетом. В данном контексте подробно исследуются исторические этапы развития института гражданства, его фундаментальное формирование в международном праве, а также меры, реализуемые в данной сфере в Азербайджанской Республике. Основной целью статьи является определение сущности института гражданства в международно-правовых рамках и его влияния на национальные правовые системы, а также оценка соответствия нормативно-правовой базы, применяемой в Азербайджанской Республике, международным стандартам. Для достижения поставленной цели в исследовании широко использованы теоретические, сравнительные и аналитические методы. Результаты анализа по отдельным разделам статьи свидетельствуют о том, что в современных условиях гражданство представляет собой не только правовой статус, сформировавшийся в обществе, но и носит в себе элементы социальной ответственности и этической ценности. В рамках международного права данное понятие тесно связано с защитой прав человека и обеспечением социальной справедливости. Политика гражданства Азербайджанской Республики направлена на сохранение баланса между национальными интересами и международными принципами и посредством конституционно-законодательной базы приведена в соответствие с действующими международными стандартами и режимами. В результате можно отметить, что гражданство как центральный институт современного правового государства обладает стратегическим значением, определяя как правовой статус личности, так и суверенитет государства.*

**Ключевые слова:** *гражданство, личность, понятие «civitas», суверенитет, Конвенция, стабильность, теория, демократия, международный опыт, нормативно-правовая база.*

**Redaksiyaya daxil olma tarixi: 15.05.2025**
**Çapa qəbul: 25.12.2025**

---

* Доктор юридических наук / Кафедра ЮНЕСКО по правам человека и информационному праву / Бакинский государственный университет / email: esmerpanahova@gmail.com

***Gülgün Quliyeva.*** Konstitusiya vətəndaşlığı və milli kimlik: müasir baxışlar // Azərbaycan Hüquq Jurnalı. 2025 (№3), s. 68-89. DOI: 10.61638/ZPRC2665

# KONSTİTUSİYA VƏTƏNDAŞLIĞI VƏ MİLLİ KİMLİK: MÜASİR BAXIŞLAR

GÜLGÜN QULİYEVA*

**Annotasiya**

*Məqalədə konstitusiya vətəndaşlığı anlayışı və onun milli kimliklə qarşılıqlı münasibətləri müasir siyasi-hüquqi nəzəriyyələr və qloballaşma prosesləri kontekstində təhlil edilir. Müəllif göstərir ki, müasir dünyada dövlət və cəmiyyət arasında münasibətlərin əsasını tənzimləyən hüquqi kateqoriyalardan biri kimi konstitusiya vətəndaşlığı yalnız formal mənsubiyyət aktı deyil, həm də milli, mədəni və siyasi identikliyin daşıyıcısı kimi çıxış edir. Qloballaşma, transmilli miqrasiya və çoxmədəniyyətlilik şəraitində milli kimliyin qorunması ilə universallaşan vətəndaşlıq anlayışı arasında ziddiyyətlər meydana gəlir. Məqalədə konstitusiya vətəndaşlığının formalaşma tarixi, onun hüquqi və siyasi mahiyyəti, milli kimliyin sosial və psixoloji təməl prinsipləri, habelə onların qarşılıqlı təsir mexanizmləri araşdırılır. Müqayisəli yanaşma çərçivəsində Avropa İttifaqı, ABŞ və postsovet məkanındakı təcrübələr nəzərdən keçirilir. Xüsusi diqqət Azərbaycan Respublikasında konstitusiya vətəndaşlığı modelinə yönəlir. Məqalədə qeyd olunur ki, Azərbaycan Respublikasının Konstitusiyası milli dəyərlərin, dövlət dilinin və mədəni irsin qorunması ilə bərabər, vətəndaşların hüquq bərabərliyini və çoxmillətli harmoniyanı təmin edən mütərəqqi hüquqi bazaya malikdir. Bu kontekstdə milli kimliklə universal vətəndaşlıq prinsiplərinin uyğunlaşdırılması dövlətin konstitusiya identikliyinin əsas dayaqlarından biri kimi qiymətləndirilir. Müəllifin qənaətinə görə, müasir dövrdə konstitusiya vətəndaşlığının məzmunu yalnız hüquqi münasibətləri deyil, həm də sosial-mədəni dəyərləri, vətəndaş məsuliyyətini və milli mənsubiyyət hissini ifadə edən kompleks sistem kimi dəyərləndirilməlidir.*

**Açar sözlər:** *konstitusiya vətəndaşlığı, milli kimlik, hüquqi dövlət, qloballaşma, vətəndaşlıq prinsipləri, çoxmədəniyyətlilik, konstitusiya identikliyi, Azərbaycan modeli.*

## *I. Giriş*

Mövzunun aktuallığı və tədqiqatın məqsədi. Müasir dünyada dövlət və cəmiyyət münasibətlərinin hüquqi əsaslarını müəyyən edən anlayışlardan biri olan konstitusiya vətəndaşlığı, milli kimliyin formalaşması və qorunması baxımından xüsusi əhəmiyyət daşıyır. Qloballaşma, miqrasiya, informasiya texnologiyalarının inkişafı və mədəni inteqrasiya kimi proseslər milli sərhədlərin nisbi şəkildə zəifləməsinə, eyni zamanda vətəndaşlıq institutunun yeni məzmun kəsb etməsinə səbəb olmuşdur. Bu dəyişikliklər fonunda "vətəndaş kimdir?", "milli mənsubiyyət nə ilə müəyyən olunur?" kimi suallar yenidən aktuallaşmışdır. Konstitusiya vətəndaşlığı anlayışı yalnız hüquqi mənsubiyyət deyil, həm də

* Siyasi elmlər üzrə fəlsəfə doktoru / Bakı Dövlət Universiteti / email: gulgun2004@mail.ru

siyasi, sosial və mədəni bir identiklik forması kimi çıxış edir [10, s. 67]. Bu mənada o, dövlətin legitimliyinin və cəmiyyətin birliyinin hüquqi-siyasi əsası kimi mühüm funksiyaya malikdir. Müasir dövlətlərin konstitusiyalarında vətəndaşlıq məsələsinin xüsusi şəkildə tənzimlənməsi, onun həm hüquq, həm də mənəvi dəyər kimi qəbul edilməsini göstərir.

Mövzunun aktuallığı həm də ondan irəli gəlir ki, qloballaşma şəraitində milli kimliklə universal vətəndaşlıq prinsipləri arasında balansın qorunması zərurəti yaranmışdır. Bir tərəfdən, insan hüquqlarının qlobal dəyər kimi qəbul edilməsi və transmilli inteqrasiya prosesləri, digər tərəfdən isə milli dövlətlərin özünəməxsus mədəni kodlarını və konstitusiya identikliyini qorumaq istəyi müəyyən gərginlik yaradır. Bu qarşılıqlı təsir müasir konstitusionalizmin ən mühüm mübahisə sahələrindən birinə çevrilmişdir.

Azərbaycan Respublikası nümunəsində bu məsələ daha da maraqlı məzmun kəsb edir. Çünki ölkəmizin Konstitusiyası milli dəyərlərin qorunması, dövlət dili və mədəni irsin möhkəmləndirilməsi ilə bərabər, bütün vətəndaşların bərabər hüquqlarını təmin edən mütərəqqi hüquqi baza formalaşdırır. Bu baxımdan, Azərbaycan modeli milli kimliklə vətəndaşlıq anlayışının vəhdətini təmin edən balanslaşdırılmış konstitusiya sisteminin nümunəsidir.

Tədqiqatın məqsədi konstitusiya vətəndaşlığı anlayışının mahiyyətini və onun milli kimliklə qarşılıqlı əlaqəsini elmi-hüquqi müstəvidə təhlil etmək, bu münasibətlərin müasir dövrdə transformasiyasını araşdırmaq və Azərbaycan təcrübəsi əsasında hüquqi-siyasi nəticələr çıxarmaqdan ibarətdir. Məqsədə uyğun olaraq aşağıdakı məsələlər öyrənilir:

Konstitusiya vətəndaşlığının mənşəyi, inkişaf mərhələləri və müasir konseptual çərçivəsi; Milli kimlik anlayışının hüquqi və sosial aspektləri; Qloballaşma dövründə konstitusiya vətəndaşlığının dəyişən funksiyaları; Azərbaycan Respublikasında vətəndaşlıq və milli kimlik münasibətlərinin hüquqi əsasları. Beləliklə, mövzu həm nəzəri, həm də praktik baxımdan aktual olub, dövlət quruculuğunun və milli kimliyin qorunmasının hüquqi əsaslarının tədqiqinə mühüm töhfə vermək məqsədi daşıyır.

Konstitusiya vətəndaşlığı və milli kimlik anlayışlarının ümumi izahı. Konstitusiya vətəndaşlığı anlayışı müasir dövlətin hüquqi-siyasi strukturunda vətəndaşın statusunu, hüquq və vəzifələrini müəyyən edən əsas prinsipial kateqoriyalardan biridir. Bu anlayış təkcə hüquqi mənsubiyyət formasını deyil, həm də dövlətlə fərdin qarşılıqlı məsuliyyət münasibətlərini ifadə edir. Konstitusiya vətəndaşlığı, mahiyyət etibarilə, konstitusiyanın qəbul etdiyi dəyərlər sisteminə mənsub olma və həmin dəyərlərin daşıyıcısı kimi çıxış etmə mənasını daşıyır.

Klassik mənada vətəndaşlıq dövlətin suverenliyinə və fərdin ona mənsubiyyətinə əsaslansa da, konstitusiya vətəndaşlığı anlayışı bu münasibətləri daha geniş hüquqi, siyasi və mənəvi müstəvidə izah edir. Bu anlayışda əsas diqqət vətəndaşın dövlətin konstitusiya dəyərlərinə sadiqliyi, qanun qarşısında bərabərliyi və ictimai-siyasi iştirak hüququna yönəlir. Beləliklə, konstitusiya

vətəndaşlığı fərdi yalnız hüquqların daşıyıcısı kimi deyil, həm də dövlətin hüquqi-siyasi sisteminin fəal iştirakçısı kimi təqdim edir.

Digər tərəfdən, milli kimlik anlayışı cəmiyyətin özünü dərk etməsinin, tarixi və mədəni yaddaşının, dilinin və dəyərlər sisteminin ifadəsidir. Milli kimlik, bir xalqın siyasi, mədəni və sosial varlığını birləşdirən və onun digərlərindən fərqlənməsini təmin edən ideya və dəyərlər məcmusudur. O, yalnız etnik və ya mədəni göstəricilərlə deyil, həm də dövlətin hüquqi və siyasi institutları vasitəsilə möhkəmlənir [8, s. 76]. Bu baxımdan, milli kimlik və konstitusiya vətəndaşlığı arasında dialektik əlaqə mövcuddur. Konstitusiya milli kimliyin hüquqi ifadə forması kimi çıxış edir, çünki orada xalqın suverenliyi, dövlətin ideya-siyasi yönümü, milli dəyərlərin qorunması və vətəndaşların hüquq bərabərliyi kimi prinsiplər əks olunur. Eyni zamanda, milli kimlik konstitusiya vətəndaşlığının sosial və mənəvi təməlini təşkil edir  yəni vətəndaşın dövlətlə bağını gücləndirir, hüquqi sistemə mənəvi məzmun verir.

Beləliklə, konstitusiya vətəndaşlığı fərdin hüquqi statusunu, milli kimlik isə onun mənəvi və mədəni mənsubiyyətini müəyyən edir. Bu iki anlayış bir-birini tamamlayır: birincisi hüquqi normativ bazanı təmin edir, ikincisi isə həmin hüquqi sistemin mənəvi-sosial dayağını yaradır. Müasir dövrdə demokratik dövlətlərin uğurlu inkişafı məhz bu iki elementin  hüquqi və milli identikliyin harmonik vəhdətindən asılıdır.

Tədqiqatın metodoloji əsasları. Bu tədqiqatın metodoloji bazasını hüquq elminin ümumelmi və xüsusi elmi metodları, eləcə də siyasi və sosial-fəlsəfi təhlil yanaşmaları təşkil edir. Mövzu multidissiplinar xarakter daşıdığı üçün, həm hüquqi-nəzəri, həm də sosial-humanitar istiqamətlərin metodlarından istifadə edilmişdir.

Əsas metodoloji istiqamətlər aşağıdakılardır:

Analitik və sistemli yanaşma metodu. Konstitusiya vətəndaşlığı və milli kimlik anlayışlarının mahiyyətinin açılması, onların qarşılıqlı təsir mexanizmlərinin və hüquqi-siyasi strukturda yerinin müəyyənləşdirilməsi bu metod vasitəsilə həyata keçirilmişdir. Analitik yanaşma dövlət, cəmiyyət və fərd münasibətlərinin hüquqi çərçivədə kompleks şəkildə dərk olunmasına imkan verir.

Müqayisəli hüquqi təhlil metodu. Müxtəlif dövlətlərin, xüsusilə Avropa İttifaqı, ABŞ və postsovet ölkələrinin konstitusiyalarında vətəndaşlıq institutunun tənzimlənməsi təcrübəsi müqayisəli aspektdə araşdırılmışdır. Bu metod Azərbaycan modelinin xüsusiyyətlərini və onun beynəlxalq təcrübədəki yerini müəyyən etməyə şərait yaratmışdır.

Tarixi və retrospektiv metod**.** Konstitusiya vətəndaşlığı anlayışının formalaşma mərhələləri və onun milli kimliklə əlaqəsinin tarixi kökləri öyrənilmiş, bu anlayışların inkişaf dinamikası təhlil edilmişdir.

Normativ-hüquqi analiz.  Azərbaycan Respublikasının Konstitusiyası, milli qanunvericilik aktları və beynəlxalq hüquq normaları əsasında vətəndaşlıq institutunun hüquqi əsasları təhlil edilmişdir. Bu yanaşma konstitusiya vətəndaşlığının hüquqi sistemdə tutduğu yeri elmi şəkildə əsaslandırmağa imkan vermişdir.

Sosioloji və fəlsəfi yanaşma. Milli kimlik və vətəndaşlıq münasibətlərinin ictimai şüurda formalaşması, vətəndaş məsuliyyəti və mənəvi identiklik kimi anlayışların dəyərləndirilməsi üçün bu metodlardan istifadə olunmuşdur.

Qloballaşma nəzəriyyələrinin tətbiqi. Qloballaşma, transmilli identiklik və çoxmədəniyyətlilik kontekstində konstitusiya vətəndaşlığının yeni məzmunu qlobal nəzəri çərçivələrə əsaslanaraq izah edilmişdir.

Bu metodların sintezi tədqiqatın məqsədinə nail olmaq, konstitusiya vətəndaşlığı və milli kimlik anlayışlarını həm hüquqi, həm də sosial-mədəni müstəvidə kompleks şəkildə qiymətləndirmək imkanı yaratmışdır.

Konstitusiya vətəndaşlığının hüquqi əsası və tarixi formalaşması. Konstitusiya vətəndaşlığı anlayışı hüquqi dövlətin əsas sütunlarından biri kimi vətəndaşın hüquqi statusunu, dövlətə mənsubiyyətini və qarşılıqlı hüquq-məsuliyyət münasibətlərini müəyyənləşdirir. Bu anlayışın formalaşması təkamül prosesi keçmiş, siyasi düşüncənin, insan hüquqları ideyasının və dövlətçilik təcrübəsinin inkişafı ilə paralel şəkildə meydana çıxmışdır.

*II. Tarixi köklər*

Vətəndaşlıq anlayışının ilkin formaları antiki dövrün şəhər-dövlətlərində (polis) yaranmışdır. Qədim Yunanıstanda "politis" anlayışı yalnız hüquqlara malik fərdi deyil, həm də ictimai məsuliyyət daşıyan, dövlət idarəçiliyində iştirak edən subyekti ifadə edirdi. Roma hüququnda isə *civitas* və *civis Romanus* anlayışları vasitəsilə vətəndaşlıq hüquqi mənsubiyyət və dövlətin himayəsi kimi qəbul edilirdi.

Orta əsrlərdə feodal münasibətləri dövründə vətəndaşlıq anlayışı zəifləsə də, Yeni dövrün Avropa siyasi düşüncəsi (xüsusilə Hobbs, Lokk, Russo və Monteskyö kimi mütəfəkkirlərin əsərlərində) fərd və dövlət arasında ictimai müqavilə ideyası vasitəsilə yenidən ön plana çıxmışdır. Bu dövrdə vətəndaşlıq artıq monarxın təbəəliyindən fərqli olaraq hüquq bərabərliyi və dövlət qarşısında məsuliyyət üzərində qurulan münasibət kimi başa düşülməyə başlanmışdır.

*Konstitusiya vətəndaşlığının hüquqi əsaslarının yaranması.*

XVIII əsrdə qəbul edilən ilk konstitusiyalar  1787-ci il ABŞ Konstitusiyası və 1789-cu il Fransız İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi vətəndaşlığın konstitusiya səviyyəsində tənzimlənməsinin əsasını qoydu. Bu sənədlərdə vətəndaşlıq artıq hüquqi mənsubiyyətlə yanaşı, azadlıq, bərabərlik və hüquqi iştirak prinsiplərinə əsaslanan konstitusiya dəyəri kimi təsbit edildi.

XIX və XX əsrlərdə vətəndaşlığın hüquqi məzmunu beynəlxalq hüquq normaları ilə zənginləşdi. Birləşmiş Millətlər Təşkilatının (1948) İnsan Hüquqları Ümumdünya Bəyannaməsi və Avropa İnsan Hüquqları Konvensiyası vətəndaşlıq hüququnun qlobal səviyyədə tanınmasını təmin etdi. Bu mərhələdə "konstitusiya vətəndaşlığı" anlayışı dövlətin fundamental hüquqi sənədində yəni konstitusiyada vətəndaşın hüquq və azadlıqlarını təmin edən və dövlətlə münasibətlərini müəyyən edən ali norma kimi formalaşdı.

Müasir dövrdə konstitusiya vətəndaşlığı. Müasir konstitusionalizm şəraitində vətəndaşlıq sadəcə hüquqi status deyil, həm də konstitusiyanın

dəyərlərinə sadiqlik və ictimai məsuliyyət prinsipi ilə bağlı sosial fenomenə çevrilmişdir. "Konstitusiya vətəndaşlığı" termini ilk dəfə XX əsrin sonlarında Qərb hüquq nəzəriyyəsində daha geniş yayılmış və milli mənsubiyyətlə yanaşı, konstitusiya dəyərlərinə mənsub olma mənasını ifadə etmişdir [13, s. 43].

Avropa İttifaqında "çoxsəviyyəli vətəndaşlıq" modeli həm milli, həm də Avropa səviyyəsində vətəndaşlıq hüququnun tanınması bu anlayışın praktiki təzahürlərindən biridir. Beləliklə, konstitusiya vətəndaşlığı artıq yalnız dövlətin hüquqi himayəsini deyil, həm də konstitusiya prinsipləri ilə eyniləşməni, yəni fərdin dövlətin ideya-siyasi sisteminə mənəvi mənsubiyyətini əhatə edir.

Azərbaycan kontekstində. Azərbaycan Respublikasında konstitusiya vətəndaşlığının hüquqi əsası 1995-ci il Konstitusiyası ilə müəyyən edilmişdir. Konstitusiyanın 52-ci maddəsində qeyd olunur ki, "Azərbaycan Respublikasının vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan dövlətinə mənsub olan şəxslərdir." Bu müddəa vətəndaşlığın hüquqi mənsubiyyətlə yanaşı, dövlətlə mənəvi bağ kimi qəbul olunduğunu göstərir. Azərbaycan Konstitusiyası həmçinin vətəndaşların hüquq bərabərliyini, dövlətin vətəndaş qarşısında məsuliyyətini və milli dəyərlərin qorunmasını təmin edən mütərəqqi hüquqi baza yaradır.

Beləliklə, konstitusiya vətəndaşlığı anlayışı tarixi inkişaf prosesində təbəəlikdən hüquqi bərabərliyə, oradan isə milli və konstitusiya identikliyinin birləşdiyi müasir mərhələyə qədər təkamül keçirmişdir. Bu anlayış həm hüquqi, həm siyasi, həm də mənəvi ölçüləri özündə birləşdirən kompleks kateqoriya kimi çıxış edir.

Dövlət və vətəndaş arasında hüquqi-siyasi münasibətlərin tənzimlənməsi. Müasir dövlətçilik sistemində vətəndaş və dövlət arasında münasibətlər konstitusiya və hüquq normaları vasitəsilə tənzimlənir. Bu münasibətlər qarşılıqlı hüquq və vəzifələr, siyasi iştirak imkanları, hüquqi məsuliyyət və dövlətin legitimlik prinsipləri əsasında formalaşır. Konstitusiya vətəndaşlığı anlayışı məhz bu münasibətlərin hüquqi çərçivəsini müəyyən edən əsas kateqoriyalardan biridir.

Dövlətin legitimliyi və idarəetmə mexanizmlərinin sabitliyi vətəndaşların dövlətə olan etimadı ilə birbaşa bağlıdır. Vətəndaş öz hüquq və azadlıqlarının təmin olunduğu, siyasi iştirak imkanlarının mövcud olduğu bir cəmiyyətdə dövlətə sadiqliyini və məsuliyyətini daha aydın şəkildə ifadə edir. Bu isə hüquqi dövlət konsepsiyasının əsas dayaqlarından biri sayılır [7, s. 134].

Azərbaycan Respublikasında dövlət-vətəndaş münasibətləri Konstitusiya və bir sıra normativ hüquqi aktlarla tənzimlənir. Konstitusiyanın 12-ci maddəsinə əsasən, dövlətin ali məqsədi insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsidir. Eyni zamanda, Konstitusiyanın 52-ci maddəsində Azərbaycan vətəndaşlığı anlayışı müəyyən edilərək vətəndaşlıq münasibətlərinin prinsipləri təsbit olunur. Bu prinsiplər bərabərlik, hüquqi təminat, siyasi iştirak hüququ və dövlət qarşısında məsuliyyət kimi əsasları ehtiva edir.

Hüquqi-siyasi münasibətlərin tənzimlənməsi həm də milli kimlik və konstitusiya dəyərlərinin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Qloballaşma dövründə dövlətin funksiyaları dəyişsə də, onun vətəndaş qarşısında

daşıdığı məsuliyyət sosial müdafiə, hüquqi təminat və milli identikliyin qorunması kimi istiqamətlərdə daha da aktuallaşır [12, s. 2].

Beləliklə, dövlət və vətəndaş münasibətləri qarşılıqlı hüquqi və mənəvi öhdəliklər sistemini ifadə edir. Bu sistemin əsas məqsədi insan hüquqlarını qorumaq, vətəndaş iştirakçılığını təmin etmək və dövlətin legitimliyini möhkəmləndirməkdir.

Müasir konstitusiyalarda vətəndaşlıq prinsipləri (müqayisəli təhlil). Doğum əsasında vətəndaşlıq (jus soli) vs. qan vətəninə əsaslanan vətəndaşlıq (jus sanguinis). Müasir konstitusiyalarda vətəndaşlığın mənimsənilməsinin iki əsas modeli müşahidə olunur: jus soli (torpaqda doğulma əsasında) və jus sanguinis (ata-ana soyundan). Məsələn, ABŞ-ın 14-cü Düzəlişi doğum əsasında vətəndaşlığı ümumiləşdirərək "All persons born or naturalized in the United States… are citizens" prinsipi ilə ifadə edir; bu, geniş miqyasda doğum hüququ (birthright citizenship) anlayışını qoruyur. Eyni zamanda, postsovet və bir çox Avropa ölkələri daha çox jus sanguinis ənənəsinə meyllidir; misal üçün, Azərbaycan Konstitusiyası həm torpaqda doğulmanı, həm də valideynlərdən icazə ilə mənsubiyyəti nəzərə alır və vətəndaşlığın hüquqi əsaslarını müəyyən edir.

Bərabərlik və ayrı-seçkiliyin qadağanı**.** Modern konstitusiyalar vətəndaşlıq statusundan asılı olmayaraq hüquqların bərabərliyini vurğulayır. ABŞ 14-cü Düzəlişinin "equal protection" klauzası vətəndaşlıqla bağlı ayrı-seçkiliyə qarşı güclü hüquqi mexanizm təmin edir; oxşar yanaşma Avropa və milli səviyyədə insan hüquqları prinsipləri vasitəsilə də möhkəmləndirilir.

Dövlət suverenliyi və milli identiklik prinsiplərinin müdafiəsi**.** Bir sıra dövlətlər konstitusiyalarında milli dəyərlərin, dövlət dilinin və mədəni irsin qorunmasını xüsusi qeyd edərək vətəndaşlıq institutunu milli identikliklə sıx bağlayırlar. Məsələn, Azərbaycan Konstitusiyası vətəndaşlıqla yanaşı milli dəyərlərin qorunmasına və dövlət dili roluna önəm verir, bu isə vətəndaşlıq institutunun konstitusiya identikliyinin bir elementi kimi çıxış etməsinə səbəb olur.

Avropa çoxsəviyyəli vətəndaşlıq və əlavə hüquqlar**.** Avropa İttifaqı modeli göstərir ki, milli vətəndaşlıq milli səviyyədə qalmaqla yanaşı Avropa vətəndaşlığı anlayışı vasitəsilə əlavə hüquqlar yarada bilər. TFEU-nun 20-ci maddəsi hər bir üzv dövlət vətəndaşını Avropa vətəndaşı kimi tanıyır və bu status milli vətəndaşlığı əvəz etmir, sadəcə ona əlavə hüquqlar verir (məsələn, sərbəst hərəkət və seçki hüquqları). Bu model milli vətəndaşlığı kontekstual şəkildə genişləndirir və çoxsəviyyəli identiklikləri hüquqi cəhətdən tanıyır.

Therefore, blockchain technology adds a new stage to the juridical analysis of cybercrimes. This stage spans so much substantive right, procedural right as international right. Therefore, the legal regulation of blockchain has to be implemented systematically. This approach can delete some of the problems indicated in the table. Besides, it determines the direction of future legal reforms in the field of cybersecurity.

New approaches can be applied and less debated to accost the legal and technological emergent problems related with blockchain. These approaches differ from the classical regulatory steps and involve the parallel development of the legal surroundings and technical. In the first place, there can be created a dynamic legal mechanism for the assignment of responsibilities in decentralised systems. This mechanism can work with a model of technical measurement that determines the real degree of influence of all the parts involved in complex blockchain transactions. If responsibility links to technical participation, the legal evaluation will be more objective. This approach clarifies the role of the parts in global blockchain transactions and reduces legal gaps [3, p. 6].

Another innovative solution is the model of "selective transparency" for the legal supervision of blockchain transactions. This model creates a balance between complete anonymity and total transparency. Not all data have to be public. Only the segments of transactions with legal importance can be provided to the competent authorities with special cryptographic keys. This system does not create total control nor allows complete anonymity. In this way, it protects personal liberties and reduces the risks of delinquency.

Compulsory technical audits for the legal regulation of smart contracts can also be an effective solution. Each smart contract can be subjected to a test of legal and technical security before its execution. This test will avert the malfunctioning of the automated legal actions. At the same time, it will facilitate the legal evaluation of the harms that could arise during the execution of the contract. This norm will generate juridical security for both employers and users.

To resolve the problems associated with blockchain-based evidence, a multilayered verification system can be applied to store digital evidence adequately. In this system, evidence can be stored not only in one blockchain, but also in parallel chains. The parallel chains create an additional protection against manipulation of the evidence. This system also provides major technical security to judicial

authorities that evaluate the reliability of the evidence. This method has not yet been widely used, but it can be considered an innovative solution for the future.

A technological identification mechanism can be proposed to prevent the use of cryptoassets in criminal acts. This mechanism does not limit anonymity entirely, but requires only additional verification for high-risk transactions. This verification can act automatically according to the level of risk by means of a technical algorithm. Thus, it does not violate the privacy of regular users. However, high-risk transactions remain under legal control. This approach is balanced and more acceptable from a legal perspective.

Experimental legal zones created specifically for blockchain can also be a solution. In these zones, new technological legal models can be tested in some real-world environments. The legal risk is low, since the application is confined to a territory and a limited subject. This model generates experience for legislation and accelerates the development of innovative solutions.

The increase of cybercrime shows that the juridical system cannot conform only with the existent mechanisms. The new approaches in this field must be more practical and adapt to the changing digital surroundings. To ensure that Azerbaijan integrates into international processes of cybersecurity, the application of these approaches is of major importance. Since international norms are constantly updated, national legislation must adapt to these changes.

Solutions to combat cybercrime must be based on both juridical foundations and technological principles. In this sense, flexible juridical mechanisms can be created that facilitate real-time information exchange. These mechanisms contribute to the early detection of cyberattacks and speed up the investigative process. At the same time, norms must be developed that clearly define the division of responsibilities. These norms clarify the obligations of all entities operating in cyberspace.

Since the majority of cybercrimes are of cross-border nature, juridical cooperation can be strengthened with more specific mechanisms. For this, special information exchange protocols can be developed. These protocols facilitate the activities of investigation bodies and allow a more secure compilation of evidence. The establishment of improved procedures in Azerbaijan in this sense can enhance the efficiency of cooperation with international organisations [10].

It is also important to clarify the legal definitions of new forms of delinquency that arise in cyberspace, as terminological uncertainty complicates both the investigation and judicial processes. The clarity of norms strengthens legal application and facilitates the enforcement of penal responsibility. This approach is also coherent with the process of international standardisation.

Updating norms for working with digital evidence is also an important subject. Independent procedural norms can be established for the acquisition, storage and presentation of electronic evidence. These norms increase the reliability of the evidence and facilitate its evaluation by the court. The application

of international experience in this field in Azerbaijan can strengthen juridical protection mechanisms.

The legal mechanisms should be more flexible and situational to prevent cybercrime. For this, a special system of legal qualification could be created to evaluate the risk level of each cyber incident. This system would allow law enforcement to determine quickly the severity of the incident. At the same time, the priority areas of investigation could be based on this qualification.

A “compulsory security plan” could be introduced for platforms operating in cyberspace. This plan would demand that each platform comply with minimum security standards. These standards could include obligations not only technical but also legal. This mechanism would increase the responsibility of platforms and reinforce user security.

Also, a real-time alert system could be created to improve legal regulation. This system would automatically register suspicious activities and send a legal signal to law enforcement. This signal would allow the initiation of investigations without delay. Thus, it could prevent possible criminal activity before it becomes a crime. It would also be useful to create a special platform for cooperation among the State, private sector and academic institutions for investigating cybercrime. This platform could bring together legal experts and technicians. It can also support the development of standard procedures. This approach would reduce information gaps and speed up the investigation process.

It is also possible to strengthen the legality of identification methods used in cyberspace. For example, two or three levels of identification could be established as mandatory. This requirement would hinder the anonymity of criminals. At the same time, it would increase security without prejudicing the rights of users. Norms for cyberprofiles could also be introduced to develop the legal framework. These norms would identify only activities with a high risk of crime. The system would focus only on risk behaviours, not all users. This would maintain legal balance and improve efficiency.

It is also possible to create specialised cybersecurity certification programs for judges and prosecutors in Azerbaijan. These programs would inform them about new technologies. As a result, the evaluation of electronic evidence would become more professional. This would improve the quality of judicial procedures [7, p. 112].

The legal regulation of cybercrimes can be compared to a map. This map identifies the main routes, but still remains areas without exploration. These empty areas hamper the correct execution of investigations and weaken the operation of legal mechanisms. Since the penal process in the digital surroundings evolves with great rapidity, these gaps in the map become more visible. Therefore, the following stage focuses on one of these gaps, since it affects directly both the practical investigation and the judicial processes.

In Azerbaijan, the compilation of digital evidence in real time is one of the most critical stages in cybercrime investigations. However, there do not exist clear

procedural norms in this regard, which generates a significant legal gap. The valid legislation describes the compilation of evidence in general terms. However, cybercrimes occur so rapidly that these general norms are not sufficient for practical application.

The compilation of evidence in real time requires a special technical process. Data can be modified, deleted, or transferred to another server in a matter of seconds. In this case, the moment of obtaining the evidence is very sensitive. However, the legislation does not define a detailed mechanism to document this moment. This hampers the reliable acceptance of the evidence in courts.

Another problem is that the legal status of the information collected remains uncertain. It is not clear in which category the evidence collected in real time falls, such as “original”, “copy”, “record”, or “operative information”. This uncertainty raises questions for both the investigating authorities and the defense. During the judicial process, different approaches arise regarding the value and reliability of the evidence. This gap also hampers cross-border cooperation. Foreign states wish to know through which procedure the evidence was obtained. When the norms are not clear, it hinders the recognition of the evidence. This slows down the penal process and may allow criminals to evade their responsibility [8, p. 239-243].

The technical aspects of the compilation of evidence in real time are also left behind in relation to the legal framework. For example, questions like the confirmation of the hash value at the moment of data capture, the recording of transmitted data packets, or the protection of the chain of evidence from the very first second are not clearly explained. This creates a discrepancy between the technical results of the investigation and the legal requirements. This gap also complicates the work of the investigators, who have to use different technical methods in each case. However, the legal framework does not recognize all these methods with the same intensity. This inconsistency weakens the quality of the investigation and increases the risk of inadmissibility of the evidence in court.

For the compilation of digital evidence in real time, special procedural norms must be developed in advance. These norms must clearly indicate the moment of obtaining the evidence, the technical means used, and how the information will be recorded. This mechanism guarantees juridical coherence from the first moment of the investigation and augments the reliability of the evidence. The next step is to develop a single protocol for the chain of evidence that confirms all the stages, from the generation of the evidence to its presentation in court. This protocol reduces the risk of manipulation of the information and eliminates any doubts the court may have regarding the evidence. Without this protocol, evidence in real time, although sometimes accepted as a technical fact, can appear deficient from a legal perspective.

Another important step is the creation of special investigative squads. These squads can be composed of specialists who combine technical and legal knowledge. These squads can collect data in real time and immediately guarantee that the process

complies with legal requirements. The activities of these squads enhance the quality of the investigation. Furthermore, the list of technical tools that can be used during the investigation must be specified separately in the legislation. The legal validity of each technical means must be confirmed in advance. This approach would reduce the use of non-standardized tools in the investigation and generate uniformity in legal results. Also, a mechanism of rapid court authorization to obtain evidence in real time could be applied. This mechanism would guarantee a fast decision-making process in urgent cases. At the same time, it would increase the efficiency of the investigation without compromising personal data protection [9, p. 182].

A “flexible protocol of independent juridical cooperation” for the exchange of evidence with foreign states must be developed. This protocol could establish uniform standards for the recognition and acceptance of data in real time. This measure would speed up the investigation of cross-border cyberattacks and would allow a more reliable acceptance of the evidence at the international level. A specific technical formula must be developed at the national level on how to store digital evidence. This formula would guarantee the physical and digital security of the evidence. In the absence of these norms, the reliability of the evidence in later stages is reduced.

## *III. Conclusion*

The analysis shows that the juridical and theoretical nature of cybercrimes is directly related to the rapid evolution of the digital environment. These changes demand the renewal of legal mechanisms. For Azerbaijan to integrate into international levels of cybersecurity, it is of main importance to adapt national legislation to international standards. The cross-border nature of cybercrimes requires a flexible and adaptive approach to legal regulation. The legal justification for the compilation of evidence in real time, the exchange of information, and the technical stages of the investigation are still not fully developed. This situation directly affects the investigation process, judicial evaluation, and international cooperation. The analysis also shows that the current gap in obtaining digital evidence is due to the lack of a systematic regulatory mechanism. This gap leads to a weakening of juridical security and hampers the proving of cybercrimes. Therefore, it is important to renew the legal system in accordance with technical capacities and international obligations. This renewal will reduce the general risks in the field of cybersecurity and strengthen the position of the country in the international juridical world.

To prevent cybercrimes and collect evidence reliably, an independent procedural framework must be developed that spans the acquisition of digital data in real time. This framework must clearly indicate the moment of creation of the evidence, the method of recording, and the procedure for its storage. At the same time, a unified mechanism of chain of custody must be applied to confirm the technical reliability of the evidence. This mechanism minimizes the possibility of alteration of the evidence and facilitates its acceptance by the court.

Second, specialized independent investigation squads must be created to research cyber incidents. These squads can be formed by experts with knowledge of both legal and technical aspects. This approach strengthens coordination among different areas and helps reduce the loss of information in the initial phase of the investigation. The legal status of all the technical tools used must also be determined in advance.

The third proposal refers to the creation of a fast mechanism for judicial permission. Time plays a fundamental role in cybercrimes. Therefore, in urgent cases, a mechanism could be applied that guarantees the reception of an operative decision from the court in electronic format. This mechanism increases the efficiency of the investigation without violating principles of personal data protection.

The following proposal consists of systematizing the cross-border exchange of information. To achieve this, a special cooperation protocol should be developed with international partners for the recognition and exchange of evidence in real time. This protocol would increase the compatibility among the legal requirements of different countries and accelerate the investigation process. Additionally, technical norms confirming the reliability of the information should be included in this protocol.

A multilayered protection mechanism should be applied for the secure storage of digital evidence. This mechanism would increase the reliability of both the technical and legal evidence. Storing the data in pairs in alternative servers or in environments based on blockchain could offer an additional advantage to this field. This approach would reduce the risk of destruction or alteration of the evidence and would provide a stronger defense barrier for the investigation process.

## REFERENCES (ƏDƏBİYYAT):

1. Balacanov, E. (2020). The role and importance of legal regulation and criminal-law norms in combating cybercrime. Azerbaijan Law Journal, 2020(1), 26–37. URL:https://www.academia.edu/43666469/Kibercinay%C9%99tkarl%C4%B1qla_m%C3%BCbariz%C9%99d%C9%99_h%C3%BCquqi_t%C9%99nzimetm%C9%99nin_v%C9%99_cinay%C9%99t_h%C3%BCquqi_normalar%C4%B1n_rolu_v%C9%99_%C9%99h%C9%99miyy%C9%99ti_The_Role_and_Importance_of_Legal_Regulation_and_Criminal_Law_in_the_Fight_against_Cybercrime_ (last access: 15.05.2025).
2. Balajanov, E. (2024). Cybersecurity in Azerbaijan: Legislative measures to protect critical information infrastructure. Scientific and Practical Cyber Security Journal. URL: https://journal.scsa.ge/papers/cybersecurity-in-azerbaijan-legislative-measures-to-protect-critical-information-infrastructure (last access: 14.05.2025)

3. Casino, F., Pina, C., López-Aguilar, P., Batista, E., Solanas, A., & Patsakis, C. (2022). SoK: Cross-border criminal investigations and digital evidence. Journal of Cybersecurity, 8(1), Article tyac014. URL:https://academic.oup.com/cybersecurity/article/8/1/tyac014/6909060?login=false (last access: 15.05.2025)
4. Council of Europe. (2024). Convention on Cybercrime (Budapest Convention). Strasbourg: Council of Europe. URL: https://www.coe.int/en/web/cybercrime/convention-on-cybercrime (last access: 16.05.2025)
5. Eurojust. (2022). Second Additional Protocol to the Budapest Convention on Cybercrime and cross-border access to electronic evidence. The Hague: Eurojust. URL: https://www.eurojust.europa.eu/publication/second-additional-protocol-budapest-convention-cybercrime-and-cross-border-access (last access: 15.05.2025)
6. Rzayeva G.A. İnternational legal mechanisms for combating cybercrime: the economic impact on Azerbaijan and global practices. URL: https://doaj.org/article/88915ce8db574b9bbe49e9e91215ffe (last access: 15.05.2025)
7. Kharitoshkin, V. V. (2019). Measures to counter cybercrime in international and Russian criminal law. Bulletin of Tver State University. Series: Law, (3), 111–117. URL: https://eprints.tversu.ru/id/eprint/9262 (last access: 13.05.2025)
8. Navrotskaya, I. N. (2024). Issues of international cooperation in combating cybercrime. Education. Science. Scientific Personnel, 2024(1), 239–243. URL: https://cyberleninka.ru/article/n/voprosy-mezhdunarodnogo-sotrudnichestva-v-borbe-s-kiberprestupnostyu (last access: 15.05.2025)
9. Ng, J. (2016). International cybercrime, transnational evidence gathering and the challenges in Australia: Finding the delicate balance. International Journal of Information and Communication Technology, 9(2), 177–198. URL: https://www.inderscience.com/info/inarticle.php?artid=78879 (last access: 14.05.2025)
10. Oruj, Z. (2023). The first public opinion survey on cybersecurity in Azerbaijan: Selected findings. Analytical report of the Center for Social Research. URL:https://socialresearchjournal.az/index.php/2023/10/04/azerbaycanda-kibertehlukesizlikle-bagli-ilk-ictimai-rey-sorgusu-bezi-neticeler (last access: 15.05.2025)

11. Police Academy. (2020). Criminalistic support for the investigation of cybercrimes. Baku: Police Academy of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan. URL:https://www.pa.edu.az/library/5/36/584_monoqrafiya_kiber_cin_2020.pdf (last access: 15.05.2025)
12. Sarıyerlioğlu, B., & İzzetgil, E. (2024). A comparative analysis of the cybersecurity acquis of Turkey and Azerbaijan within the framework of international conventions. Academia.edu manuscript. URL: https://www.academia.edu/144345904/T%C3%BCrkiye_ve_Azerbaycan_%C4%B1n_Siber_G%C3%BCvenlik_M%C3%BCktesebatlar%C4%B1n%C4%B1n_Uluslararas%C4%B1_S%C3%B6zle%C5%9Fmeler_%C3%87er%C3%A7evesinde_Kar%C5%9F%C4%B1la%C5%9Ft%C4%B1rmal%C4%B1_%C4%B0ncelenmesi (last access: 145.05.2025)
13. Spînu, N. (2021). Azerbaijan cybersecurity governance assessment. Geneva: DCAF – Geneva Centre for Security Sector Governance. URL: https://www.dcaf.ch/azerbaijan-cybersecurity-governance-assessment (last access: 15.05.2025)

## Kibercinayətlərin hüquqi-nəzəri xüsusiyyəti və Azərbaycanın beynəlxalq kibertəhlükəsizlik səviyyələrinə inteqrasiyası

XANIMANA QAFAROVA*, MİNURƏ CABBAROVA**

### Annotasiya

*Məqalədə kibercinayətlərin hüquqi-nəzəri mahiyyəti, onların müasir cinayət hüququ sistemində tutduğu yer və rəqəmsal texnologiyaların sürətli inkişafının hüquqi tənzimləməyə təsiri kompleks şəkildə araşdırılır. Rəqəmsal mühitin dinamik xarakteri kibercinayətlərin yeni formalarının yaranmasına, cinayətlərin törədilmə üsullarının mürəkkəbləşməsinə və ənənəvi hüquqi mexanizmlərin tətbiq imkanlarının məhdudlaşmasına səbəb olmuşdur. Bu baxımdan tədqiqatda kibercinayətlərin klassik cinayət tərkiblərindən fərqləndirici xüsusiyyətləri, onların transsərhəd xarakteri və sübutetmə prosesinə təsiri nəzəri və praktiki aspektlərdən təhlil edilir. Araşdırma göstərir ki, mövcud normativ-hüquqi mexanizmlər real vaxt rejimində rəqəmsal sübutların toplanması, saxlanılması və qiymətləndirilməsi, eləcə də transsərhəd kibercinayətlərin istintaqı və beynəlxalq hüquqi yardım mexanizmlərinin tətbiqi baxımından tam yetərli deyil. Xüsusilə elektron məlumatların hüquqi*

* Hüquq üzrə fəlsəfə doktoru / müəllim / Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası / Bakı Dövlət Universitetinin Hüquq fakültəsi / email: xanim84.84@mail.ru

** Magistrant / Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası / Bakı Dövlət Universitetinin Hüquq fakültəsi / email: minara2006@mail.ru

*statusunun qeyri-müəyyənliyi, sübut zəncirinin (chain of custody) normativ səviyyədə dəqiq tənzimlənməməsi və texniki imkanlarla hüquqi tələblər arasında uyğunsuzluq istintaq və məhkəmə proseslərində ciddi çətinliklər yaradır. Məqalədə beynəlxalq hüquq normaları, xüsusilə 2001-ci il Budapeşt Konvensiyasının müddəaları, onun əlavə protokolları və beynəlxalq məhkəmə təcrübəsi əsasında kibercinayətlərin hüquqi tənzimlənməsinə dair müasir yanaşmalar təhlil edilir. Azərbaycan Respublikasının milli qanunvericiliyinin bu sahədə mövcud vəziyyəti qiymətləndirilir, beynəlxalq standartlarla uyğunluq səviyyəsi müəyyən edilir və normativ boşluqlar elmi əsaslarla göstərilir. Tədqiqatın elmi yeniliyi kibercinayətlərin sübutlandırılması və istintaqının effektivliyini artırmaq məqsədilə adaptiv hüquqi modelin təklif edilməsindən ibarətdir. Təklif olunan model çevik prosessual qaydaların tətbiqini, texniki və hüquqi biliklərə malik ixtisaslaşmış istintaq strukturlarının formalaşdırılmasını, real vaxt rejimində sübutların toplanması üçün xüsusi prosedur mexanizmlərinin yaradılmasını və beynəlxalq əməkdaşlıq protokollarının təkmilləşdirilməsini nəzərdə tutur.*

**Açar sözlər:** *kibercinayətkarlıq, rəqəmsal sübutlar, hüquqi tənzimləmə, beynəlxalq əməkdaşlıq, kibertəhlükəsizlik, sübut zənciri, Budapeşt Konvensiyası, harmonizasiya, elektron məlumatların qorunması.*

## Требование всесторонности, объективности и полноты предварительного расследования в контексте принципов уголовного процесса

Ханымана Гафарова[*], Минура Джаббарова[**]

### Резюме

*В статье комплексно исследуется правовая и теоретическая сущность киберпреступлений, их место в системе современного уголовного права, а также влияние стремительного развития цифровых технологий на правовое регулирование. Динамичный характер цифровой среды обусловил появление новых форм киберпреступлений, усложнение способов их совершения и ограничение возможностей применения традиционных правовых механизмов. В этой связи в исследовании с теоретической и практической точек зрения анализируются отличительные особенности киберпреступлений по сравнению с классическими составами преступлений, их трансграничный характер и влияние на процесс доказывания.*

[*] Доктор философии по праву / преподаватель / кафедра международного частного и европейского права / юридический факультет Бакинского государственного университета / email: xanim84.84@mail.ru

[**] Магистрант / кафедра международного частного и европейского права / юридический факультет Бакинского государственного университета / email: minara2006@mail.ru

*Проведённый анализ показывает, что действующие нормативно-правовые механизмы не являются в полной мере эффективными в вопросах сбора, хранения и оценки цифровых доказательств в режиме реального времени, а также в сфере расследования трансграничных киберпреступлений и применения механизмов международной правовой помощи. Особые сложности возникают в связи с неопределённостью правового статуса электронных данных, отсутствием чёткого нормативного регулирования цепочки сохранности доказательств (chain of custody) и несоответствием между техническими возможностями и правовыми требованиями, что существенно осложняет следственную и судебную практику. В статье анализируются современные подходы к правовому регулированию киберпреступлений на основе норм международного права, в частности положений Конвенции Совета Европы о киберпреступности 2001 года (Будапештской конвенции), её дополнительных протоколов, а также международной судебной практики. Оценивается текущее состояние национального законодательства Азербайджанской Республики в данной сфере, определяется уровень его соответствия международным стандартам и научно обосновываются существующие нормативные пробелы. Научная новизна исследования заключается в разработке адаптивной правовой модели, направленной на повышение эффективности доказывания и расследования киберпреступлений. Предлагаемая модель предусматривает внедрение гибких процессуальных норм, формирование специализированных следственных структур, обладающих как техническими, так и правовыми знаниями, создание специальных процедурных механизмов для сбора доказательств в режиме реального времени, а также совершенствование протоколов международного сотрудничества.*

**Ключевые слова:** *киберпреступность, цифровые доказательства, правовое регулирование, международное сотрудничество, кибербезопасность, цепочка сохранности доказательств, Будапештская конвенция, гармонизация, защита электронных данных.*

**Redaksiyaya daxil olma tarixi: 25.05.2025**
**Çapa qəbul: 25.12.2025**

***Aygül Cahangirova.*** İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin məzmunu və normativ-hüquqi əsasları // Azərbaycan Hüquq Jurnalı. 2025 (№3), s. 120-139.
DOI: 10.61638/TBCZ8719

# İNSAN HÜQUQLARI VƏ ƏSAS AZADLIQLARINA HÖRMƏT PRİNSİPİNİN MƏZMUNU VƏ NORMATİV-HÜQUQİ ƏSASLARI

AYGÜL CAHANGİROVA*

**Annotasiya**

*Tədqiqatda insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin məzmunu və normativ-hüquqi əsasları hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi, beynəlxalq sənədlər və məhkəmə praktikası əsasında geniş təhlil edilir. Tədqiqatın birinci hissəsində mövzunun aktuallığı və əsas istiqamətləri müəyyən edilir. Qeyd edilir ki, insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin normativ-hüquqi əsasları beynəlxalq hüququn digər prinsiplərindən daha genişliyi və sistemliliyi ilə xarakterizə edilir. Tədqiqatın ikinci hissəsində insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi və beynəlxalq təşkilatların mühüm fəaliyyət istiqamətləri təhlil edilir, nəhayət, bu sahədə beynəlxalq təşkilatlar fərqləndirilməklə bir sıra əhəmiyyətli məqamlar qeyd edilir. Üçüncü hissədə insan hüquqları və əsas azadlıqlarına hörmətin beynəlxalq-hüquqi prinsip əsasları və insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin normativ əsası kimi beynəlxalq müqavilələrin mühüm xüsusiyyətləri araşdırılır. Bu sahədə də konkret beynəlxalq müqavilələrə müraciət edilməsi əsaslı nəticələr əldə etməyə imkan verir. Dördüncü hissədə insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin məzmunu və normativ əsasları ilə əlaqədar bir sıra mühüm nəticələrə gəlinir. Belə nəticələrdən biri insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin əsas müddəalarının dövlətlərin daxili qanunvericiliyinə həmin sahədə beynəlxalq müqavilələrdə iştirakdan asılı olmayaraq daxil edilməsidir. Dövlətin əsas məqsədinin insan hüquqlarının təmin edilməsi, insan hüquqlarının birbaşa qüvvədə olması, beynəlxalq müqavilələr əsasında insan hüquqları standartlarının müəyyən edilməsi və s. bu zaman mühüm elementlərdən hesab edilə bilər. İnsan hüquqları sahəsində formalaşmış xüsusi prinsiplərlə (humanizm, ədalətlilik, fərdə daha əlverişlilik, inkişaf və s. ) insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin məzmunu daha da zənginləşmiş və yeni məzmunda inkişaf etmişdir.*

**Açar sözlər:** *insan hüquqları, beynəlxalq təşkilatlar, beynəlxalq müqavilələr, insan hüquqları standartları, beynəlxalq hüququn prinsipləri, normativ-hüquqi əsaslar, beynəlxalq öhdəliklər, beynəlxalq-hüquqi adət, beynəlxalq məhkəmə praktikası, hüququn ümumi prinsipləri.*

* Dissertant / Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrası / email: aygul.jahan@gmail.com

## *I. Giriş*

İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin normativ əsasları beynəlxalq hüququn digər prinsiplərindən daha genişliyi və sistemliliyi ilə xarakterizə edilir ki, bu da bir sıra istiqamətlərdən izah edilməlidir.

İlk növbədə, insan hüquqlarının müdafiəsi beynəlxalq cəmiyyətin əsas hədəflərindəndir, başqa sözlə desək, insan hüquqlarının müdafiəsi mühüm beynəlxalq təşkilatların təsis sənədləri ilə başlıca məqsədlər sırasına daxil edilmişdir. Nəzərə alsaq ki, beynəlxalq hüququn məcəlləşdirilməsi prosesinə rəsmi olaraq BMT Nizamnaməsinin yaradılması ilə başlanılmışdır, onda BMT-nin təsis edilməsi ilə burada əsas dönüş olmuşdur. Daha sonra, insan hüquqları sahəsində universal və regional beynəlxalq sənədlərin qəbul edilməsi prosesi başlanılmış, XX əsrin ortalarından etibarən sürətli xarakter kəsb etmişdir. Bu proses başlanılanda dövlətlər müəyyən addımların atılmasında o qədər də maraq göstərməsələr də, sonradan insan hüquqları sahəsində geniş normativ baza formalaşmış, hazırda daha da genişliyi ilə xarakterizə edilir.

Yuxarıda qeyd edilənlər insan hüquqları sahəsində əhəmiyyətli beynəlxalq təşkilatların yaradılması ilə də müşayiət edilmişdir. Bilavasitə insan hüquqları sahəsində fəaliyyət göstərən təşkilatlar kimi Avropa Şurası, Beynəlxalq Əmək Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı və s. qeyd edilə bilər. Bundan başqa, insan hüquqlarının müdafiəsi bilavasitə əsas məqsədi olmasa da, digər beynəlxalq təşkilatlarda (məsələn, NATO və s.) da bu məsələyə xüsusi diqqət yetirilmiş və əhəmiyyətli bir müddəa kimi qeyd edilmişdir.

Nəhayət, insan hüquqlarının müdafiəsinin genişliyi və sistemliliyi hazırda bu istiqamətdə normativ-hüquqi bazanın daha da genişlənməsi ilə nəticələnmişdir. Bir faktı qeyd etmək lazımdır ki, yalnız Beynəlxalq Əmək Təşkilatı çərçivəsində iki yüzə yaxın konvensiya və iki yüzdən çox tövsiyə mövcuddur. Bu istiqamətdə UNESCO standartları, Ümumdünya Səhiyyə Təşkilatı çərçivəsində qəbul edilmiş digər sənədləri də əlavə etmək olar.

Bu zaman, dövlətlərin konstitusiyalarında (məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsi) və qəbul ediləcək dövlətdaxili normativ-hüquqi aktlarında (məsələn, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin təmin edilməsi haqqında 24 dekabr 2002-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu) insan hüquqları amilinin əsas məqsədlər kimi müəyyən edilməsi və ön plana çəkilməsi də xüsusi olaraq qeyd edilməlidir. Bu tendensiya hazırda əksər dövlətlərin əsas qanunlarında özünün birmənalı olaraq təsdiqini tapması ilə xarakterizə edilir.

İnsan hüquqları sahəsində təhlillərdə də həmçinin bu sahədə mühüm istiqamətlərin bütün dövlətlərin riayət etməli olduğu ortaq məqsədlər sırasında qeyd edilməsi göstərilmişdir [22, s. 204].

## *II. İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi və beynəlxalq təşkilatlar*

İnsan hüquqlarının müdafiəsində əsas normativ baza genişdir və bunun özünü də bir sıra istiqamətlərdə təsnifləşdirmək olar.

İlk növbədə, beynəlxalq təşkilatların təsis aktlarını qeyd etmək lazımdır. Bu zaman ilk olaraq universal beynəlxalq təşkilat kimi BMT Nizamnaməsi qeyd edilməlidir. BMT Nizamnaməsinin 1-ci maddəsində beynəlxalq iqtisadi, sosial və humanitar problemlərin həll edilməsi, habelə irqinə, cinsinə, dilinə və ya dininə görə fərq qoyulmadan hər kəsin əsas hüquq və azadlıqlarına hörmətin təşviq olunmasında beynəlxalq əməkdaşlığa nail olmaq əsas məqsəd kimi müəyyən edilmişdir. Həmin Nizamnamənin 2-ci maddəsində BMT Nizamnaməsinin 1-ci maddəsində əks olunmuş məqsədlərə nail olmaq üzrə beynəlxalq hüququn prinsiplərinin rolu (dövlətlərin suveren bərabərliyi prinsipi, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi, beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipi, dövlətlərin suveren bərabərliyi prinsipi və s.) qeyd edilmişdir [8]. Buradan da çıxış edərək insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin beynəlxalq hüququn əsas prinsipləri kimi formalaşmaqda olan beynəlxalq normativ-hüquqi sistemlə birbaşa əlaqələrini qeyd etmək olar.

Bundan başqa, BMT Nizamnaməsinin "Beynəlxalq iqtisadi və sosial əməkdaşlıq" adlanan IX fəslinin 55-ci maddəsində BMT-nin irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmətin edilməsinə və riayət edilməsinə dəstək verməsi, BMT Nizamnaməsinin 56-cı maddəsi ilə isə 55-ci maddədə göstərilən məqsədlərə nail olmaq üçün Təşkilatla əməkdaşlıqda birgə və müstəqil hərəkət etmələri qeyd edilmişdir [8]. Hüquq ədəbiyyatında aparılan təhlillərlə tam əsaslı olaraq qeyd edilir ki, BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndi və 55-ci maddəsi insan hüquqlarının müdafiəsinin ümumi müqavilə-hüquqi öhdəliyini müəyyən edir və insan hüquqları hüququnun konstitusion əsası kimi müəyyən edilir [30, s. 120–35; s. 1010–35].

1975-ci il tarixli Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Helsinki Yekun Aktının İştirakçı dövlətlər arasında münasibətlərə dair rəhbər prinsiplər haqqında Bəyannamənin VII bəndi "İnsan hüquqlarına və əsas azadlıqlara, o cümlədən fikir, vicdan, din və ya əqidə azadlığına hörmət" adlanaraq, insan hüquq və əsas azadlıqlarına hörməti beynəlxalq hüququn əsas prinsipi kimi təsbit edir. Həmin bəndin başlıca müddəalarını belə ifadə etmək olar:

- İştirakçı dövlətlər irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq hamı üçün fikir, vicdan, din və ya əqidə azadlığı da daxil olmaqla insan hüquqlarına və əsas azadlıqlara hörmətlə yanaşacaqlar.
- Onlar insan şəxsiyyətinə xas ləyaqətindən irəli gələn və onun azad və hərtərəfli inkişafı üçün vacib olan mülki, siyasi, iqtisadi, sosial, mədəni və digər hüquq və azadlıqların səmərəli həyata keçirilməsini təşviq edəcəklər.

- Bu çərçivədə iştirakçı dövlətlər fərdin təkbaşına və ya başqaları ilə birlikdə öz vicdanının diktəsinə uyğun olaraq etiqad və ya etiqad etmək azadlığını tanıyacaq və ona hörmət edəcəklər.

- Ərazisində milli azlıqların mövcud olduğu iştirakçı dövlətlər belə azlıqlara mənsub şəxslərin qanun qarşısında bərabərlik hüququna hörmət edəcək, onlara insan hüquqlarından və əsas azadlıqlarından faktiki istifadə etmək üçün tam imkan yaradacaq və bu yolla onların bu sahədə qanuni maraqlarını qoruyacaqlar.

- İştirakçı dövlətlər bütün dövlətlər kimi öz aralarında olan dostluq münasibətlərinin və əməkdaşlığın inkişafını təmin etmək üçün sülh, ədalət və rifah üçün vacib amil olan insan hüquqlarının və əsas azadlıqların ümumbəşəri əhəmiyyətini tanıyırlar.

- Onlar qarşılıqlı münasibətlərdə bu hüquq və azadlıqlara daim hörmətlə yanaşacaqlar və birgə və ayrı-ayrılıqda, o cümlədən Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıqda onlara universal və səmərəli hörməti təşviq etməyə çalışacaqlar.

- Onlar fərdin bu sahədə öz hüquq və vəzifələrini bilmək və ona əməl etmək hüququnu təsdiq edirlər.

- İnsan hüquqları və əsas azadlıqları sahəsində iştirakçı dövlətlər Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə uyğun olaraq fəaliyyət göstərəcəklər. Onlar həmçinin bu sahədə beynəlxalq bəyannamələrdə və sazişlərdə, o cümlədən, insan hüquqlarına dair beynəlxalq paktlarda təsbit edilmiş öhdəliklərini yerinə yetirəcəklər [17].

Nəhayət, Aktın IV bölməsi “Humanitar və digər sahələrdə əməkdaşlıq” adlanmaqla mədəniyyətlərarası qarşılıqlı anlaşma və humanitar əməkdaşlıq, daha sonra elm, təhsil, informasiya və digər insan hüquqları ilə bağlı sahələrdə fəaliyyətləri əks etdirir.

BMT sisteminə daxil olan müxtəlif profilli ixtisaslaşdırılmış təsisatlarının təsis sənədlərində də insan hüquqlarının prioritetliyi mühüm istiqamətlərdəndir və bu bir prinsip olaraq müxtəlif elementlərdə əks olunur. Beynəlxalq Əmək Təşkilatının Konstitusiyasında ümumbəşəri və davamlı sülhün yalnız sosial ədalətə əsaslandığı halda bərqərar ola bilməsi, əmək hüquqları ilə əlaqədar məsələlərin tənzimlənməsi (əmək şəraitinin təmin edilməsi, işsizliyin qarşısının alınması, kifayət qədər yaşayış minimumunu təmin edən əmək haqqının verilməsi, işçinin əmək fəaliyyəti ilə bağlı yaranan xəstəliklərdən, xəstələnmədən və xəsarətlərdən qorunması, uşaqların, gənclərin və qadınların müdafiəsi, qocalıq və əmək qabiliyyətinin itirilməsi hallarında təminatın verilməsi, öz ölkəsindən kənarda işləyən işçilərin maraqlarının qorunması, eyni dəyərə malik əməyə görə bərabər əmək haqqı prinsipinin tanınması, birləşmə azadlığı prinsipinin tanınması və s.), qadınların və kişilərin bərabərliyi, ədalət və humanizm hisslərinin daim üstün tutulması, habelə dünyanın davamlı sülhünü təmin etmək arzusu kimi məsələlər preambulada başlıca istiqamətlərdən müəyyən edilmişdir [20].

UNESCO Konstitusiyasında tarix boyu bəşəriyyətin böyük və dəhşətli müharibələri insan ləyaqətinin, bərabər hüquqların və qarşılıqlı hörmətin inkar

edilməsinin nəticəsi kimi müəyyən etməsi və bu müharibələrin insanlığın vicdanını sarsıdan fəlakətlərə gətirib çıxarması; söz, ifadə və məlumat azadlığının geniş yayılması, eləcə də insanlara həqiqəti öyrənmək və onu ifadə etmək imkanının verilməsi xalqlar arasında qarşılıqlı anlaşma və etimadın möhkəmləndirilməsi üçün ən mühüm vasitələrdən biri olması, BMT Nizamnaməsində təsbit edilmiş prinsiplərə uyğun olaraq, dünyanın xalqlarının bəşəriyyətin ümumi rifahı naminə mədəniyyətinin geniş yayılması və insanlığın təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığının artırılması yolu ilə ədalətə, hüququn aliliyinə, insan hüquqlarına və əsas azadlıqlara - irqdən, cinsdən, dildən və ya dindən asılı olmayaraq - hörmətin möhkəmləndirilməsinə çalışılması da xüsusi olaraq əks olunmuşdur [32].

Qeyd edilən istiqamətlə mühüm məqsədlər Ümumdünya Səhiyyə Təşkilatının, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının və s. təşkilatların təsis sənədlərində də həmin beynəlxalq təşkilatların spesifik fəaliyyət istiqamətlərinə uyğun şəkildə əks olunmuşdur.

Regional beynəlxalq təşkilat olan Avropa Şurasının Nizamnaməsi bu sahədə daha zəngindir. Nizamnamənin 1-ci maddəsində üzv dövlətlər üçün daha ciddi öhdəliklər müəyyən edilərək göstərilir ki, Şuranın əsas məqsədi üzvlərin ümumi irsi olan ideal və prinsipləri qorumaq, iqtisadi-sosial tərəqqiyə şərait yaratmaq və bu zəmində daha sıx birliyə nail olmaqdır. Bu məqsədlərə Şuranın orqanları vasitəsilə ümumi marağı əks etdirən problemlərin müzakirəsində, iqtisadi, sosial, mədəni, elmi, hüquqi və inzibati məsələlərdə, insan hüquqları və əsas azadlıqlarının qorunması və gələcəkdə də həyata keçirilməsində razılaşmalar və ümumi fəaliyyət əsasında nail oluna bilər [12].

Qeyd edilənlər digər regional təşkilatların da əsas fəaliyyət istiqamətlərinə daxildir. Belə ki, Afrika İttifaqının təsis sənədinin 3-cü maddəsində ittifaqın əsas məqsədlərinə insan hüquqları ilə əlaqədar bir sıra məsələlər kimi BMT Nizamnaməsini və 1948-ci il tarixli Ümumdünya İnsan hüquqları Bəyannaməsini lazımi qaydada nəzərə almaqla beynəlxalq əməkdaşlığı təşviq etmək, demokratik prinsipləri və institutları, xalqın iştirakını və yaxşı idarəçiliyi təşviq etmək, insan və xalqların hüquqlarını 1981-ci il tarixli İnsan və xalqların hüquqları üzrə Afrika Xartiyasına və digər müvafiq insan hüquqları sənədlərinə uyğun olaraq təşviq etmək və qorumaq və s. daxildir [1].

Amerika Dövlətləri Təşkilatının Nizamnaməsinin 2-ci maddəsində təşkilatın əsas məqsədləri və 3-cü maddədə isə prinsipləri təsbit edilmişdir. Belə mühüm müddəaların prinsip səviyyəsində təsbit edilməsi həmin sənədin unikallığını vurğulayır. Bu yanaşma, bütövlükdə beynəlxalq hüququn təməl prinsiplərinin insan hüquqları müstəvisində inkişaf etdirilməsinə və təkmilləşdirilməsinə xidmət edir: beynəlxalq hüquq dövlətlərin qarşılıqlı münasibətlərində davranış meyarıdır; sosial ədalət və sosial təminat davamlı sülhün əsaslarıdır; Amerika dövlətləri irqi mənsubiyyətə, milliyyətə, dini etiqada və ya cinsə görə fərq qoyulmadan fərdin əsas hüquqlarını bəyan edirlər və s. [28].

Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsində [10], o cümlədən ASEAN-ın təsis sənədində [3] də bir sıra müddəalar vardır.

Bundan başqa, NATO, İslam Əməkdaşlıq Təşkilatı və s. kimi təşkilatlar da insan hüquqlarının prioritetliyini önə çəkmişlər. Belə ki, NATO-nun təsis sənədində - Şimali Atlantika Müqaviləsinin Preambulasında dövlətlərin demokratiya, fərdi azadlıq və hüququn aliliyi prinsiplərinə əsaslanan xalqlarının azadlığını, ortaq irsini və sivilizasiyasını qorumaq əzmində olması qeyd edilmişdir. Bundan başqa, sənədin 1 və 2-ci maddələrində BMT Nizamnaməsi və beynəlxalq hüququn prinsiplərinin əsas götürülməsi ilə əlaqədar müddəalar da mövcuddur [25]. İslam Əməkdaşlıq Təşkilatının Nizamnaməsinin 1-ci maddəsində üzv dövlətlər arasında ədalət, insan ləyaqəti və rifah prinsiplərinə əsaslanan əməkdaşlığın gücləndirilməsi, irq, millət, etnik mənsubiyyət və ya dini mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılması, BMT Nizamnaməsinə əsasən fəaliyyət və s. kimi mühüm müddəalar əks olunmuşdur [27].

Beləliklə, insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi ilə beynəlxalq təşkilatların mövqeyini bir sıra istiqamətlərdən əsaslı qiymətləndirmək olar və bunlar aşağıdakı xüsusiyyətlərlə ifadə olunur:

- insan hüquqlarına hörmət demək olar ki, bütün beynəlxalq təşkilatların təsis aktlarında bu və ya digər şəkildə təsbit edilmişdir;

- bir sıra beynəlxalq təşkilatların fəaliyyətində insan hüquqlarının prioritetliyi xüsusi vurğulanır. İlk növbədə, beynəlxalq təşkilatlar sisteminin universal mərkəzi olan BMT-nin başlıca məqsədlərindən biri insan hüquq və azadlıqlarına hörməti təmin etməkdir. ATƏT-in fəaliyyətində isə Helsinki Yekun Aktı ilə insan hüquqları və əsas azadlıqlara hörmət prinsipi imperativ norma (jus cogens) statusunda təsbit edilmişdir;

- digər bir qrup beynəlxalq təşkilatın təsis sənədlərinin preambulalarında insan hüquqlarına riayət olunması ilə bağlı mühüm müddəalar təsbit edilmişdir. Bir sıra ixtisaslaşmış beynəlxalq təşkilatlarda isə fəaliyyət sahələrinə uyğun olaraq insan hüquqlarının müdafiəsi prioritet istiqamət kimi müəyyən olunmuşdur. Bu kimi beynəlxalq təşkilatlara Avropa Şurasını, Afrika İttifaqını, Amerika Dövlətləri Təşkilatını, Beynəlxalq Əmək Təşkilatını, UNESCO-nu, Ümumdünya Səhiyyə Təşkilatını və s. qeyd etmək olar.

- fəaliyyət profili fərqli olan digər təşkilatları da bu siyahıya əlavə etmək olar. Belə ki, əsas istiqamətləri birbaşa insan hüquqlarının müdafiəsi ilə məhdudlaşmasa da, NATO və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) kimi qurumların təsis sənədlərində də insan hüquqları amilinə mühüm yer ayrılmışdır.

## *III. İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi və beynəlxalq hüququn mənbələri*

İnsan hüquqları sahəsində əsas normativ baza ilk növbədə beynəlxalq hüququn mənbələrindən irəli gəlir. Beynəlxalq hüququn mənbələrinə münasibət isə BMT Beynəlxalq Ədalət Məhkəməsi Statutunun 38-ci maddəsində birbaşa

olaraq qeyd edilmişdir. Belə ki, göstərilir ki, BMT Beynəlxalq Ədalət Məhkəməsi ona təqdim edilmiş mübahisələri həll edərkən beynəlxalq müqaviləyə, beynəlxalq hüquqi adətə, hüququn ümumi prinsiplərinə əsaslanır. Həmçinin, hüquq normalarının məzmununu müəyyən etmək üçün köməkçi vasitə kimi isə məhkəmə qərarlarına və tanınmış alimlərin rəylərinə müraciət edilə bilər [19].

*3.1. İnsan hüquqları və əsas azadlıqlarına hörmətin beynəlxalq-hüquqi prinsip əsasları.*

Beynəlxalq hüququn prinsipləri də beynəlxalq normativ sistemə daxildir. Bununla əlaqədar hüquq ədəbiyyatında qeyd edilir ki, beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin rolu onların bütün beynəlxalq normayaradıcılıq prosesinin əsasında dayanmasında, beynəlxalq hüquq qaydasının əsası və beynəlxalq qanunçuluğun mühüm meyarı kimi çıxış etməsindədir. Bundan başqa, beynəlxalq hüququn əsas prinsipləri *jus cogens* xarakterli olmaqla başqa hüquqi qaydaların yaradılması üçün hüquqi bazanı təşkil edir, onlar universal xarakterli normalardır, onlar heç bir istisna olmadan bütün dövlətlərarası münasibətlərə şamil edilirlər və dövlətlərarası münasibətlərin inkişafı üçün mühüm siyasi-hüquqi əsaslardır [2, s. 24]. Normanın *jus cogens* olaraq imperativ xarakteri yalnız mahiyyəti ilə deyil, həm də nəticələri ilə bağlıdır və imperativlik əsasən ziddiyyətli aktlara, vəziyyətlərə və razılaşmalara təsir göstərmək qabiliyyətində ehtiva olunur [26, s. 23-24]. Bundan başqa, hüquq ədəbiyyatında əsaslı olaraq göstərilir ki, beynəlxalq hüququn əsas prinsipləri beynəlxalq hüququn ən mühüm və ümumi, o cümlədən ümumtanınmış normalarıdır, onlardan kənarda və onlarsız beynəlxalq hüququn özü də yoxdur [18, s. 27].

Beynəlxalq hüququn əsas və ümumtanınmış prinsipləri öz hüquqi qüvvəsinə görə dövlətdaxili hüquqdakı konstitusiya normalarına bənzər bir funksiyanı yerinə yetirir.Belə ki, beynəlxalq hüququn əsas, ümumtanınmış prinsipləri digər beynəlxalq hüquq normalarının qəbul edilməsi üzrə həm əsas, həm də bazadır. Heç bir beynəlxalq hüquq norması, hətta beynəlxalq-hüquqi adət belə beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinə zidd ola bilməz. Beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin beynəlxalq münasibətlərin birbaşa əsasında dayanması fikrini inkişaf etdirərək, belə bir əsaslı nəticəyə gəlmək olar ki, digər beynəlxalq hüquq normalarından fərqli olaraq, beynəlxalq hüququn əsas prinsiplərinin milli hüquqi implementasiyası üçün heç bir dövlətdaxili hüquqi tədbir görülməsinə ehtiyac yoxdur. Belə ki, artıq beynəlxalq hüququn əsas prinsipi statusunu almış beynəlxalq hüquq norması beynəlxalq münasibətlərin əsasını təşkil edir və onlar bütün dövlətlər tərəfindən heç bir istisna olmadan yerinə yetirilməlidir.

Lakin hüquq ədəbiyyatında bəzi əks fikirlərə də rast gəlinir. Belə ki, beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərinin hüquqi qüvvəsi ilə əlaqədar qeyd edilir ki, "BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında" 1970-ci il tarixli Bəyannamə və regional xarakterli bir sənəd kimi

Helsinki Yekun Aktının hüquqi qüvvəsi bu prinsiplərin imperativ norma kimi xarakterizə edilməsinə qarşı çıxır. Helsinki Yekun Aktının yeni hüquqi öhdəliklər yaratmaq məqsədi daşımadığı nəzərə alınaraq, onun birbaşa hüquqi məcburiyyət qüvvəsinə malik olmadığı qəbul edilir [21, s. 55-56]. Bunun əksinə olaraq, hüquq ədəbiyyatında müasir beynəlxalq idarəetmə reallıqlarını konseptual çərçivədə daha dolğun əks etdirmək üçün 'yumşaq hüququ' (soft law) məcburi beynəlxalq hüququn funksional ekvivalenti kimi qiymətləndirmək və onları eyni müstəvidə nəzərdən keçirmək meyli mövcuddur. Hətta qeyd edilir ki, xüsusilə "məcburi" beynəlxalq hüququn tətbiqi həmişə asanlıqla əldə edilə bilmədiyi üçün, praktik əhəmiyyəti az olan iki növ norma arasında konseptual fərq qoymağın mənası yoxdur [15, s. 336-337].

Bütövlükdə, BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannamə və regional xarakterli bir sənəd kimi Helsinki Yekun Aktının hüquqi qüvvəsi ilə bağlı hər hansı əks fikirləri heç bir halda əsaslı hesab etmək olmaz. Belə ki, həm 1970-ci il tarixli Bəyannamə, həm də regional xarakterli Helsinki Yekun Aktı beynəlxalq hüququn təməl prinsiplərini ehtiva etdiyindən, onların normativ əhəmiyyətinin və nüfuzunun şübhə altına alınması məqsədəuyğun deyil. Hesab etmək olar ki, dövlətlər beynəlxalq hüququn əsas prinsiplərini bu beynəlxalq sənədlərdə əks etdirməklə onun hüquqi qüvvəsini birdəfəlik müzakirədən çıxarmışlar. Hüquq ədəbiyyatında haqlı olaraq qeyd edilir ki, Helsinki Yekun Aktının özlüyündə beynəlxalq müqavilə olmaması və regional xarakterli bir sənəd olmasına baxmayaraq onun təsbit etdiyi prinsiplər onun qəbul edilməsinə qədər artıq ümumi beynəlxalq adət hüququnun bir hissəsi idi və bütün dövlətlər tərəfindən tanınmışdı [18, s. 28]. Bu zaman xüsusi olaraq qeyd edilməlidir ki, 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi də BMT Baş Assambleyası tərəfindən 10 dekabr 1948-ci il tarixli 217 A (III) saylı qətnamə ilə qəbul edilməsinə baxmayaraq, həmin sənəd beynəlxalq-hüquqi adətin tərkib hissəsi hesab edilir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə də dövlətlərin qoşulması zərurəti olmasa da  dövlətlərin əsas öhdəliklərinə daxildir. Bütövlükdə, Ümumdünya İnsan hüquqları Bəyannaməsi beynəlxalq səviyyədə insan hüquqlarının ilkin siyahısını tərtib etməsi ilə sonradan digər beynəlxalq sənədlərin qəbul edilməsində əsas kimi çıxış etmişdir.

“BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında” 1970-ci il tarixli Bəyannamədə ifadə olunan prinsiplər formal baxımdan müqavilə xarakteri daşımasa da beynəlxalq məhkəmə təcrübəsində və hüquq doktrinasında beynəlxalq adət hüququnun avtoritativ ifadəsi kimi qəbul edilir və bu baxımdan hüquqi cəhətdən məcburi xarakter daşıyır. Bu məsələlər həmin normaların prinsip kimi qəbul edilməsi ilə də xarakterizə edilir. Hüququn prinsipləri isə sadəcə ideya deyil, həm də məhkəmələrin tətbiq edə biləcəyi hüquq kateqoriyasıdır [14].

Bundan başqa, hüquq ədəbiyyatında aparılan təhlillərdə daha sonra qeyd edilir ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi BMT Nizamnaməsindəki insan hüquqları öhdəliklərinə mühüm məzmun verir, bu baxımdan Nizamnamə ilə birlikdə əhəmiyyətli mövqe tutur. BMT Nizamnaməsi insan hüquqlarına hörməti məqsəd kimi təsbit edir, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi isə həmin məqsədi konkret hüquqlar kataloqu şəklində izah edir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsini daha çox BMT Nizamnaməsi ilə birlikdə izah edirlər [16, s. 145-146]. Əsaslandırılır ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin bəzi (və ya bütövlükdə) müddəaları beynəlxalq adət hüququna çevrilmişdir və bu hissə üzrə ümumi məcburedicilik yaradır. Qeyd edilən fikirlər Avropa İttifaqı Parlamentinin mövqeyində də öz əksini tapmışdır və belə hesab edilir ki, bu sənəd universal öhdəlik yaradır [31]. Daha sonra, qeyd edilir ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi milli məhkəmələrdə "müxtəlif üsullarla" istifadə edilir və bəzən "rule of decision" rolunda çıxış edir [16, s. 149].

*3.2. Beynəlxalq müqavilələr insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin normativ əsası kimi.*

Beynəlxalq müqavilələr ilkin normativ əsaslardan biridir. Bütövlükdə, bütün sahələrdə beynəlxalq müqavilələr dövlətlər arasında hüquqi öhdəliklər yaradan əsas normativ mənbələrdən biri kimi çıxış edir. Beynəlxalq müqavilələr haqqında 1969-cu il tarixli Vyana Konvensiyasının 1-ci maddəsində qeyd edilir ki, beynəlxalq müqavilə dedikdə dövlətlər arasında yazılı formada bağlanılan və beynəlxalq hüquqla tənzimlənən, bir sənəddə və ya öz arasında əlaqəli olan iki və ya daha çox sənəddə əks olunmasından və konkret adından asılı olmayaraq beynəlxalq razılaşma başa düşülür [35]. Beynəlxalq müqavilənin əsas xüsusiyyəti onun beynəlxalq hüquq subyektlərinin razılaşdırılmış iradəsində əks olunması ilə xarakterizə edilməklə bərabər, həm də beynəlxalq hüquqla tənzim edilməsi ilə də müəyyən edilir. Hüquq ədəbiyyatında bununla əlaqədar qeyd edilir ki, beynəlxalq müqavilələr beynəlxalq hüququn normativ strukturunun əsasını təşkil edir və bununla da bir sıra xüsusiyyətlər əldə edir, məsələn, dövlətlərin davranış qaydalarının müəyyən edilməsi və s. [4, s. 14-15].

Lakin burada spesifik xüsusiyyətlərin də qeyd edilməsi xüsusilə zəruridir. Belə ki, insan hüquqları sahəsində əksər beynəlxalq müqavilələr dövlətlərin uzunmüddətli hüquqi öhdəliklərini müəyyən edir [29, s. 73-75] və ya başqa bir hüquq ədəbiyyatında qeyd edildiyi kimi, insan hüquqları sahəsində əksər beynəlxalq müqavilələr müddətsizdir [2, s. 46]. Bundan başqa, hüquq ədəbiyyatında belə bir əsaslı fikir irəli sürülür ki, insan hüquqları sahəsində beynəlxalq müqavilələrin əsas xüsusiyyətləri bu sahədə dövlətlərin ümumi öhdəliklərindən irəli gəlir və insan hüquqlarına hörmət hüquqi norma kimi nəzərdən keçirilir [23, s. 41-44].

İlk növbədə, burada beynəlxalq müqavilələrin də təsnifatı aparılmalıdır. Beynəlxalq müqavilələrin təsnifatı əsasən müxtəlif istiqamətlərdə müəyyən edilir. İlk növbədə, Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il tarixli Vyana

Konvensiyasının müddəaları xüsusi qeyd edilməlidir. Belə ki, həmin Konvensiyanın 2-ci maddəsində "müqavilə" anlayışının özü təsnifat üçün müxtəlif meyarların mövcudluğunu irəli sürür.

Beynəlxalq müqavilələrin əsas təsnifatı adətən müqavilə tərəflərinin sayı, tənzim edilən münasibətlərin dairəsi, əhəmiyyəti (məsələn, ümumi beynəlxalq hüquqa aid olan, regional münasibətləri tənzim edən və ya tərəflər arasında konkret müqavilə öhdəliklərini müəyyən edən müqavilələr) ilə xarakterizə edilir. Bu ya digər istiqamətdə təsnifatlara da rast gəlinir. Beynəlxalq müqavilələrin bağlandığı səviyyədən asılı olaraq aşağıdakı növləri qeyd olunur: dövlətlərarası – dövlət adından bağlanan yüksək səviyyəli müqavilələr; hökumətlərarası – hökumətlər adından bağlanan müqavilələr; idarələrarası – ayrı-ayrı dövlət orqanları və idarələri arasında bağlanan beynəlxalq müqavilələr; iştirakçılarının dairəsinə görə - ikitərəfli və çoxtərəfli; beynəlxalq müqavilələrə qoşulma imkanına görə - açıq və qapalı; tənzimetmə obyektinə (məzmununa) görə - siyasi, iqtisadi, mədəni və s.; təsir (qüvvədə olma) müddətinə görə - müvəqqəti və qeyri müəyyən müddətə bağlanan müqavilələr [2, s. 52].

Beynəlxalq müqavilələrin adlarına görə də fərqləndirmənin aparılması onun hüquqi qüvvəsi ilə də fərqləndirilə bilər. Belə ki, konvensiya, pakt, protokol və s. adətən özündə "bərk" hüquq normalarını birləşdirir. Bəyannamələr isə "yumşaq" hüquq normaları kimi xarakterizə edilə bilər. Ancaq 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və "BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında" 1970-ci il tarixli Bəyannamənin müddəaları tamamilə istisna təşkil edir. Belə ki, 1948-ci il Bəyannaməsinin müddəaları artıq qeyd edildiyi kimi ümumqəbuledilmiş fikir olaraq beynəlxalq-hüquqi adətə, 1970-ci il Bəyannaməsinin müddəaları isə beynəlxalq hüququn əsas, ümumtanınmış prinsiplərini əks etdirdiyindən, hər iki beynəlxalq sənəd imperativ xarakterə malikdir.

Beynəlxalq müqavilələrin hüquqi qüvvəsinə görə təsnifatı məsələsi bir meyar kimi hüquq ədəbiyyatlarının əsas təhlil obyektlərindən biridir. Burada beynəlxalq müqavilə ilə tənzim edilən münasibətlər də xüsusi yer tutur [18, s. 75]. Bütövlükdə, beynəlxalq müqavilələrin vahid təsnifatı yoxdur, burada hər bir meyar üzrə müxtəlif əsasları fərqləndirmək olar ki, qeyd edilənlər də 1969-cu il tarixli Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasında bu və ya digər şəkildə əks olunmuşdur.

Bu zaman əhəmiyyətli məsələlərdən biri də konkret müqavilələrlə insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin müddəalarının təsbit olunmasının təhlilidir.

Bu zaman, insan hüquqları sahəsində ilk mühüm sənəd və beynəlxalq müqavilə hesab edilən Ümumdünya İnsan Hüquqları Bəyannaməsi xüsusi yer tutur. İlk növbədə, qeyd edilməlidir ki, burada müəyyən edilən öhdəliklər BMT Nizamnaməsindəki kimi ümumi xarakterli deyil, eyni zamanda, konkret xarakter

daşıyır. Həmin beynəlxalq sənəddə insan hüquqlarına hörmət və riayət edilməsi kimi iki mühüm element qarşılıqlı əlaqədə təhlil edilir.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin müddəaları ilk maddədən başlayaraq, ayrı-ayrı hüquq və azadlıqlar təsbit etmişdir. Preambulada isə bir sıra məqsədləri əsas götürərək BMT Baş Assambleyası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, hər bir kəsin və cəmiyyətin hər bir orqanının bu Bəyannaməni rəhbər tutaraq maarifləndirmə və tədris yolu ilə həmin hüquq və azadlıqlara hörmət olunmasına yardım etmələri və milli və beynəlxalq səviyyədə mütərəqqi tədbirlər yolu ilə, həm təşkilatın üzvü olan dövlətlərin xalqları, həm də onların yurisdiksiyası altında olan ərazilərin xalqları arasında ümumilikdə və effektiv tanınması və həyata keçirilməsinə səy göstərmələri məqsədilə bütün xalqlar və bütün dövlətlərin yerinə yetirməyə can atmalı olduqları vəzifə kimi bəyan edir [31].

Artıq Bəyannamədə bəyan edilən müddəalar digər beynəlxalq sənədlərdə mühüm öhdəlik olaraq konkretləşdirilir. Belə ki, "Mülki və siyasi hüquqlar haqqında" 1966-cı il tarixli Beynəlxalq Paktın 2-ci maddəsinin 1-ci hissəsində qeyd edilir ki, hazırkı Paktda iştirak edən hər bir dövlət, onun ərazisi hüdudlarında və onun yurisdiksiyası altında olan bütün şəxslərin hazırkı Paktda qəbul edilən hüquqlarına, irqi, dərisinin rəngi, cinsi, dini, dili, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və digər halları ilə bağlı əlamətlərinə heç bir fərq qoymadan hörmət etməyi və onların bu hüquqlarını təmin etməyi öhdəsinə götürür [34].

Qeyd edilən müddəalar 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" 1966-cı il tarixli Beynəlxalq Paktın 2-ci maddəsinin 1-ci hissəsində bir qədər fərqli formada əks olunmuşdur. Bu dövlətlərin beynəlxalq öhdəliyinin xarakteri ilə bağlıdır ki, bu da beynəlxalq hüquq ədəbiyyatında qeyd edilmişdir. Belə ki, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt dövlətlər üçün birbaşa və dərhal icra olunmalı öhdəlik müəyyən edir, dövlətlərə neqativ öhdəliklər qoyur, dövlətdaxili hüquqda birbaşa tətbiqetmə imkanlarının müəyyən edir [24, s. 37-41]. Digər hüquq ədəbiyyatında qeyd edilir ki, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt 1948-ci il Bəyannaməsindəki hüquqları sadəcə təkrarlamır, eyni zamanda daha geniş və sistemli xarakterizə etməklə, həm də onun hüquqi məcburiliyinin təmin edilməsinə xidmət edir [7, s. 48]. Qeyd edilənlər isə bu hüquqların pozulması hallarında dövlətlərin beynəlxalq məsuliyyətini əsaslandırır. Digər bir hal isə, sonradan BMT-nin İqtisadi və Sosial Şurasının qərarı ilə İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktla iqtisadi, sosial və mədəni hüquqların yerinə yetirilməsi üzərində nəzarət mexanizmi kimi xüsusi bir qurum olan komitənin yaradılmasına baxmayaraq, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın birbaşa olaraq 28-ci maddəsi İnsan hüquqları Komitəsinin yaradılmasını nəzərdə tutur. Hazırda BMT çərçivəsində 9 komitənin olmasına baxmayaraq, İnsan Hüquqları Komitəsi özünün iş xüsusiyyətləri, nüfuzu və s. xüsusiyyətlərinə görə digərlərindən fərqlənir və bu onun qərarlarında da əks olunur.

Digər beynəlxalq sənəd olan 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın müddəalarının təhlili nəticəsində belə qənaətə gəlmək olar ki, bu öhdəliklər tədricən həyata keçirilməli olmaqla bərabər, həm də dövlətin sərəncamında olan ehtiyatların maksimum səfərbər edilməsi yolu ilə həyata keçirilməsini özündə birləşdirir. Bunu daha çox iqtisadi imkanlarla müəyyən edilmiş mexanizm kimi də qiymətləndirmək olar. Eyni zamanda, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktda elan olunmuş hüquqların həyata keçirilməsi üzərində nəzarət və fərdi şikayət mexanizmi də sonradan yaradılmışdır [13, s. 108-111]. Dövlətlər bu hüquqların tədricən həyata keçirilməsi üçün mövcud resurslardan maksimum istifadə etməyi öhdələrinə götürürlər.

Fikrimizcə, hər iki paktın ən əsas xüsusiyyətlərindən biri də onların insan hüquq və azadlıqlarının hər birinin ayrılıqda məzmununun müəyyən edilməsi ilə bu sahədə beynəlxalq standartların formalaşmasına xidmət etməsidir. Burada həm də bir sıra yeni hüquqlar müəyyən edilir, dövlətlərin görməli olduğu mühüm dövlətdaxili tədbirlər müəyyənləşdirilir, onların əhatə dairəsi və s. kimi mühüm xüsusiyyətlər qeyd edilir.

Daha sonra, bu sahədə digər beynəlxalq sənədlər də qeyd edilə bilər. Bu zaman "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyası xüsusi qeyd edilməlidir. Konvensiyanın "İnsan hüquqlarına hörmət olunması öhdəliyi" adlanan 1-ci maddəsində qeyd edilir ki, razılığa gələn yüksək tərəflər onların yurisdiksiyasında olan hər kəs üçün bu Konvensiyanın I bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər. Daha sonra "Hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri" adlanan 18-ci maddədə qeyd edilir ki, qeyd olunan hüquq və azadlıqlarla bağlı bu Konvensiyada yol verilən məhdudiyyətlər, nəzərdə tutulduğundan başqa, hər hansı digər məqsəd üçün tətbiq olunmamalıdır [11]. Beləliklə, regional sənəd olsa belə, 1950-ci il Avropa Konvensiyası insan hüquqlarına əməl olunması sahəsində dövlətlərin öhdəliklərini daha konkret olmaqla, qısa və yığcamlı xarakterizə etmişdir.

Spesifik bir beynəlxalq sənəd kimi 1979-cu il tarixli "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın 3-cü maddəsində qeyd edilir ki, iştirakçı dövlətlər, qadınların hərtərəfli inkişafını və tərəqqisini təmin etmək üçün bütün sahələrdə, əsasən də siyasi, sosial, iqtisadi və mədəni sahələrdə qanunvericilik tədbirləri də daxil edilməklə, bütün müvafiq tədbirləri görürlər ki, onların kişilərlə bərabər səviyyədə insan hüquqlarını və əsas azadlıqlarını həyata keçirmələrinə və bunlardan istifadə etmələrinə təminat versinlər. Həmin Konvensiyanın 2-ci maddəsində isə dövlətlər tərəfindən bir sıra tədbirlərin görülməsi müəyyən edilmişdir ki, burada adətlərlə bağlı müddəalar da vardır [33] (özündə qadınlara qarşı ayrı-seçkilik əks etdirən mövcud qanunları, qərarları, adətləri və təcrübələri dəyişdirmək və ya onları ləğv etmək üçün qanunvericilik tədbirləri də daxil edilməklə, bütün müvafiq tədbirləri görmək).

İnsan hüquqları sahəsində qəbul edilmiş beynəlxalq müqavilələrlə daha ciddi beynəlxalq öhdəliklər də müəyyən edilə bilər və ya sonradan həmin

hüququn adət xarakterini nəzərə alaraq bir sıra xüsusiyyətlər də müəyyən edilə bilər. Belə ki, 1984-cü il tarixli "İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzalara qarşı" Konvensiyada bu sahədə öhdəliklər daha geniş sistemdə müəyyən edilmişdir. Məsələn, 2-ci maddə dövlətlərin effektiv qanunvericilik, inzibati və məhkəmə tədbirləri görməsini, habelə heç bir müstəsna halın (müharibə vəziyyəti, daxili siyasi qeyri-sabitlik və s.) işgəncəyə bəraət qazandıra bilməyəcəyini təsbit edir. Konvensiyanın 3-cü maddəsi yüksək vəzifəli şəxsin və ya dövlət orqanının əmrinin işgəncə üçün əsas ola bilməməsini, 4-cü maddəsi isə bu əməllərə görə cinayət məsuliyyətinin müəyyən edilməsini qəti şəkildə tələb edir.

Bunu nəzərə alaraq, işgəncə cinayətinə görə məsuliyyət və bu sahədə dövlətlərin öhdəlikləri beynəlxalq-hüquqi adət xarakteri almışdır. İşgəncə əməli insanlıq əleyhinə cinayətlər qrupuna daxil edilməklə, beynəlxalq cinayətlər kateqoriyasında təsnifləşdirilir.

Müasir hüquq doktrinasında bəzi insan hüquqlarının pozulması hallarının beynəlxalq adət hüququ xarakteri daşıdığı qəbul edilir və bu səbəbdən həmin sahədə dövlətlərin müvafiq beynəlxalq müqavilələrdə iştirakı artıq mütləq şərt hesab olunmur. BMT Beynəlxalq Ədalət Məhkəməsinin soyqırımı ilə bağlı qərarları bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Məhkəmə 1951-ci il tarixli 'Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyaya dair qeyd-şərtlər' adlı məsləhətçi rəyində soyqırımı qadağasının yalnız müqavilə öhdəliyi deyil, həm də beynəlxalq adət hüququnun ayrılmaz hissəsi olduğunu müəyyən etmişdir. Bu cür normalar hüquq ədəbiyyatında dövlətlərin hamı qarşısında öhdəlikləri (*erga omnes*) kimi xarakterizə edilir. Bundan başqa, Bosniya və Herseqovina, Serbiya və Monteneqroya qarşı qərarında BMT Beynəlxalq Ədalət Məhkəməsi bir daha vurğulamışdır ki, soyqırımı qadağası beynəlxalq adət hüququnun tərkib hissəsidir.

İşgəncənin qadağasının da beynəlxalq adət hüququnun tərkib hissəsi kimi olması hüquq ədəbiyyatında əsaslandırılmış fikirlərlə irəli sürülür. Belə ki, qeyd edilir ki, 1984-cü il Konvensiyası ilə işgəncə heç bir halda əsaslandırıla bilmədiyindən işgəncə qadağası da beynəlxalq adət hüququnun tərkib hissəsi hesab edilir [5, s. 510-512]. Hətta hüquq ədəbiyyatında əsaslandırmalarla belə bir qətiyyətli fikir irəli sürülür ki, dövlətlərin aşağıdakı hüquqazidd əməlləri də beynəlxalq adət hüququnun pozuntusu kimi tövsif edilə bilər: soyqırımı; aparteid; köləlik; bir sıra insan hüquqlarının sistematik və ya kobud pozuntuları (şəxsin qanunsuz həyatdan məhrum edilməsi, işgəncə, uzunmüddətli özbaşına həbs, şəxsin zorla müəyyən ərazidən çıxarılması, minimal məhkəmə təminatlarının pozulması, qanunun geriyə tətbiqi) [2, s. 54]. Belgium v. Senegal (2012) işində BMT Beynəlxalq Ədalət Məhkəməsi işgəncə qadağasını beynəlxalq hüququn jus cogens norması kimi müəyyən etdi və bununla da onun adət hüququna transformasiyası üçün güclü normativ əsas yaradılmış oldu.

Digər beynəlxalq müqavilələrdən fərqli olaraq, insan hüquqları sahəsində beynəlxalq müqavilələrin implementasiyasında insan hüquqları amili daha önəmli xarakter kəsb etməklə məsələyə fərqli yanaşmanı da müəyyən edir. Beynəlxalq insan hüquqları hüququ hər bir tərəf dövlət üçün müqavilədə tanınmış hüquqların həyata keçirilməsini təmin etmək məqsədilə ixtiyarında olan bütün vasitələrdən istifadə etmək öhdəliyini müəyyən edir. Dövlətlər beynəlxalq hüquqi öhdəliklərini həyata keçirməyin üsul və vasitələrini seçməkdə azaddırlar, lakin əldə olunan nəticə həmin öhdəliklərə uyğun olmalıdır. Bu baxımdan, dövlətlər yalnız davranış öhdəliyi deyil, həm də nəticə öhdəliyi daşıyırlar. Bu kontekstdə subsidiarlıq prinsipi mühüm əhəmiyyət kəsb edir. Həmin prinsipə görə, insan hüquqları müqavilələrinə hörmətin təmin edilməsi və iddia olunan pozuntuların aradan qaldırılması üzrə əsas məsuliyyət bilavasitə dövlətlərin üzərinə düşür**.** Subsidiarlıq ideyasının reallaşdırılması üçün daxili səviyyədə müvafiq insan hüquqları normalarının icrasını təmin edən effektiv vasitə və mexanizmlər mövcud olmalıdır [36]. Burada ən sərt limit kimi jus cogens xarakterinin olmasıdır ki, bu da insan hüquqlarında hiss edilir. Bu zaman erga omnes öhdəliyinin olması tərəflərə daha ciddi öhdəliklərlə xarakterizə edir [9, s. 503-504].

## *IV. Nəticə*

İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin məzmunu və normativ əsaslarının təhlili bir sıra mühüm nəticələrə gəlməyə əsas verir.

İlk növbədə, insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi beynəlxalq hüququn əsas ümumtanınmış prinsiplərindən biri kimi onlarla eyni hüquqi xüsusiyyətlərə (ümumməcburi qüvvəyə malik olması, beynəlxalq normayaradıcılığının əsasında dayanması və s.) malikdir. Bu xüsusiyyətlər beynəlxalq təşkilatların təsis aktlarında da öz əksini tapmışdır. Belə ki, burada bəzi beynəlxalq təşkilatlar problemə daha hərtərəfli və əsaslı yanaşmış, digərlərində isə əsas məqsəddən irəli gələrək insan hüquqları amili də müəyyən edilmişdir. Daha ciddi yanaşma müəyyən edən və beynəlxalq təşkilatlar sisteminin mərkəzində dayanan BMT-dən və mühüm regional təşkilat kimi Avropa Şurasından fərqli olaraq, Beynəlxalq Əmək Təşkilatı, UNESCO və digər beynəlxalq təşkilatlarda isə bu öhdəliklər həmin beynəlxalq təşkilatların ixtisaslaşmasına uyğun olaraq müəyyən edilmişdir. Əsas fəaliyyəti insan hüquqları ilə əlaqədar olmayan bəzi beynəlxalq təşkilatların təsis aktlarında da insan hüquqları məsələsi əks olunmuş və hazırda onların qəbul etdikləri mühüm sənədlərdə daha qabarıq şəkildə müəyyən edilmişdir.

Daha sonra, insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi ilə əlaqədar müddəalar beynəlxalq müqavilələrdə də fərqli yanaşmalarla müəyyən edilmişdir. Mühüm müddəaların təsbiti baxımından "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt və "İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzalara qarşı" Konvensiya xüsusilə

fərqləndirilməlidir. Belə ki, bu sənədlər dövlətlər üçün ciddi öhdəliklər müəyyən etməklə yanaşı, müvafiq beynəlxalq adət normalarının formalaşmasına da birbaşa xidmət etmişdir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi isə bu sahədəki bütün beynəlxalq aktların təməlində dayanaraq, zamanla beynəlxalq adət hüququ xarakteri qazanmışdır.

Mühüm məqamlardan biri də hüququn ümumi prinsiplərinin, beynəlxalq məhkəmə praktikasının və tanınmış alimlərin əsərlərinin təhlilidir ki, bu istiqamətdə də məqalədə çoxsaylı istinadlar edilmiş və əsaslandırılmışdır. Beynəlxalq məhkəmə praktikası və tanınmış alimlərin əsərləri (rəyləri) təsdiq edir ki, insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin əsas müddəaları dövlətlərin daxili qanunvericiliyinə həmin sahədə beynəlxalq müqavilələrdə iştirakdan asılı olmayaraq daxil edilməlidir. Bu sahədə dövlətin əsas məqsədinin insan hüquqlarının təmin edilməsi olması, insan hüquqlarının birbaşa qüvvədə olması, beynəlxalq müqavilələr əsasında insan hüquqları standartlarının müəyyən edilməsi və s. mühüm elementlərdən hesab edilə bilər. Hüququn ümumi prinsiplərinə gəldikdə isə, bu prinsiplər insan hüquqları sahəsində bərqərar olmuş dəyərlərlə (humanizm, ədalətlilik və s.) sıx qarşılıqlı əlaqədə olmaqla real məzmun kəsb edir. Bu nöqteyi-nəzərdən, insan hüquqlarına və əsas azadlıqlara hörmət prinsipinin mahiyyəti və fərqləndirici xüsusiyyəti — bilavasitə insan hüquqları hüququ sahəsi daxilində spesifik prinsiplərin formalaşması və daha da inkişaf etdirilməsi ilə şərtlənir.

## ƏDƏBİYYAT (REFERENCES):

1. African Union, Constitutive Act of the African Union, 2000. URL: https://au.int/en/treaties/constitutive-act-african-union (last access: 17.06.2025).
2. Aliyev A.I. Human Rights. Textbook. Baku, Nurlar Publishing House, 2019, 352 p. (in Azerbaijani / *Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, Nurlar, 2019, 352 s.*).
3. Association of Southeast Asian Nations, The ASEAN Declaration (Bangkok Declaration), 1967. URL: https://asean.org/ (last access: 17.06.2025).
4. Aust A. Modern Treaty Law and Practice. 3rd ed., Cambridge University Press, 2013, 554 p.
5. Brownlie J. Principles of Public International Law, 9th ed., ed. James Crawford. Oxford: Oxford University Press, 2019, 872 p.
6. Brownlie's Principles of Public International Law. Crawford, James (ed.). 9th edition. Oxford: Oxford University Press, 2019, 888 p.
7. Buergenthal T. International Human Rights in a Nutshell. 4th ed. St. Paul, MN: West Academic Publishing, 2009, xliii+553 p.
8. United Nations, Charter of the United Nations, 1945.

URL: https://www.un.org/en/about-us/un-charter (last access: 17.06.2025).

9. Chow Pok Yin S. On obligations erga omnes parties. Georgetown Journal of International Law. 2021, Vol. 52, p. 469-504 p.
10. Commonwealth of Independent States, Charter of the Commonwealth of Independent States, 1993.
URL: https://eccis.org/ (last access: 17.06.2025).
11. Council of Europe, Convention for the Protection of Human Rights and Fundamental Freedoms, 1950.
URL: https://www.echr.coe.int/documents/d/echr/convention_ENG (last access: 17.06.2025).
12. Council of Europe, Statute of the Council of Europe, 1949.
URL: https://www.coe.int/en/web/conventions/full-list?module=treaty-detail&treatynum=001 (last access: 17.06.2025).
13. Craven Matthew C. R. The International Covenant on Economic, Social and Cultural Rights. Oxford, Oxford University Press, 1995, 430 p.
14. General principles of law.
URL: https://legal.un.org/ilc/reports/2023/english/chp4.pdf (last access: 17.06.2025).
15. Goldmann M. We Need to Cut Off the Head of the King: Past, Present, and Future Approaches to International Soft Law. Leiden Journal of International Law, 2012, 25, p. 335–368.
16. Hannum H. The UDHR in National and International Law. Health and Human Rights, 1998, Vol. 3, No. 2, p. 144–155.
17. Helsinki Final Act of the Conference on Security and Co-operation in Europe.
URL: https://www.csce.gov/wp-content/uploads/2016/10/Helsinki-Final-Act.pdf (last access: 17.06.2025).
18. Huseynov L.H. International Law: Textbook. Baku, ABU Publishing House, 2008, 240 p. (in Azerbaijani / *Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, ABU Nəşriyyatı, 2008, 240 s.).*
19. International Court of Justice, Statute of the International Court of Justice, 1945.
URL: https://legal.un.org/avl/pdf/ha/sicj/icj_statute_e.pdf (last access: 17.06.2025).
20. International Labour Organization, Constitution of the International Labour Organisation, 1949.
URL: https://www.ilo.org/sites/default/files/2024-04/ILO%20Constitution-2021-%5BJUR-210720-001%5D-Web-EN.pdf (last access: 17.06.2025).

21. Jordan J. Paust. Transnational Freedom of Speech: Legal Aspects of the Helsinki Final Act. Law and Contemporary Problems, 1982, Vol. 45, No. 1, p. 53–70.
22. Kalabalik H., Human Rights Law (3rd ed.), Ankara, 2013, 696 p. (in Turkish / *Kalabalık H. İnsan Hakları Hukuku. 3-cü Baskı.Ankara, 2013, 696 s.*).
23. Klabbers J. International Law. 2nd ed. Cambridge University Press, 2015, 398 p.
24. Manfred N. U.N. Covenant on Civil and Political Rights. 2nd ed. Kehl am Rhein: N.P. Engel Verlag, 2005, xxxix + 1277 p.
25. North Atlantic Treaty Organization, The North Atlantic Treaty, 1949. URL: https://www.nato.int/en/about-us/official-texts-and-resources/official-texts/1949/04/04/the-north-atlantic-treaty (last access: 17.06.2025).
26. Orakhelashvili A. Peremptory Norms in International Law. Oxford: Oxford University Press, 2006, XXIV + 664 p.
URL: https://academic.oup.com/book/8230 (last access: 17.06.2025).
27. Organisation of Islamic Cooperation, Charter of the Organisation of Islamic Cooperation, 2008.
URL: https://www.oic-oci.org/upload/documents/charter/en/oic_charter_2018_en.pdf (last access: 17.06.2025).
28. Organization of American States, Charter of the Organization of American States, 1948.
URL:https://www.oas.org/dil/1948%20charter%20of%20the%20organization%20of%20american%20states.pdf (last access: 17.06.2025).
29. Shaw M.N. International Law. 8th ed., Cambridge University Press, 2017, 1033 p.
30. Simma BE, Khan DE. Nolte G and Paulus A (eds). The Charter of the United Nations: A Commentary. Vol. 1. 3rd ed. Oxford University Press, 2012, 1399 p.
31. The Universal Declaration of Human Rights and its relevance for the European Union.
URL:
https://www.europarl.europa.eu/RegData/etudes/ATAG/2018/628295/EPRS_ATA%282018%29628295_EN.pdf (last access: 17.06.2025).
32. UNESCO, Constitution of the United Nations Educational, Scientific and Cultural Organization, 1945.
URL: https://www.unesco.org/en/legal-affairs/constitution (last access: 17.06.2025).
33. United Nations, Convention on the Elimination of All Forms of Discrimination against Women, 1979.

URL: https://www.ohchr.org/sites/default/files/cedaw.pdf (last access: 17.06.2025).
34. United Nations, International Covenant on Civil and Political Rights, 1966.
URL: https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/international-covenant-civil-and-political-rights (last access: 17.06.2025).
35. United Nations, Vienna Convention on the Law of Treaties, 1969.
URL:https://legal.un.org/ilc/texts/instruments/english/conventions/1_1_1969.pdf (last access: 17.06.2025).
36. Venice Commission. Report on the Implementation of International Human Rights Treaties in Domestic Law and the Role of Courts. Council of Europe, 2014.
URL:https://www.venice.coe.int/webforms/documents/default.aspx?pdffile=CDL-AD%282014%29036-e (last access: 17.06.2025).

## The content and normative-legal foundations of the principle of respect for human rights and fundamental freedoms

AYGUL JAHANGIROVA[*]

### Abstract

*In the study, the content and the normative-legal foundations of the principle of respect for human rights and fundamental freedoms are comprehensively analysed on the basis of the diversity of views existing in legal doctrine, international instruments, and judicial practice. In the first part of the study, the relevance of the topic and its main directions are identified. It is noted that the normative-legal foundations of the principle of respect for human rights and fundamental freedoms are characterised by a broader scope and a higher degree of systematic coherence compared to other principles of international law. The second part of the study analyses the principle of respect for human rights and fundamental freedoms and the key areas of activity of international organisations; finally, a number of significant aspects are highlighted by distinguishing between international organisations operating in this field. The third part examines the international legal foundations of the principle of respect for human rights and fundamental freedoms, as well as the essential characteristics of international treaties as the normative basis of this principle. In this regard, reference to specific*

[*] PhD Candidate / Baku State University, Faculty of Law, UNESCO Chair in Human Rights and Information Law / email: aygul.jahan@gmail.com

*international treaties makes it possible to arrive at well-founded conclusions. In the fourth part, a number of important conclusions are drawn regarding the content and normative foundations of the principle of respect for human rights and fundamental freedoms. One of the key conclusions is that the fundamental provisions of this principle are incorporated into the domestic legislation of States regardless of their participation in international treaties in this field. In this context, the primary purpose of the State to ensure human rights, the direct applicability of human rights, the determination of human rights standards on the basis of international treaties, and similar elements may be regarded as essential. The content of the principle of respect for human rights and fundamental freedoms has been further enriched and developed in a new dimension through the specific principles formed in the field of human rights (humanism, justice, the principle most favourable to the individual, development, etc.).*

**Keywords:** *human rights, international organisations, international treaties, human rights standards, principles of international law, normative-legal foundations, international obligations, international legal custom, international judicial practice, general principles of law.*

## Содержание и нормативно-правовые основы принципа уважения прав человека и основных свобод

АЙГЮЛЬ ДЖАХАНГИРОВА*

### Резюме

*В исследовании содержание и нормативно-правовые основы принципа уважения прав человека и основных свобод всесторонне анализируются на основе многообразия взглядов, существующих в юридической доктрине, международных документов и судебной практики. В первой части исследования определяются актуальность темы и основные направления её рассмотрения. Отмечается, что нормативно-правовые основы принципа уважения прав человека и основных свобод характеризуются большей широтой и системностью по сравнению с другими принципами международного права. Во второй части исследования анализируются принцип уважения прав человека и основных свобод, а также ключевые направления деятельности международных организаций; в заключение выделяются и характеризуются международные организации, действующие в данной сфере, с указанием ряда существенных аспектов. В*

* Диссертант / Бакинский государственный университет, юридический факультет, Кафедра ЮНЕСКО по правам человека и информационному праву / email: aygul.jahan@gmail.com

*третьей части рассматриваются международно-правовые принципиальные основы уважения прав человека и основных свобод, а также важнейшие особенности международных договоров как нормативной основы принципа уважения прав человека и основных свобод. В этой связи обращение к конкретным международным договорам позволяет прийти к обоснованным выводам. В четвертой части формулируется ряд важных выводов, касающихся содержания и нормативных основ принципа уважения прав человека и основных свобод. Одним из ключевых выводов является включение основных положений данного принципа во внутреннее законодательство государств независимо от их участия в международных договорах в этой сфере. При этом в качестве существенных элементов могут рассматриваться основная цель государства по обеспечению прав человека, прямое действие прав человека, установление стандартов прав человека на основе международных договоров и иные факторы. Содержание принципа уважения прав человека и основных свобод было дополнительно обогащено и получило новое развитие под влиянием специальных принципов, сформировавшихся в сфере прав человека (гуманизм, справедливость, принцип наибольшего благоприятствования личности, развитие и др.).*

**Ключевые слова:** *права человека, международные организации, международные договоры, стандарты прав человека, принципы международного права, нормативно-правовые основы, международные обязательства, международно-правовой обычай, международная судебная практика, общие принципы права.*

**Redaksiyaya daxil olma tarixi: 27.06.2025**
**Çapa qəbul: 25.12.2025**

***Emin Əlimusayev.*** İqlim dəyişiklikləri ilə mübarizə fonunda ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin təhlili // Azərbaycan Hüquq Jurnalı. 2025 (№3), s. 140-164. DOI: 10.61638/CNLR6138

# EKOLOGİYA HÜQUQU

## İQLİM DƏYİŞİKLİKLƏRİ İLƏ MÜBARİZƏ FONUNDA ƏTRAF MÜHİTİN MÜHAFIZƏSİ SAHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNİN TƏHLİLİ

EMİN ƏLİMUSAYEV*

**Annotasiya**

*İqlim dəyişiklikləri başda olmaqla, ekoloji problemlərin kəskinləşməsinə qarşı zəruri tədbirlərin görülməsi bəşəriyyətin sağlam gələcəyinin təmin edilməsi üçün zəruridir. Bu baxımdan əksər dünya dövlətləri ekoloji qanunvericilik aktları qəbul etmək və mövcud hüquqi bazanı daha da təkmilləşdirmək yolu ilə ekoloji-hüquqi tənzimləmənin səmərəliliyini təmin edirlər. Ölkəmizdə də ekoloji münasibətlərin müxtəlif sferalarını tənzimləyən çoxsaylı qanunvericilik aktları mövcuddur. Bu araşdırma çərçivəsində ətraf mühitin mühafizəsi sahəsində əsas qanunvericilik aktlarından biri olan "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu təhlil edilmişdir. Xüsusilə qüvvədə olduğu 26 il ərzində ölkədə baş vermiş sosial-iqtisadi inkişaf baxımından təhlil aparılmış, bu illər ərzində Qanuna edilmiş dəyişikliklər araşdırılmışdır. Bununla yanaşı, Qanunun konkret struktur elementləri əsasında təhlili aparılmış, bir sıra kolliziyalar və hüquqi boşluqlar müəyyən edilmiş, habelə təkmil normayaratma texnikası baxımından qiymətləndirmə həyata keçirilmişdir. Tədqiqat nəticəsində Qanunun müasir ekoloji tənzimləmə konsepsiyaları və iqlim tənzimləməsini ehtiva etmədiyi, qüvvədə olduğu illər ərzində edilmiş dəyişikliklərin yalnız ikisinin qanunun tənzimləmə predmeti üçün təkmilləşdirmə xarakteri daşıdığı, Qanunda xeyli sayda tənzimləmə müəyyən etməyən blanket xarakterli normaların, kolliziyaların və hüquqi boşluqların olduğu, habelə müasir normayaratma texnikasına cavab vermədiyi müəyyən edilmiş, o cümlədən effektiv ekoloji-hüquqi tənzimləmənin həyata keçirilməsi üçün qanunvericilikdə əsaslı dəyişikliklərin edilməsi təklif edilmişdir.*

**Açar sözlər:** *ekologiya, ətraf mühitin mühafizəsi, ekologiya hüququ, yaşıl dünya, ekoloji qanunvericilik, iqlim qanunları, qanunvericilik, normayaratma.*

### *I. Giriş*

İnsan cəmiyyətinin inkişafı və bəşəriyyətin iqtisadi fəaliyyətinin artması mütənasib olaraq insanların təbiətə təsirini də artırmaqdadır. İqlim dəyişiklikləri başda olmaqla bir sıra ekoloji problemlərin kəskinləşməsi insanlara yalnız iqtisadi zərər vurmaqla məhdudlaşmır, eyni zamanda onların gələcək varlığını sual altında

* Əmək və ekologiya hüququ kafedrasının doktorantı / Bakı Dövlət Universiteti / email: eminalimusayev@gmail.com

qoyur. Aparılmış araşdırmalara əsasən planet səthinin orta temperaturunun sənayeləşmədən əvvəlki dövrə nisbətən 1.1 °C artması ilə yanaşı, yaxın gələcəkdə bu rəqəmin daha da yüksələcəyi, anormal hava hadisələrinin (daşqınlar, sellər və s.) baş vermə tezliyinin sıxlaşacağı, quraqlıq hallarının və suya əlçatanlığın pisləşəcəyi, meşə yanğınlarının daha da kəskinləşəcəyi, buzlaqların əriməsi səbəbindən okean səviyyəsinin artacağı və s. proqnozlaşdırılır [16, s. 11-20]. Bununla yanaşı, bir sıra tədqiqatlar 2023-cü ilin son 174 il ərzində qeydə alınmış ən isti il olduğunu, son 50 ildə qeydə alınmış təbii fəlakətlərin 5 dəfə artdığını, təbii fəlakətlərdən zərər çəkənlərin 2005-2014-cü illərdə hər il 29 milyon nəfər olmasına baxmayaraq 2015-2022-ci illərdə bu göstəricinin hər il 133 milyon nəfər təşkil etdiyini göstərir [30, s. 209-210]. Ekoloji problemlərin kəskinləşməsi bəşəriyyətin gələcək nəsillərə zərər vurmadan inkişafını təmin etmək üçün ekoloji hüquqi tənzimləmənin zəruriliyini şərtləndirir. Bu səbəbdən qabaqcıl dünya dövlətləri istər iqlim qanunları qəbul etməklə, istərsə də mövcud hüquqi bazanı daha da sərtləşdirməklə iqlim dəyişiklikləri ilə mübarizə sahəsində öz ekoloji qanunvericiliklərini davamlı təkmilləşdirirlər.

İqlim dəyişiklikləri ölkəmizdən də təsirsiz ötüşməmişdir. Azərbaycanın təqribən 10 milyon əhali ilə, qlobal istixana qazlarının cəmi 0.15%-ni emissiya etməsinə baxmayaraq, ölkənin fiziki və coğrafi xüsusiyyətləri iqlim dəyişikliklərinin təsirlərinə (xüsusilə quraqlıq, termal stress, daşqınlar və s.) həssas olması ilə xarakterizə olunur [28, s. 11]. Rəsmi statistik məlumatlar göstərir ki, 2022-ci ildə Azərbaycanda 66 qeydə alınmış yanğın hadisəsi baş vermiş və 869 hektar ərazi zərər görmüşdür [26]. Bu göstərici 21-ci əsr üzrə Azərbaycanda meşə yanğınları üzrə qeydə alınmış ən yüksək göstəricidir. Bununla yanaşı, ölkənin su ehtiyatları da azalmaqdadır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın 3-cü hissəsinə əsasən ölkənin su ehtiyatlarının 1980–2023-cü illərdə 26,4 faiz azalaraq 26,2 milyard kubmetr təşkil etmişdir. Bütün bunlar həmçinin Xəzər dənizinin səviyyə tərəddüdlərinə də birbaşa təsir edir. Dövlət rəsmilərinin açıqlamalarında Xəzər dənizinin səviyyəsinin dəyişməsində iqlim amilinin əsas rol oynadığı bildirilməklə yanaşı, səviyyənin həm qalxmasının həm də enməsinin ölkənin ekoloji sisteminə mənfi təsir edəcəyi bildirilir [21].

Bu sahədə aparılmış elmi araşdırmalar da ölkəmizdə ekoloji problemlərin kəskinləşdiyini və bu sahədə müvafiq tədbirlərin görülməsinin zəruriliyini göstərir. Belə ki, Teymurova və digərləri tərəfindən aparılmış araşdırmada hava çirklənməsi səbəbindən iqtisadi itkilərin ümumi daxili məhsulun təqribən 0.11-0.14%-i, torpaqların deqradasiyası səbəbindən itkilərin hər il 10-11 milyard manat olması müəyyən etməklə yanaşı, bu sahədə addımların atılmasının zəruriliyi vurğulanmışdır [32, s. 30-31]. Bununla yanaşı, ekoloji problemlər, xüsusilə sənaye çirklənməsi sahəsində aparılmış digər tədqiqatlar da bu sahədə dövlət nəzarətinin gücləndirilməsi, ictimai savadlılığın artırılması, beynəlxalq

əməkdaşlıq kimi sahələrdə zəruri tədbirləri irəli sürür [5, s. 430-431]. Habelə, bir sıra digər tədqiqat nəticələri də ölkəmizdə keçirilmiş COP29-un məqsədlərinə uyğunluğun təmin edilməsi məqsədilə infrastruktur layihələrində iqlim meyarını nəzərə almasının zəruriliyi vurğulamaqla bu sahədə zəruri tənzimləyici çərçivənin əhəmiyyətini qeyd edir [24, s. 5-6].

Ekoloji problemlərin kəskinləşməsi ilə yanaşı, ölkəmizdə ətraf mühitin mühafizəsinə ayrılan diqqət də artmaqdadır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də [3] 2030-cu ilədək ölkənin inkişafında dair müəyyən edilmiş 5 prioritetdən biri “təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” olmuşdur. Həmin prioritet çərçivəsində iqlim dəyişiklikləri nəzərə alınmaqla ekoloji təmiz texnologiyaların tətbiqi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının zəruriliyi vurğulanmışdır. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 may tarixli 2620 nömrəli Sərəncamı [6] ilə işğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji zonası” yaradılmış, 25 dekabr 2023-cü il tarixli 4233 nömrəli Sərəncamı [7] ilə 2024-cü il “yaşıl dünya naminə həmrəylik ili” elan olunmuşdur. Əlavə olaraq, ölkədə ətraf mühitin mühafizəsinə çəkilən xərclər də davamlı artmaqdadır. Belə ki, rəsmi statistik məlumatlara əsasən 2023-cü il ərzində sözügedən xərclər əvvəlki illə müqayisədə 2,9 dəfə artaraq 677,4 milyon manat təşkil etmiş, ümumi daxili məhsulun 0,6 faizinə bərabər olmuşdur [29]. Bu rəqəm ötən illərlə müqayisədə ətraf mühitin mühafizəsinə çəkilmiş ən yüksək xərc kimi xarakterizə olunur [2]. Bütün bunlar ölkədə iqlim dəyişiklikləri və ətraf mühitin mühafizəsinə ayrılan diqqəti göstərsə də, bu sahədə atılan addımların effektivliyini təmin etmək üçün normativ hüquqi bazanın mövcud reallığa uyğun olması və təkmil xarakter daşıması zəruridir.

Əlavə olaraq, qeyd etmək lazımdır ki, 2024-cü ildə ölkəmizdə keçirilmiş COP29-un nəticəsi olaraq, iqlim maliyyəsi sahəsində yeni kollektiv hədəf müəyyən edilmiş və inkişaf etmiş dövlətlər tərəfindən illik olaraq 300 milyard dollar məbləğində maliyyə vəsaitinin inkişaf etməkdə olan dövlətlərin iqlim layihələrini maliyyələşdirmək üçün ayrılacağı barədə razılığa gəlinmişdir. Bu isə təkmil ekoloji-hüquqi bazanın mövcudluğunu zəruri edir. Belə ki, bir çox tədqiqatçılar tərəfindən iqlim maliyyəsi sahəsində hüquqi bazanın, iqtisadiyyatın digər sahələrinə nisbətən daha az inkişaf etdiyi bildirilir [36, s. 2]. Bu səbəbdən COP29 zamanı əldə edilmiş razılaşmanın öz məqsədlərinə çatmasının təmin edilməsi üçün inkişaf etməkdə olan dövlətlərin, o cümlədən də ölkəmizin ekoloji qanunvericiliyinin təkmil xarakter daşıması xüsusi əhəmiyyət kəsb edir.

Ötən əsrin sonlarından etibarən ölkəmizin müstəqillik əldə etməsi ilə bir çox hüquq sahələrində olduğu kimi, ekologiya hüququ sahəsində də qanunvericiliyin qurulması işləri başlamışdır. Xüsusilə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında keçirilən islahatlar bu sahədə çoxsaylı qanunvericilik aktlarının qəbul edilməsi ilə xarakterizə olunur. Belə ki, bu dövrdə ekoloji münasibətlərin müxtəlif

sferalarını tənzimləyən və hazırda qüvvədə olan 14 qanun və 3 məcəllə qəbul edilmişdir. Məhz hazırkı araşdırmanın predmeti olan "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu [19] da bu dövrdə qəbul edilmişdir. Sözügedən qanunvericilik aktlarının qəbul edilməsindən sonra ötən bir neçə onillik ərzində ölkəmizin keçdiyi böyük sosial-iqtisadi inkişaf yolunu nəzərə alaraq, hüquqi bazanın ölkədə mövcud sosial-iqtisadi reallığa uyğunluğunun qiymətləndirilməsi və təkmil hüquq təcrübəsi baxımından təhlil edilməsi effektiv ekoloji-hüquqi tənzimləmənin həyata keçirilməsi üçün xüsusi əhəmiyyət daşıyır.

*II. Qanunun mövcud sosial-iqtisadi reallığa uyğunluğunun araşdırılması*

Hüquq nəzəriyyəsindən məlum olduğu kimi, effektiv hüquqi tənzimləmənin həyata keçirilməsini təmin etmək üçün normativ hüquqi baza ölkədə mövcud olan sosial-iqtisadi reallığa uyğun olmalıdır. Digər hüquq sahələrində olduğu kimi, ekologiya hüququnda da mövcud hüquqi normaların sosial-iqtisadi reallıqla uzlaşmaması hüquqi tənzimləmənin səmərəliliyinə xələl gətirir. Bu baxımdan ölkəmizdə də ekoloji problemlərin kəskinləşməsinə qarşı mübarizə aparılması, habelə ölkənin gələcək ekoloji hədəflərinə nail olunması istiqamətində görülən tədbirlərin effektivliyi məhz qanunvericiliyin inkişaf səviyyəsi ilə bilavasitə bağlıdır.

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra - Qanun) 8 iyun 1999-cu il tarixində qəbul edilmişdir. Nəzərə almaq lazımdır ki, Qanunun qüvvədə olduğu 26 il ərzinə ölkə sosial-iqtisadi baxımdan əsaslı inkişaf yolu keçmişdir. Belə ki, rəsmi statistik məlumatlara nəzər yetirsək, 1999-ci ildə 3,7 milyard manat təşkil etmiş ümumi daxili məhsulun həcmi 2024-cü ildə 126,3 milyard manat təşkil etmişdir [29]. Eləcə də sənaye istehsalı və əhalinin gəlirləri artmışdır [22]. Xüsusilə neft-qaz sektorunda baş vermiş inkişaf ölkə iqtisadiyyatının böyüməsinə əsas vermişdir. Bununla yanaşı, 2001-ci ildə 49% olan yoxsulluq səviyyəsi də 2024-cü ildə 5.3%-ə qədər enmişdir. Nəzərə alınmalı olan digər bir amil isə Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi və ölkənin ərazi bütövlüyünün təmin edilməsi ilə bu ərazilərin ölkənin sosial və iqtisadi fəaliyyətinə inteqrasiya edilməsidir. Heç də təsadüfi deyildir ki, ölkə başçısının Sərəncamı ilə bu ərazilərdə "yaşıl enerji zonası" yaradılmışdır. Bütün bunlar son 26 il ərzində ölkənin əhəmiyyətli sosial-iqtisadi inkişaf yolu keçdiyini göstərir.

Bütün bunlarla yanaşı, qüvvədə olduğu illər ərzində Qanun əsaslı əlavə və dəyişikliklərə məruz qalmamışdır. Belə ki, qüvvədə olduğu 26 il ərzində Qanuna cəmi 28 dəyişiklik edilmişdir ki, bunlardan 26-sı Qanuna yeni tənzimləmə gətirməyən yalnız dəqiqləşdirmə xarakteri daşıyan texniki dəyişikliklərdir. Sözügedən dəyişikliklər əsasən digər normativ hüquqi aktlarda baş verən dəyişikliklərlərə qanunvericiliyin uyğunlaşdırılması xarakteri daşıyan və Qanunun tənzimləmə pretmetinə birbaşa təsir etməyən dəyişikliklərdir. Bu baxımdan həmin dəyişikliklər Qanunun ölkədə mövcud sosial-iqtisadi

dəyişikliklərə uyğunlaşdırılması baxımından xarakterik deyildir. Qeyd olunan dəyişikliklərin təhlilinə aşağıdakı cədvəldə *(Cədvəl 1)* yer verilmişdir:

*Cədvəl 1. Qanuna edilmiş texniki xarakterli dəyişikliklər.*

| *Dəyişiklik edən qanunun tarixi və nömrəsi* | *Dəyişikliyin əsası və mahiyyəti* |
|---|---|
| 27 fevral 2001-ci il tarixli 94-IIQD nömrəli | “Mülki müdafiə haqqında” Qanunun icrası ilə əlaqədar uyğunlaşdırma |
| 19 aprel 2002-ci il tarixli 308-IIQD nömrəli | "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Qanunun icrası ilə əlaqədar uyğunlaşdırma |
| 25 mart 2003-cü il tarixli 429-IIQD nömrəli | "Ətraf mühitə dair informasiya almaq haqqında" Qanunun icrası ilə əlaqədar uyğunlaşdırma *(istinadın əlavə edilməsi)* |
| 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli | İnzibati Xətalar Məcəlləsinin icrası ilə əlaqədar uyğunlaşdırma |
| 5 mart 2004-cü il tarixli 600-IIQD nömrəli | "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında” Qanunun icrası ilə əlaqədar uyğunlaşdırma |
| 25 dekabr 2007-ci il tarixli 524-IIIQD nömrəli | Bir sıra maddələrdən “zərərli” sözünün çıxarılması |
| 30 sentyabr 2009-cu il tarixli 882-IIIQD nömrəli | “mühafizə-sağlamlıq” sözləri “müalicə-sağlamlaşdırma” sözləri ilə əvəz edilməsi və digər texniki xarakterli dəqiqləşdirmə |
| 1 fevral 2013-cü il tarixli 553-IVQD nömrəli | “Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında” Qanunun icrası ilə əlaqədar uyğunlaşdırma |
| 4 aprel 2014-cü il tarixli 932-IVQD nömrəli | “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” və “İcbari sığortalar haqqında” qanunlarına uyğunlaşdırma |
| 30 sentyabr 2014-cü il tarixli 1032-IVQD nömrəli | “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Qanunun icrası ilə əlaqədar uyğunlaşdırma |
| 11 noyabr 2016-cı il tarixli 398-VQD nömrəli | “Yaşıllıqların mühafizəsi haqqında” Qanunun icrası ilə əlaqədar uyğunlaşdırma |

| | |
|---|---|
| 30 dekabr 2016-cı il tarixli 479-VQD nömrəli | “Reklam haqqında” Qanuna edilmiş dəyişikliklə əlaqədar uyğunlaşma |
| 14 aprel 2017-ci il tarixli 590-VQD nömrəli | “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Qanunun icrası ilə əlaqədar dəqiqləşdirmə |
| 28 dekabr 2018-ci il tarixli 1403-VQD nömrəli | “Ələt azad iqtisadi zonası haqqında” Qanunun icrası ilə əlaqədar uyğunlaşdırma *(tətbiq dairəsinin dəqiqləşdirilməsi)* |
| 24 aprel 2020-ci il tarixli 55-VIQD nömrəli | “İctimai iştirakçılıq haqqında” Qanuna istinadın əlavə edilməsi |
| 24 aprel 2020-ci il tarixli 56-VIQD nömrəli | “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” dəyişiklik edilməsi ilə əlaqədar uyğunlaşdırma *(“geoloji parklar”)* |
| 1 may 2020-ci il tarixli 71-VIQD nömrəli | Digər qanunlarda olduğu kimi fonda daxil olan vəsaitin bir hissəsinin dövlət büdcəsinə köçürülməsi |
| 12 iyun 2020-ci il tarixli 129-VIQD nömrəli | Yeni istinadın əlavə edilməsi |
| 3 dekabr 2021-ci il tarixli 416-VIQD nömrəli | Dövlət rüsumunun tutulmasının dəqiqləşdirilməsi |
| 20 dekabr 2022-ci il tarixli 738-VIQD nömrəli | Digər qanunlarda olduğu kimi sənəd və məlumatların EHİS üzərindən əldə edilməsinin dəqiqləşdirilməsi |
| 17 fevral 2023-cü il tarixli 816-VIQD nömrəli | “Media haqqında” Qanunun icrası ilə əlaqədar uyğunlaşdırma |
| 23 fevral 2024-cü il tarixli 1103-VIQD nömrəli | “İstehsalat və məişət tullantıları haqqında” Qanuna dəyişiklik edilməsi ilə əlaqədar uyğunlaşdırma |
| 5 mart 2024-cü il tarixli 1108-VIQD nömrəli | “Qida təhlükəsizliyi haqqında” Qanunun icrası ilə əlaqədar uyğunlaşdırma |
| 8 oktyabr 2024-cü il tarixli 43-VIIQD nömrəli | Ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna daxilolmaların dairəsinin dəqiqləşdirilməsi |
| 29 noyabr 2024-cü il tarixli 73-VIIQD nömrəli | |

Mənbə: “e-qanun” platformasından əldə edilmiş məlumatlar əsasında.

Yuxarıdakı cədvəlin təhlili göstərir ki, edilmiş dəyişikliklərin mütləq əksəriyyəti digər qanunların tətbiqinə başlanılması və ya onlara edilmiş dəyişikliklərlə bağlı uyğunlaşdırma xarakteri daşıyan dəyişikliklərdir. Bu

səbəbdən Qanunun məqsədləri və tənzimləmə predmeti baxımından əhəmiyyətli təkmilləşdirmələri ehtiva etmir.

Bununla yanaşı, qüvvədə olduğu müddət ərzində Qanuna edilmiş dəyişikliklərdən yalnız ikisi Qanunun təkmilləşdirilməsi və mövcud sosial-iqtisadi reallığa uyğunlaşdırılması baxımından əhəmiyyət kəsb edir. Sözügedən dəyişikliklərə nəzər yetirsək:

1. 26 noyabr 2020-ci il tarixli 207-VIQD nömrəli Qanunla: qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi qadağan edilmişdir;

2. 12 iyun 2018-ci il tarixli 1176-VQD nömrəli Qanunla: yeni anlayışlar daxil edilmiş, ekoloji ekspertiza məsələlərini tənzimləyən 8-ci fəslin bir sıra maddələri yeni redaksiyada verilmiş və ekoloji ekspertizanın aparılması qaydası təkmilləşdirilmişdir.

Yuxarıda qeyd edilmiş dəyişikliklər istər Qanuna qadağanedici normalar gətirmək, istərsə də bir sıra normaların təkmilləşdirilməsi ilə əhəmiyyətli yeniliklər gətirmişdir. Bu baxımdan Qanunun tənzimləmə predmeti baxımından əhəmiyyətli hesab olunur.

Göründüyü kimi, Qanunun qüvvədə olduğu illər ərzində Azərbaycan sosial-iqtisadi baxımdan əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Lakin Qanuna edilmiş dəyişikliklər tənzimləmənin ölkədə mövcud reallığa uyğunluğunu təmin etmək üçün yetərli hesab olunmur. Belə ki, dünya praktikasına nəzər yetirdikdə son 20-30 il ərzində yeni ekoloji tənzimləmə metodlarının işlənib hazırlandığı və qanunvericiliyə inteqrasiya edildiyini müəyyən etmək olur. Məsələn, əksər dünya dövlətləri yaşıl satınalmalar, karbon qiymətqoyma (emissiya ticarəti sistemləri və karbon vergiləri), dövri iqtisadiyyat və s. kimi yeni iqtisadi tənzimləmə metodlarını öz qanunvericiliklərinə əlavə etmişlər. Bununla yanaşı, xarici dövlətlərin təcrübələrində iqlim tənzimləməsi sahəsində də əsaslı addımlar atılmışdır. Xüsusilə iqlim qanunlarının qəbul edilməsi ilə iqlim hədəfləri qanun səviyyəsində müəyyən olunmuş, institusional çərçivə, dövlət nəzarəti və məcburetmə mexanizmləri tənzimlənmişdir. Lakin göründüyü kimi, nə hazırkı araşdırmanın predmeti olan Qanuna, nə də digər qanunvericilik aktlarına bu istiqamətdə əlavələr edilməmişdir. Bütün bunlar, qanunvericiliyin yeni ekoloji tənzimləmə konsepsiyalarından məhrum olmasına səbəb olmaqla ekoloji hüquqi tənzimləmənin effektivliyini sual altında atır.

### *III. Qanunun konkret struktur elementləri əsasında təhlili*

Araşdırmanın bu hissəsində Qanunun konkret struktur elementləri əsasında təhlilinə yer verilmişdir. Bu zaman təkmil normayaratma texnikası və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun [33] (bundan sonra – Konstitusiya Qanunu) tələbləri əsas götürülmüşdür. Doğrudur

ki, Konstitusiya Qanunu 2010-cu ildə, yəni Qanunun qüvvəyə minməsindən 11 il sonra qəbul edilmişdir, lakin ekoloji tənzimləmənin səmərəliliyinin müəyyən edilməsi üçün bu sahədə qanunvericiliyin ölkədə mövcud olan hüquq praktikasına uyğunluğunun araşdırılması əhəmiyyət kəsb edir. Bu baxımdan Qanunun konkret struktur elementləri əsasında təhlil edilməsi, bu zaman təkmil normayaratma texnikasının, digər sahəvi qanunvericilik aktlarının və xarici dövlətlərin təkmil tənzimləmə təcrübələrinin nəzərə alınması zəruridir.

Qanunun 1-ci fəsli ümumi müddəaların tənzimlənməsinə həsr olunmuşdur və əsas anlayışların, qanunvericiliyin, prinsiplərin müəyyən edilməsini ehtiva edir. Birinci maddə Qanunda istifadə olunan ifadə və terminlərin anlayışını müəyyən edir. Araşdırma zamanı müəyyən edilmişdir ki, "*ətraf mühitin ekoloji tarazlığının normallaşdırılması*" ifadəsinin anlayışı verilsə də Qanunun mətnində bu anlayışdan istifadə olunmamışdır. 10-cu maddədə "*təbiətdən istifadənin normallaşdırılması*" anlayışından istifadə edilsə də bu ifadə 1-ci maddədə anlayışı verilmiş ifadə ilə eynilik təşkil etmir. Bu hal, normayaratma texnikası baxımından uğurlu hesab edilmir. Bununla yanaşı, Qanunun bir sıra maddələrində də definitiv xarakterli müddəalara rast gəlinir. Məsələn, Qanunun 65-ci, 75-ci və 76-cı maddələri definitiv xarakterlidir. Definitiv xarakterli normaların qanunun mətnində müəyyən edilməsi yanaşması bir sıra digər qanunvericilik aktlarında da tətbiq edilsə də, Qanunda vahid yanaşmanın tətbiq edilməsi baxımından bütün definitiv xarakterli normaların *"əsas terminlər və anlayışlar"* adlanan 1-ci maddədə verilməsi məqsədəuyğun hesab olunur. Eləcə də 3-cü maddədə bir sıra ekoloji problemlərlə mübarizə, məsələn bioloji müxtəlifliyinin qorunmasının təmin edilməsi prinsiplər sırasında müəyyən edilsə də iqlim dəyişiklikləri ilə bağlı hər hansı spesifik müddəaya yer verilməmişdir.

İkinci fəsil bu sahədə hüquq və vəzifələrin müəyyən edilməsini ehtiva edir. Bu fəsildə müvafiq olaraq dövlətin, yerli özünüidarəetmə orqanlarının, vətəndaşların və ictimai birliklərin hüquq və vəzifələrinin dairəsin müəyyənləşdirilmişdir. Ümumiyyətlə, dövlətin vəzifələrinin qanunla müəyyən edilməsi yanaşması bir sıra normativ aktlarda tətbiq edilsə də, dövlətin hüquqlarının qanunla müəyyən edilməsi ölkə qanunvericiliyində geniş yayılmış təcrübə deyildir. Belə ki, hazırda qüvvədə olan 2 qanun: "Ətraf mühitin mühafizəsi haqqında" və "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunları bu yanaşmanı tətbiq edir. Dövlətin əsaslarının və qanunvericilik sisteminin Konstitusiya ilə müəyyən edildiyini nəzərə alaraq, dövlət tərəfindən qəbul edilən qanunvericilik aktında dövlətə hüquqların verilməsi sual doğurur. Bu səbəbdən 4-cü maddə ilə müəyyən edilmiş hüquqların dövlətə deyil, konkret dövlət orqanına verilməsi daha məqsədəuyğundur. Habelə Qanunun 71-ci maddəsinin də bu sahədə bu sahədə nəzarəti həyata keçirən dövlət orqanının hüquqlarını müəyyən etdiyini qeyd etmək lazımdır. Bununla yanaşı, 4-cü maddənin 1.1-ci, 1.2-ci, 1.4-cü bəndlərinin çox ümumiləşdirilmiş formada və qeyri-dəqiq ifadə edilməsi səbəbindən Konstitusiya Qanunun 25.2-ci maddəsinin

tələblərinə cavab vermir. Eləcə də, öncəki araşdırmalar həmin maddənin 1.8-ci bəndi "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanunu ilə kolliziya təşkil etdiyini göstərir [2, s.131]. Belə ki, həmin bənd bu sahədə məcburi standartlaşdırılan və sertifikatlaşdırılan ekoloji cəhətdən təhlükəli məhsulların (işlərin, xidmətlərin) siyahısını təsdiq etməyi dövlət hüququ kimi müəyyən etsə də, "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununun 1.0.2-ci maddəsinə əsasən standart dedikdə təkrar və ümumi istifadə üçün nəzərdə tutulan, standartlaşdırma obyektlərinə dair qaydaları, tövsiyələri, texniki xarakteristikaları müəyyən edən, *tətbiqi könüllü olan* normativ sənəd başa düşülür. Bu baxımdan standartın könüllü xarakter daşımasını nəzərə alaraq, məcburi standartlaşdırılan malların dairsinin müəyyən edilməsi vəzifəsinin Qanunla müəyyən edilməsi normativ hüquqi aktların kolliziyasına səbəb olur və Konstitusiya Qanununun tələblərini pozur. Eləcə də 5-ci maddə yerli özünüidarəetmə orqanlarının səlahiyyətləri adlansa da bu sahədə hər hansı bir tənzimləmə müəyyən etmir və qanunvericiliklə onlara verilmiş səlahiyyətlərin həyata keçirildiyini təsbit edir. Bu isə normativ hüquqi aktda sui-istifadə amili kimi qiymətləndirilərək Konstitusiya Qanunun 64-cü maddəsinin tələblərinə cavab vermir.

Qanunun üçüncü fəsli təbiətdən istifadənin əsaslarını, təbiət istifadəçilərinin növlərini, kvota və limitləri, eləcə də təbiətdən istifadə müqavilələrini tənzimləyir. Qanun təbiət istifadəçilərinin müxtəlif növlərini fərqləndirsə də, Qanunun mətni boyu fərqli istifadəçilər üçün tənzimləmə müəyyən edilməsə də, digər qanunvericilik aktlarında bu anlayışlardan istifadə edilmişdir. Bununla yanaşı, Qanunun 9-cu maddəsinin ikinci hissəsinin ikinci cümləsində qanunvericilikdə nəzərdə tutulduğu hallarda, təbiətdən istifadəyə məhdudiyyətlər qoyulmasına yol verildiyi qeyd edilmişdir. Bu isə Konstitusiya Qanununun 64-cü və 65-ci maddələrinin tələblərinə uyğun deyildir. Belə ki, Qanunun özündə birbaşa məhdudiyyət müəyyən edilməmiş, sadəcə belə məhdudiyyətin qoyula bilmə imkanı qeyd edilmişdir. Bu isə normativ hüquqi aktda sui-istifadə amili kimi qiymətləndirilir.

Növbəti, yəni Qanunun 4-cü fəsli bu sahədə dövlət kadastrı və monitorinqi, standartlaşdırma və sertifikatlaşdırma fəaliyyətini tənzimləyir. Bu fəsil, xüsusilə ətraf mühitin monitorinqi hazırkı araşdırma baxımından xüsusilə əhəmiyyətlidir. Xüsusilə karbon qiymətqoyma mexanizmlərinin tətbiqi zamanı emissiyaların monitorinqinin aparılması kritik əhəmiyyət daşıyır. Belə ki, ətraf mühitə təsirin real həcminin qiymətləndirilməsi bu sahədə tədbirlərin görülməsinin əsasını təşkil edir. Qanunun 17-ci maddəsi bu sahədə dövlət monitorinqinin aparılmasının əsaslarını müəyyən edir. Həmin maddənin ikinci hissəsində dövlət monitorinqinin əhatə etdiyi sahələr göstərilsə də, iqlim dəyişikliklərinin öyrənilməsi bu sahələrin sırasında xüsusi olaraq göstərilməmişdir. Eləcə də, Qanunun 18-ci maddəsi müəssisə monitorinqinin əsaslarını, həmin maddənin birinci hissəsi hüquqi şəxslərin ətraf mühitin müəssisə monitorinqi və ekoloji cəhətdən təhlükə törədə bilən təsərrüfat fəaliyyətinin ətraf mühitə təsirinin qiymətləndirilməsi öhdəliyini

müəyyən edir. Bu müddəanın təhlili zamanı bir sıra çatışmazlıqlar müşahidə edilir. Belə ki, göründüyü kimi Qanunda bu öhdəlik yalnız hüquqi şəxslərə tətbiq olunur, lakin sahibkarlıq fəaliyyətinin dairəsi yalnız hüquqi şəxslərlə məhdudlaşmır. Bununla yanaşı maddənin dispozisiyası olduqca ümumi xarakter daşıyır. Belə ki, *"ekoloji cəhətdən təhlükə törədə bilən təsərrüfat"* ifadəsi olduqca mücərrəd xarakter daşıyır, yəni hansı fəaliyyətin ekoloji təhlükə törədə bilməsinin meyarları görünmür və bu səbəbdən Konstitusiya Qanunun 25.2-ci maddəsinin tələbləri baxımından məqsədəmüvafiq hesab edilmir, eləcə də Konstitusiya Qanunun 64-cü maddəsinin tələbləri baxınından normativ hüquqi aktda sui-istifadə amili kimi qiymətləndirilir. Bundan başqa, həmin maddənin ikinci hissəsi bu sahədə istifadə olunan ölçü vasitələri standartlaşdırmanın və metrologiyanın tələblərinə uyğun olmasını müəyyən etsə də, dispozisiyanın "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dəqiqləşdirilməsi məqsədəuyğundur. Qanunun 19-21-ci maddələri bu sahədə standartlaşdırma və sertifikatlaşdırma fəaliyyətinə həsr olunsa da, dövlət standartlarının tətbiqinin könüllü olması səbəbindən sözügedən maddələr qanunvericilikdə kolliziyanın yaranmasına səbəb olur [2, s. 131-132].

Ətraf mühitin mühafizəsi sahəsində iqtisadi tənzimləmənin əsaslarını müəyyən edən 5-ci fəsil araşdırma baxımından xüsusilə önəmlidir. Belə ki, Qanun qəbul edildikdən sonrakı 26 il ərzində ölkəmiz sosial-iqtisadi baxımdan əhəmiyyətli dərəcədə inkişaf etsə də, ətraf mühitin mühafizəsinin iqtisadi əsaslarının təkmilləşdirilməsi ilə bağlı Qanuna əsaslı dəyişikliklər edilməmişdir. Yuxarıda qeyd edildiyi kimi, bu illər ərzində ölkədə ümumi daxili məhsul, sənaye istehsalı, əhalinin gəlirləri və digər iqtisadi göstəricilər əhəmiyyətli dərəcədə müsbət mənada artmış, yoxsulluq azalmışdır. Göründüyü kimi, Qanunun qüvvədə olduğu illər ərzində ölkədə baş verən sosial-iqtisadi inkişafa uyğun olaraq Qanuna əsaslı dəyişikliklər edilməmişdir. Bu sahədə dünyanın qabaqcıl dövlətlərinin təcrübəsinə diqqət yetirdikdə isə, əsrin əvvəllərindən etibarən dayanıqlılıq şərtləri, yaşıl satınalmalar, karbon qiymətqoyma, dövri iqtisadiyyat və s. kimi iqtisadi tənzimləmə metodları tətbiq edildiyinin şahidi oluruq. Bir sıra beynəlxalq təşkilatlar tərəfindən də ekoloji tənzimləmə zamanı bazar əsaslı iqtisadi vasitələr daha effektiv və az xərc tələb edən tənzimləmə üsulu kimi qiymətləndirilir [25, s. 2]. Bu baxımdan bazar münasibətlərinin iştirakçılarının iqtisadi maraqlarına təsir etməklə, ətraf mühitin mühafizəsinin stimullaşdırılması üzrə təkmil mexanizmlərin müəyyən edilməsi, bu sahədə sərt imperativ qadağaların müəyyən edilməsinə nisbətən daha effektiv metod kimi təklif edilə bilər.

Fəslin təhlili göstərir ki, Qanunun 23-cü maddəsinin ikinci hissəsi, 24-cü, 25-ci, 26-cı və 29-cu maddələri xüsusi tənzimləmə müəyyən etməyən blanket (göndərici) xarakterli normalardır. Sözügedən normalar bu sahədə müxtəlif iqtisadi tənzimləmə metodlarının əsaslarını tənzim etməli olduğu halda, bu sahədə hər hansı bir tənzimləmə müəyyən etmirlər. Məsələn, Qanunun 25-ci maddəsi "ətraf mühitin mühafizəsi sahəsində iqtisadi stimullaşdırma" adlanır və bazar

münasibətlərinin iştirakçılarının iqtisadi fəaliyyətlərinə təsir etməklə onların ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətlərini stimullaşdırmaq məqsədi güdür. Lakin maddənin birinci abzası bu fəaliyyətin *"ekoloji yönümlü subsidiyalar və digər stimullaşdırıcı tədbirlər"* vasitəsilə həyata keçirildiyini müəyyən etsə də, ikinci abzas *"qanunvericiliyə zidd olmayan tədbirlərin köməyi ilə"* həyata keçirilə biləcəyini müəyyənləşdirir. Bu halın, Konstitusiya Qanunun 25.2-ci, 65-ci və 66-cı maddələrinin tələblərinə zidd olması ilə yanaşı, mövcud reallıqla da uzlaşmır. Nümunə olaraq, bir çox qabaqcıl dövlətlər karbon vergiləri, emissiya ticarəti sistemləri, yaşıl kreditlər, istehlakçılar üçün güzəştlər (məsələn bəzi Avropa dövlətlərində elektrikli avtomobillər üçün ödənişsiz dayanacaq xidmətləri mövcuddur) kimi çoxşaxəli stimullaşdırma metodları tətbiq edilir. Göründüyü kimi, bu sahədə təkmil təcrübənin ölkə qanunvericiliyinə əlavə edilməsi üçün, Qanunun bu fəslinə əsaslı dəyişikliklərin edilməsi zərurəti vardır.

Altıncı fəsil ekoloji balansın təmin edilməsi məqsədilə müvafiq tənzimləməni müəyyən edir. bu fəsil də digərlərində olduğu kimi konkret tənzimləmə müəyyən etməyən, həddən artıq ümumi və mücərrəd tənzimləmənin müəyyən edilməsi ilə xarakterizə olunur. Bununla yanaşı qeyd etmək lazımdır ki, Qanunun 31-ci maddəsinin birinci hissəsi ətraf mühitin keyfiyyət normativlərinə aid edilən göstəricilərin dairəsi müəyyən edilsə də, həmin maddənin ikinci hissəsi ətraf mühitin başqa keyfiyyət normativlərinin də müəyyən edilə biləcəyini qeyd edir. Konstitusiya Qanununun 25.2-ci, 64-cü maddələrinə, ümumilikdə isə normayaratma texnikasına uyğun hesab edilmir, o cümlədən normativ hüquqi aktda sui-istifadə amilikimi qiymətləndirilir.

Qanunun 7-ci fəsli müxtəlif fəqliyyət sahələri üzrə ekoloji tələblərin müəyyən edilməsini tənzimləyir. Bu baxımdan Qanunun məqsədləri üçün əsas tənzimləyici normalar məhz bu fəsildə nəzərdə tutulmalıdır. Lakin bütün fəsil boyunca Qanunun müddəaları həddən artıq ümumi və mücərrəd xarakter daşıyır. Məsələn, Qanunun 36-cı, 37-ci, 38-ci maddəsinin ikinci abzası, 43-cü və 46-cı maddələri müxtəlif təsərrüfat fəaliyyətləri zamanı ekoloji tədbirlərinin nəzərə alınmasını qeyd edir. Lakin bu tədbirlərin nədən ibarət olması və ya hansı addımların atılması ilə bağlı konkret bir tənzimləmə müəyyən etmir. Bu isə Konstitusiya Qanununun 65-ci maddəsinə əsasən normativ hüquqi aktda hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amilləri kimi qiymətləndirilir.

Bununla yanaşı, fəslin xüsusi əhəmiyyət kəsb edən maddəsi məhz *"Yer kürəsi iqliminin və atmosferin ozon təbəqəsinin mühafizəsi"* adlanan 49-cu maddədir. Belə ki, bu maddəyə əsasən *Yer kürəsi iqliminin və ozon təbəqəsinin mühafizəsi ölkənin qanunvericiliyi və Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrlə (sazişlərlə) tənzimləndiyini* müəyyən edir. Araşdırma göstərir ki, ayrı-ayrı qanunvericilik aktlarında iqlim dəyişmələrinin qarşısının alınması üçün bir sıra ümumi müddəalar olsa da ölkə qanunvericiliyi bu sahədə funksional tənzimləmə müəyyən etmir. Məsələn, "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununun 21.4-cü maddəsi enerji subyektlərinin

istixana qazı emissiyalarının miqdarının azaldılması üçün tədbirlər gördüyünü müəyyən etsə də, bu tədbirlərin nədən ibarət olması, habelə belə tədbirlərin görülməməsinə görə hər hansı bir məsuliyyət tədbirləri müəyyən edilməmişdir. Bu sahədə ölkənin tərəfdar çıxdığı beynəlxalq sazişlər, yəni Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (bundan sonra – Çərçivə Konvensiyası), habelə Çərçivə Konvensiyasının Kyoto Prokotolu və Paris Sazişi iqlim tənzimləməsi sahəsində beynəlxalq əməkdaşlıq və bir sıra məsələləri tənzimləsə də, iqlim hədəflərinin müəyyən edilməsi, bu sahədə konkret addımların atılması, institusional çərçivənin müəyyən edilməsi və s. kimi məsələlər hər hansı normativ sənədlə tənzimlənməmişdir. Yəni digər qanunvericilik aktları da bu sahədə əsaslı tənzimləmə müəyyən etmir. Məsələn, Azərbaycanın iqlim hədəfləri yalnız milli səviyyədə müəyyən edilmiş töhfələrdə [4] və ölkə Prezidentinin 25 dekabr 2023-cü il tarixli 4233 nömrəli Sərəncamı kimi qeyri-normativ sənədlərdə iqlim hədəfləri qeyd edilmişdir. Digər normativ sənədlər isə bu hədəflər, icra və dövlət nəzarəti mexanizmləri və digər əlaqəli məsələlərlə bağlı hüquqi tənzimləmə müəyyən etmir. Göründüyü kimi Qanunun 49-cu maddəsi də sözügedən məsələləri tənzimləmir, bu baxımdan hüquqi boşluqların yaranmasına səbəb olur. Buna görə Qanunun müvafiq struktur elementi Konstitusiya Qanunun 25-ci maddəsinin tələblərinə də cavab vermir. Bununla yanaşı, Konstitusiya Qanununun 64.1.9-cu maddəsinə əsasən qanundakı boşluqların icra hakimiyyəti orqanının normativ hüquqi aktları ilə doldurulmasının sui-istifadə amili kimi qiymətləndirildiyi nəzərə alınaraq müvafiq tənzimləmə qanun səviyyəsində müəyyən edilməlidir.

Ekoloji ekspertiza məsələlərini tənzimləyən 8-ci fəsil Qanunun digər fəsilləri ilə müqayisədə əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş və dəyişikliklərə məruz qalmışdır. Belə ki, yuxarıdakı bölmədə qeyd edildiyi kimi, Qanuna 12 iyun 2018-ci il tarixində edilmiş dəyişikliklə bu fəslin əksər madələri yeni redaksiyada verilmişdir. Bu səbəbdən, Qanunun bu fəsil digərlərinə nisbətən daha təkmil xarakter daşıyır.

Qanunun 9-cu fəsli müxtəlif məsələlər dairəsini ehtiva etsə də, bu sahələr üçün xüsusi tənzimləmə müəyyən etmir. Belə ki, həmin fəsil ekoloji təhsil, maarifləndirmə, elmi tədqiqatlar, statistika, informasiya və reklam sahəsində münasibətlərin tənzimlənməsinə həsr edilmişdir. Lakin bu münasibətlər aidiyyəti sahəvi qanunlarla tənzimlənir. Belə ki, ekoloji təhsil və maarifləndirmə məsələləri "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında", elmi tədqiqatlar "Elm haqqında", xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", statistika məsələləri "Rəsmi statistika haqqında", informasiya məsələləri "Ətraf mühitə dair informasiya almaq haqqında", reklam tənzimləməsi isə "Reklam haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir. Bu səbəbdən Qanunun 9-cu fəslinin bütün maddələri blanket (göndərici) xarakterli normalar olmaqla yanaşı, digər normativ hüquqi aktların müddəalarını təkrarlayır və həmin

qanunlara düzgün istinadları ehtiva etmir. Bu baxımdan Konstitusiya Qanunun 25-ci maddəsinin tələblərinə cavab vermir.

Növbəti fəsildə fövqəlatə ekoloji şərait və əlaqədli müddəalara yer verilmişdir. Nəzərə alınmalıdır ki, Konstitusiyanın 112-ci maddəsi fövqəlatə vəziyyətin tətbiqi əsaslarını tənzimləyir və həmin maddədə *təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzaların baş verməsini* fövqəladə vəziyyətin tətbiq edilməsi müəyyən edilmişdir. Bununla yanaşı Qanunun 65-ci maddəsinin ikinci hissəsi *təbii fəlakətlər, böyük ekoloji və başqa qəzaların baş verməsini* fövqəladə ekoloji vəziyyətin tətbiqi əsası kimi müəyyən edir. Göründüyü kimi, qanunvericilik sisteminin əsası olan Konstitusiya ilə normativ-hüquqi aktlar sistemi iyerarxiyasında daha aşağı pillədə qərarlaşan Qanun eyni halı müxtəlif hüquqi rejimlərin əsası kimi qiymətləndirir. Həmçinin nəzərə almaq lazımdır ki, fövqəladə vəziyyətin tətbiqi mexanizmi "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Həmin Qanuna 24 fevral 2023-cü il tarixli dəyişikliklə sosial xarakterli fövqəladə mühit rejimi anlayışı əlavə edilmişdir. Sözügedən rejimə "*.......ətraf mühitə əhəmiyyətli dərəcədə zərərin vurulmasına səbəb olan və ya səbəb ola bilən fövqəladə halların nəticəsində yaranan, lakin fövqəladə vəziyyətin tətbiq edilməsinə əsas hesab edilməyən mühit*" kimi anlayış verilmişdir. Aydın olduğu kimi, sosial xarakterli fövqəladə mühit rejimi ilə fövqəladə vəziyyətin fərqi qanunvericilikdə dəqiq müəyyən edilsə də, fövqəladə ekoloji vəziyyət anlayışı ilə fövqəladə vəziyyətin fərqi qanunvericilikdə dəqiq müəyyən edilməmişdir. Bununla yanaşı, digər qanunvericilik aktlarında da, məsələn "Ekoloji təhlükəsizlik haqqında" Qanun, Meşə və Su məcəllələri və s. bu anlayışdan istifadə edilir. Müqayisə üçün "Ekoloji təhlükəsizlik haqqında" Qanunun 1-ci maddəsində fövqəladə ekoloji vəziyyətə verilən anlayış ilə, Qanunun 65-ci maddəsinin 1-ci hissəsində fövqəladə ekoloji şəraitə verilən anlayışlar fərqli xarakter daşıyır. Xüsusilə nəzərə alınmalıdır ki, Cinayət Məcəlləsinin 250.2-ci, 254.2-ci, 256.2.3-cü və 258.2.4-cü maddələrində fövqəladə ekoloji vəziyyət ağırlaşdırıcı cinayət tərkibinin elementlərindən biri kimi müəyyən edilmişdir. Bu səbəbdən sözügedən rejimin hüquqi statusunun dəqiq müəyyən edilməsi xüsusilə əhəmiyyətlidir. Eləcə də, aparılmış bir sıra elmi tədqiqatlarda da ölkə qanunvericiliyində "ekoloji təhlükəsizlik" anlayışına əlavə izah olduğu qeyd edilmişdir [12, s. 96-97]. Bu baxımdan fövqəladə ekoloji vəziyyət rejiminin hüquqi statusunun Konstitusiya Qanunun 8-ci maddəsində təsbit edilmiş prinsiplər (xüsusilə 8.0.1-ci,8.0.2-ci, 8.0.7-ci və 8.0.9-cu) əsasında təkmilləşdirilməsi zəruridir. Bununla yanaşı, Qanunun 65-ci maddəsinin 3-cü hissəsində müəyyən olunmuş *"təsərrüfat fəaliyyətinin və təbiətdən istifadənin növü qadağan edilə və ya məhdudlaşdırıla bilər"* müddəasının Konstitusiya Qanunun 64-cü maddəsinin tələblərinə (dispozitiv imkan) əsasən yenidən işlənməsi məqsədəmüvafiq hesab edilir.

Onuncu fəsil nəzarətin müxtəlif formalarının və institusional çərçivənin tənzimlənməsi əsaslarını müəyyən edir. Dövlət nəzarərətinin tənzimlənməsinin əsaslarını müəyyən edən 71-ci maddədə bu sahədə səlahiyyətli oqan olan Azərbaycan Reespublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hüquqları müəyyən edilmişdir. Həmin maddənin bir sıra müddəaları, xüsusilə 2.6-cı bəndi Konstitusiya Qanununun 64-cü və 65-ci maddələrinin tələbləri baxımından sui-istifadə amili kimi qiymətləndirilə bilər. Bununla yanaşı, xarici dövlətlərin təcrübəsində xüsusi ixtisaslaşmış qurumlara da rast gəlinir. Məsələn, iqlim tənzimləməsinə dövlət nəzarəti sahəsində Birləşmiş Krallıqda İqlim Dəyişiklikləri Komitəsi *("Committee on Climate Change")*, Fransada isə İqlim üçün Yuxarı Şura *("Haut Conseil pour le climat")* fəaliyyət göstərir. Lakin, yuxarıda qeyd olunanların təhlili göstərir ki, Qanun bu sahədə xüsusi tənzimləmə müəyyən etmir. Habelə qeyd edilməlidir ki, bu fəslin 72-74-cü maddələri xüsusi tənzimləmə müəyyən etməyən blanket xarakterli normalardır. Bu baxımdan Qanun nəzarət sahəsində təkmil institusional çərçivə müəyyən etmir.

Qanunun 12-14-cü fəsilləri isə müvafiq olaraq, ekoloji audit, məsuliyyət və beynəlxalq əməkdaşlıq məsələlərini tənzimləyir. 12-ci fəslin bir çox, 13-cü fəslin ibarət olduğu 3 maddənin hər biri blanket xarakterli normalarla xarakterikdir. Sözügedən fəsillər çoxsaylı blanket normalarla xarakterizə olunur və digər qanunlara istinadlarla müşahidə olunur. Bu sahədə aparılmış bir sıra elmi tədqiqatlarda, Qanunun 79-cu maddəsi ilə Mülki Məcəllənin müvafiq müddəalarının təhlili aparılmış, bu sahədə mülki hüquqi məsuliyyətin təhlükə mənbəyi səbəbindən şəxsin təqsiri olmadan da yarana biləcəyi, eləcə də məsuliyyətin hüquqauyğun əmələ görə də yarana biləcəyi qeyd edilmişdir [23, s. 25]. Sonuncu fəsil ilə Konstitusiyanın müvafiq müddəalarını təkrarlayır. Konstitusiya Qanunun 33-cü maddəsinə əsasən normativ göstərişlərin təkrarlanmasına yol verilsə də, müvafiq akta istinad qeyd olunmalıdır.

Yuxarıda qeyd olunanların təhlili göstərir ki, Qanunun əksər maddələri blanket xarakter daşıyan normalar olmaqla Qanunun məqsədləri üçün xüsusi tənzimləmə müəyyən etmir. Bu isə Qanunun tənzimləmə məqsədlərinə xidmət etmir. Belə ki, Qanunun preambulasına əsasən *bu Qanun ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edir.* Lakin çoxsaylı istinadlar və blanket normalar tənzimləmə müəyyən etməməklə Qanunun məqsədlərinə xidmət etmir. Bununla yanaşı, Qanun Konstitusiya Qanununun və müasir normayaratma texnikasının tələblərinə cavab vermir. Təhlil göstərir ki, Qanunda bir çox sui-istifadə amili kimi qiymətləndirilən element mövcuddur. Eləcə də Qanunda kolliziyalar və boşluqların olması da xüsusilə qeyd edilməlidir. Xüsusilə iqlim tənzimləməsi sahəsində mövcud olan hüquqi boşluqlar, nəinki Konstitusiya Qanununun tələblərini pozur, həmçinin iqlim dəyişikliklərinin kəskinləşməsi fonunda bəşəriyyətin sağlam gələcəyinin təmin edilməsi üçün effektiv tənzimləmə müəyyən etmir. Bu baxımdan dünyada və ölkəmizdə mövcud ekoloji reallığa, o cümlədən ölkənin sosial-iqtisadi reallığına uyğun deyildir.

Bütün bunlar, araşdırma nəticəsində aşkar edilmiş problemlərin həll edilməsi üçün qanunvericiliyə dəyişikliklərin edilməsini şərtləndirir.

### *IV. Bu sahədə hüquqi tendensiyaların təhlili*

Yuxarıdakı bölmələrdə dünyada və ölkəmizdə ekoloji problemlərin kəskinləşməsi, eləcə də 21-ci əsrin əvvəllərindən etibarən ölkədə baş vermiş sosial-iqtisadi inkişaf araşdırılmış, habelə bu əsasda Qanunun müddəalarının təhlili aparılmışdır. Lakin bu sahədə reallığın dəqiq müəyyən edilməsi üçün hüquqi tendensiyaların, o cümlədən elmi tədqiqat nəticələrinin və xarici dövlətlərin qanunvericilik təcrübələrinin araşdırılması xüsusi önəm daşıyır.

Bu sahədə müxtəlif tədqiqatçılar tərəfindən aparılmış elmi araşdırmaların nəticələri ekoloji problemlərin kəskinləşməsi fonunda hüquqi tendensiyaların müəyyən edilməsinə imkan verir. Belə ki, ekoloji qanunvericilik dinamikalarını araşdıran və 126 ölkədən 1990-2021-ci illər ərzində qəbul edilmiş qanunvericilik aktlarını ehtiva edən tədqiqatın nəticələrinə əsasən müəyyən edimlişdir ki, inkişaf etmiş dövlətlər (iqtisadi, institusional və s. cəhətdən) digərlərinə nisbətən daha çox, parlamentar dövlətlər isə prezindentli dövlətlərə nisbətən daha çox, anqlo-sakson hüquq sistemli dövlətlər isə roman-german hüquq sisteminə malik olan dövlətlərə münasibətdə daha az ekoloji qanunvericilik aktları qəbul edir, o cümlədən dövlət idarəetməsinin effektivliyi də ekoloji qanunvericiliyə təkan verir [31]. İqlim dəyişikliklərinə qarşı adaptasiyada qanunvericiliyin rolunu araşdıran digər bir tədqiqatın nəticələrinə əsasən ekoloji qanunvericiliyin iqlim dəyişikliklərinin səbəb olduğu fəlakətlərə qarşı qabaqlayıcı tədbirlərin görülməsində, bazar əsaslı yeni dayanıqlı mexanizmlərin hüquqi əsasının təmin edilməsində, iqlim öhdəliklərin müəyyən edilməsində əhəmiyyətli rol oynaması ilə yanaşı, iqlim dəyişikliklərinin qeyri müəyyən təbiəti, kompleks xarakter daşıması, istixana qazlarının emissiyası ilə qlobal istiləşmə arasındakı müddət fərqi kimi amillərin bu sahədə hüquqi tənziməməyə çətinlik yaratması müəyyən edilmişdir [20]. Bununla yanaşı, Daniel Uolters tərəfindən aparılan tədqiqatın nəticəsində iqlim qanunlarının qüvvəyə minməsi zamanı xərclərə və iqtisadi itkilərə gətirib çıxarması, lakin faydalarının *(qlobal istiləşmənin qarşısının alınması)* uzaq gələcəkdə görülməsi səbəbindən siyasi təzyiqlərə məruz qalması göstərilərək ideal iqlim tənzimləməsinin hazırkı tarixdə qəbul edilən lakin gələcək tarixdə qüvvəyə minəcək olan iqlim normaları *("iqlim şəfəqi")* olduğu göstərilmişdir [35, s. 2139-2206].

Azərbaycanın hüquq alimləri tərəfindən də aparılmış bir sıra araşdırmalarda, ekoloji qanunvericiliyin müxtəlif aspektləri təhlil edilmişdir. Məsələn, A. Qasımov və digərləri tərəfindən aparılmış araşdırma zamanı, Qanunun ekoloji hüquq münasibətlərinin spesifik cəhətlərini müəyyən etmədiyi, eləcə də ekoloji qanunvericilikdə mövcud boşluqlar səbəbindən kompleks sistemləşdirmə zərurəti olduğu qeyd edilmişdir [11, s. 93-97]. Bununla yanaşı, bir sıra digər tədqiqatlarda ölkəmiz tərəfindən ətraf-mühitin mühafizəsi sahəsində həyata keçirilmiş islahatlar nəzərə alınmaqla, ekoloji tarazlığın qorunmasının ümumbəşəri səciyyə daşıması

səbəbindən digər dövlətlər tərəfindən də bu sahədə zəruri addımların atılmasının zəruriliyi vurğulanmışdır [14, s. 143-145]. Habelə digər araşdırmalar zamanı, Qanunun və Mülki Məcəllənin müvafiq müddəaları təhlil edilərək, ekoloji hüquqpozmalara görə mülki-hüquqi məsuliyyətinin spesiik cəhətləri göstərilmişdir [23, s. 23-25]. Əlavə olaraq, T. Hüseyinov tərəfindən iqlim ədaləti prizmasından aparılmış bir sıra araşdırmalar da bu sahədə dövlətlərin öhdəlikləri və qeyri-hökümət təşkilatlarının əhəmiyyətini vurğulayır [34, s. 15-17].

Qeyd olunanlarla yanaşı, xarici dövlətlərin qanunvericiliklərinin son illərdə inkişaf tendensiyalarının müəyyən edilməsi də bu məqalənin məqsədləri üçün əhəmiyyətlidir. Bu baxımdan xüsusilə inkişaf etmiş dövlətlərin və sosial-iqtisadi inkişaf səviyyələri Azərbaycanla oxşar olan dövlətlərin qanunvericiliklərinin araşdırılması zəruridir. İnkişaf etmiş dövlətlərin təcrübələrinin araşdırılması zamanı, Avropa İttifaqı və ona üzv dövlətlərin, ABŞ və Yaponiya kimi dövlətlərin təcrübələri xüsusilə əhəmiyyət kəsb edir. Bu zaman 2021-ci ildən qüvvəyə minmiş və Avropa İttifaqının iqlim hədəflərini hüquqi qüvvəyə malik olan normalara çevirən “Avropa İqlim Hüququ” Reqlamenti (“European Climate Law”) əhəmiyyət daşıyır. Həmin Reqlament 2050-ci ilədək Avropa İttifaqının iqlim neytrallığına malik olmasını, 2030-cu ilədək isə 1990-cı ilə nisbətən istixana qazları emissiyasının 55% azaldılmasını hədəfləyir. Bir sıra araşdırmalar sözügedən reqlamentin Avropa İttifaqında sözügedən sahədə hüquqi bazanı gücləndirdiyini göstərsə də, əlavə təkmilləşdirmə imkanlarının qaldığı etiraf edilir [18, s. 41-42]. Bununla yanaşı, sözügedən reqlamentin qəbul edilməsi ilə əlaqədar qanunvericiliyin uyğunlaşdırılması xarakteri daşıyan “55 üçün Uyğunluq” *(“Fit for 55 Package”)* qanunvericilik paketi və bir sıra strategiyalar, o cümlədən “Avropa Yaşıl Razılaşması” *(“The European Green Deal”)* qeyd edilməlidir. Fransanın qanunvericilik təcrübəsi, bu sahədə demokratik təşəbbüslərlə müşahidə olunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, 2019-cu ildə “Vətəndaşların İqlim Konvensiyası” təşəbbüsü (*“Convention Citoyenne pour le Climat”*) zamanı Fransada təsadüfi əsaslarla 150 vətəndaş seçilərək onlardan istixana qazlarının emissiyasının azaldılması üçün təkliflərin hazırlanması xahiş edilmiş və həmin təkliflərin bir hissəsi növbəti qanunvericilik aktlarında, o cümlədən “İqlim dəyişiklikləri ilə mübarizə və onun təsirlərinə qarşı davamlılığın gücləndirilməsi haqqında” Qanunda (*“Loı n° 2021-1104 du 22 août 2021 portant lutte contre le dérèglement climatique et renforcement de la résilience face à ses effets”*) öz əksini tapmışdır. Lakin bununla belə, bəzi tədqiqatçılar qanunun Fransanın iqlim hədəflərinə çatması üçün yetərsiz olduğunu iddia edirlər [17, s. 11-12]. Almaniya qanunvericiliyinə nəzər yetirərkən, 2019-cu ildə “Federal iqlim müdafiəsi haqqında” Qanunun *(“Bundes-Klimaschutzgesetz”)* qəbul edildiyi, Almaniya Konstitusiya Məhkəməsinin 2021-ci il tarixli Qərarı ilə həmin Qanunun gələcək nəsilləri iqlim dəyişikliklərinin təsirlərindən səmərəsiz müdafiə etməsi səbəbindən Konstitusiyaya zidd olduğu, xüsusilə 2030-cu ildən sonrakı emissiya hədəflərinin səmərəsiz olduğu müəyyən edilmişdir. Bu səbəbdən 2021-ci ildə

sözügedən Qanuna əsaslı dəyişikliklər edilmişdir. Bununla belə, Konstitusiya Məhkəməsinin sözügedən Qərarı bir sıra tədqiqatçılar tərəfindən tənqid edilir [9]. ABŞ-də isə əksinə olaraq, 2025-ci il Tramp adminstrasiyasının təkrar hakimiyyətə gəlməsi ilə ABŞ Paris Sazişindən çıxmış və bununla yanaşı, ölkənin ekoloji siyasətində bir sıra dəyişikliklərin edilməsi, xüsusilə mövcud qanunvericilik aktları çərçivəsində ayrılmış büdcə vəsaitinin azaldılması və digər dəyişikliklərin edilməsi proqnozlaşdırılır [10, s. 47]. Yaponiyada da son illərdə iqlim dəyişikliklərinin kəskinləşməsi fonunda "Qlobal istiləşməyə əks tədbirlər haqqında" Akt *("Global Warming Countermeasures Law")*, adaptasiya planları üçün hüquqi əsası müəyyən edən "İqlim dəyişikliklərinə adaptasiya Aktı" *("Climate Change Adaptation Act")*, yaşıl satınalmalar və karbon qiymətqoyma sahəsində müvafiq qanunvericilik aktları, eləcə də Paris Sazişinin icrası ilə əlaqədar 2050-ci ilədək sıfır emissiya hədəflərinin müəyyən edilməsi sahəsində bir sıra strategiyalar qəbul edilmişdir.

Azərbaycanla qonşu dövlətlərin qanunvericilik təcrübələrinin araşdırılması da bu məqalənin məqsədləri üçün əhəmiyyət kəsb edir. Bu baxımdan Türkiyədə 2025-ci ilin iyul ayında ilk iqlim qanunu qəbul edilmiş və ölkə qanunvericiliyinə iqlim hədəfəri, eləcə də emissiya ticarəti sistemləri inteqrasiya edilmişdir. Lakin, bir sıra tədqiqatçılar tərəfindən həmin Qanun ekologiyadan daha çox iqtisadi yönümlü olması səbəbindən tənqid edilir [13, s. 40-45]. Rusiyada isə 2021-ci ildə "İstixana Qazlarının Emissiyalarının Azaldılması haqqında" Qanun *(Федеральный закон "Об ограничении выбросов парниковых газов")* qəbul edilmişdir. Lakin həmin Qanun hüquqi baxımdan qeyri-dəqiq olması, mücərrəd müddəaları və çərçivə xarakteri daşıması səbəbindən bir sıra tədqiqatlar zamanı tənqid edilir [37, s. 160-161]. Iran qanunvericiliyində də bir çox tədqiqatçılar tərəfindən dəqiq iqlim tənzimləməsinin olmaması tənqid edilir [15, s. 530-537]. Eyni zamanda Gürcüstan [27] və Ermənistanda [8] da kəskinləşən iqlim dəyişiklikləri səbəbindən iqlim tənzimləməsi layihələri hazırlanmışdır. Qazaxıstanda isə Ekologiya Məcəlləsinin 18-ci fəsli iqlim tənzimləməsinə həsr edilmişdir. Bundan başqa, Qazaxıstan qanunvericiliyini araşdıran bir sıra tədqiqatçılar da, iqlim dəyişikliyininə qarşı mübarizə sahəsində xüsusi tənzimləmə və iqtisadi əsaslar sahəsində ekoloji qanunvericiliyin təkmilləşdirilməsi zəruriliyini vurğulamışlar [1, s. 34-35].

## *V. Nəticə*

Yuxarıda qeyd olunanların təhlili əsasında aşağıdakı nəticələrə gələ bilərik:

*1. Qanunun qəbul olunmasından sonra Azərbaycan əsaslı sosial-iqtisadi inkişaf yolu keçmiş, lakin Qanuna inkişafa uyğun dəyişikliklər edilməmişdir.* Belə ki, Qanun qəbul edildikdən sonrakı 26 il ərzində ölkədə istər iqtisadi, istərsə də sosial sferada mövcud reallıqlar dəyişmişdir. Bu baxımdan ekoloji qanunvericiliyin davamlı təkmilləşdirilməsi ekoloji hüquqi tənzimləmənin aktuallığının qorunmasının əsası kimi çıxış edir. Araşdırma göstərir ki, bu illər

ərzində Qanuna edilmiş 28 dəyişiklikdən yalnız ikisi Qanunun tənzimləmə predmeti baxımından yeni yanaşmaların tətbiqi ilə bağlı olmuş, müvafiq olaraq polietilen torbalar və birdəfəlik istifadə üçün nəzərdə tutulmuş plastik məmulatların dövriyyəsi qadağan edilmiş, eləcə də ekoloji ekspertizanın tənzimlənməsi ilə bağlı Qanun təkmilləşdirilmişdir. Bunlar xaricində edilmiş digər dəyişikliklər Qanunun tənzimləmə predmetinin məqsədləri üçün əhəmiyyətli təkmilləşdirmə xarakteri daşımamış, əsasən digər qanunvericilik aktlarına aktlarına edilmiş dəyişikliklərlə bağlı uyğunlaşdırma xarakteri daşıyan texniki xarakterli dəyişikliklər olmuşdur.

*2. Qanun ölkədə mövcud olan normayaratma texnikasına və Konstitusiya Qanununun bir sıra tələblərinə cavab vermir, eləcə də bir sıra kolliziyalar və hüquqi boşluqları, o cümlədən çoxsaylı blanket normaları ehtiva edir.* Belə ki, Qanunda həddən artıq ümumiləşdirilmiş və mücərrəd müddəalar, o cümlədə sui-istifadə amili kimi qiymətləndirilə biləcək çoxsaylı elemetlərə rast gəlinir ki, bunlar Konstitusiya Qanununun tələblərinə cavab vermir. Bununla yanaşı, Qanunun əksər müddəaları blanket xarakterli normalardır və bu səbəbdən xüsusi tənzimləmə müəyyən etmir. bu isə bir sıra hallarda, məsələn iqlimin mühafizəsi və ya nəzarətin təmin edilməsi zamanı boşluqların yaranmasına səbəb olur. Eləcə də araşdırma zamanı, Qanunda bir sıra kolliziyaların mövcud olması halları da müəyyən edilmişdir. Habelə Qanun, qabaqcıl dünya dövlətlərində tətbiq olunan təkmil tənzimləmə metodlarını, xüsusilə iqtisadi sferada yeni yanaşmaları ehtiva etmir. Bütün bunlar ekoloji problemlərin kəskinləşməsi fonunda effektiv tənzimləmənin aparılmasına maneə yaratmaqla ekoloji-hüquqi tənzimləmənin səmərəliliyini sual altına atır.

*3. Müəyyən edilmiş problemlərin aradan qaldırılması üçün qanunvericiliyə zəruri dəyişikliklərin edilməsi labüddür.* Yuxarıda qeyd olunan problemlər effektiv ekoloji-hüquqi tənzimləmənin həyata keçirilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində addımların atılmasını zəruri edir. Belə təkmilləşdirmə Qanuna əsaslı dəyişikliklərin edilməsi və ya mövcud Qanunun ləğv edilərək yeni qanunvericilik aktının qəbul edilməsi (o cümlədən, bir sıra ekoloji qanunvericilik aktlarının kodifikasiya edilməsi) formasında həyata keçirilə bilər. Müvafiq təkmilləşdirmə tədbirləri qanunvericilikdə mövcud çatışmazlıqları aradan qaldırmaqla yanaşı, təkmil ekoloji tənzimləmə metodlarını və iqlim tənzimləməsi ilə bağlı zəruri elementləri ölkə qanunvericiliyinə inteqrasiya etməlidir. Xüsusilə iqlim dəyişiklikləri başda olmaqla ekoloji problemlərin kəskinləşməsi fonunda ekoloji hüquqi bazanın təkmilləşdirilməsi bəşəriyyətin, o cümlədən ölkəmizin sağlam gələcəyinin əsasını təşkil edir.

## ƏDƏBİYYAT (REFERENCES):

1. Abdizhami, A., & Rustembekova, D. The legal regulation of climate policy in the field of greenhouse gas emissions: global challenges and

ways of adaptation of Kazakhstan. Bulletin of the Karaganda University "Law Series", 11730(1), 2025, pp. 32–39.
URL: https://doi.org/10.31489/2025l1/32-39 (last access: 15.07.2025).

2. Alimusayev, E. Standardization and certification in environmental legislation: Current problems and solutions. Qanun Journal, 02(364), 2025, pp. 129–134 (in Azerbaijani / *Ekoloji Qanunvericilikdə Standartlaşdırma və Sertifikatlaşdırma: Mövcud Problemlər və Həlli Yolları. Qanun jurnalı, 02(364), 2025, s.129-134*).
3. Azerbaijan 2030: National Priorities on the Socio-economic Development. Approved by the Decree of the President № 2469, February 2, 2021. (in Azerbaijani / *Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər*").
URL: https://e-qanun.az/framework/46813 (last access: 16.07.2025).
4. Azerbaijan's Second Nationally Determined Contribution (NDC). United Nations Framework Convention on Climate Change, 2023.
URL: https://unfccc.int/sites/default/files/NDC/2023-10/Second%20NDC_Azerbaijan_ENG_Final%20%281%29.pdf (last access: 15.07.2025).
5. Bayramli, G. The environmental problems of Azerbaijan and the search for solutions. WSEAS Transactions on Environment and Development, 16, 2020, pp. 423–433.
URL: https://www.wseas.com/journals/ead/2020/a845115-522.pdf (last access: 15.07.2025).
6. Decree of the President № 2620, May 3, 2021. (in Azerbaijani / *Azərbaycan Respublikası Prezidentinin 3 may 2021-ci il tarixli 2620 nömrəli Sərəncamı*).
URL: https://e-qanun.az/framework/47397 (last access: 16.07.2025).
7. Decree of the President № 4233, December 25, 2023. (in Azerbaijani / *Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli 4233 nömrəli Sərəncamı*).
URL: https://e-qanun.az/framework/55849 (last access: 15.07.2025).
8. EcoLur. Government of Armenia approves draft law on climate. August 22, 2025.
URL: https://www.ecolur.org/en/news/climate-change/16113/ (last access: 14.07.2025).
9. Ekardt, F., & Bärenwaldt, M. The German Climate Verdict, Human Rights, Paris Target, and EU Climate Law. Sustainability, 15(17), 2023, Article 12993.
URL: https://doi.org/10.3390/su151712993 (last access: 15.07.2025).

10. Fiorino, D. J. What Does a Second Trump Term Mean for US Environmental Policy? Policy Quarterly, 21(1), 2025, pp. 46–49. URL: https://doi.org/10.26686/pq.v21i1.9725 (last access: 16.07.2025).
11. Gasimov, A. M., Jafarov, Z. I., Aliyev, M. O. On the current state of the environmental legislation of the Republic of Azerbaijan. Environmental Law. Qanun jurnali, 07 (357), 2024, pp. 93–99. (in Azerbaijani / *Azərbaycan Respublikasının Ekologiya Qanunvericiliyinin Müasir Vəziyyəti Haqqında. Qanun Jurnalı. 07 (357), 2024, s. 93–99*). URL: https://doi.org/10.30546/2218-9130.003.2025.1342 (last access: 14.07.2025).
12. Gasimov, A.M., Jafarov, Z.I., Aliyev, M.O. Legal regulation of ensuring environmental safety. Qanun, No. 03 (365), 2025, pp. 92–98. (in Azerbaijani / *Ekoloji Təhlükəsizliyin Təmin Olunmasının Hüquqi Tənzimlənməsi Haqqında. Qanun Jurnalı. 03 (365), 2025, s. 92–98*). DOI: https://doi.org/10.30546/2218-9130.003.2025.1342 (last access: 15.07.2025).
13. Gurçam, S. Fighting the climate crisis or market mechanisms for capital? An examination of Turkey's Draft Climate Change Law. Environment, Climate and Sustainability., 26(1), 2025, pp. 37–52 (in Turkish / *İklim kriziyle mücadele mi, sermaye için piyasa mekanizmaları mı? Türkiye'nin İklim Değişikliği Kanunu Teklifi üzerine bir inceleme. Çevre, İklim ve Sürdürülebilirlik. 26(1), 2025, s. 37–52*). URL: https://doi.org/10.29150/ciys.2025.1681625 (last access: 15.07.2025).
14. Hamidli, F. F. The concept and features of civil liability for environmental offences (Part I). Qanun, 05(355), 2024, pp. 22–26. (in Azerbaijani / *Ekoloji Hüquq Pozmalara Görə Mülki-Hüquqi Məsuliyyətin Anlayışı və Xüsusiyyətləri. Qanun jurnalı 05(355), 2024, s. 22–26*). URL: https://doi.org/10.30546/2218-9130.022.2024.1022 (last access: 14.07.2025).
15. Heydari, N., Mumtaz, M., & Taran, F. Legislation and policy capacities in agricultural water for adapting to climate change in Iran. Iranica Journal of Energy & Environment, 16(3), 2025, pp. 528–539. URL: https://doi.org/10.5829/ijee.2025.16.03.13 (last access: 15.07.2025).
16. IPCC. Summary for Policymakers. In: Climate Change 2023: Synthesis Report. Contribution of Working Groups I, II and III to the Sixth Assessment Report of the Intergovernmental Panel on Climate Change [Core Writing Team, H. Lee & J. Romero (eds.)]. Intergovernmental Panel on Climate Change, 2023.

URL: https://www.ipcc.ch/report/ar6/syr/downloads/report/IPCC_AR6_SYR_SPM.pdf (last access: 15.07.2025).

17. Jousseaume, M. The French Climate and Resilience Law. Centre for European Policy Network (cep), January 18, 2022. URL: https://www.cep.eu/fileadmin/user_upload/cep.eu/Studien/cepInput_Franzoesisches_Klima-und_Resilienzgesetz/cepInput_The_French_Climate_and_Resilience_Law.pdf (last access: 14.07.2025).
18. Kulovesi, K., Oberthür, S., van Asselt, H., & Savaresi, A. The European Climate Law: Strengthening EU Procedural Climate Governance? Journal of Environmental Law, 36, 2024, pp. 23–42. URL: https://doi.org/10.1093/jel/eqad034 (last access: 14.07.2025).
19. Law of Azerbaijan № 678-IQ "On Environmental Protection", June 8, 1999 (in Azerbaujani / *"Ətraf Mühitin Mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu*). URL: https://e-qanun.az/framework/3852 (last access: 15.07.2025).
20. McDonald, J. The role of law in adapting to climate change. Wiley Interdisciplinary Reviews: Climate Change, 2(2), 2011, pp. 283–295. URL: https://doi.org/10.1002/wcc.96 (last access: 15.07.2025).
21. Ministry of Ecology and Natural Resources of the Republic of Azerbaijan. Head of Service: Climate and geological factors play an important role in Caspian Sea level fluctuations. July 8, 2024 (in Azerbaijani / *Xidmət rəisi: Xəzər dənizinin səviyyə tərəddüdündə iqlim və geoloji amillər önəmli rol oynayır*). URL: https://eco.gov.az/az/nazirlik/xeber?newsID=23503 (last access: 14.07.2025).
22. Ministry of Economy of the Republic of Azerbaijan. Main economic indicators. 2024 (in Azerbaijani / *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. Əsas iqtisadi göstəricilər*). URL: https://economy.gov.az/storage/files/files/9603/LH8Nuk5IHoxRCgyMhh4XArjVoUbm8KPZjX14f2CK.pdf (last access: 15.07.2025).
23. Mirzazade, Y. E. Environmental law violations in the context of international legal acts and the legislation of world states: Existing problems and effective solutions. Qanun, 03(353), 2024, pp. 139–146 (in Azerbaijani / *Ekoloji Hüquq Pozuntuları Beynəlxalq Hüquqi Aktlar və Dünya Dövlətlərinin Qanunvericiliyi Müstəvisində: Mövcud Problemlər Və Effektiv Həll Yolları. Qanun jurnalı. 03(353), 2024, s. 139–146).*

URL: https://doi.org/10.30546/2218-9130.03.353.2024.037 (last access: 15.07.2025).

24. Mustafayeva, G. A., Mammadova, S. Y., & Balajayeva, T. P. Enhancing infrastructure competitiveness in alignment with COP-29 climate goals. BIO Web of Conferences, 151, 2025, Article 04004. URL: https://doi.org/10.1051/bioconf/202515104004 (last access: 15.07.2025).
25. OECD. Policy instruments for the environment. Better policies for better lives. 2024.
URL: https://www.oecd.org/content/dam/oecd/en/data/datasets/pine-database/policy-instruments-for-environment-tax-database-brochure-2024.pdf (last access: 14.07.2025).
26. Open Data Portal. Forest fires, April 25, 2025.
URL: https://opendata.az/@@@statistika/mese-yanginlari (last access: 21.11.2025). Expenditures on nature conservation, December 11, 2025. URL: https://opendata.az/@statistika/expenditures-on-nature-conservation (last access: 15.07.2025).
27. Parliament of Georgia. Environmental Protection and Natural Resources Committee introducing white paper on climate change for public consultations. November 9, 2023.
URL: https://parliament.ge/en/media/news/garemos-datsvisa-da-bunebrivi-resursebis-komitetma-sakartvelos-klimatis-tsvlilebis-kanonis-tetri-tsigni-sajaro-konsultatsiebistvis-tsaradgina (last access: 14.07.2025).
28. Republic of Azerbaijan. (2021). Fourth national communication to the United Nations Framework Convention on Climate Change. UNFCCC. URL: https://unfccc.int/sites/default/files/resource/FNC%20report.pdf (last access: 14.07.2025).
29. State Statistical Committee of the Republic of Azerbaijan. Expenditures on environmental protection. July 19, 2024 (in Azerbaijani / *Dövlət Statistika komitəsi. Ətraf mühitin mühafizəsinə çəkilmiş xərclər. Milli hesablar sistemi və tədiyə balansı*).
URL: https://www.stat.gov.az/news/index.php?id=5933&lang=az (last access: 14.07.2025). System of national accounts and balance of payments. March 17, 2025. URL: https://stat.gov.az/source/system_nat_accounts (last access: 14.07.2025).
30. State Statistical Committee of the Republic of Azerbaijan. Statistical review of Sustainable Development Goals: Description of SDG progress in national context with statistical indicators. Baku, 2024 (in Azerbaijani / *Dövlət Statistika komitəsi. Dayanıqlı İnkişaf Məqsədləri. Statistik icmal*).

URL: https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/DIM_stat_2024.pdf (last access: 14.07.2025).

31. Stef, N., & Ashta, A. Dynamics in environmental legislation. International Review of Law and Economics, 76, 2023, Article 106170. URL: https://doi.org/10.1016/j.irle.2023.106170 (last access: 14.07.2025).
32. Teymurova, V., Abdullayeva, S., Muradova, K., Aslanova, M., & Bayramli, M. Environmental challenges and the impact of human capital on Azerbaijan's foreign economic activity. Scientific Bulletin of Mukachevo State University. Series "Economics", 12(1), 2025, pp. 20–34.
URL: https://doi.org/10.52566/msu-econ1.2025.20 (last access: 15.07.2025).
33. The Constitution Law of Azerbaijan № 21-IVKQ "On Normative Legal Acts", December 21, 2010 (in Azerbaijani / *"Normativ Hüquqi Aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu*).
34. Tugray, H. Some legal issues of ensuring the principle of climate justice. Azerbaijan Law Journal, 3, 2024, pp. 5–20 (in Russian / *Некоторые Правовые Вопросы Обеспечения Принципа Климатической Справедливости. Азербайджанский Юридический Журнал*).
URL: https://www.ahj.az/az/publidzation-rules-az/8-journal/70-2024-3.html (last access: 16.07.2025).
35. Walters, D. E. Tomorrow's climate law, today. UC Davis Law Review, 58(4), 2025, pp. 1701–1777.
URL: https://doi.org/10.2139/ssrn.4750208 (last access: 14.07.2025).
36. Wei, J., et al. COP29: Progresses and challenges to global efforts on the climate crisis. The Innovation, 6(1), 2025.
URL: https://doi.org/10.1016/j.xinn.2024.100748 (last access: 15.07.2025).
37. Zhavoronkova, N. G., & Agafonov, V. B. The role of the national climate law in ensuring "energy transition". Actual Problems of Russian Law, 17(2), 2022, pp. 151–162 (in Russian / *Роль национального климатического закона в обеспечении «энергетического перехода». Актуальные проблемы российского права*).
URL: https://doi.org/10.17803/1994-1471.2022.135.2.151-162 (last access: 16.07.2025).

# Analysis of the Legislation of the Republic of Azerbaijan in the Field of Environmental Protection in the Context of Combating Climate Change

EMIN ALIMUSAYEV*

**Abstract**

*In order to ensure the prosperity of humanity, it is crucial to take necessary measures to prevent the intensification of environmental problems, especially climate change. In this regard, most countries ensure the effectiveness of environmental and legal regulation by adopting environmental legislative acts and further improving the existing legal framework. There are a number of legislative acts addressing various aspects of environmental protection in our country. This study analyses the Law of the Republic of Azerbaijan "on Environmental Protection" which is one of the main legislative acts in the field of environmental protection. In particular, the analysis was conducted in terms of socio-economic development in 26 years after adoption of the Law and the amendments made to the Law during these years were examined. In addition, the research was conducted on the basis of specific structural elements of the Law, a number of collisions and legal gaps were identified and an assessment was carried out in terms of advanced law-making techniques. The study revealed that the Law lacks modern concepts of environmental and climate regulation, as well as only two of the amendments adopted since its enactment can be considered improvements to its regulatory scope. Furthermore, the Law includes numerous norms that do not provide clear regulation, as well as inconsistencies and legal gaps. It also does not conform to contemporary law-making techniques, and therefore, fundamental legislative amendments have been proposed to ensure effective environmental and legal regulation.*

**Keywords:** *environment, protection of the environment, environmental law, green world, environmental legislative framework, climate laws, legislation, law-making.*

* PhD Candidate, Department of Labor and Environmental Law / Baku State University / email: eminalimusayev@gmail.com

# Анализ законодательства Азербайджанской Республики в сфере охраны окружающей среды в контексте борьбы с изменением климата

ЭМИН АЛИМУСАЕВ*

**Резюме**

*Для обеспечения процветания человечества крайне важно принять необходимые меры по предотвращению обострения экологических проблем, особенно изменения климата. В связи с этим большинство стран обеспечивают эффективность экологического и правового регулирования путем принятия экологических законодательных актов и дальнейшего совершенствования существующей правовой базы. В нашей стране существует ряд законодательных актов, регулирующих различные аспекты охраны окружающей среды. В данном исследовании анализируется Закон Азербайджанской Республики «Об охране окружающей среды», который является одним из основных законодательных актов в области охраны окружающей среды. В частности, анализ проводился с точки зрения социально-экономического развития за 26 лет после принятия Закона, а также были изучены поправки, внесенные в Закон за эти годы. Кроме того, исследование было проведено на основе конкретных структурных элементов Закона, был выявлен ряд противоречий и правовых пробелов и проведена оценка с точки зрения передовых методов законотворчества. Исследование показало, что в Законе отсутствуют современные концепции регулирования в области окружающей среды и климата, а также что только две поправки, принятые с момента его вступления в силу, можно считать улучшением его нормативно-правового поля. Кроме того, Закон содержит множество норм, которые не обеспечивают четкого регулирования, а также противоречия и пробелы в законодательстве. Он также не соответствует современным методам законотворчества, в связи с чем были предложены фундаментальные поправки к законодательству для обеспечения эффективного экологического и правового регулирования.*

**Ключевые слова:** *экология, защита окружающей среды, экологическое право, зеленый мир, законодательная база в области охраны экология, законы о климате, законодательство, законотворчество.*

**Redaksiyaya daxil olma tarixi: 26.07.2025**
**Çapa qəbul: 25.12.2025**

* Докторант кафедры трудового и экологического права / Бакинский государственный университет / email: eminalimusayev@gmail.com

***Gülzadə Mirzəməmmədova.*** Korporativ hüquqşünaslar nə edir: onların biznes münasibətlərinin formalaşmasında rolu // Azərbaycan Hüquq Jurnalı. 2025 (№3), s. 165-176.
DOI: 10.61638/PQNC4999

# KORPORATİV HÜQUQ

## KORPORATİV HÜQUQŞÜNASLAR NƏ EDİR: ONLARIN BİZNES MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASINDA ROLU

GÜLZADƏ MİRZƏMƏMMƏDOVA*

**Annotasiya**

*Bu məqalədə korporativ hüquqşünasların biznes münasibətlərinin formalaşmasında oynadığı rol aparıcı nəzəri yanaşmalar əsasında təhlil olunur. İlk növbədə Ronald J. Gilsonun "müqavilə xərclərinin mühəndisi" modeli rəhbər tutulmaqla, korporativ hüquqşünasın bazar natamamlıqlarını hüquqi dizayn vasitəsilə aradan qaldıran və əqdlərin iqtisadi səmərəliliyini artıran bir mütəxəssis kimi funksiyası izah edilir. Ardınca Gilsonun ideyalarının davamı kimi formalaşan üç nəzəri model - Manuel Utsetin "etibarlı məlumat istehsalçısı", Steven Schwarczın "hüquqi uyğunluğun təminatçısı" və George Dentin "müəssisə memarı" yanaşmaları lokanik şəkildə təqdim olunur. Bu modellərin hər biri korporativ hüquqşünasın dəyərini fərqli aspektdən şərh edir: Utset informasiyanın etibarlılığı və investor etimadının təminınə, Schwarcz hüquqi risklərin və tənzimləmə uyğunsuzluqlarının azaldılmasına, Dent isə institusional sabitlik və uzunmüddətli əməkdaşlıq mühitinin yaradılmasına diqqət yönəldir. Məqalədə göstərilir ki, korporativ hüquqşünas yalnız hüquqi sənədləşmə ilə məşğul olan şəxs deyil, həm də hüquq və iqtisadiyyat arasında körpü yaradan dizaynerdir. O, hüquqi alətlər vasitəsilə bazarın qeyri-müəyyənliklərini azaldır, məlumat istehsal edir, əməliyyatlara hüquqi etibar qazandırır və müəssisələr arasında sabit münasibətlər formalaşdırır. Məqalənin təhlili göstərir ki, müasir dövrdə korporativ hüquqşünasın funksiyası ikiqat xarakter daşıyır: bir tərəfdən hüquqi riskləri qabaqlayaraq mühafizəçi kimi çıxış edir, digər tərəfdən isə hüquqi imkanları iqtisadi məqsədlərə uyğunlaşdıran bir innovator və dizayner funksiyasını yerinə yetirir. Bu nəticələr əsasında məqalə korporativ hüquqşünaslıq institutunun iqtisadi dəyər yaradan mexanizmlərini elmi baxımdan izah edir və bu istiqamətdə gələcək hüquq tədqiqatları üçün nəzəri baza formalaşdırır. Eyni zamanda, hüquq təhsili ilə bağlı nəticələrə əsaslanaraq qeyd edilir ki, bu nəzəri modellərin effektiv tətbiqi üçün hüquq fakültələrinin proqramları təcrübə yönümlü və praktiki bacarıqlara əsaslanan yanaşma ilə gücləndirilməlidir.*

**Açar sözlər:** *korporativ hüquqşünas, müqavilə xərcləri, hüquqi uyğunluq, institusional sabitlik, məlumat istehsalı, iqtisadi səmərəlilik, hüquqi dizayn, Gilson modeli, hüquq təhsili, praktik bacarıqların inkişafı.*

* Kembric Universitetinin Korporativ Hüquq üzrə magistr tələbəsi / "AzerGold" QSC-nin Hüquq şöbəsinin Hüquqi Komplayns və korporativ hüquq sektorunun müdiri / Bakı Dövlət Universitetinin Beynəlxalq ümumi hüquq kafedrasının saathesabı müəllimi / Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü / email: g.mirzamammadova@gmail.com

## *I. Giriş*

Tarixən hüquqşünaslar ictimai təsəvvürdə məhkəmə zallarında çıxış edən vəkillər və ya qərar verən hakimlər kimi tanınıblar. Halbuki müasir dövrdə hüquqi fəaliyyətin mahiyyəti bundan xeyli genişdir. Xüsusilə biznes mühitində korporativ hüquqşünasların rolu və dəyəri uzun müddət müzakirə mövzusu olub. Bəzi iş adamları hüquqşünasları "Şərin carçısı" [5, s. 239], adlandıraraq, onların razılaşma prosesinə maneə törətdiyini, xərcləri artırdığını və qərarları ləngitdiyini iddia edirdilər. 1980-ci illərdə iqtisadçılar və siyasətçilər belə hesab edirdilər ki, hüquqşünaslar iqtisadi artıma töhfə verməyən, əksinə onu yavaşladan bir peşə qrupudur.

Bu kontekstdə Stanford Universitetinin hüquq professoru Ronald J. Gilson 1984-cü ildə mühüm bir sual irəli sürdü: *"Korporativ hüquqşünaslar əslində nə edirlər və onların iştirakı biznesi necə daha dəyərli edir?"* Bu sadə sual sonrakı onilliklərdə elmi müzakirələrin əsasını qoydu və korporativ hüquqşünasların iqtisadi sistemdəki funksiyasını anlamaq üçün yeni nəzəri modellərin formalaşmasına təkan verdi.

Son 40 il ərzində Gilsonun sualına cavab olaraq üç əsas model formalaşıb: Manuel Utsetin "etibarlı məlumat istehsalçısı", Steven Schwarczın "hüquqi uyğunluğun təminatçısı" və George Dentin "müəssisə memarı" modelləri. Bu yanaşmaların hər biri korporativ hüquqşünasların biznes münasibətlərində dəyər yaratma mexanizmini fərqli aspektlərdən izah edir.

Məqalədə Gilsonun "müqavilə xərclərinin mühəndisi" modelinə əsaslanaraq korporativ hüquqşünas anlayışına yeni baxış təqdim edilir, daha sonra bu modelin davamı olan Utset, Schwarcz və Dent nəzəriyyələri müqayisəli şəkildə təhlil olunur. Məqalənin məqsədi bu modellərin ortaq və fərqli cəhətlərini müəyyənləşdirməklə, müasir hüquq ədəbiyyatında korporativ hüquqşünasın biznes sövdələşmələrindəki rolunu aydınlaşdırmaqdır. Eyni zamanda, tədqiqat nəticələri korporativ hüquqşünasların peşə hazırlığının və hüquq təhsilinin məzmununun yenidən nəzərdən keçirilməsinin zəruriliyini vurğulayır.

## *II. Müqavilə xərclərinin mühəndisi modeli*

Ronald J. Gilsonun 1984-cü ildə dərc etdiyi məqalə korporativ hüquqşünasların dəyərinin iqtisadi əsaslarını izah edən aparıcı nəzəriyyələrdən biridir. Gilsonun fikrincə, biznes mühitində çalışan korporativ hüquqşünaslar "müqavilə xərclərinin mühəndisləri" kimi çıxış edirlər. Onların əsas funksiyası bazarın natamam cəhətlərini aradan qaldırmaq və hüquqi dizayn vasitəsilə əməliyyatların iqtisadi səmərəliliyini artırmaqdır.

İqtisadi nəzəriyyəyə görə, bazar heç vaxt mükəmməl olmur və bu səbəbdən müqavilə xərcləri qaçılmazdır [5, s. 256]. Müqavilə xərcləri dedikdə, tərəflərin razılığa gəlməsi və müqavilənin icrası prosesində qarşılaşdıqları axtarış, danışıqlar, icra və risk xərcləri nəzərdə tutulur. Bəzi hallarda bu xərclər elə yüksək olur ki, tərəflər ümumiyyətlə müqavilə bağlamaqdan imtina edirlər [1].

Məlumdur ki, mükəmməl bazar şəraitində tərəflər bütün məlumatlara malik olar, qeyri-müəyyənlik və sui-istifadə imkanı qalmazdı. Lakin real bazarda informasiya bərabər paylanmır, tərəflər bir-birinə tam etibar etmir və hüquqi mühit qeyri-müəyyənlik daşıyır. Belə şəraitdə hüquqşünasın məqsədi bu xərcləri minimuma endirmək, tərəflərin etimadını bərpa etmək və əməliyyatı baş tuta bilən formaya salmaqdır [5, s. 269].

Gilsonun əsas tezisinə görə, hüquqşünasın dəyəri yalnız müştərisini qorumaqla və ya qarşı tərəfdən daha çox pay almaqla ölçülmür. Onun dəyəri "bütöv piroqu böyütməkdədir" — yəni, tərəflər üçün ümumi faydanı artırmaqda. Bu mənada hüquqşünas rəqabət aparan deyil, kooperativ dəyər yaradan tərəf kimi çıxış edir [5, s. 246].

Məsələn, "şirkətin yenidən təşkili/birləşmə" (*ing.* Merger and Acquisition və ya M&A) müqavilələri korporativ hüquqşünasın ən yüksək səviyyədə mühəndislik qabiliyyətini tələb edən hallardır. Bu cür müqavilələr bazar uğursuzluqlarını hüquqi mexanizmlərlə düzəltməyə yönəlmiş kompleks konstruksiyalardır [5, s. 257].

Misal olaraq, nümunəvi bir M&A müqaviləsində üzə çıxan bəzi problemlər və onların hüquqi həll formaları ilə tanış olaq:

- Tərəflərin dəyər gözləntilərinin fərqi: Satıcı biznesinin gələcəkdə yüksək gəlir gətirəcəyini düşünür, alıcı isə daha ehtiyatlı davranır. Hüquqşünas "şərti ödəniş" (*ing.* earnout) mexanizmini [5, s. 262] təklif edir: müqavilə dəyərinin bir hissəsi gələcək nəticələrə bağlanır. Beləliklə, biznes uğurlu olarsa, satıcı əlavə ödəniş alır; uğursuz olarsa, alıcı bu hissəni ödəməkdən azad olur.
- Zaman perspektivinin fərqliliyi: Satıcı şirkətdən tez ayrılmaq istəyir, alıcı isə uzunmüddətli planlar qurur. Bu halda "aralıq dövr öhdəlikləri" (*ing.* interim covenants) tətbiq edilir [5, s. 261]. Belə öhdəliklər satıcının bu dövrdə şirkətin dəyərini azaldacaq addımlar atmasının qarşısını alır, yəni həmin şəxsin şirkətə uzunmüddətli perspektivdə zərər vurmaq ehtimalı olan hərəkətlərinin həcmini və səlahiyyət dairəsini məhdudlaşdırır.
- Məlumat qeyri-müəyyənliyi: Satıcının təqdim etdiyi məlumatlar yanlış çıxarsa, alıcı ciddi ziyana düşə bilər. Burada "bəyanat və təminatlar" (*ing.* representation and warranties) və "zərərin kompensasiyası" (*ing.* Indemnity) mexanizmləri işə düşür [5, s. 267-269].

Bu nümunələr göstərir ki, korporativ hüquqşünasın fəaliyyəti təkcə hüquqi sənəd tərtibindən ibarət deyil. O, iqtisadi problemi hüquqi dizayn vasitəsilə həll edən müəyyənlik mühəndisidir, bununla da Gilsonun konsepsiyası hüquqşünasın iqtisadi sistemdəki funksiyasını yenidən müəyyənləşdirir.

### *III. Etibarlı məlumat istehsalçısı modeli*

Manuel Utset tərəfindən irəli sürülən bu modeldə korporativ hüquqşünasın rolu qiymətli kağızlar bazarının kontekstində izah edilir. İnkişaf etmiş dövlətlərdə biznes mühitinin sürətli inkişafının əsas hüquqi-iqtisadi amillərindən biri həmin dövlətlərdə qiymətli kağızlar bazarının intensiv və etibarlı fəaliyyət

göstərməsidir. Başqa sözlə, açıq şəkildə ticarət olunan səhmlər vasitəsilə investorlar istədikləri hüquqi şəxsdə pay sahibi olmaq imkanına malikdirlər. Lakin bu hüququ həyata keçirmək üçün investorlar müvafiq qiymətli kağızların sənəd və məlumat bazasında əks olunan dəyərinin onlara iqtisadi mənfəət və ya başqa formada fayda gətirəcəyinə əsaslı etimad göstərməlidirlər. Utsetin fikrincə, bazara təqdim olunan qiymətli kağızlar, o cümlədən səhmlər iki əsas komponentdən ibarətdir:

- səhmdarlara təqdim edilən hüquqlar toplusu,
- həmin səhmlərin dəyərini müəyyən edən məlumatlar məcmusu.

İkinci komponent, yəni şirkətin maliyyə vəziyyəti, riskləri və gələcək perspektivləri barədə məlumatlar, investorların qərarvermə prosesində həlledici rol oynayır. Korporativ hüquqşünasların vəzifəsi isə bu məlumatların dəqiq, şəffaf və qanunvericiliyə tam uyğun hazırlanmasını təmin etməkdir.

Qiymətli kağızların bazara çıxarılması zamanı hüquqşünasın fəaliyyəti sadəcə "müqavilə hazırlanması xərci" deyil, istehsal xərci xarakteri daşıyır. Çünki o, faktiki olaraq yeni bir dəyər - etibarlı informasiya yaradır [14, s. 277]. Beləliklə, hüquqşünas yalnız mövcud riskləri azaltmaqla kifayətlənmir, həm də bazarın səmərəli işləməsi üçün zəruri olan informasiya infrastrukturunu formalaşdırır.

Utsetin modelində korporativ hüquqşünas "etibarın istehsalçısı" kimi təsvir olunur. Onun hazırladığı hüquqi açıqlamalar və sənədlər kapital bazarında etimad yaradır və səhmlərin düzgün qiymətləndirilməsinə şərait yaradır [14, s. 285]. Başqa sözlə, hüquqşünas bazarda məlumat kapitalı istehsal edir, yəni iqtisadi dəyər yaradan etibarlılıq sistemini qurur.

Bu yanaşma Gilsonun "müqavilə xərclərinin mühəndisi" modelinə zidd deyil, lakin diqqəti fərqli istiqamətə yönəldir. Gilson bazardakı qeyri-müəyyənlikləri hüquqi mexanizmlərlə aradan qaldırmaqdan danışırdısa, Utset bu qeyri-müəyyənliklərin əsas səbəbi olan informasiya assimmetriyası problemini ön plana çəkir.

Beləliklə, bu modeldə korporativ hüquqşünasın dəyəri bazarda etibarlılıq və şəffaflıq mühiti yaratmaqdan doğur. O, hüquqi biliklər vasitəsilə bazara inam gətirir, investorların qərarlarını etibarlı məlumat üzərində qurmasını təmin edir və bununla da hüquqla iqtisadiyyat arasında yeni bir dəyər zənciri formalaşdırır [14, s. 296].

*IV. Hüquqi uyğunluğun təminatçısı modeli*

Gilsonun iqtisadi əsaslı yanaşması yayıldıqdan sonra elmi müzakirələrdə belə bir sual ortaya çıxdı: "Əgər korporativ hüquqşünas dəyər yaradırsa, bu dəyərin mənbəyi yalnız iqtisadi səmərəlilikdirmi, yoxsa hüquqi bilik və normativ uyğunluq da ayrıca dəyər yaradır?" Bu suala cavab olaraq Steven Schwarcz yeni bir model irəli sürdü. O, Gilsonun iqtisadi səmərəlilik tezisini qəbul edir, lakin onu real hüquqi mühitlə tamamlayır. Schwarczın fikrincə, korporativ hüquqşünasın dəyəri yalnız bazar effektivliyindən deyil [12, s. 486], həm də hüquqi risklərin azaldılmasından və əməliyyatların qanunauyğunluğunun təmin edilməsindən yaranır [12, s. 487].

Steven Schwarcz öz məqaləsinə bu nəticəyə gəlməzdən əvvəl hüquqşünaslar və müştərilər arasında sorğu keçirib. Sorğunun əsas məqsədi isə

korporativ hüquqşünasların həm özləri, həm də onların xidmət göstərdiyi müştərilər tərəfindən rollarının qiymətləndirilməsi olub.

Aparılan sorğuların nəticələrinə əsasən, həm hüquqşünaslar, həm də onların müştəriləri bu funksiyanı vacib hesab edirlər. Respondentlərin böyük əksəriyyəti razılaşır ki, müqavilə tərtib edən hüquqşünasın əsas məqsədlərindən biri gələcəkdə yaranacaq hüquqi mübahisələrin qarşısını almaqdır. Tərəflər müqavilə bağlayarkən çox vaxt sonradan yaranacaq riskləri tam görə bilmirlər. Məhz buna görə də hüquqşünasın işi yalnız formal qoruyucu mexanizm yaratmaq deyil, tərəflərin münasibətlərini aydın şəkildə tənzimləyən hüquqi çərçivə formalaşdırmaqdır [12, s. 496-497].

Maraqlıdır ki, sorğuda iştirak edən hüquqşünasların heç biri "müştərini gələcək məhkəmədən qorumağı" müqavilə bağlama prosesinin yeganə və əsas məqsədi kimi görməyib. Onların fikrincə, bu, vacib olsa da, əsas məqsəd tərəflər arasında münasibətlərin sabitliyini təmin edən aydın "yol xəritəsi"nin yaradılmasıdır. Başqa sözlə, hüquqşünasın dəyəri çox vaxt mübahisələrin qarşısını almaqdan deyil, müqavilənin tərəflər üçün praktik, başadüşülən və davamlı əməkdaşlıq əsası olan mexanizmi yaratmasından qaynaqlanır. Steven L. Schwarcz-ın empirik araşdırması göstərir ki, bu hüquqşünasların dəyər yaratmasının mümkün yollarından biri məhz "ex post litigation" – yəni əməliyyatdan sonra məhkəməyə düşmə riskini minimuma endirməkdir [12, s. 498]. Bu risk onunla bağlıdır ki, müasir zamanda iri həcmli biznes sövdələşmələri təkcə tərəflərin razılığına əsaslanmır. Onlar eyni zamanda çoxsaylı hüquqi tənzimləmələrin, qiymətli kağızlar, vergi, rəqabət, investisiya və digər sahə qanunlarının tələblərinə tabedir. Bu tənzimləmələrdən hər hansı birinə əməl olunmaması müqavilənin dəyərini azalda və ya onu tam etibarsız edə bilər [12, s. 501].

Belə şəraitdə korporativ hüquqşünas yalnız müqavilə tərtib etmir; o, əməliyyatın mümkünlüyünü təmin edən hüquqi mexanizm yaradır. Hüquqşünas faktiki olaraq bazarın iqtisadi məqsədlərinə hüquqi forma qazandırır və hüquqi sistemlə biznes reallığı arasında körpü rolunu oynayır.

Həmçinin, yaxşı korporativ hüquqşünaslar yalnız mövcud qaydaları tətbiq etmir, həm də hüquqi innovasiya yaradırlar, yəni qanuna zidd olmayan, lakin daha səmərəli hüquqi formalar dizayn edirlər. Beləliklə, hüquqşünasın bu gün göstərdiyi peşəkar yaradıcılıq sabah bazarda yeni hüquqi məhsul kimi dəyər qazanır [6, s. 34].

Əgər Gilson modeli hüquqşünası iqtisadi mühəndis kimi təqdim edirdisə, Schwarcz onu hüquqi risk meneceri və uyğunluq təminatçısı kimi təsvir edir. Gilson üçün əsas məqsəd səmərəlilik, Schwarcz üçün isə etibarlılıq və legitimlikdir. O, göstərir ki, bazarın səmərəli işləməsi hüquqi uyğunluq olmadan mümkün deyil.

Nəticə etibarilə, Schwarcz modeli korporativ hüquqşünasın dəyərini hüquqi sistemin sabitliyi ilə əlaqələndirir. Hüquqşünas bu modeldə əməliyyatın iqtisadi məqsədini həyata keçirmək üçün hüquqi çərçivə yaradan şəxsdir yəni o, iqtisadi reallıqla hüquqi normativlik arasında tarazlığı qoruyan peşəkar vasitəçidir.

### *V. Müəssisə memarı modeli*

George Dentin 2009-cu ildə irəli sürdüyü "müəssisə memarı" modeli korporativ hüquqşünasın rolunu müəssisənin strukturunun, idarəetmə sisteminin və uzunmüddətli işgüzar münasibətlərin dizaynçısı kimi təsvir edir. Gilson korporativ hüquqşünası "iqtisadi mühəndis" kimi təqdim etdiyi halda, Dent onu "müəssisə memarı" adlandırır.

Bu modelə görə, korporativ hüquqşünas hər bir biznes razılaşmasında onun həyata keçirilməsi, idarə olunması və tərəflər arasındakı əməkdaşlığın davamlı işləkliyini təmin edən institusional çərçivəni yaradır [2, s. 279]. Məsələn, birgə müəssisə (*ing. joint venture*) yaradılarkən hüquqşünas yalnız tərəflərin pay bölgüsünü deyil, həm də idarəetmə strukturunu, qərar qəbuletmə mexanizmini, veto hüquqlarını, mənfəət bölgüsünü və biznesdən çıxış qaydalarını dizayn edir. Bu vasitə ilə hüquqşünas tərəflərin maraqlarını uyğunlaşdırır, gələcək mübahisə risklərini azaldır və razılaşmanın dayanıqlılığını təmin edir [2, s. 290].

Korporativ hüquqşünasın işi çox vaxt bir dəfəlik əməliyyatdan ibarət olmur. O, tərəflərin uzunmüddətli əməkdaşlığını mümkün edəcək sabit münasibətlər sistemi qurur. Dizayn etdiyi müqavilə yalnız hüquqi öhdəliklər toplusu deyil, tərəflər arasında etimadın və qarşılıqlı öhdəliyin davamlılığını təmin edən bir "idarəetmə mexanizmidir".

Dent bu ideyanı metaforik şəkildə belə izah edir: əgər məhkəmədə vəkil "döyüşçü" funksiyasını yerinə yetirirsə, müəssisədə korporativ hüquqşünas "qalabəyi" rolunu oynayır — o, elə hüquqi struktur yaradır ki, tərəflər məhkəmə "döyüşünə" girməyə ehtiyac duymadan mübahisələri önləyə bilsinlər [2, s. 326].

Bundan əlavə, birgə müəssisələrdə və iri korporativ qurumlarda maraq toqquşmaları qaçılmazdır. Menecerlər, səhmdarlar, investorlar, kreditorlar və işçilər fərqli məqsədlər güdə bilər. Hüquqşünasın vəzifəsi elə mexanizmlər yaratmaqdır ki, bu maraqlar mümkün qədər uyğunlaşdırılsın və konflikt ehtimalı minimuma endirilsin [2, s. 293].

Dent modelinin mahiyyəti sabitliyin hüquqi dizayn vasitəsilə yaradılmasıdır. O, Gilson modelinə belə qarşılaşdırma aparır: "Gilson üçün korporativ hüquqşünas səmərəlilik yaradırsa, mənim üçün o, sabitlik yaradır." Yəni, hüquqşünasın dəyəri bazarı daha effektiv etməkdə deyil, dayanıqlı və şəffaf struktur yaratmaqda öz əksini tapır. Belə müəssisələr daha asan maliyyə cəlb edir, investor etimadını artırır və əməliyyat risklərini azaldır. Nəticə etibarilə, hüquqşünasın fəaliyyəti uzunmüddətli iqtisadi dəyərin əsasını təşkil edir.

### *VI Müasir dövrdə korporativ hüquqşünaslara baxış*

Müasir iqtisadi və hüquqi mühitdə korporativ hüquqşünasların rolu daha da genişlənmişdir. İnkişaf etmiş ölkələrdə onlar artıq yalnız hüquqi məsləhətçi deyil, həm də risk meneceri kimi qəbul olunurlar [13, s. 107-108]. Onların əsas funksiyası problemi baş verdikdən sonra həll etmək deyil, onun yaranmasının qarşısını almaqdır. Bu, məşhur prinsipdə belə ifadə olunur: "Uçurumun dibində təcili yardım gözləməkdənsə, kənarında hasar çəkmək daha məqsədəuyğundur [13, s. 140]."

Bu baxımdan müasir korporativ hüquqşünas diqqətini yalnız mübahisələrin həllinə deyil, həm də önləyici hüquqi dizayn mexanizmlərinə yönəldir. O, hüququn alətlərindən istifadə etməklə riskləri əvvəlcədən proqnozlaşdırır, biznesin təhlükəsiz fəaliyyət mühitini təmin edir.

Korporativ hüquqşünas hüquqla iqtisadiyyat arasında körpü rolunu oynayır. O, bazarın "görünməz əli" ilə hüququn "görünən əlini" birləşdirən şəxsdir. Onun fəaliyyəti yalnız normativ uyğunluğu təmin etmir, həm də hüquqi sistemin imkanlarını iqtisadi məqsədlərə uyğunlaşdırır [6, s. 32]. Beləliklə, o, həm hüquqi, həm iqtisadi, həm də institusional baxımdan inteqrasiyaedici funksiyanı yerinə yetirir.

Peşəkar korporativ hüquqşünas müştərinin biznesini dərinliklə anlamalıdır [6, s. 33]. Bu, yalnız qanunların tətbiqi deyil, həm də biznes modelinin hüquqi strukturlaşdırılması deməkdir. Yaxşı hüquqşünas sadəcə problemi həll etmir; o, gələcəkdə problem yaranmayacaq mexanizmlər yaradır, yəni hüquqi mühəndis kimi sabit sistem dizayn edir.

Təsadüfi deyil ki, müasir dövrdə aparıcı kommersiya şirkətləri hüquqi məsələlərinin həllini həm kənardan cəlb edilən hüquqşünaslar, həm də şirkətin daxili hüquq komandası vasitəsilə həyata keçirirlər. Bu yanaşmanın əsas səbəbi ondan ibarətdir ki, kənardan cəlb edilən hüquqşünaslar adətən müəyyən ixtisaslaşmış sahələr üzrə dərin nəzəri bilik və praktiki təcrübəyə malik olurlar. Daxili hüquqşünaslar isə şirkətin fəaliyyət istiqamətlərini daha dərindən tanıyır, rəhbərliyin birbaşa nəzarəti altında çalışır və gündəlik hüquqi təminatı həyata keçirirlər. Bundan əlavə, onların şirkətdə fiziki olaraq mövcud olmaları ezamiyyət və digər əlavə xərclərin yaranmasının qarşısını alır, bu isə hüquqi xidmətlərin ümumi dəyərinin optimallaşdırılmasına imkan verir [8, s. 423-450].

### *VII. Hüquq təhsili üçün nəticələr*

Gilson və digər adıçəkilən müəlliflər həmçinin korporativ hüquqşünasların təhsil məsələsini araşdırıblar. Onların fikirləri bir-birindən fərqli olsa da, hər biri bu sahədə müəyyən böhran olmasında razıdır. Belə ki, müasir korporativ hüquqşünasları yetişdirən universitetlərə işəgötürənlərin münasibətini təhlil edəndə Şerlok Holmsun dediyi kimi, "hürməyən it"i [3] görə bilərik. Yəni, əgər korporativ hüquq tədrisi doğrudan da zəif olsaydı, yeni məzunları işə götürən şirkətlər çoxdan narazılıq edərdi, halbuki belə bir narazılıq demək olar ki, yoxdur. Təəssüf ki, bu sükut o demək deyil ki, universitetlər çox yaxşıdır; sadəcə işəgötürənlər bəzən tələbələrin universitetdə nə öyrəndiklərinə elə də fikir vermirlər. Onlar üçün əsas iki şey önəmlidir: tələbə hansı universiteti bitirib və orada hansı qiymətləri alıb [11, s. 367, 458-459]. Çox vaxt tələbənin biznes və ya korporativ hüquq dərsləri keçib-keçmədiyi, yaxud o dərslərin məzmunu onları maraqlandırmır.

Bu vəziyyət isə hüquq fakültələri üçün rahatlıq yaradır: sanki proqramı istədikləri kimi dəyişsələr də, bu, məzunların karyerasına ciddi təsir etmir. Amma eyni zamanda, müəllimlər və təhsil müəssisələri öz işlərinin cəmiyyət üçün vacib olduğunu hiss etmək istəyirlər.

Gilson hesab edirdi ki, korporativ hüquq sahəsində təhsil əsasən maliyyə və əməliyyat xərcləri iqtisadiyyatı kimi nəzəri istiqamətlərə yönəlməlidir [2, s. 319]. Onun fikrincə, müqavilə tərtibatı, danışıqlar aparmaq və standart müqavilə formaları ilə işləmək kimi praktiki bacarıqlar ikinci dərəcəli əhəmiyyət daşıyır. Romano isə hesab edirdi ki, hüquq təhsili verən universitetlərdə 2005-ci ildən etibarən aparılan dəyişiklikləri "tamamilə yetərsiz"dir [9, s. 352] və o, tələbələrin həm hüquq, həm də biznes (MBA) ixtisaslarını dörd il əvəzinə üç il ərzində birgə şəkildə tamamlaya biləcəkləri birgə proqramların yaradılmasını təklif etmişdir.

Hər iki baxış müəyyən qədər əsaslı olsa da, onlar problemin kökünə toxunmur. Çünki məsələ yalnız sonuncu kursların proqramları ilə məhdudlaşmır; problemlər hüquq təhsilinin ilkin mərhələsindən başlayır. Birinci kursda tədris olunan əsas fənlər hüquq nəzəriyyəsi, mülki proses, cinayət hüququ, cinayət prosesi və s. əsasən məhkəmə yönümlü xarakter daşıyır. Halbuki, real praktikada hüquqşünasların əksəriyyəti məhkəmə çəkişmələri ilə deyil, korporativ əməliyyatlar, müqavilə danışıqları və sənəd hazırlığı ilə məşğul olur, [10, s. 55-56] ona görə də hüquq fakültəsində üçüncü kursdan etibarən bölünmə aparılmalı və tələbələrin maraqlarına uyğun fənlər tədris edilməlidir. Başqa sözlə, prokuror olmaq istəyən hüquq tələbəsi ilə korporativ hüquqşünas olmaq istəyənin dərs proqramı eyni olmamalıdır. İkinci kateqoriyada isə hüquq təhsili daha çox əməliyyat və planlaşdırma bacarıqlarının inkişafına yönəlməlidir. MBA dərəcəsi faydalı ola bilər, lakin zəruri şərt deyil; çünki uğurlu korporativ hüquqşünasların çoxu MBA diplomuna malik deyil. Bundan əlavə, hüquq və MBA proqramlarının üç ilə salınması həm hüquq təhsilinin elmi və praktik dərinliyini azaldır, həm də hüquq təhsili verən universitetlər üçün maliyyə çətinlikləri yaradır [2, s. 323]. O, vurğulayır ki, hüquq təhsili verən universitetlərin məqsədi yalnız nəzəri bilik ötürmək deyil, həm də tələbələrdə praktik düşünmə, problem həll etmə, yazı, analitik təhlil və peşə etikası [7, s. 241-249] bacarıqlarını formalaşdırmaq olmalıdır.

Korporativ hüquq təhsili məhkəmə yönümlü deyil, əməliyyat yönümlü olmalıdır. Çünki bir çox məhkəmə mübahisələrinin əsasında zəif planlaşdırma və hüquqi risklərin əvvəlcədən qiymətləndirilməməsi dayanır [4, s. 32-35]. Yaxşı planlaşdırılmış korporativ əməliyyat isə sonradan məhkəməyə müraciət zərurətini minimuma endirir. Bu problem tələblərin bakalavr təhsilində daha qabarıq özünü biruzə verir, magistratura təhsili bu baxımdan daha ixtisaslaşmışdır. Lakin nəzərə alınmalıdır ki, əsas baza hüquq təhsili elə bakalavrdır və həmin dərəcəni alan tələbə korporativ hüquqşünas da ola bilər, prokuror da.

Nəticə etibarilə, hüquq təhsili verən universitetlər praktiki bacarıqların tədrisi, inteqrə olunmuş proqramların qurulması və müəllim heyətinin bu istiqamətdə gücləndirilməsi üzərində daha çox işləməlidirlər. Həmçinin, hüquq fakültələrində üçüncü kursdan etibarən ixtisaslaşmanın tətbiq edilməsi və tələbələrin peşə maraqlarına uyğun bilik və bacarıqların öyrədilməsi də bu problemin həllinə yönəlmiş vacib addım ola bilər. Hüquq təhsili təkcə nəzəri bilik ötürmək deyil, həm də biznes düşüncəsi, məsuliyyətli qərarvermə və etik davranış mədəniyyətini formalaşdırmaq funksiyasını daşımalıdır.

DOI: 10.61638/PQNC4999

## *VIII. Nəticə*

Məqalənin təhlil göstərir ki, *"korporativ hüquqşünaslar nə edir?"* sualının cavabı tək bir model çərçivəsində məhdudlaşdırıla bilməz. Müxtəlif nəzəriyyələr korporativ hüquqşünasın dəyərini fərqli baxış bucaqlarından izah edir. Gilsonun "müqavilə xərclərinin mühəndisi" modeli hüquqşünası bazar natamamlıqlarını hüquqi dizayn vasitəsilə aradan qaldıran iqtisadi mühəndis kimi təsvir edir; Utsetin "etibarlı məlumat istehsalçısı" modeli onun kapital bazarlarında etimad yaradan informasiya istehsalçısı olduğunu göstərir; Schwarczın "hüquqi uyğunluğun təminatçısı" modeli hüquqşünasın əməliyyatlara legitimlik və hüquqi etibarlılıq qazandıran funksiyasını ön plana çıxarır; Dentin "müəssisə memarı" modeli isə hüquqşünasın uzunmüddətli sabitlik və institusional etimad yaradan dizayner kimi rolunu açıqlayır.

Bu modellərin ortaq nöqtəsi ondan ibarətdir ki, korporativ hüquqşünasın fəaliyyəti sadəcə hüquqi sənədlərin hazırlanması ilə məhdudlaşmır. O, hüquqla iqtisadiyyat arasında əlaqə yaradır, bazar qeyri-müəyyənliklərini proqnozlaşdırır və onların qarşısını hüquqi mexanizmlərlə alır. Hüquqşünas həm hüquqi riskləri azaldan, həm də iqtisadi dəyər yaradan şəxsdir.

Qısaca ifadə etsək, korporativ hüquqşünas hüquq və iqtisadi sistemlərin kəsişməsində fəaliyyət göstərən dizaynerdir. O, bazarın qeyri-müəyyənliklərini öncədən görərək, hüquqi mexanizmlər qurur, etibarlı məlumat istehsal edir, tərəflər arasında sabit münasibətlər yaradır və əməliyyatlara hüquqi etibar qazandırır.

Beləliklə, müasir dövrdə korporativ hüquqşünasın rolu ikiqat xarakter daşıyır:

1. Mühafizəçi rolunda - hüquqi riskləri və normativ uyğunsuzluqları öncədən müəyyənləşdirib qarşısını almaq;
2. Dizayner rolunda - hüquq sisteminin imkanlarını iqtisadi məqsədlərlə uzlaşdırmaq və dayanıqlı biznes strukturları qurmaq.

Bu konseptual yanaşma göstərir ki, korporativ hüquqşünas müasir biznes ekosistemində həm hüquqi, həm iqtisadi, həm də institusional sabitliyin təmin olunmasında əsas sütunlardan biridir. Onun fəaliyyəti təkcə hüquqi təhlükəsizliyi deyil, həm də bazarın rasional və şəffaf fəaliyyətini təmin edən strateji mexanizmləri formalaşdırır. Eyni zamanda, bu modellərin təhlili hüquq təhsilinə də praktik nəticələr təqdim edir: gələcək korporativ hüquqşünasların yetişdirilməsində nəzəri biliklərlə yanaşı, əməliyyat yönümlü və problem həll etməyə əsaslanan tədris metodlarının tətbiqinin zəruriliyi vurğulanır.

## ƏDƏBİYYAT (REFERENCES):

12. Coase, R. H., *The Problem of Social Cost,* Journal of Law and Economics, Vol. 3, 1960, pp. 1–44.
13. Dent, G. W. Jr., *Business Lawyers as Enterprise Architects,* Business Lawyer, Vol. 64, No. 1, 2009, pp. 279–319.
14. Doyle, A. C., *The Complete Sherlock Holmes,* Garden City, N.Y.: Doubleday & Company, Inc., 1930.

15. Freund, J. C., *Teaching Problem Solving: New Business Lawyers Need to Know How to Find the Deal*, Business Law Today, Vol. 8, No. 6, 1999, pp. 32–35.
16. Gilson, R. J., *Value Creation by Business Lawyers: Legal Skills and Asset Pricing*, Yale Law Journal, Vol. 94, No. 2, 1984, pp. 239–313.
17. Howarth, D., *Law as Engineering: Thinking About What Lawyers Do*, Cheltenham: Edward Elgar Publishing, 2013, p. 34.
18. Moskovitz, M., *Beyond the Case Method: It's Time to Teach with Problems*, Journal of Legal Education, Vol. 42, No. 2, 1992, pp. 241–249.
19. Powell, M. J., *Professional Innovation: Corporate Lawyers and Private Lawmaking*, Law & Society Inquiry, Vol. 18, No. 3, 1993, pp. 423–450.
20. Romano, R., *After the Revolution in Corporate Law*, Journal of Legal Education, Vol. 55, No. 3, 2005, pp. 342–359.
21. Rubin, E., *Why Law Schools Do Not Teach Contracts and What Socioeconomics Can Do About It*, San Diego Law Review, Vol. 41, No. 1, 2004, pp. 55–76.
22. Sander, R. H., *A Systemic Analysis of Affirmative Action in American Law Schools*, Stanford Law Review, Vol. 57, No. 2, 2004, pp. 367–459.
23. Schwarcz, S. L., *Explaining the Value of Transactional Lawyering*, Stanford Journal of Law, Business & Finance, Vol. 12, No. 2, 2007, pp. 486–511.
24. Susskind, R., *Tomorrow's Lawyers* (3rd ed.), Oxford: Oxford University Press, 2023, pp. 107–108.
25. Utset, M. A., *Producing Information: Initial Public Offerings, Production Costs and the Producing Lawyer*, Oregon Law Review, Vol. 74, No. 2, 1995, pp. 275–337.

## What do corporate lawyers do: their role in structuring business transactions

GULZADA MIRZAMAMMADOVA*

### Abstract

*This article analyses the role of corporate lawyers (sometimes refereed as transactional lawyers) in the structuring of business transactions through the lens of leading theoretical approaches. It begins by examining Ronald J. Gilson's model of the transactional lawyer as a "transaction-cost engineer," explaining the lawyer's value as a specialist who mitigates market imperfections through legal*

* Master's candidate in Corporate Law at the University of Cambridge / Head of Legal Compliance and Corporate Law Division at the Legal Department of "AzerGold" CJSC / Adjunct Lecturer at the Department of Public International Law, Baku State University / Member of the Bar Association of the Republic of Azerbaijan / email: g.mirzamammadova@gmail.com

*design and thereby enhances the economic efficiency of deals. The discussion then briefly presents three subsequent theoretical models that build upon Gilson's ideas: Manuel Utset's "credible information producer," Steven Schwarcz's "compliance facilitator," and George Dent's "enterprise architect." Each of these models highlights a distinct dimension of the corporate lawyer's value: Utset focuses on the reliability of information and the fostering of investor trust; Schwarcz emphasizes the reduction of legal risk and regulatory non-compliance; and Dent draws attention to the creation of institutional stability and long-term cooperative environments. The article argues that a transactional lawyer is not merely a drafter of legal documentation but a designer who builds a bridge between law and economics. Through legal instruments, the lawyer reduces market uncertainty, produces information, instills legal credibility into transactions, and shapes stable inter-firm relationships. The article demonstrates that, in modern practice, the role of the transactional lawyer is dual in nature: on the one hand, acting as a guardian who anticipates and prevents legal risks; on the other, functioning as an innovator and designer who aligns legal possibilities with economic objectives. On the basis of these findings, the article provides an academic explanation of the mechanisms through which the institution of transactional lawyering creates economic value and lays a theoretical foundation for future research in this field. At the same time, drawing on the implications for legal education, it argues that effective application of these theoretical models requires law school curricula to be strengthened with practice-oriented and skills-based approaches.*

**Keywords:** *corporate lawyer, transaction costs, legal compliance, institutional stability, information production, economic efficiency, legal design, Gilson model, legal education, practical skills development.*

## Чем занимаются корпоративные юристы: их роль в структурировании коммерческих сделок

ГУЛЗАДА МИРЗАМАММАДОВА*

### Резюме

*Данная статья анализирует роль транзакционных юристов, включая корпоративных юристов, в структурировании коммерческих сделок через призму ведущих теоретических подходов. Она начинается с рассмотрения модели Рональда Дж. Гилсона, представляющей транзакционного юриста как «инженера транзакционных издержек», и объясняет ценность юриста*

* Магистрант Кембриджского университета по корпоративному праву / начальник сектора юридического департамента ЗАО «AzerGold» / почасовой преподаватель кафедры международного общего права Бакинского государственного университета / член Коллегии адвокатов Азербайджанской Республики / email: g.mirzamammadova@gmail.com

*как специалиста, который посредством юридического дизайна смягчает рыночные несовершенства и тем самым повышает экономическую эффективность сделок. В дальнейшем кратко представлены три последующие теоретические модели, развивающие идеи Гилсона: «производитель достоверной информации» Мануэля Утсета, «фасилитатор комплаенса» Стивена Шварца и «архитектор предприятия» Джорджа Дента. Каждая из этих моделей подчеркивает отдельное измерение ценности транзакционного юриста: Утсет фокусируется на надежности информации и укреплении доверия инвесторов; Шварц — на снижении юридических рисков и вероятности нарушения нормативных требований; Дент — на создании институциональной стабильности и долгосрочной кооперационной среды. В статье утверждается, что транзакционный юрист — это не просто составитель юридической документации, а дизайнер, выстраивающий мост между правом и экономикой. Посредством юридических инструментов юрист снижает рыночную неопределенность, производит и структурирует информацию, придает сделкам юридическую достоверность и формирует устойчивые межфирменные отношения. Подход статьи демонстрирует, что в современной практике роль транзакционного юриста носит двойственный характер: с одной стороны, он выступает в качестве хранителя, предвидящего и предотвращающего юридические риски; с другой — как новатор и дизайнер, согласующий юридические возможности с экономическими целями. На основе этих выводов статья предлагает академическое объяснение механизмов, посредством которых институт транзакционного юридического сопровождения создает экономическую ценность, и формирует теоретическую основу для дальнейших исследований в этой области. Одновременно, опираясь на выводы для юридического образования, автор утверждает, что эффективное применение данных теоретических моделей требует укрепления учебных программ юридических факультетов практико-ориентированными и навыковыми подходами.*

**Ключевые слова:** *корпоративный юрист, транзакционные издержки, юридический комплаенс, институциональная стабильность, производство информации, экономическая эффективность, правовой дизайн, модель Гилсона, юридическое образование, развитие практических навыков.*

**Redaksiyaya daxil olma tarixi: 30.05.2025**
**Çapa qəbul: 25.12.2025**